Məhəmməd Əmin Rəsulzadə

Milli Birlik

Bakı – 2009

Tərtibçi və elmi redaktor: Yadigar Türkel

Ərəb dili məsləhətçisi: Əmir Teymuroğlu filologiya elmləri namizədi

Məhəmməd Əmin Rəsulzadə
Milli Birlik. Bakı. "Çıraq" nəşriyyatı, 2009. 176 səh.

A 4800000000 2009.
067

© "Çıraq" nəşriyyatı, 2009.

Azərbaycan Cümhuriyyətinin
(1918-1920) 91-ci ildönümünə ərmağandır

EY GƏNCLİK!

Sənin öhdəndə böyük bir vəzifə var. Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı, onu min müşkülatla ucaldaraq dedi ki:

- Bir kərə yüksələn bayraq bir daha enməz!

Əlbəttə ki, sən onun bu ümidini qırmayacaqsan, bu gün parlament binası üzərində Azərbaycan türklərinin yanıq ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək və bu yolda

- Ya qazi və ya şəhid olacaqsan!

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

AZƏRBAYCANIN SƏSİ

(Tərtibçi və elmi redaktordan açıqlama)

Məhəmməd Əmin Rəsulzadə Azərbaycan türklərinin XX yüzillikdə yetirdiyi ən böyük dövlət qurucusu və milli ideoloqudur.

O, 1918-ci il mayın 28-də Azərbaycan Cümhuriyyətini elan edən Azərbaycan Milli Şurasının sədri, Milli Azadlıq Hərəkatının öncülü idi.

Məhəmməd Əmin Rəsulzadə arxadaşları ilə yüz il çar Rusiyasının əsarətində qalıb var-yoxu talanmış «Tarixi-coğrafi Azərbaycan»ın quzeyində Azərbaycan Cümhuriyyətini quraraq milli kimliyi dolaşdırılmış Azərbaycan türklərini XX yüzillikdə ilk dəfə siyasi millət halına gətirmişdir.

Məhəmməd Əmin Rəsulzadə deyirdi: «Azərbaycan Milli Şurası «İstiqlal Bəyannaməsi»ni elan etməklə sözün siyasi mənası ilə bir Azərbaycan millətinin varlığını təsbit etmişdir».

Məhəmməd Əmin gənc yaşlarından tükənməz bir sevgi ilə «Azərbaycan davası»na qalxmış və son nəfəsinədək andına bağlı qalmışdır. O deyirdi: «Rusiya idarəsindəki müsəlmanlara türk dedirtmək qazanılmış bir davadır. Yalnız türk kəlməsi yox, Azərbaycan adı da qazanılmışdır».

Azərbaycan Cümhuriyyətində «türkçülük, vətənçilik, milli dövlətçilik, inqilabçılıq, xalqçılıq, cümhuriyyətçilik» siyasi millətçilik - azərbaycançılıq səviyyəsinə qaldırılmışdı.

Məhəmməd Əmin Rəsulzadə 1918-ci il dekabrın 10-da Azərbaycan Cümhuriyyəti Parlamentinin 2-ci iclasında demişdir: «Bizim yaxın məqsədlərimizdən biri olan Azərbaycan muxtariyyətini tələb edərkən həm sağdan, həm də soldan hücumlara düçar olurduq. Sağdakılar bir nöqtədən, soldakılar da başqa bir nöqtədən Azərbaycan muxtariyyətini inkar edirdilər. Sağdan deyirdilər ki, Azərbaycan, Azərbaycan deyə-deyə müsəlmanları parçalayır, türklük bayrağı qalxızarkən - nəuzu billah (allah eləməsin) - islama xətər vurursunuz. Soldan da iddia edirdilər ki, Azərbaycan davası bizi inqilabçı, hürriyyətpərvər Rusiya demokratiyasından ayırır, xan, bəy hökuməti düzəltməyə səbəb olur... daim Azərbaycan məfkurəsinin (rusca mətnində: azerbaydcanizm - azərbaycançılıq) müdafiəçisi olan firqəmiz üçün bu gün o böyük məqsəd hasil olmuşdur. Çünki artıq gərək sağlar, gərəksə sollar Azərbaycanı inkar deyil, var qənaətlərilə isbat edirlər. Çünki artıq Azərbaycan fikri üzərində müsəlman firqələri arasında ixtilafı-nəzər yoxdur. Çünki artıq cəmiyyətimizin zehnində Azərbaycan istiqlalının fikri yer tutmuş, yerləşmişdir. Çünki üçrəngli o məğrur bayraq artıq siyasətən hamımızı birləşdirmişdir» (Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c, B., 1998, s.50).

Azərbaycanın millətçi, dövlətçi, azərbaycançı aydınları Azərbaycan Cümhuriyyətinin 23 aylıq qısa dönəmində millət üçün on illərlə də edilməsi çətin olan böyük siyasi-ideoloji, iqtisadi, milli-mənəvi işlər görmüşlər.

İnsanlığın, daha çox da türk millətinin başına bəla olmuş rus-mason bolşevizmi Azərbaycan Cümhuriyyətini dağıdandan sonra yurdundan getməyə məcbur olan Məhəmməd Əmin Rəsulzadə Türkiyə və Avropada açdığı qəzet və jurnallarda yazdığı siyasi məqalələri, çap etdirdiyi dəyərli kitabları ilə «Azərbaycan davası»nı davam etdirmiş, millətinə düzgün ideoloji yol göstərməyə çalışmışdır. «Mühacirət həyatının çəkilməz şərtləri içərisində» etdiyi bu davanın genişliyi heyrətləndirici olub bugünkü millətçi, dövlətçi, azərbaycançı gənclərə örnəkdir.

Məhəmməd Əmin Rəsulzadənin oxucuları görüşdürdüyümüz «Milli birlik» kitabındakı Azərbaycan bağı ilə bağlanmış «Millət olmaq əzmi», «Millətçilik-patriotizm», «Milli birlik», «Milli əxlaq», «Əski və yeni nəsil», «Yanlış termin qullanmayaq», «Qısılmayan bir səs», «Demokratiya və Sovetlər», «Ortaqlı bir gün», «Qorxudan siyasət», «Rusiya kölәliyində», «Azərbaycanda rus müstəmləkəçilik siyasəti» və başqa məqalə və araşdırmaları onun Azərbaycan istiqlalçılığı fikrini, milli dövlətin bərpası uğrunda «Azərbaycan davası»nı bir an belə kəsmədiyini göstərir.

M.Ə.Rəsulzadə bolşevizm dövründə Azərbaycanda yeridilən ideyaların türk millətinin, azərbaycanlıların həyatına, milli ruhuna yad olduğunu göstərmək üçün «Milli təsanüd» adlı ideologiya yaratmışdır. O, ərəb sözü «təsanüd»ü Avropa deyimincə «solidarizm» kimi vermişdir. İndi daha çox həmrəylik sözü işlənir. Sözün «birlik» anlamı isə çağdaş milli-mənəvi, siyasi düşüncəyə və dilimizə daha uyğundur. Kitabda Məhəmməd Əmin bəyin «Milli birlik» adlı məqaləsi də vardır. Biz də Azərbaycanın çağdaş gənclərinin millətçi, dövlətçi, azərbaycançı düşüncəsini və yurdumuzdakı ideya-siyasi, milli-mənəvi, sosial-psixoloji durumu gözə alaraq, kitabın adını «Milli birlik» qoyduq.

«Milli təsanüd» ideologiyasının əsasları bolşeviklərin Azərbaycanda qırğınlar, sürgünlər, repressiyalarkı «kommunizm» qurduqları illərdə yaradılmışdır. Milli ideoloq kimi borcunu bilən Məhəmməd Əmin bəy Avropada yayılan liberalizm, kommunizm və başqa nəzəriyyələri araşdıraraq, Azərbaycanda yağıların yeritdiyi, milli ruha yad ideyaların yox, ancaq «Milli təsanüd» ideologiyasının yayılmasını düzgün saymışdır: «Madam ki, milliyyətçiyik, deyirik; madam ki, milli dövlət istiqlalını müdafiə edirik, o halda bizim üçün nə kosmopolit liberalizmə və nə də kommunizmə təhəmmül (yönəlmə) caiz (düzgün, uyğun) ola bilməz. Bizcə, müdafiə ediləcək yeganə sosial sistem milli təsanüd sistemidir».

«Nə fərdi hürriyyətlə şəxsi mülkiyyətin mütləqiyyətindən doğan kapitalist anarxiyası ilə sərmayə istibdadı, nə də insanları mənliyindən çıxararaq bir kölə və maşın halına gətirən kommunizm əsarəti! Nə mütləq liberalizm, nə də mütləq kollektivizm! O halda:

İkisini təlif (uzlaşdıran) edən solidarizm = təsanüd.

Təsanüdçülükdə əsri mədəniyyətin əsasını təşkil edən hürriyyət, şəxsi təşəbbüs və mülkiyyət əsasları bakidir. Fəqət, eyni zamanda dövlət, mütləq liberalizmdə olduğu kimi, fərdlər, siniflər və zümrələr arasındakı münasibət və mücadilələrə laqeyd, sırf zabitə (polis) vəzifəsilə mükəlləf (borclu) bir müəssisə deyildir. Bu sistemdə hürriyyət də, mülkiyyət də mütləq deyil məşrutdurlar (şərti). Şərt isə ümuminin mənfəəti və dövlətlə millətin salamatlığıdır. Şəxsin olsun, zümrə və ya sinfin olsun hürriyyəti, topluluğun yüksək mənfəətləri və hürriyyətini pozmamaq şərtlərilə çərçivələnmişdir. Liberalizm, bu hüdudu bir şəxsin hürriyətilə digər şəxsin hürriyyəti arasında etibar edirdi, bunun üçün də dövlətin vəzifəsini sadə, bir zabitə və məhkəmə dərəcəsinə endirmək istəyirdi. Solidarizmdə isə, dövlət millətin təmsilçisi və cəmiyyətdəki münasibətlərin nizamlayıcısıdır.

Bu surətlə solidarizm, hürriyyət və mülkiyyət müəssisələrində qoyulmuş təbii təşəbbüs və irəliləmə həmlələrini zədələmədən, kapitalizmin liberal sistemdə ümumi mənfəət zərərinə işləyən ifratlarının önünə keçmək vəzifəsini dövlətə verir».

Azərbaycanı rus-erməni-mason bolşeviklərinin əlindən qurtarmağa, qorumağa çalışan, amma əli qələmdən, yüksək ideoloji düşüncədən, siyasi konfranslar keçirmək, yanıb-yaxılmaqdan başqa bir şeyə yetməyən Məhəmməd Əmin bəyin səsi qulaqlarıma gəlir: dili, mədəniyyəti, dini, əxlaqı, ruhi-mənəvi aləmi - milləti bir olan Azərbaycanda kommunizm ideologiyasına yer ola bilməz! Burada ancaq milli birlik, milli həmrəylik ideologiyası keçərli, yaşarlı ola bilər!

Milli birlik düşüncəsi çağdaş Azərbaycan Respublikasında da azərbaycançılıq ideologiyasının türkçülük, islamçılıq, çağdaşlıq ideyalarını kökləşdirən bağdır.

Məhəmməd Əmin Rəsulzadə Azərbaycanda kommunizm yayan yağılara deyirdi: «Hökumət demək, Leninin təbirincə, həddi zatında (özlüyündə) bir sinfin digər sinifləri əzmək və özünə tabe etmək üçün qurmuş olduğu cəbr maşınından başqa bir şey deyildir. Bunun üçün də Marksa görə, fəhlənin nə vətəni var, nə də milləti. Vətən və millət hissindən məhrum olan bu yeni insanlar zümrəsi - proletariat - «burjua diktatorluqlarını» devirərək, öz hakimiyyətini quracaq və tədriclə bütün sinifləri ortadan qaldıraraq sinifsiz və təzadsız bir cəmiyyət yaradacaq»sa, bu, insanlığın faciəsi olacaqdır!

M.Ə.Rəsulzadə 1952-ci ilin oktyabrında Ankarada yayımladığı «Azərbaycan» dərgisindəki «Milli birlik» məqaləsində yazırdı: «Millətçilik fikrinə inananların ilk vəzifəsi «Milli birlik»i mühafizə etməkdir. Bu, millətçilik fikrinin əsası və təməlidir. İnternasionalist və kosmopolit nəzəriyyələrlə ortaya atılan marksizm, kommunizm və anarxizm kimi doktrinlərin əsil qayəsi milli birlik və bütünlüyü sarsmaq, parçalamaq və pozmaqdır».

Azərbaycanın ictimai-siyasi fikrində millətçilik və milliyyətçilik anlamlarının fərqi çoxlarına tam aydın deyildir. Məhəmməd Əmin Rəsulzadə bolşeviklərin yurdumuzun ən dəyərli insanlarını «millətçi» damğası ilə öldürdüyü

illərdə türk dilindəki millətçi anlamının Avropadakı patriotizm termininin qarşılığı olub, patriotizmin tarix boyu, eləcə də XX yüzillikdə də bütün dünyada ən şərəfli bir ictimai-siyasi proses olduğunu deyərək, dünya ictimai fikrini bu məsələyə yönəltməyə çalışırdı.

Məhəmməd Əmin bəy yazırdı: «Bir millətçi, hər şeydən əvvəl istiqlal davasında olan bir vətənçi - bir patriotdur» və «avropalıların patriot terminilə ifadə etdikləri anlam, bizim millətçi sözü ilə anlatmaq istədiyimiz anlamın eynidir. Bu, avropalıların nasionalizm sözü ilə dedikləri milliyyətçilikdən tamamilə başqa bir şeydir».

Məhəmməd Əmin Rəsulzadə «Millətçilik - patriotizm» məqaləsində bu məsələni daha geniş açıqlamışdır: «Millətin, dövlət olmaq əzmində israr edən bir milliyyət olduğu bilgin sosioloqlar tərəfindən kəşf və tərif edilmişdir. Bunu biz, keçən sayımızda qeyd etdik. Bir millətçinin vətən anlayışı, coğrafi mənadakı vətəni müstəqil bir dövlət halına gətirmək istəməsidir. Bir millətçi, hər şeydən əvvəl istiqlal davasında olan bir vətənçi - bir patriotdur... Nasionalizm Qərbi Avropa demokratiyası anlayışınca, təcavüzçü və ümumi tərəqqi yoluna girmək istəməyən, dünyanın seyrindən (gedişindən) ayrılmış bir gerilik hərəkətidir. Halbuki patriotizm bir millətin öz müqəddəratına şəxsən özünün hakim olması və özünəməxsus milli bir dövlət qurması hərəkatıdır, bu isə bütün dünyanı bürüyən tərəqqi hərəkatının bir parçası, demokratik bir hərəkatdır.

Tarixi müəyyən şərtlərin təsirilə milliyyət halından millət halına gələn topluluqların müstəqil bir dövlət qurmaq və ya istilaya uğrayan vətənlərinin istiqlalını geri almaq uğrunda mücadilə edənlərə mütləq Avropa terminlərilə bir ad lazımsa, bunlara milliyyətçi [nasionalist] deyil, millətçi [patriot], hərəkatlarına da milliyyətçilik [nasionalizm] deyil, millətçilik [patriotizm] demək lazımdır!».

M. Ə. Rəsulzadənin əsaslarını yaratdığı «Milli təsanüd» ideologiyasında etatizm prinsipi güclüdür. O dönəmdə Şərqdə etatizmə dayanan ideologiya və idarəetmə düzgün bir siyasət idi. Mustafa Kamal Atatürk də Türkiyə Cümhuriyyətində etatizmi uğurla tətbiq etmişdir. Bu prinsiplər çağdaş Azərbaycan Respublikası üçün də önəmlidir.

Məhəmməd Əmin Rəsulzadənin «Milli birlik» kitabındakı məqalələrindən onun tarixin ideoloji savaşlar dönəmində beynəlxalq siyasəti dərindən anlayıb düzgün təhlillər etdiyi görünür. O, Azərbaycanın dünənini yaxşı bilir, bugününü aydın görürür, sabahının düzgün qurulmasına çalışır, rus-sovet bolşevizmilə də milli istiqlalı geri almaq üçün vuruşduğunu deyirdi: «Bizim Moskvaya qarşı davamız məlum olduğu üzrə, sadə, ideoloji bir dava deyildir. Hər şeydən əvvəl biz, Rusiya istilası ilə, rus imperializminin bu yeni şəklilə vuruşuruq. Kommunizmlə mücadilə bizim üçün əlimizdən çalınmış istiqlalımızı geri almaq yolunda edilən bir mücadilədir».

M. Ə. Rəsulzadə milli öncül kimi etdiyi ideoloji davanın özəlliklərini açıb ona milli yön verir: «Bizim öz hüdudları daxilində qalan rus millətinə qarşı

ədavətimiz yoxdur. Əksinə, ona bu xüsusda hər türlü yaxşı təmənnalardayıq. Fəqət, bununla bərabər, bizi istədiyimiz şəkildə həyatımızı qorumaqdan və mədəni həyatımıza istədiyimiz istiqaməti verməkdən mane ilə, öz gərdünəsinə (boyunbağısına) taxaraq, istismar və istila əməlində bulunan hər hankı rus imperializminə bütün varlığımızla düşmənik. Bunu biz, bu imperializmin keçmişinə və indiki halına olduğu kimi, gələcəyinə də təşmil (aid) etməkdən zərrə qədər çəkinmirik».

«Milli birlik» kitabının ikinci bölməsi «Azərbaycanda rus müstəmləkəçilik siyasəti» adlanır. Bu yüksək səviyyəli siyasi-ideoloji, elmi araşdırma Məhəmməd Əmin bəyin həm də görkəmli bir politoloq olduğunu göstərir. O, Rusiya imperiyasının rəsmi sənədlərilə rus müstəmləkəçiliyinin Azərbaycana, Qafqaza, eləcə də bütün dünyaya indi də Sovet İttifaqı və kommunizm adı ilə bəlalar gətirdiyini göstərir: «Kommunizm təhlükəsi deyilən şey, dünya üçün hər zaman təhlükə təşkil etmiş olan qaba və təcavüzçü rus imperializminin yeni həmləsindən başqa bir şey deyildir. Bu təhlükə yalnız bolşevik istibdadı və qızıl rus süngüsünə dayanan Sovet hakimiyyətinin çökdüyü və oradakı millətlərin uğrunda vuruşduqları istiqlallarına erişdikləri gün ortadan qalxar!». Məhəmməd Əmin bəy, çağın ideoloji düşüncəsini qabaqlayaraq uzaqgörənliklə deyirdi: «Əminik: bolşevizm düşüncə - siz bunu istəsəniz də, istəməsəniz də hamısı birdir - Rusiya parçalanacaq və dünyanın bu geniş qitəsindəki əsir millətlər bu dəfə artıq əbədiyyən qurtulacaq, öz müqəddəratlarına sahib, hürr və müstəqil olacaqdır».

M.Ə.Rəsulzadə «Azərbaycanda rus müstəmləkəçilik siyasəti» araşdırmasında yazır: «Rus dövlətinin müfəttişlərinin 1830-cu ildə Tiflisdən ədliyyə naziri D.B. Daşkova göndərdikləri raportda bu sözləri oxuyuruq: «Bu zamana qədər topladığımız məlumat şəxsən Gürcüstan dairəsindəki sui-istifadələrlə rəzalətin hər türlü həddi və hüdudu keçdiyini isbat etməkdədir. Müsəlman vilayətlərindəki idarəyə gəlincə, burada idarə edənlərin zülmü ilə idarə olunanların məzlumluğu təsəvvürü qəbul olmayan fəci bir mənzərə ərz etməkdədir. Burada hər türlü insanlıq çeynənmiş, ədalət tamamilə unudulmuş, qanun cinayətin silahı, qərəzlə kef də məmurların yeganə hərəkət amili olmuşdur».

«Azərbaycanda rus idarəsini təftiş edən İvanenko» xanlarla və onların yerlərini tutan komendantların idarələri arasındakı fərqi göstərərkən bu faktı gözə alaraq yazır: «Xanların dövründə qadınlara bədən cəzası yoxdur, rus komendantları erkəklərlə bərabər qadınları da qırmacladırdılar!... ».

Məhəmməd Əmin Rəsulzadə bu yağıların yurdumuzda törətdikləri vəhşilikləri yüksək milli-mənəvi dəyərlərimizlə tutuşduraraq işğalçıların siyasi geriliyini və ruhi-mənəvi əskikliyini göstərir: «Azərbaycandakı müsadirə edilmiş mülk və ərazidən hissə almış mülkədarlara «Rusiyadan adam satın alıb, buraya köçürmək haqqı verilir». Və bu yolda onlara bir qolaylıq olsun deyə «bu müamilənin (alverin) təhkimçilik vergisindən muaf (azad) tutulması» təmin olunur və "Rusiyada satın alınan adamların Cənubi Qafqazda başqasına satılması işində

hökumətin qolaylıq göstərəcəyi vəd elənir» və «Rusiyadan Cənubi Qafqaza gətirilən təhkimlilər üzərindəki mülkiyyət haqqı Rusiyada oduğu kimi burada da eynilə qorunur.

Qəribə deyilmidir ki, adamı mal kimi satmaqda, rəncbər köylünü qul kimi tələqqi (saymaqda) etməkdə mahzur (ayıb) görməyən bu «əsilzadələr» cəsarət edib də «cahil və vəhşi» dedikləri məmləkətimizə mədəniyyət gətirirmiş kimi füzuli (boşboğaz, ədəbsiz) bir tövr də alırlar?!...».

Məhəmməd Əmin Rəsulzadənin araşdırdığı rəsmi dövlət sənədlərinin çap olunduğu «Kolonialnaya politika rossiyskoqo tsarizma v Azerbaydcane v 20-60-x qq. XIX v.» (Moskva, Leninqrad, 1936) toplusunun redaktoru və ona geniş elmi-siyasi ön söz yazmış professor İ.P. Petruşevski isə kitabın 25-ci səhifəsində yüksək çar məmurlarının Azərbaycan, Azərbaycan türkləri və müsəlmanlar haqqında ağıllarına gələnləri yazmaları nəticəsində «...sonradan imperiya tarixçilərinin də qəbul etdiyi, guya Azərbaycan xanlıqlarında...xanların zorakılığından başqa heç bir qanun və idarəetmə qurumu olmamışdır rəsmi nəzəriyyəsi yarandı»ğını yazır.

Kitabdan kitaba köçürülən bu ideoloji yalanlar sovet dönəmində ehkamlaşdırılıb, I Pyotrun «Müsəlmanları tamam sakitcə, sezilmədən, özləri hiss etmədən, mümkün olduğu qədər yox etmək, azaltmaq lazımdır» vəsiyyətinə çatdırılmışdı.

Dünyanı sarsıdacaq kommunizm adlı mason siyasətinin baş ideoloqlarından Karl Marks, Rusiya imperiyasının Qafqazı tutmasını «1815-ci ildən sonrakı ən böyük Avropa hadisəsi» sayır, Fridrix Engels isə bu faciəni gözlərilə görən kimi əsaslandırmağa çalışırdı: «Rusiya Şərq barəsində həqiqətən tərəqqipərvər rol oynayır... Rusiyanın hökmranlığı Qara dəniz və Xəzər dənizi üçün və Mərkəzi Asiya üçün, başqırdlar və tatarlar üçün həqiqətən mütərəqqi rol oynayır...».

Bu «yenilikçiliyin» «Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nda necə qeyd olunduğuna baxaq: «1920-ci il aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən öz silahlı qüvvələrinin hissələrini Azərbaycana yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi və Azərbaycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoydu. Bunun ardınca Azərbaycan 1806-1828-ci illərdə olduğu kimi, yenidən Rusiya tərəfindən ilhaq edildi. SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilə bu ilhaqı təsbit etməli idi. Sonralar 70 il ərzində Azərbaycan Respublikasına qarşı əslində müstəmləkəçilik siyasəti yeridilir, Azərbaycanın təbii ehtiyatları amansızcasına istismar olunur, milli sərvətləri çapılıb talanır, Azərbaycan xalqı təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalırdı, onun milli ləyaqəti tapdalanırdı».

Rusiya imperiyasının bu rəsmi sənədlərinin öyrənilməsi ermənilər, ruslar 1880-ci illərdə Osmanlı imperatorluğu və Qacarlar dövlətindən, eləcə də dünyanın başqa yerlərindən (məsələn, çar I Nikolayın 1802-ci ildə verdiyi fərmanla Polşadan

Dəmirqapının (Dərbəndin) yan-yörəsinə köçürülmüşlər) Qafqaza gətirənə kimi, Azərbaycanla siyasi bağlılığının olmadığını bir daha təsdiqləyir.

Haylar, Qafqazın, Azərbaycanın ayrı-ayrı yerlərinə səpələnmiş milli azlıq kimi yaşayırdılar. Qarabağdakı, rus sinodunun əmrilə qriqorianlaşdırılmış, alban adlandırılan xristian türklərin erməni sayılması bir yana.

Sənədlərdən tarixi və milli gerçəkləri gözə alan rus siyasətçilərinin 1828-ci il martın 21-də, Azərbaycanın türk və müsəlman əhalisinin sayının 4-5 dəfə çox olduğu İrəvan və Naxçıvan xanlıqlarında «Erməni vilayəti» yaratmaqdan məqsədlərinin haylara dövlət qurmaq olmadığı aydın görünür. «Silahla aldıqları» Azərbaycan xanlığının torpaqlarında erməni vilayəti yaradanlar strateji siyasətlərini yeritmək üçün Osmanlı imperatorluğu və Qacarlar dövlətinin böyründə, içində sədaqətli qullar dolaşan bir «forpost» yaratmaq istəyirdilər. Ruslar 1828-ci il martın 21-də çar I Nikolayın «...Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra erməni vilayəti adlandıraraq hökm edir və öz titulumuza qatırıq» - hökmü ilə türklər, müsəlmanlar, gürcülər və bütün Qafqaz üçün siyasi faciələrin başlanğıcını qoydular. Amma vaxt gələcək, rusların ağıllı siyasətçiləri milli çıxarlarını gözə alıb, bu forpostdan əl çəkəcəklər. O vaxt başqa millətlərə tarixi xəyanət və satqınlıq yolunu tutmuş haylar səhv etdiklərini anlayacaqlar.

Başda türklər olmaqla bütün qafqazlılar əl-ələ verib çeşidli siyasi, iqtisadi, mədəni-mənəvi yollarla Qafqazda millətlərarası birgə yaşayışın, iqtisadi, mədəni-mənəvi, siyasi yüksəlişin qarşısını alan, bic doğulmuş bu yad «forpost»u dağıtmalıdırlar.

Sənədləri dərindən öyrənən oxucu milliyyətcə rus olmayan yüksək dövlət məmurlarının belə imperiyanı genişləndirmək üçün can-başla çalışmalarından, bizim isə bu gün, müstəqil dövlət dövründə də davam edən milli birlik duyğusuzluğumuzdan, milli dövlətçiliyin güclənməsinə ürəklə çalışmamağımızdan heyrətlənir.

Azərbaycanlılarda milli həmrəylik duyğusu vardır, amma yurdumuzda milli birlik yoxdur.

Toplumun həyatını daha yaxşı təşkil etmək, özünü qorumaq üçün dövlət qurmaq istəyi milli idealdır. Biz bu gün, Rusiya imperiyasının bir vaxtlar Azərbaycanı işğal etməyə çalışmış yüksək məmurlarının: «Cənubi Qafqaz müsəlmanlarında İstambul türklərinin özəlliyini təşkil edən böyük təəssübkeşlik çox da yoxmuş» sözlərindən və Məhəmməd Əmin Rəsulzadənin: «Azlığın çoxluq üzərindəki zülmünə, qolçomaqların əməkçiləri zorlamalarına, qüvvəlilərin zəifləri qullanmalarına, çalışdıranların çalışanları əzdiklərinə təhəmmül (dözən) edən cəmiyyətlərdə milli hakimiyyətin kökləşdiyinə qane olmaq qeyri mümkündür. İctimai bünyəsi (özülü) o və ya bu şəkildə həll edilməmiş sosial məsələlər üzündən, bir-birinə zidd mənfəətlər daşıyan düşmən zümrə və siniflərin amansız çəkişmələrilə didilən bir cəmiyyətin nə içəridə milli hakimiyyəti, nə də dışarıda

milli istiqlalı qətiyyən təmin edilə bilməz» vəsiyyətindən dərs almalı, Türkiyə Cümhuriyyəti türklərilə daha sıx birləşib bir milli ruha gəlməli, «bir millət, iki dövlət»i güclü iqtisadi, siyasi, mədəni-mənəvi birliyə çevirməliyik. Çünki «Milli istiqlal - bu bir zərfdir, məzruf (içindəki) isə - milli hakimiyyətdir. Onu təşkil edən təbəqələr arasında nisbi olsun, ictimai müvazinət və yenə nisbi olsun, iqtisadi rifah təmin edilməyən bir cəmiyyətdə isə milli hakimiyyət təsisi qeyri mümkündür».

Məhəmməd Əmin Rəsulzadə millətinə ilahi sevgilə bağlandığından, «Öz gözəllik və əzəmətinin fərqinə varan insan, allahın gözəllik və əzəmətinin fərqinə varır» atalar sözünü dəyişdirib, «Öz gözəllik və əzəmətinin fərqinə varan insan, öz millətinin də gözəllik və əzəmətinin fərqinə varır» şəklində işlətmişdir. Biz də Azərbaycana bu sevgi ilə bağlanmalıyıq.

Son nəfəsində də «Azərbaycan, Azərbaycan, Azərbaycan!» deyən Məhəmməd Əmin Rəsulzadənin gənclərdə millətçilik, dövlətçilik duyğuları oyadıb, onlarda siyasi mübarizə mədəniyyəti yaradacaq «Milli birlik» kitabını oxuculara çatdırmaqdan amacımız da Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin gənclərində milli birlik ruhunu gücləndirmək istəyidir. Məhəmməd Əmin Rəsulzadənin dediyi kimi, «Bütün türklər öz aralarında böyük dünya federasyonuna qədəm olmaq üzrə bir federasyor yaratmalıdırlar. Yeni Turan, mədəni birlik üzərində təsis edilib, ancaq gələcək birər türk hökumətlərinin federasyonu şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan silsiləsinin mühüm bir halqasıdır».

M.Ə.Rəsulzadənin fikrincə, «Bir millətin yeni nəsli əskisinə nəzərən daha az kültürlü və daha az təcrübəli olursa, o millətin varlığı və gələcəyi təhlükəyə məruz qala bilir. Əlbəttə, yeni nəsil əskilərin kötü ehtiraslarını heç bir surətlə təvarüs etməməli və bunları hakir (dəyərsiz) görmə fəzilətini öz ruhunda daim qüvvətləndirməlidir. Gəncliyin tək şüarı millətə fərağatla və təmiz bir qəlblə xidmət olmalıdır. Belə bir gəncliyi olan millət, halından və istiqbalından (gələcəyindən) tamamilə əmin ola bilir». «Azərbaycan istiqlal qayəsini mənimsəmiş, vətənin müstəqbəl (gələcək) istiqlalına iman etmiş və öz xüsusi həyat və səadətini millət və məmləkətin həyat və səadəti şərtilə təsəvvür edilə bilmək idealizminə ermiş bir gənc azərbaycanlı sadə mühəndis, sadə hüquqçu, sadə memar, sadə iqtisadçı, tarixçi və sairə olmaqla iqtifa (qala) edə bilməz. O eyni zamanda vətənçi bir mühəndis, milliyyətçi bir hüquqçu, istiqlalçı bir iqtisadçı, tarixçi və sairə olmaq vəzifəsilə mükəlləfdir», çünki «dövlətlər, millətlər və cəmiyyətlər ancaq «canlarını cananlarına fəda edə bilən» üzvlərə malik olduqları zaman uzunömürlü ola bilirlər»

Məhəmməd Əmin Rəsulzadə deyirdi: «Mədəniyyətin qayəsi siyasəti elmə tabe etdirməkdir. İdari sahədə qazanılmış qiymətləri elm ölçüsü ilə dartaraq, cəmiyyət nizamını ona görə qurmaq ictimai bir idealdır. Diplomatiyanı əski istibdad məktəbinin alışqan olduğu aldatmaq zehniyyətindən (düşüncəsindən) qurtarmaq demokratiyanın idealizə etdiyi üsuldur». «Demokratlığımız aşırı

dərəcəsinə qədər vardır» deyən milli ideoloq, bütün ömrü boyu bu yoldan dönmədi. «Can Azərbaycan»ın indiki gəncləri də Məhəmməd Əmin Rəsulzadə kimi millətçi, dövlətçi, azərbaycançı, türkçü və çağdaş olmalıdırlar. Bu ideyalar getdikcə Quzeydən Güneyədək hər yerdə güclənən azərbaycançılıq ideologiyasının tərkib hissələridir.

Azərbaycan Respublikasının XXI yüzilliyin indiki gəncləri, milli ideoloqun sözlərilə desək: «mədəniyyət öz qayəsindən, xalq idealından, demokratiya da öz üsulundan uzaqda, böyük və mücərrəd dəyərlər məhdud və müəyyən məqsədlərə qurban getdikcə, elm siyasətə tabe qaldıqca» demokratiyanın dərinləşə bilməyəcəyini anlamalı, canlarını «Can Azərbaycan»a qurban verməlidirlər, çünki «fərdlərdən insan topluluğu dürüst olmalarını, doğru söyləmələrini, hiylə və təzvirə (yalana) baş vurmamalarını, içlərilə dışlarının bir olmasını, başqalarının haqq və hürriyyətlərinə təcavüz etməmələrini, dost və müxaliflərinin fikirlərinə sayğı göstərmələrini, qiybət və iftiradan sakınmalarını, hırs (sonsuz arzu), kin və xudbinlik kimi kötü hisslərə əsir olmamalarını, tərbiyə və nəzakətdən ayrılmamalarını, vətən və millətlərinə bağlı qalmalarını, yurddaşlarına əzəmi (böyük) yardımda bulunmalarını, məmləkət qanun və nizamlarına son dərəcə riayətkar olmalarını, yurdun rifah və səadətinə durmadan çalışmalarını, ailə və əqrabalıq bağlarını qutsal saymalarını, övladlarını vətənə xeyirli olacaq şəkildə yetişdirmələrini, yurd və millətlə ilgili işlərdə böyük fəraqat (fədakarlıq) göstərmələrini tələb etməkdədir».

«Demokratik, hüquqi, dünyəvi» Azərbaycan Respublikasında da millətimizi əski istibdad məktəbinin alışqan olduğu aldatmaq düşüncəsindən qurtarmağa çalışmaq demokratik Azərbaycan gəncliyinin idealı olmalıdır.

Məhəmməd Əmin Rəsulzadə «Qısılmayan bir səs» məqaləsini «Bu qəzet müqəddəs bir cidalın (davanın) müdafiəsi üçün yüksələn bir səsi mədəni dünyaya göstərmək üzrə nəşr olunur. Milli Azərbaycan istiqlal davasının səsi! - Budur bizə həyəcan verən bir nida!...» çağırışı ilə başlayır.

Bu, Məhəmməd Əmin bəyin ömrünün sonuna kimi ucaltdığı - «Azərbaycan» səsi idi.

Ulu tanrı Məhəmməd Əmin Rəsulzadənin «Azərbaycan» səsini batırmadı. Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» ilə Azərbaycan Cümhuriyyətinin dövlət müstəqilliyini bərpa edib demokratiya və milli dirçəliş yolunu tutdu. İndi BMT-nin üzvü olan Azərbaycan Respublikası bütün çətinliklərə baxmayaraq, gün-gündən özünü dünya dövlətləri içində təsdiqləyir.

XX yüzilliyin birinci yarısında türk ədəbi dilində ərəb sözləri çox işlənirdi. Çağında elmi-siyasi düşüncəsinin genişliyi, gözəl danışığı - natiqliyi ilə tanınıb seçilən Məhəmməd Əmin Rəsulzadə də yaradıcılığında bu gün çətin anlaşılan ərəb sözlərini ayrılıqda və «müləmmə»lərlə işlətmişdir.

Biz, sayılan elmi yanaşmaları gözə alıb, Məhəmməd Əmin Rəsulzadənin 1978-ci ildə Ankarada çap olunmuş «Milli təsanüd» kitabındakı milli ruhu, yazı tərzini, elmi, ideoloji, siyasi düşüncəsini, dil zənginliyini, mətnlərdəki Azərbaycana, türkə, insanlığa sevgini bacardıqca saxlamaqla yanaşı, onu çağdaş oxucuya daha anlaşıqlı, oxunaqlı etməyə çalışdıq.

Məhəmməd Əmin bəy də türk ədəbi dilinə yeniliklər də gətirməyə çalışıb. Oxucular bunu görəcəklər. Məsələn, o daha çox xalçaçılıqda işlədilən, burada yatıq yazı ilə verdiyimiz çeşni sözünü çox uğurla işlətmişdir: «Yerli bəyləri idarədən uzaqlaşdırmaqla bərabər, torpaq mülkiyyətindən də ayırmaq qəsdini güdən bu dövrdəki çar müstəmləkəçiliyi, idarəçiliyə gətirdiyi rus məmurlarını eyni zamanda torpaq yiyəsi etmək surətilə - hələ Paskeviç zamanında ikən düşünülən - «əsil rus zadəganlığı»nın buralarda yerləşməsini yeni bir çeşni ilə tətbiq etmək istəmişdir».

Kitabdakı bəzi çətin anlaşılan sözlərdən sonra mötərizədə onların türk dilindəki anlamı, Azərbaycanda çox işlənən şəkli, ya da yönəldici bir söz verilmişdir. Məsələn, istiqbal (gələcək), bəyaz (ağ), siyah (qara), yıl (il), şu (bu) və b.

Ankara çapında yarımçıq qalmış cümlələr sənədlərdən tapılıb yerlərinə qoyulmuş (s.165), mətndəki bəzi fikirləri aydınlatmaq üçün açıqlamalar verilmiş, bir neçə sitatın səhifəsi və başqa texniki yanlışlar düzəldilmişdir - məsələn, kasırlar (əsrlər), Knaser (Qeysər, Qeser) və b.

[ ] mötərizədəki sözlər Məhəmməd Əmin Rəsulzadənin, ( ) mötərizədəkilər elmi redaktorundur.

Kitabdakı məqalələrin yazılma tarixləri, qara və yatıq yazılar Ankara çapındakı ilə eynidir.

Kiçik əməyimizi dəyərləndirənlərə, kitabın çapına can-başla çalışan bütün aydınlara sağ olsun - deyirik.

YADİGAR TÜRKEL
28 aprel 2009-cu il Bakı.

ÖN SÖZ

«Azərbaycan Kültür Dərnəyi» «Azərbaycan» dərgisinə paralel olaraq kitab yayımı yapmağı da qərarlaşdırmış və indiyə qədər yayımladığı kitablara əlavə olaraq türk milliyyətçiliyi fikrini bir sistem halına gətirən və bunu qurduğu ilk türk cümhuriyyəti - Azərbaycan dövlətinin təməl ünsürü edən Milli Azərbaycan Müsavat Xalq Partiyasının lideri, rəhmətlik Məhəmməd Əmin Rəsulzadənin əsərlərini yenidən basmağı planlamışdır.

İlk kitab, Rəsulzadənin çeşidli qəzet və dərgilərdə yayımlanan ideoloji məqalələrinin bir bölümünü qapsamaqdadır. Dərgi və qəzet səhifələri arasından çıxarılaraq yayımlanan bu əsər türk milliyyətçiliyinə könül verən hər kəsə yol

göstərəcək, işıq tutacaqdır. Bundan şübhəmiz yoxdur. Adını bir məqaləsindən alan «Milli birlik»i Rəsulzadənin digər əsərləri təqib edəcəkdir.

Əsrimizin yarısının siyasət səhnəsində olduğu qədər ədəbiyyat və sənət sahəsində də böyük bir yeri olan rəhmətlik Məhəmməd Əmin Rəsulzadənin bu əsərində, dili və üslubu eynilə qorunduğu kimi, məqalələrin bir sistem daxilində yeri və tarixləri göstərilmək surətilə kitabda yer alması saxlandı.

Rəsulzadə Məhəməməd Əmin bəy ömrünü Azərbaycanın və digər türk ellərinin istiqlal və hürriyyət davası uğrunda Bakı-Tehran-İstambul-Moskva-Varşava-Ankara altıbucağı arasında bizlərə, milliyyətçi Azərbaycan gəncliyinə aydın günləri açmaq üçün sevə-sevə xərclədi. Bunun üçün də «Milli birlik»i onun çox sevdiyi Azərbaycanın istiqlalçı və milliyyətçi türk gəncliyinə ithaf edirik.

Azərbaycan Kültür Dərnəyi Mərkəzi
Mərkəzi Yönətim Qurulu
6mart 1978

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

(31 yanvar 1884 - 6 mart 1955)

Rəsulzadə Məhəmməd Əmin bəy 31 yanvar 1884-cü ildə Bakıda ruhani ailəsində doğulub. Atası Hacı Molla Ələkbər Rəsulzadə, anası isə Zal qızı Zinyətdir.

İlk təhsilini və milli tərbiyəsini ailə mühiti içində alan Məhəmməd Əmin bəy, daha sonra Bakıda texniki məktəbə qeyd olunsa da, zamanının siyasi hərəkatlarına qatılmaq ehtiyacını duyduğundan məktəbi yarıda buraxaraq mətbuat həyatına atılmışdır. Və ilk yazısını 1903-cü ildə Tiflisdə çıxan «Şərqi Rus» qəzetində yayımlamışdır. Əli bəy Hüseynzadə tərəfindən nəşr edilən «Həyat» qəzetilə «Füyuzat» dərgisində, Əhməd bəy Ağa oğlu tərəfindən yayımlanan «İrşad» və «Tərəqqi» qəzet və dərgilərində çeşidli məqalələr yazaraq davasını davam etdirən Rəsulzadə, 1905-1908-ci illər arasında şəxsən Bakıda «Təkamül» və «Yoldaş» adlı qəzetləri yayımlayaraq çalışma həyatına ayrı bir yön və hız vermişdir.

1903-cü ildən etibarən Azərbaycanda çeşidli sosial və siyasi dərnəklərdə görəv alan Məhəmməd Əmin bəy, qurduğu gizli gənclik təşkilatı ilə çarizmə qarşı qoymuş, mücadiləsini daha təsirli bir hala soxmaq üçün İrana keçmişdir.

1908-ci ilin sonlarında İranda (Qacarlar dövləti) baş göstərən məşrutə hərəkatına qatılan və orada «İrane-noy» (Yeni İran) adlı gündəlik bir qəzet çıxaran Məhəmməd Əmin bəyin, İranda qaldığı üç il zərfində bir yandan yayımladığı qəzet, digər yandan çeşidli cəmiyyət və qurumlar kanalı ilə Rusiyaya açdığı geniş savaş o sırada İran hökumətinə təsirli olan rus səfirliyinin tələbi ilə durdurulmuş və onun 1911-ci ildə İran hüdudları dışına çıxarılmasına səbəb olmuşdur.

Bundan sonra, Məhəmməd Əmin bəy, İstambula gələrək «Türk ocaqları»nın çalışmalarına qatılmış və orada yayımlanmaqda olan «Türk yurdu» dərgisinə çeşidli yazılar yazmışdır.

1913-cü ildə Romanov xanədanının 300-cü ildönümü münasibətilə elan olunan əfvdən istifadə edərək Bakıya dönən Məhəmməd Əmin bəy, təkrar mətbuat həyatına qatılmış, çeşidli kültür, siyasət və egitim müəssisələrində fəal görəv almış, 1915-1917-ci illər arasında «Açıq söz» adlı gündəlik bir qəzet çıxarmışdır. Bu qəzet, Azərbaycanın milli, demokratik, istiqlalçı yayım orqanı olmuşdur.

1917-ci ildə Milli Azərbaycan «Müsavat Xalq Partiyası»nın ilk genəl konqresində ittifaqla (birliklə) partiyanın başçısı seçilmişdir.

33 yaşında partiya başçısı olan Məhəmməd Əmin Rəsulzadə, eyni ildə, Bakıda toplanan Qafqaz İslam Konqresində Qafqazın siyasi və coğrafi baxımdan Rusiyadan ayrılmasını, Azərbaycanın özü özünü idarə etməsi tezisini savunmuş, yenə eyni ildə Rusiya müsəlmanlarının Moskvada toplanan konqresində Azərbaycanın milli bütünlüyü tezisini başarı ilə savunmuş və yenə Güney Qafqaz seymində Müsəlman Fraksiyasının başçısı sifətilə Qafqazın Rusiyadan ayrılmasını və Azərbaycan Cümhuriyyətinin təşkilini istəmişdir.

28 may 1918-ci ildə Azərbaycan Milli Şurasının başçısı sifətilə Azərbaycan istiqlalını elan edən Məhəmməd Əmin Rəsulzadə, daha sonra Azərbaycan Parlamentində hökumət koalisiyasını təşkil edən partiyalar blokuna da başçılıq etmişdir.

1919-cu ildə Müsavat Partiyasının ikinci böyük konqresində təkrar ittifaqla partiyanın başçısı seçilən Məhəmməd Əmin bəy, mühərrirliyi və hatibliyi ilə Azərbaycanda ünlü bir yer tutmuşdur.

Azərbaycanın 27 aprel 1920-ci il tarixində bolşevik ruslar tərəfindən istilasından sonra, təqib edilib yaxalanaraq Bakıda Çeka həbsxanasına atılmış və şəxsən Stalinin müdaxiləsilə Moskvaya götürülərək nəzarətə alınmışdır.

1922-ci ildə, Finlandiyaya qaçmağı başaran Məhəmməd Əmin Rəsulzadə oradan eyni ildə İstambula gəlmiş, sovet zülmünü dilə gətirən, qızıl imperalizmin metodlarını və istibdad rejimini anladan «Azərbaycan Cümhuriyyəti Keyfiyyəti, təşəkkülü və indiki vəziyyəti» adlı kitabını yayımlamışdır.

1923-cü ildən yalnız azərbaycanlıların deyil, bütün əsir türklərin nəşr orqanı olaraq yayımladığı «Yeni Qafqaz»dan (1923-1928) sonra «Azəri türk» (1928-1929), «Odlu yurd» (1929-1931) dərgilərini də çap etdirmişdir.

Diplomatik bəzi səbəblər sonunda, 1931-ci ildə arxadaşları ilə bərabər İstambulu tərkə məcbur olan Məhəmməd Əmin bəy fəaliyyətlərini Avropada davam etdirmiş, 1932-ci ildən etibarən Varşavaya yerləşmişdir.

Avropada «PROMETE»yə (Rusiya Məhkumu Millətlərin Müştərək Cəbhəsi) mənsub Qafqaz qövmlərinin təmsilçilərilə 1934-cü ildə Qafqaz Konfederasiyası anlaşmasını imzalamış, Parisdə fransızca yayımlanmaqda olan «Promete» (1929-1939) dərgisində Milli Azərbaycan Davasını savunmuş, şəxsən

nəşr etdiyi «İstiqlal» (1932-1934) və «Qurtuluş» (1934-1939) dərgiləri ilə də milli hərəkatın daha çox yayılmasını saxlamışdır.

Polşanın istilası üzərinə, yayımlarına son verərək 1939-cu ildə Rumıniyanın baş kəndi Buxarestə keçən Məhəmməd Əmin bəy, 1942-ci ildə Azərbaycan Cümhuriyyətinin müqəddəratı xüsusunda nasist Almaniyası ilə müzakirələrdə bulunduqdan, fəqət, müsbət bir sonuca vama imkanı hasil olmayacağı qənaətinə vardıqdan sonra təkrar Buxarestə dönmüş, I944-cü ildə bolşeviklərin Buxarestə yaxınlaşmalarından sonra Mərkəzi Almaniyaya keçməyə məcbur olmuşdur.

24 aprel 1945-ci ildə Amerika işğal bölgəsinə, oradan da 1947-ci ilin sentyabrında Türkiyəyə gələn Məhəmməd Əmin, bəy vəfatına qədər Ankarada qalmış, elmi və tarixi çalışmalar yapmış, konfranslar vermiş, kitablar yayımlamışdır. Ankarada ikən Azərbaycan Kültür Dərnəyinin qurulması üçün təşviq və tövsiyələrdə bulunaraq, 1949-cu ildə onun fəaliyyətə keçməsini saxlamış və dərnəyin ilk genəl qurul toplantısında mövcud üzvlərin ittifaqı ilə dərnəyin fəxri başçılığına gətirilmişdir.

1952-ci ildə bir müddət üçün Avropaya gedən Məhəmməd Əmin bəy, orada «Qafqaz İstiqlal Komitəsi»ni qurmuşdur.

Müxtəlif zamanlarda Hürr Avropa Radiosundan Azərbaycana xitab edən Əmin bəy, 6 mart 1955-ci il tarixində Ankarada həyata gözlərini qapadığı günə qədər «Azərbaycan Kültür Dərnəyi»nin fəxri başçısı adını daşımışdır.

Rəsulzadə ədib, şair, mühərrir və tarixçi olaraq bir çox əsərlər yazmışdır. Onlardan bəziləri bunlardır:

- «Qaranlıqda işıqlar», «Nagəhan bəla» adlı pyesləri (1908, Bakı).
- «Camaat idarəsi» (1917, Bakı).
- «Bizə hankı idarə faydalıdır» (1917, Bakı).
- «Azərbaycanın təşəkkülündə Müsavat» (1918).
- «Azərbaycan Cümhuriyyəti» (1919, Bakı).
- «Azərbaycan Cümhuriyyəti. Keyfiyyəti, təşəkkülü və indiki vəziyyəti» (1922, İstambul).
- «Əsrimizin Səyavuşu» (1922, İstambul).
- «İstiqlal məfkurəsi və gənclik» (1922, İstambul).
- «Rusiyada siyasi vəziyyət» (1922, İstambul).
- «İnqilabçı sosializmin iflası və demokratiyanın gələcəyi»(1928, İstambul).
- «Milliyyət və bolşevizm» (1928, İstambul).
- «Qafqaz türkləri» (1928, İstambul).
- «Çağdaş Azərbaycan ədəbiyyatı» (1936, Berlin).
- «Azərbaycanın kültür gələnəkləri», (1949, Ankara).
- «Çağdaş Azərbaycan ədəbiyyatı» (1950, Ankara).
- «Çağdaş Azərbaycan tarixi» (1951, Ankara).
- «Azərbaycan şairi Nizami» (1951, Ankara).

FEYZİ AĞÜZÜM

MİLLİ TƏSANÜD

Hürriyyət prinsipilə mülkiyyət əsasının mədəniyyət tarixində oynadıqları böyük rol məlumdur. XVIII əsrin sonları ilə XIX əsr başlarında elm, fənn, fəlsəfə və estetika sahəsində görülən parlaq müvəffəqiyyətlərin anası «hürriyyət», onlarla birlikdə yürüyən sənaye inqilabı nəticəsindəki maddi tərəqqilər ilə iqtisadi gəlişməni doğuran da «mülkiyyət» olmuşdur.

Siyasət sahəsində fransız inqilabının elan etdiyi «İnsan Haqları Bəyannaməsi»ndə, iqtisad sahəsində dəxi Mançestr okuluna mənsub iqtisadçıların «burax keçsin, burax etsin» şəklindəki formulları ilə əsaslandırılan bu prinsiplər burjua inqilablarında qəhrəmanlıqlar yaradan liberal düşünüş sisteminin əsasını təşkil etmişlər.

İnsanı Orta zaman geriliyinin siyasi, dini və iqtisadi üç-qatlı zərurət və əsarət qayıtlarından (şərtlərindən) qurtaran və fərdə cəmiyyət içində layiq olduğu vətəndaş mövqeyini verən qüvvə liberalizmin zəfəri olmuşdur.

Liberalizm, dövlətin vətəndaş üzərindəki hakimiyyətini ən az dərəcəyə endirib, onu yalnız daxili asayiş ilə xarici əmniyyəti təmin edən, cəmiyyət xidmətində və nəzarətində bu müəssisə görmək istəmiş; dinin dünya işlərindən ayrılığını tələb edərək, vicdanların hər türlü təzyiqdən azadəliyini göza almış; iqtisadi sahədə dəxi satış təşəbbüsünün istiqlalına hörmətlə mülkiyyətin qutsallığını elan etmişdir.

Liberalizmdə əsas ideal fərdin ən çox hürriyyəti və dövlətin vətəndaşlar arasındakı qarşılıqlı münasibətə ən az müdaxiləsidir. Şəxsi təşəbbüslərlə mülkiyyət haqqını çərh (tapdayan) və təhdid edən hər hankı dövlət müdaxiləsi, bu sistemin klassik tələqqisinə (baxışına) qətiyyən uyğun deyildir.

Liberal dövlət müəyyən bir zamana qədər tarixi vəzifəsini müvəffəqiyyətlə görmüş, feodolizm sisteminə bağlı qalan qüvvələrinin hər sahədə açılaraq irəliləməsini təmin etmişdir.

Fəqət, hər tarixi cəmiyyət növü kimi, zəncirlərini qıraraq böyük bir sürətlə irəliləyən liberal cəmiyyət dəxi, içindəki mütəzad (əks) qüvvələrin böyüməsilə yeni ictimai təzadlar qarşısında qalmışdır.

Başıboş rəqabət əsasına dayanan liberal istehsal sistemi təşəbbüskar və eqoist fərdlər arasında hüdud və ölçübilməz bir mücadiləyə meydan vermişdir. Bu isə bildiyimiz kapitalizmi doğurmuş və ona bağlı bütün sosial təzadları qanadlandırmışdır. Sözdə siyasətən hürr, mənən hürr və iqtisadən hürr olan vətəndaşlar, beləcə yarını məchul, bir dilim çörək qazancının əsiri bir hala gəlmişlər. Zahirdə hakimiyyət «ümumun rəyinə» dayanan parlament içindən doğmuş «məsul hökumətlər»də isə də, həqiqətdə əsil hakimiyyət yeni para aristokratiyası deyilən bankirlərlə fabrikaçıların əlində. Bir tərəfdə gözqamaşdırıcı

əfsanəvi zənginlik, o biri tərəfdə isə ürək yaxan bir fərqü səfalət. Sinfə qarşı sinif. Daxili mücadilə. Vətəndaşlar bıçaq-bıçağa.

Liberal dövlət şəxsən öz sisteminin məhsulu olan kapitalizmin doğurduğu böhranla mücadilədən acizdir. Bu təzada yenə cəmiyyət içərisində doğulan yeni qüvvələr qarşı gəlirlər. Kapitalizmin doğurduğu proletariat sinfinə dayanan inqilabçı sosializm ideologiyası doğulur. Digər adı kommunizm olan bu ideologiyaya görə, burjua cəmiyyyətini iztirablar içində tutan şey liberalizmin istehsal sahəsindəki anarxiyaya izn verən fərdiyyətçiliyidir. İstehsal alətləri üzərindəki satış mülkiyyəti haqqı baki (əbədi, dəyişməz) qaldıqca - kommunistlərə görə - insan cəmiyyətinin-iztirabına son gəlməz. Cəmiyyətlərin bir millət və dövlət içində vəhdətləri onlarca - bəhs mövzusu ola bilməz. «Nə millət var, nə dövlət. Bu ancaq çalışan kütlələri qullanmaq üçün kapitalist ideoloqları tərəfindən uydurulmuş bir yalandır. Var olan siniflərdir. Liberal dövlət kapitalistlərin hakimiyyətini örtmək üçün üzünə vətən, istiqlal və vətəndaş hürriyyəti maskası taxmış sinif hakimiyyətindən başqa bir şey deyildir». Hökumət demək, Leninin təbirincə, həddi zatında (özlüyündə) bir sinfin digər sinifləri əzmək və özünə tabe etmək üçün qurmuş olduğu cəbr maşınından başqa bir şey deyildir. Bunun üçün də Marksa görə, fəhlənin nə vətəni var, nə də milləti. Vətən və millət hissindən məhrum olan bu yeni insanlar zümrəsi proletariat «burjua diktatorluqlarını» devirərək, öz hakimiyyətini quracaq və tədriclə bütün sinifləri ortadan qaldıraraq sinifsiz və təzadsız bir cəmiyyət yaradacaqmış.

Hürriyyət və mülkiyyət prinsipləri üzərinə qurulan mədəniyyəti bütün əsərlərilə inkara qalxan bu müfrit (aşırı radikal) cərəyan, yeni bir absolyutizm [mütləqiyyət] idealı doğurur ki, onun ən kamil və ən amansız müməssili (təmsilçisi, nümunəsi) kommunizm və Rusiyadakı misalı ilə bolşevizmdir.

Hüdudsuz liberalizmin təzadlarla dolu, özünü içindən gəmirən anarxist kapitalist sisteminə döndüyünü müasir liberallardan və liberal demokratiya ideoloqlarından bir çoxu belə etiraf etməkdədirlər. Dövlətin sadə, bir "gecə gözətçisi" rolunda olmayıb, cəmiyyətin tənzimində aktiv rol oynayan əsri, ən mükəmməl bir müəssisə halında olmasını istəyən mütəfəkkirlərin başında Hegel kimi keçən əsrin (XIX) parlaq dimağları (beyinləri) durmaqdadır.

Anarxist kapitalizmdən doğan təzadları islah üçün, millət və dövlət fikrini kökündən baltalayan marksizmin təlqin etdiyi kommunizm ixtilalına (inqilabına) qətiyyət lüzum yoxdur. Kötülük şəxsən hürriyyət və mülkiyyət prinsiplərində deyildir. Necə ki, bu prinsiplərə hərb elan etmiş olan kommunizm inqilabının Rusiyada vücuda gətirdiyi cəhənnəmlik həyat mütləq kollektivizmin mütləq liberalizmdən müqayisə edilməyəcək dərəcədə vasid bir sistem olduğunu meydana qoydu.

Bu təqdirdə nəticə öz-özünə doğur: Nə fərdi hürriyyətlə şəxsi mülkiyyətin mütləqiyyətindən doğan kapitalist anarxiyası ilə sərmayə istibdadı, nə də insanları

mənliyindən çıxararaq bir kölə və maşın halına gətirən kommunizm əsarəti! Nə mütləq liberalizm, nə də mütləq kollektivizm! O halda:

İkisini təlif (uzlaşdıran) edən solidarizm = təsanüd.

Təsanüdçülükdə əsri mədəniyyətin əsasını təşkil edən hürriyyət, şəxsi təşəbbüs və mülkiyyət əsasları bakidir. Fəqət, eyni zamanda dövlət, mütləq liberalizmdə olduğu kimi, fərdlər, siniflər və zümrələr arasındakı münasibət və mücadilələrə laqeyd, sırf zabitə (polis) vəzifəsilə mükəlləf (borclu) bir müəssisə deyildir. Bu sistemdə hürriyyət də, mülkiyyət də mütləq deyil məşrutdurlar (şərti). Şərt isə ümuminin mənfəəti və dövlətlə millətin salamatlığıdır. Şəxsin olsun, zümrə və ya sinfin olsun hürriyyəti, topluluğun yüksək mənfəətləri və hürriyyətini pozmamaq şərtlərilə çərçivələnmişdir. Liberalizm, bu hüdudu bir şəxsin hürriyətilə digər şəxsin hürriyyəti arasında etibar edirdi, bunun üçün də dövlətin vəzifəsini sadə, bir zabitə və məhkəmə dərəcəsinə endirmək istəyirdi. Solidarizmdə isə, dövlət millətin təmsilçisi və cəmiyyətdəki münasibətlərin nizamlayıcısıdır.

Bu surətlə solidarizm, hürriyyət və mülkiyyət müəssisələrində qoyulmuş təbii təşəbbüs və irəliləmə həmlələrini zədələmədən, kapitalizmin liberal sistemdə ümumi mənfəət zərərinə işləyən ifratlarının önünə keçmək vəzifəsini dövlətə verir.

Sinifləri əsas olaraq alan kommunizm kimi, fərdləri nəzəri etibara alan liberalizm dəxi kosmopolit və internasionaldır, solidarizm isə millidir. Çünki sadə şəxslərin və siniflərin maddi mənfəətə bağlı xüsusiyyətlərinə deyil, siniflər və fərdləri bir cəmiyyət halına gətirən mənəvi qüvvələrə böyük qiymət verir. Bu mənəvi qüvvələr isə, millət və dövlətlərin gerçəkləşməsində birləşdirici amil olaraq təsir edən dil, din, tarix, ümumiyyətlə kültür və ortaq ideal kimi mənəvi və ruhi qüvvələrdir. Liberalizm mədəniyyətin ruhunu fərdin yaradıcı eqoizmində görür. Kommunizm isə bunu sinif eqoizmilə təbdil edər (dəyişdirir); solidarizm isə, mədəniyyəti fərd eqoizmilə cəmiyyət mənfəətləri arasındakı ahəngdən ibarət bitir. Liberal cəmiyyətdə qeyri düşünmək [altruizm] qəhrəmanlıqdır. Solidarizmdə isə bu bir vəzifədir. Kültür və tarix bağları ilə mənəvi birlik təşkil edən bir millətin fərdləri, topluluğun ortaq mənfəətlərini qorumaq üçün öz şəxsi hırs (sonsuz arzu) və mənfəətlərini hüdudlandırmaq məcburiyyətindədirlər. Topluluğun mənfəətlərini təmsil edən müəssisə dövlətdir. Fərdin mənəvi mənliyini təşkil edən ortaqlı bütün qiymətlərin qaynağı milli cəmiyyət, onu təmsil edən də dövlətdir. Fərd, digər fərdlərlə ortaq olduğu bu mənəvi mənliklə özünə məxsus mənfəətlərdən ibarət maddi mənlik arasında ixtilaf çıxınca, maddiliyini mənəviliyinə fəda etmək məcburiyyətindədir. Hürr və kamil insan olmaq fəzilətinin hökmü bundan başqa ola bilməz. Dövlətlər, millətlər və cəmiyyətlər ancaq «canlarını cananlarına fəda edə bilən» bu kimi əzaya (üzvlərə) malik olduqları zaman paydar (uzunömürlü, davamlı) ola bilirlər.

Madam ki, milliyyətçiyik, deyirik; madam ki, milli dövlət istiqlalını müdafiə edirik, o halda bizim üçün nə kosmopolit liberalizmə və nə də

kommunizmə təhəmmül (yönəlmə) caiz (düzgün, uyğun) ola bilməz. Bizcə, müdafiə ediləcək yeganə sosial sistem milli təsanüd sistemidir.

"Azərbaycan", il 1, sayı 12, 1 mart 1952, Ankara.

MİLLƏT OLMAQ ƏZMİ

Millət anlamını ifadə üçün dilimizdə iki söz vardır: milliyyət və millət. Bunlardan birincisi lisani (dil), dini, irqi, qövmi, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsiri ilə meydana gələn etnik bir topluluğu ifadə edər. İkincisi isə bu topluluqda doğan ümumi bir iradəni anladır.

Madzininin məruf (məşhur) tərifinə görə, millət: «torpağın, mənşəyin, əxlaq ilə adətlərin və lisanın birliyindən dolayı, həyatında və ictimai vicdanında anlaşma və ortaqlıq yaratmış bir insan topluluğuna» deyilir.

Dürkheymin nəzərində isə: «Etnik amillər və yaxud sadəcə tarixi səbəblərlə eyni qanunlar altında yaşamaq və tək bir dövlət qurmaq istəyən insan topluluğuna millət deyilir».

Dürkheym, bu tərifini müşahidə etdiyi olaylarla təyit (sübut, təsdiq) edərkən: «israrla təyit olunursa, bu kollektiv [məşəri] iradənin təmin olunmaq haqqına malik olduğu və bu iradənin dövlət qurmağa bircə əsas təşkil etdiyi, indiki mədəni millətlərcə, artıq bir prinsip olmuşdur» - deyir.

Madzininin tərifi ilə Durkheymin tərifi arasındakı ifadə fərqinə diqqət etmək lazımdır: birincisində millət ünsüri və tarixi bir olaydır [vaqeə]. İkincisində isə millət ictimai və idari bir hadisədir. Ötəkində millətin oluş seyri anladılır, bərikində millət bir «prinsip» kimi göstərilmişdir. O, rüşeymdir, bu - cocuqdur. O, ağacdır, bu - meyvədir. O, anadır, bu - yavrudur. O, milliyyətdir - bu millətdir.

Lisanları, adətləri, tarixləri, dinləri, vətənləri və s. bir olan insanlar bir milliyyət təşkil edərlər, fəqət, bir milliyyətin millət halına keçməsi ümumi şüur və kollektiv [məşəri] iradənin təəssüsünə bağlıdır. Bu isə yalnız «ictima hafizə» vəzifəsini görən orqanın təşəkkülü ilə vücuda gəlir. Bu orqan müxtəlif amanlara görə dəyişir. Orta çağlarda bu vəzifəni feodal Zümrə görür, milliyyətin sosial həyat və gələnəklərini qeyd və zəbt edən (saxlayan, yaşadan) «hafizə» xan sarayları ilə şövalye (dərəbəy, feodal) qalalarından ibarət olub qalırdı. Zamanın dəyişməsilə, təbii olaraq bu orqan da dəyişdi. Burjuaziyanın zühuru ilə feodal sistem dağıldı. Mənəviyyat mərkəzi «qala»lardan şəhərlərə keçdi. Şəhərlərdə yetişən münəvvər zümrə millətin şüurunu tərbiyə və iradəsini təmsil edən bir sinif halına gəldi.

Bu sinif, qullandığı ən böyük vasitə - mətbuat yolu ilə milliyyətdəki kollektiv iradəni işlədi; öz arasından bu iradəni çelikləşdirən (poladlaşdıran) fikir adamları ilə sənətkarlar yetişdirdi. Bunların sayəsində mənliyini tərk edən milliyyət topluluğu bir millət olmaq əzminə gəldi.

Demokratik Azərbaycan topluluğunda bu millət olmaq iradəsi, sözün əsrimizdəki mədəni mənası ilə 28 may istiqlal hadisəsi və bəyannaməsilə təəssüs

(yarandı) etdi. 32 ildən bəri dünya tarixinin ən qorxunc bir istilası altında bulunmasına, ən amansız totalitar bir rejimin məhkumu olmasına rəğmən, Azərbaycan topluluğu bu iradəyə sadiq qaldığını hər fürsətdə izhar etməkdə, milliyyət dövründən çıxaraq millət olduğunu, 28 may fikrinə bağlılığını hər vasitə ilə isbat etməkdədir.

"Azərbaycan", il 1, sayı 5, 1 avqust 1952, Ankara.

MİLLƏTÇİLİK - PATRİOTİZM

Keçənki sayımızda milliyyət ilə millət sözlərinin mənalarını incələdik: «Milliyyət etnik bir anlam ikən, millət siyasi bir anlamdır» - dedik.

Bunu başqa bir təbirlə də ifadə edə bilirik: milliyyət müəyyən şərtlər və hadisələr nəticəsində vücuda gəlmiş statik [mustəqər] bir varlıqdır, millət isə bu statik varlığın şüurlaşan dinamik [fəal] bir şəklidir.

Statik bir keyfiyyət ərz edən milliyyət baxımından vətən coğrafi bir anlamdır. Halbuki şüur və iradəyə malik olan millət baxımından vətən, siyasi bir məna ifadə edər.

Etnik bir özəllik ərz edən milliyyət mənsublarının yaşadığı bir yerdən ibarət olan coğrafi vətən dinamizmdən məhrum, passiv bir sevginin mövzusudur. Halbuki, siyasi şüur və dövlət olmaq əzminə malik olan bir millət üçün vətən eşqi aktiv bir hərəkət amilidir.

Etnik milliyyətçilik və coğrafi vətən sevgisi bir topluluğun yaşadığı yerlərə: dağlara, dərələrə, yayla və ovalıqlara, dəniz və çöllərə qarşı duyulan bir ilgidən ibarətdir. Halbuki bir millətçi üçün vətən, sadəcə, maddi ünsürlərlə hüdudlanmaz. Milliyyətdə siyasi şüur güdən millətçi vətəndə də mənəvi bir öz, bir ruh arar. Onun üçün vətən maddi deyil, mənəvi bir varlıqdır.

Maddi özəllikləri mənəvi özəlliklərlə canlanmadıqca, coğrafi bir bölgənin, sözün əsil mənası ilə, zatən bir vətən olmasına imkan yoxdur. Maddi vətən ünsürlərindən başqa hər aydın insanın bildiyi kimi, dil, din, ədəbiyyat, musiqi, fəlsəfə, sənət və tarix kimi mənəvi vətən ünsürləri vardır. Bu ünsürlər, coğrafi vətən dışı içində yoğrulub mənəvi bir vətən içi vücuda gətirirlər. Cansız maddə canlı bir ideya halına gəlir.

Millətin, dövlət olmaq əzmində israr edən bir milliyyət olduğu bilgin sosioloqlar tərəfindən kəşf və tərif edilmişdir. Bımu biz, keçən sayımızda qeyd etdik. Bir millətçinin vətən anlayışı, coğrafi mənadakı vətəni müstəqil bir dövlət halına gətirmək istəməsidir. Bir millətçi, hər şeydən əvvəl istiqial davasında olan bir vətənçi - bir patriotdur.

Avropalıların patriot terminilə ifadə etdikləri anlam, bizim millətçi sözü ilə anlatmaq istədiyimiz anlamın eynidir. Bu, avropalıların nasionalizm sözü ilə dedikləri milliyyətçilikdən tamamilə başqa bir şeydir. Nasionalizm Qərbi Avropa

demokratiyası anlayışınca, təcavüzçü və ümumi tərəqqi yoluna girmək istəməyən, dünyanın seyrindən (gedişindən) ayrılmış bir gerilik hərəkətidir. Halbuki patriotizm bir millətin öz müqəddəratına şəxsən özünün hakim olması vd özünəməxsus milli bir dövlət qurması hərəkatıdır, bu isə bütün dünyanı bürüyən tərəqqi hərəkatının bir parçası, demokratik bir hərəkatdır.

Tarixi müəyyən şərtlərin təsirilə milliyyət halından milləti halına gələn topluluqların müstəqil bir dövlət qurmaq və ya istifayə uğrayan vətənlərinin istiqlalını geri almaq uğrunda mücadilə edənlərə mütləq Avropa terminlərilə bir ad lazımsa, bunlara milliyyətçi [nasionalist] deyil, millətçi [patriot], hərəkatlarına da milliyyətçilik [nasionalizm] deyil, millətçilik [patriotizm] demək lazımdır!

"Azərbaycan", il 1, sayı 6, sentyabr 1952, Ankara.

MİLLİ BİRLİK

Millətçilik fikrinə inananların ilk vəzifəsi «Milli birlik»i mühafizə etməkdir. Bu, millətçilik fikrinin əsası və təməlidir. İnternasionalist və kosmopolit nəzəriyyələrlə ortaya atılan marksizm, kommunizm və anarxizm kimi doktrinlərin əsil qayəsi milli birlik və bütünlüyü sarsmaq, parçalamaq və pozmaqdır. İctimai sinif və zümrələr arasında ixtilaf və ziddiyyət təhriki və hüsumət ihdası (düşmənçilik) bu məqsədlə edilir. Halbuki həqiqi millətçilərin üzərinə tərəddüb (düşən) edən qutsal qayə uzun sürəkli tarixin məhsulu olan milli varlığı bütün fəzilətləri, gələnək və görənəkləri, kültür və ədəbiyyatı ilə qorumaq, yaşatmaq və gəlişdirməkdir.

Yıxıcı və çökərdici internasionalist və kosmopolit fikirlərin önünə ancaq milli bünyəni (özülü) qüvvətləndirmək və sağlamlaşdırmaq surətilə keçilə bilir. Millətçilik fikri, ən təbii, ən mədəni, ən irəli bir fikirdir. Elm və kültürün gəlişməsini və yayılmasını əngəlləmək böylə dursun, bu, gəlişmə və yayılmanın ən təsirli və qüvvətli bir amilidir. Həm də insanlıq kültürünün ən təbii və ən normal inkişaf yoludur.

Bəşər kültürünün bu qədər ceşidli, zəngin və feyzli mənzərələr ərz etməsi, onun bir çox əski və yeni millətlərin davamlı və məzbuhanə (durmadan) çalışmaları nəticəsində doğulmuş olmasındadır. Dünyada internasional, kosmopolit və ya qeyri-milli kültür deyə bir şey yoxdur. Müxtəlif millətlərin əməyi sayəsində hüsula gələn (yaranan) və hələ hər millətin damğasını üzərində daşıyan bir dünya kültür mənzuməsi və ya məcmuəsi vardır.

Bu kültür mənzuməsində əski türklərin çox böyük və ən mühüm bir rolu olmuşdur. Bu rol istiqbalda (gələcəkdə) heç şübhəsiz daha böyük olacaqdır.

Nə yazıq ki, bu müştərək türk kültürü tarixin mərhəmətsiz seyri (gedişi) nəticəsində bir-birindən uzaq, müxtəlif sahələrə dağılmışdır. Müştərək düşmən də, bu ayrı-ayrı türk kültür parçalarını bir-birindən uzaqlaşdırmaq və bir-birinə yabançı

qılmaq üçün əlindən gələn hər şeyi etmiş və hələ də durmadan etməkdədir. İndi, bu durum qarşısında türk gəncliyinə düşən əsil vəzifə, bu ucsuz-bucaqsız türk kültürünə bütün özəlliklərilə tanımaq, öyrənmək, sevmək, mənimsəməli və tanıtmaqdır.

"Azərbaycan", il 1, sayı 7, oktyabr 1952, Ankara.

YANLIŞ TERMİN QULLANMAYAQ

Çağdaş mədəniyyətə ayaq uydurmağa mətuf (yönəlmiş) islahat hərəkətinə bizdə qərbliləşmək və avropalılaşmaq adı verilməkdədir.

Geri qalmış Şərq məmləkətlərini «Qərb mədəniyyətinə» ulaşdırmaq yolunda radikal üsullara baş vuran milli türk inqilabının ideologiyasını işləyənlər Şərq mədəniyyəti və Qərb mədəniyyəti deyə ikiyə ayrılan mədəniyyət anlamlarını qarşılaşdırarkən əsaslı bir xətaya düşür, yanlış termin qullanırlar.

Milli türk devrimi Şərqi atır, Qərbi tuturmuş, Şərq mədəniyyət dəyişdirirmiş, Qərb mədəniyyətini almaq tarixi zərurətmiş və sairə...

Mədəniyyətin coğrafi sahələrə atfən (mal kimi) bölünməsi və bir mədəniyyətdən digər mədəniyyətə keçmək düşüncəsi doğru bir görüş məhsulu deyildir. Nə üçün, izah edim:

Dünya mədəniyyəti bir bütündür. Türlü sahələrdə gördüyümüz ayrılıqlar türlü zamanlarda türlü-türlü məmləkətlərdə görülən ayrılıqlardan başqa bir şey deyildir. Bu gün Avropa və ya Qərb deyə özlədiyimiz irəli örnək, aləmin vaxtı ilə Şərq və ya Asiya dediyimiz qitələrin bulunduqları bugünkü «geri» duruma bənzər bir aləm təşkil etdiyi məlumdur. Dünya mədəniyyətinin seyrini təqib edərsək (izləsək), onun amudi (yüksələn, şaquli) istiqamətdə gəlişən mərhələlərindən bəhs etmək daha doğru olur. Bu baxımdan Şərq mədəniyyəti ilə Qərb mədəniyyətindən deyil, Ortaçağ mədəniyyəti ilə Çağdaş mədəniyyətdən bəhs etmək lazımdır.

Bizim «dəyişdirdiyimiz» mədəniyyət Avropanın da vaxtilə «dəyişdirmiş» olduğu Ortaçağ mədəniyyətidir. «Almaqda» olduğumuz mədəniyyət də, bir Qərb mədəniyyəti deyil, çağdaş bir mədəniyyətdir.

Biz, Şərqi atıb da, Qərbi almırıq. Qərbin vaxtı ilə etdiyi kimi, Şərq də Orta çağ zehniyyət (düşüncə) və şərtlərindən, çağdaş zehniyyət və şərtlərinə doğru yüksəlir. Bugünkü Şərqdə görülən devrimlər bir kaymanın, bir uymanın deyil, bir yüksəlmə, bir qalxınmanın əsəridir.

Şərqli bir millətçi, tarixi türlü səbəblərlə geri qalmış vətənini çağdaş mədəniyyət səviyyəsinə ulaşdırmaq xüsusundakı əzminə «şərqliliyi atır, qərbliliyi alırıq» deyə bilməz. Deyərsə, yanlış bir termin qullanmış olur. Bu yanlışlığı o, həddi zatında (özlüyündə) millətçi bir iş görərkən millətə aid özəlliklərə arxa çevirmiş bir insan durumuna düşməklə ittiham oluna bilir. Tərəqqi düşməni mürtəcelərin bu ittihamı qarşısında min bir dərədən su gətirib, öz xətti hərəkətini

izah etmək zorunda qalır. Məsələn, Şərq deyirik, Yaponiyanı qəsd etmirik der; Qərb dedikdə İspaniyanı düşünmürük kimi; dinləyənlərin zor anlayacaqları bir takım təfsirlərdə bulunmaması lazım gəlir.

Halbuki sui təfsirlərə məhəl vermədən bir bütün olaraq ələ alınan dünya mədəniyyətini Şərqə və Qərbə ayırmadan üfqi deyil şaquli ayrılıqlarından bəhs etmək daha doğru və daha makuldur (ağlabatandır).

Millətçi Türkiyə bugünkü gənc şərqlilərə örnək olaraq etdiyi devrim həmləsilə Şərqdən sıyrılıb Qərbə qatılmır, geri ortaçağ səviyyədən çıxaraq irəli çağdaş səviyyəyə yüksəlir.

"Azərbaycan", il 1, sayı 8, noyabr 1952, Ankara.

QÖVM VƏ MİLLƏT

Böyük türk filosofu Ziya Göyalp mərhum, bu mövzunu bir yazısında [«Yeni məcmuə», № 33] deyir ki:

«Millət [nation] şəxsiyyətini uzun müddət qeyb etdikdən sonra təkrar oluşdurmağa çalışan bir qövm deməkdir».

Bu oluş gəlişimini anladırkən ustad, «milliyyət» təbirilə də ifadə olunan «qövm»ün keçirdiyi istihalə (yeniləşmə) şəklini izah edər ki, xülasəsi bundan ibarətdir:

Qövmlər tabe olduqları müştərək bir din və ya səltənətin təsirilə təməssül edərək (özləşərək) şəxsiyyətlərini qeyb edərlər. Sonra daxil olduqları bu səltənət və ya ümmətin çözülməsi üzərinə, yenidən özlərini bulurlar. Fəqət, bu dəfə bulunan şəxsiyyət qeyb edilmiş qövmi şəxsiyyətinin eyni deyildir. O, uzun zaman birlikdə yaşanan müştərək mədəniyyət və ümmət həyatının təsirilə yeniləşmiş bir şəxsiyyətdir. Qövm getmiş, yerini millət almışdır.

Qövm ilə millət arasındakı fərq, əcəba, nədir? Ustadı dinləyək:

«...Qövm inhisarçıdır. Qövm dini özünə həsr (aid) edər, insanlığı özündən ibarət görür, hətta kosmoqoniyası vasitəsilə kainatın təşəkkülünü öz qövmi təşəkkülü ilə izah edər. Bu etibarla ümmət şəkli qövm şəklindən daha ziyadə insanidir, çünki ümmət insaniyyəti və mədəniyyəti bir qövmə həsr etməz, bir çox qövmləri içərisinə almağa çalışan bir din dairəsinə həsr

edər. Bununla belə, ümmət də çağdaş mədəniyyətə nisbətlə inhisarçıdır. Çağdaş mədəniyyət yalnız bir Dinin saliklərinə inhisarı qəbul etməz. Çünki elmə dayanan bu zümrə türlü dinlərə mənsub millətləri də dairəsinə ala bilir. Bundan dolayıdır ki, millətlər ümmətin deyil, çağdaş mədəniyyətin bir cüzi tamından (parçasından) ibarətdir. Bir çox sultani [imperial] dövlətlər bir ümmətin bir cüzi tamı ola bilir. Fəqət, millətlər, yəni çağdaş dövlətlər [təbirə diqqət edin - idarə] bir ümmətin cüzi tamı ola bilməz. Millət nə qövm kimi, nə ümmət kimi inhisarçı deyildir. Millət çağdaş mədəniyyəti tam, özünü də onun parçası olaraq görür».

Milliyyətin dövlət olmaq əzmini göstərdiyi və bunda israr etdiyi zaman ancaq millət olduğunu yazdığımız vaxt [«Azərbaycan» № 5] biz də bu fikri ifadə etmişdik. Necə ki, Ziya Göyalp da «millət sözünü dövlət» sözünün müradifi (qarşılığı) olaraq qullanmışdır. Ustada görə: «Türklər Türkiyə Cümhuriyyətinin təşəkkülündən sonra millət həyatına başlamışlar».

Cümhuriyyətdən əvvəl «türk milləti» və «millət həyatı» yokmu idi? - deyə soruşanlara sözü keçən məqalədən aşağıya köçürdüyümüz bu sətirləri oxumalarını tösiyyə edirik:

«Türk qövmü islam ümmətindən, Səlcuq və Osmanlı səltənətlərindən əvvəl də mövcud idi. Müştərək İran mədəniyyətinə daxil olmadan özünə məxsus qövmi biri mədəniyyətə malikdi. İran mədəniyyəti ilə, ümmət və səltənət təşkilatları türklərin bir çox qövmi müəssisələrini izalə etdi. Fəqət, eyni zamanda türklərin millət halına gəlməsini təmin etdi».

İndi sözün bu məqalədə izah olunan mənası ilə milliyyətçilik deyil millətçilik, dünyanın irəliyə doğru addımlayan demokratik gedişinə uyğun bir hərəkatın adıdır. Sözün çağdaş mənası ilə patriotizmə təqabül (uyğun) gələn bu termin milliyyətçiliyi, yəni milli istiqlalçılığı ifadə edər.

Bu, bəzilərinin düşündüyü kimi, yeni və uydurma bir təbir deyildir. Ziya mərhumun istifadə etdiyimiz məqaləsi «Millətçilik» başlığı altında nəşr edilmişdir.

“Azərbaycan”, il 1, sayı 9, dekabr 1952, Ankara.

MİLLİ ƏXLAQ

Bəşər topluluğunda fərdlər üçün olduğu kimi, millətlər üçün də müəyyən və sabit bir takım əxlaq qaydaları vardır. Fərdlərdən insan topluluğu dürüst olmalarını, doğru söyləmələrini, hiylə və təzvirə (yalana) baş vurmamalarını, içlərilə dışlarının bir olmasını, başqalarının haqq və hürriyyətlərinə təcavüz etməmələrini, dost və müxaliflərinin fikirlərinə sayğı göstərmələrini, qiybət və iftiradan sakınmalarını, hırs (sonsuz arzu), kin və xudbinlik kimi kötü hisslərə əsir olmamalarını, tərbiyə və nəzakətdən ayrılmamalarını, vətən və millətlərinə bağlı qalmalarını, yurddaşlarına əzəmi (böyük) yardımda bulunmalarını, məmləkət qanun və nizamlarına son dərəcə riayətkar olmalarını, yurdun rifah və səadətinə durmadan çalışmalarını, ailə və əqrabalıq bağlarını qutsal saymalarını, övladlarını vətənə xeyirli olacaq şəkildə yetişdirmələrini, yurd və millətlə ilgili işlərdə böyük fəraqat (fədakarlıq) göstərmələrini tələb etməkdədir. Bunları eynilə edənlərə cəmiyyət əxlaq və səciyyə sahibi bir insan, vətənpərvər, mükəmməl bir vətəndaş, müşfiq bir ata və milli qəhrəman kimi izafə edər. Əksini işləyənlərə milli topluluğun enində-sonunda nə kimi damğalar vuracağı da məlumdur!

Milli əxlaqa gəlincə, o da fərdlərdən mütəşəkkil böyük bir topluluğun toplu bir halda uyacağı və daim bağlı qalacağı hir takım məşəri (ümumi) ümdə və

qaydalardır. Millət hiziplərin, zümrələrin və siniflərin fövqündə olduğu və bunların hamısını içində barındırdığı və qoynunda bəslədiyi üçün heç bir dəstə, zümrə və sinif mənfəətlərinə və ya qayələrinə fəda edilməz. Hələ milli varlığın şəxsi təmayüllərə və qərəzlərə alət və vasitə edilməsi ağla, xəyala belə gətirilə bilməz.

Hər şey millət uğruna - bax, həqiqi vətənsevərlərin yeganə şüarı bu olmalıdır. Millətin birliyini və bütünlüyünü qorumaq, milli əxlaqın başlıca ümdəsidir. Türklük və milli istiqlal prinsiplərinə mütləq sədaqət, milli əxlaqın ikinci böyük ümdəsidir. Bu ümdənin qəti və zəruri icabı (şərti) olaraq düşmən və müstəvli (işğalçı) hər hankı bir qüvvətlə milli istiqbal bəhsində açıq və ya qapalı heç bir bazarlıq edilə bilməz. Verilən sözə və yapınan sərbəst anlaşmalara riayət milli əxlaqın üçüncü ümdəsidir. Haqqı, hürriyyəti, sülhü və demokratiyanı qoruma və savunma, zülmə və təcavüzə qarşı sarih (aydın) bir cəbhə alma milli əxlaqın dördüncü ümdəsidir. Milli səviyyəni daim yüksək tutma, gerilik və cəhalətdən savunma milli xalqın beşinci ümdəsidir.

Bütün bu ümdələrə riayət edən millətlərə insanlıq camiası irəli, kültürlü, səciyyəli, zində (sağlam) və istiqbalı gələcəyi parlaq millətlər deyə qiymət verir. Əks yolu tutanlara bəşər topluluğu da, tarix də mütəfəssih (çökmüş), çürümüş və ölümə məhkum millətlər damğasını vururlar. Tarix boyunca milli dövlət qurmağa və yaşatmağa müvəffəq olmuş və ün salmış millətlər, həm əxlaq və səciyyələri etibarı ilə sağlam olan və sağlam qalmış millətlərdir. Əxlaq və fəzilət fərdləri yüksəltdiyi kimi, onu daşıyan millətə qarşı dünya ictimai fikrinin bəsləyəcəyi etibar və etimadı da get-gedə yüksəldə və artıra bilir və beləcə milli davanın təhəqqüqünü (gerçəkləşməsini) bir xeyli qolaylaşdırır. Səciyyəsi düzgün və sağlam bir millət gələcəyindən əmin ola bilir. Çünki milli sahədəki hər müvəffəqiyyətin başı və əsas şərti milli fəzilətdir.

"Azərbaycan", il 1, sayı 11, fevral 1953, Ankara.

ƏSKİ VƏ YENİ NƏSİL

İnsan övladı yavru olaraq dünyaya doğular, ata və anasının himayəsi altında böyüyüb yetişərək gənclik, olğunluq, yaşlılıq və ixtiyarlıq mərhələlərini aşdıqdan sonra yerini və edindiyi təcrübələri yeni nəslə buraxaraq dari bekaya (sonsuzluğa) intiqal edər.

Bu, ilahi bir xidmət və təbiətin dəyişməz qanunudur. Beləcə hər nəsil özündən əvvəlki nəslin məhsulu və özündən sonra gələcək nəsillərin başlanğıcıdır. Kültür və mədəniyyət də bir tək nəslə məxsus olmayıb, tarixin təmadisi (gedişi) boyunca gəlib keçən saysız və sonsuz nəsillərin müştərək əsəridir.

Hər nəsil özündən sonra gələn nəslin müəllimi və mürəbbisidir. Əski nəslə düşən vəzifə yaxşı öyrətmən və egitmən olmaq, yeni nəslin borcu isə yaxşı yetişməkdir.

Beləcə, əski və yeni nəsil arasında prinsip etibarı ilə hər hankı bir ayrılıq, ixtilaf, keçimsizlik təsəvvür edilə bilməz. Ata ilə övlad arasında ola bilməyəcəyi kimi! Çünki hər ikisi də eyni milli bünyənin (özülün) bir canlı üzvü məsabəsindədir (dəyərindədir). Nəsillər arasındakı fərq yalnız milli camiaya etdikləri xidmətin dərəcəsilə ölçülə bilir.

Şübhə yox ki, gənclik, yaş, quruluş və ruh etibarı ilə daha həssas, daha həyəcanlı və daha atılqan olur. Hər millətin həyatında elə anlar ola bilir ki, bu kimi şeylər qəti bir rol oynayır. Fəqət, ümumiyyətlə istisnai hallardır və hərb, inqilab, feili (gerçək) mücadilə kimi dövrlərə inhisar edər. Normal hallarda isə, əsil olan tədbirli, düşüncəli və olğunca hərəkətlərdir ki, bu da ancaq əski və yeni nəsillərin bir-birini tamamlaması və yardımlaşması surətilə əldə edilə bilir.

Əski nəslin təcrübəsi və tədbiri yeni nəslin enerjisi ilə birləşdiyi təqdirdə milli dava vüqar və təmkinlə və əzəmi müvəffəqiyyət şansı ilə yeridilə bilir.

Gənclik, özündən əvvəlki nəslin bütün müsbət təcrübələrini sürətlə mənimsəməlidir. Bu, onun təvarüs (ala) edə biləcəyi ən zəngin və ən davamlı bir mirasdır. Yeni nəsil əskisindən daha bilgili, daha kültürlü və daha olğun olaraq yetişmək zorundadır. Çünki onu daha böyük və daha çətin vəzifələr gözləməkdədir. Bu isə yalnız təvazö və tükənməz bilgi və öyrənmək eşqilə təmin edilə bilər.

Bir millətin yeni nəsli əskisinə nəzərən daha az kültürlü və daha az təcrübəli olursa, o millətin varlığı və gələcəyi təhlükəyə məruz qala bilir.

Əlbəttə, yeni nəsil əskilərin kötü ehtiraslarını heç bir surətlə təvarüs etməməli və bunları hakir (dəyərsiz) görmə fəzilətini öz ruhunda daim qüvvətləndirməlidir. Gəncliyin tək şüarı millətə fərağatla və təmiz bir qəlblə xidmət olmalıdır. Belə bir gəncliyi olan millət, halından və istiqbalından (gələcəyindən) tamamilə əmin ola bilir.

"Azərbaycan", il 1, sayı 12, mart 1953, Ankara.

İDEALİSTLƏR, OPORTUNİSTLƏR, POZĞUNÇULAR

Siyasi, ictimai və milli hərəkatlar obyektiv və bir takım şərtlərin məhsuludur. Coğrafi, iqtisadi, qövmi, kültürəl və tarixi amillərin birləşib qaynaşması və gəlişib şəkillənməsi nəticəsində yaşanan zamanın hakim ruhu ilə müvazi olaraq müəyyən hərəkatlar doğar.

Obyektiv şərtlərlə ilgili olan bu hərəkatların oluş sıralarını anlamaq və bu oluşu müəyyən aksiyalarla istənilən istiqamətdə olğunlaşdıra bilmək üçün hərəkatların sövq və idarəsi subyektiv bir sıra amillərə möhtacdır.

Siyasi olsun, ictimai olsun bütün hərəkatların təşkilatlanmasında müşahidə olunan fikir, anlayış və metod ayrılıqları subyektiv amillərin obyektiv şərtlərə,

digər təbirlə, yaşanan dövrdə mövcud reallıqlara nə dərəcəyə qədər uyub-uymadığını təqdir fərqindən irəli gəlir.

Hərəkatları idarə edənlərdən bir qismi, ideyalara və ideya sistemlərinə əhəmiyyət verir, tarixin inkişaf şərtlərilə ayaq uydurmaq zərurətilə özlərinə elmi əsaslara istinadən bir sistem düşünür və sistemdəki əsaslara sadiq qalaraq hərəkət edərlər. Bunlar idealistlərdir.

İdealistlər, tarixdəki real hadisələri inkar etməməklə bərabər, bu reallıqların istənilən ideal istiqamətdə inkişafını təmin üçün gərəkən tədbirləri alırlar.

Buna müqabil oportunistlər vardır ki, bunlar tarixin seyri və vanlacaq hədəflə çox məşğul olmadan o gün, həmən bir rol oynamaq üçün, subyektiv ünsürü göz önündə bulunduraraq, özlərini axıntıya buraxırlar. Axıntınm qafiləni (idarəsiz gəmini) istənilən sahildən başqa bir yana götürüb - götürməməsilə çox ilgilənməzlər.

Məfkuraçi realizm ilə opportunist realizm arasında müəyyən zaman, məkan və şərtlər daxilində təşriki məsai (birgə çalışmaq) imkanı təsəvvür oluna bilirsə də, ictimai hərəkatlarda xəstə bir hal alan pozğunçuluqla heç bir zaman işbirliyi ola bilməz. Təmiz niyyətdən arı olub, fəaliyyətə ancaq inkar və ihlal (dağıtmaq) məqsədilə girişənlərə pozğunçu deyilir. Bunların nə obyektiv görüşləri, nə tərəfsiz təhlilləri, nə də müsbət proqramları olur. Onlar sadəcə mövcudu yıxmaqdan zövq alırlar.

İdealistlərə də, oportunistlərə də, pozğunçuluqla mücadilə etmək müştərək bir vəzifədir.

"Azərbaycan", il 3, sayı 33, dekabr 1954, Ankara.

ŞƏKİLCƏ DƏ, MÖHTƏVACA DA RUSLAŞDIRILMA

Özlərinə xas ikiüzlü taktika ilə Rusiyada iqtidara gələn bolşeviklər ən sonda bütün dünyanı ruslaşdırmağa mütəvəccih (yönəlmiş) olan siyasətlərini milliyyət məsələsində ortaya atdıqları məşhur formulla pərdələmək istədilər. Sovetlər Birliyində kültürün «formaca milli, məzmunca sosialist» olması üzərində israr etdilər.

Sovetlər Birliyinə daxil olub, sayları 40 milyonu haqlayan türk ellərində bu formulun tətbiqatda nə kimi bir nəticəyə vardığım bilirik: öncə şəkil [forma] ruslaşdırıldı. 1939-cu ildən etibarən Rusiyadakı bütün türk cümhuriyyətlərində Latın hərflərilə yazılmağa başlanmış olan yazılar rus hərflərilə yazdırılmağa məcbur edildi. Bununla ilgili olaraq türkcələrdəki termin sistemi də islam və Avropa əsaslarından uzaqlaşdırılaraq rus sisteminə tabe tutuldu.

Şəklin ruslaşdırılmasından sonra möhtəvaya [məzmuna] əl atıldı. Bu möhtəva sosialist olacaq, kosmopolit bir mahiyyət daşıyacaqdı. «Millət, növi bəşər, vətən də yer üzü» təsəvvür olunurdu. Lenin, «Rusiyanın mənfəətləri cahan

inqilabının mənfəətlərinə fəda olsun» - deyirdi. Bu surətlə Sovet hakimiyyətinə düşən millətlər sosialist kosmopolitizmi ilə qandırılırdı (aldadılırdı). Milliyyətçiliyin şovinizm, vətənsevərliyin də kapitalistcə bir aldatma olduğu hər tərəfə və hər kəsə israrla təlqin olunurdu.

Fəqət, bütün bunlar Sovet hökumətinin nisbətən zəif olduğu zamanlara məxsus bir hərəkət xəttinin ifadəsi idi. Bolşeviklər mövqelərində yerləşdikcə, bu ifadə də yeni bir ruh bildirir, «sosialistlik»dən məqsədin «rusçuluq» olduğu aşikara vurulurdu.

İkinci cahan hərbi əsnasında və bilxassə bu hərbdən sonra, velikorus qüruru sovet siyasətinin bütün aksiyalarına sirayət etdi. Bu qürur, özünü bilxassə, kültür və egitim sahəsində göstərdi.

İndi rusluq «cahan inqilabına fəda ediləcək» ikinci dərəcəli bir qiymət deyil, bütün dünyaya örnək olacaq bir dəyərdir. Digər adı «sovet milləti» olan rus millətini öymək Sovet hakimiyyətini «qəbul etmiş» bütün millətlərə fərzdir (borcdur). Rus milləti millətlərin ən şərəflisidir[!]. Çünki: «o, cahan inqilabı fikrini qəbul və tətbiq edən ilk millətdir. Dünyanın bütün ixtiralarını, ən irəli fikirlərini o bulmuş, o vermişdir! Onun yolundan yerimək, onun tarixilə öyünmək, onun qafası ilə düşünmək millətlərə zillət deyil, ancaq şərəf gətirir. Kosmopolitizm indi bir irtica, kapitalist zehniyyətidir, əsil insani və inqilabi fikir sovet patriotizmi deyilən rus milliyyətçiliyidir. Rus milləti tarixdə rus məhkumu millətlərin ögrətməni olmuş, onlara mədəniyyət dərsi verən bir ağabəyi (böyük qardaş) mərtəbəsinə yüksəlmişdir!».

Rusiya məhkumu millətlərin tarixləri, bilxassa ədəbiyyat tarixləri indi bu yeni teoriyanın işığı altında təhlil və tənqid olunur. Rus ağabəyisinə bu gün deyil, tarixdə dəxi sadiq qalmaq Sovetlərdə tətbiq olunan yeni «milli siyasət»in ana tələbini təşkil etməkdədir. «Sovet hökumətinə sədaqəti isbat üçün bu gün kommunist partiyasını və baba Stalini mədh etmək kafi deyil» bir də ağabəyi rus millətinə ərzi hülus (sayğı bildirmək) etmək zəruridir!».

Son zamanlarda siyasi Sovet məqamları Sovetlər Birliyindəki millətlərin vücuda gətirdikləri tarix və kültür müəssisələrini sıx bir kontrola tabe tuturlar. İndi, sadə yaşanan dövr deyil, yaşanmış dövrlər də təftişə tabedir. Çarlıq istilasına qarşı göstərilən mücadilə və müqavimət hadisələri ilə şəxsiyyətlərini idealizə edən mühərirlər şiddətlə tənqid və təzyiqlərə uğrayırlar. Çünki, onların əsərlərində böyük rus millətinin bu yerlərə gətirdiyi irəli müəssisələrə qarşı gələn «mürtəce»lər idealizə olunurmuş!

Bu «mürtəce»lər arasında məsələn, Qafqazın istiqlai qəhrəmanı böyük Şamilin adı başda gəlir. Vaxtilə şəxsən bolşevik yazarları tərəfindən milli istiqlal və inqilab qəhrəmanı deyə təqdir olunan bu tarixi sima, indi «ingilis kapitalının agenti» və «Osmanlı Sultanının uşağı» - deyə təşhir (göstərilir) olunur. Bunun kimi başqırd qəhrəmanı Knaser (Qeysər) də əskidən oturdulduğu milli qəhrəman taxtından endirilir. Azərbaycanın, onunla bərabər digər türk ellərinin də qəhrəmanı

olan «Dədə Qorqud» hekayələri vətənpərvərliyin, xalq igidliyinin, vəfa və fədakarlığın bir şah əsəri deyil, «Orta çağ dərəbəyi çapovulçuluğu» ilə «islami geri fikirləri» yayan bir irtica əsəri imiş!

Milliyyət, vətən, hürriyyət və istiqlal fikirlərini tərvc (dəstəkləyən) edən dünənki bütün şöhrətlilər indi yeni meyar ilə ölçülür: hürriyyət və istiqlal fikrinin qəhrəmanları şan və şöhrət taxtlarından endirilirlər. Şöhrətli şairlərimizdən Hüseyn Cavidlər ilə Əhməd Cavadların uğraduqları fəci aqibət məlumunuzdur. Bunların hörmətlə andığımız adları sovetlərdə bir təzyif mövzusudur. İndi də sıra daha dünənə qədər şəxsən «hürriyyət və inqilab şairi» deyə öydükləri «Firdovsi ilhamlı» şair Məhəmməd Hadiyə gəlmiş məgərsə «onun da əsərlərində irtica və milli ünsürlər az deyilmiş!».

Öylə ya: Azərbaycanı dünyaya rus damğası ilə təqdim edən bir zehniyyət üçün:

«İmzasını qoymuş milәl əvraqi-i həyata,

Yox millətimin xətti bu imzalar içində» - deyə həsrət çəkən və onu bu həsrət atəşinə yaxan zalıma, yəni ögünkü çar istibdadına qarşı:

«İç, iç nə qədər istər isən qanımı zalim!

Bir gün görərəm qanını səhbalar içində» - deyə təhdidlər sovuran Məhəmməd Hadi də bir «mürtəcedir»...

Şəkilcə ruslaşdırılan milli kültürün möhtəvaca da ruslaşdırılması görülür ki, Sovetlər Birliyində tətbiq olunan sosialist siyasətin vardığı ən təbii bir sonucdur. Bu, rus olmayan məhkum millətlərin həqiqi milli mənfəət və varlıqlarına qarşı təvcih edilmiş, sovet patriotizmi adı altında yeridilən və murai surətdə kosmopolitizmə qarşı mücadilə adı verilən, təcrübədən keçirilmiş əski rus siyasətindən başqa bir şey deyildir.

"Azərbaycan", il 1, sayı 5, avqust 1952, Ankara.

RUSİYA KÖLƏLİYİNDƏ

Qafqazlı mühərrirlərdən biri rus imperializmini tərvic (dəstəkləyən) edən erməni siyasilərinə çox yerində bir isim vermişdir - rus imperializminin könüllüləri! Belələrinə bizcə, eyni haqq və eyni müvəffəqiyyətlə «Rusiyanın kölələri» demək də caizdir (düzgündür).

Bu köləliyin parlaq bir misalını erməni mühərrirlərindən A. Hondkaryan vermişdir. Ukraynalı rəfiqimizin nüqtəli bir təbirincə,[1] «həqiqi rus» olan bu erməni sabiq Rusiya Müvəqqəti hökuməti rəisi Kerenski tərəfindən nəşr olunan «Dni» qəzetində «Türkiyə xidmətində» ünvanı altında bir məqalə yazmışdır.

[1] Mətbuat və kitabiyyat qisminə müraciət olunacaq.

Məqalə Rusiyada yaşayan məhkum millətlərin təmsilçiləri tərəfindən imza olunaraq Cenevrədə toplanacağı mütəssəvvir (gözlənən) konqresə aid verilən bəyannamə[2] münasibətilə yazılmışdır.

Parisdə intişar edən «Promete» məcmuəsi ətrafında birləşən, Rusiyadan xilas olmaq istəyən millətlərin bu «separatistcə» təşəbbüsü ruslardan ziyadə rus olan hordkaryanların həmiyyətlərinə (yurdsevərliyinə) toxunmuşdur.

Bir kərə baxın! Bu təhəmmül (dözməli) edilir bir hadisəmidir?!... Olurmu ki, Ukrayna, Qafqaz, Türküstan, Kuban, Krım, Kazan və sairə kimi məmləkətlər Rusiya əsarətində qalmaq istəmədiklərini çıxsınlar da bütün cahana qarşı elan etsinlər?! İstiqlal istəsinlər?!...

İstiqlal! Nə qədər kölə ruhlu olsalar, içlərindən «millətlər məhbəsində» qalmağı canlarına nə qədər minnət (borc) bilsələr də, hondkaryanlar bu şüara cəbhədən (arxadan) hücum etmənin zərərini biləcək qədər kurnazdırlar (gözüaçıqdırlar). Bunu edə bilməzlər, çünki o zaman əsrin ən məqbul, ən yüksək məfhumuna qarşı çıxmış olurlar. Eyni zamanda bu tərzdə bir çıxış özünə nə olsa da, sosialist süsü (bəzəyi, görüntüsü) verən Kerenski qəzetinin zahiri məfkurəçiliyinə də uymaz! Sonra istiqlalçılığa cəbhədən hücum Hondrakyanın mənsub olduğu milli mühafildə (dəstədə) dəxi, o qədər xoş görünməz. Çünki sözdə olsa da, bir Ermənistan istiqlalından bəhs olunur!

Bax, bu kimi mülahizələrdir ki, Hondkaryan bu çevirmə hərəkətilə işi müqalitəyə (yanıltmaca) tökərək Rusiyadakı «separatizmin» səmimi olmadığım isbata çalışır. Bu məqsədlə də o, bəzi erməni müqalitəçilərinin ötədən bəri evirib-çevirməyə alışqan olduqları «panturanizm» mövzusunu yaxalayır və silah arxadaşlarından Zarevand adlı birinin yaxında nəşr ediləcək «Türkiyə və panturanizm» adlı əsərindən istifadə edir.

Bu əsərdən iqtibas etdiyi bəzi parçalarla o, isbata çalışır ki, «Promete» ətrafında birləşən separatistlərin kökünü təşkil edən türk-tatar milliyyətçilərinin istədikləri istiqlal deyil, sadə, Rusiyadan ayrılmaq və ondan sonra Tükiyəyə qovuşmaqdır.

Bu davasını sübut etmək ücün kölelik ruhu Hondka-ryana əcaib bir metod qullandınr: məgərsə kazanlı bir «tatar» mühərririnin «ədəbi zövqünü türkcə ədəbiyyat və mətbuat oxumaq sayəsində inkişaf etdirməsi» qabairdən (şişirtmə) imiş... öylə ya! Hondkaryanlarca, dünyada yalnız bir ilham mənbəyi və yalnız bir zövq örnəyi vardır: Rusiya! Məgərsə, «Türkiyədə məşrutiyyət elanının bütün türk - tatar məmləkətlərində sevinc və əlaqə ilə qarşılandığı, qəza, əfvi caiz (bağışlanmaz) olmayan bir günah» imiş! Öylə ya, əlaqədar olmaq üçün rus məşrutiyyəti, rus nihilizmi, rus anarxizmi, rus kommunizmi varkən bu türk məşrutiyyəti, bu türk cümhuriyyəti də haradan çıxdı?!...

[2] "Odlu yurd" № 8-ə baxılacaq.

İstanbulda çıxan qəzetləri oxumağı, Türkiyədə zühur edən hürriyyət hərəkatları ilə sadə əlaqədar olmağı belə Rusiya vətənsevərliyinə qarşı xəyanət tələqqi (sayan) edən bir adamın artıq Rusiya imperializminə qarşı görülən düşmənanə vaqeləri nə surətdə qarşılayacağı təsəvvür edilsin!

Sizmidiniz müharibə əsnasında Rusiya sərhədlərini candan müdafiə etməyənlər?!... Sizmisiniz rusofil olanları Qafqaz birliyi xaricində sayanlar?... O halda görürsünüz nəticəni! Türklərin ermənilərə etdiyini rusların da sizə edəcəklərini gözləyin!

Hondkaryan köləcə etdiyi bu təhdid qarşısında yolunu caşacaq adamlar təsəvvür edirsə yanılır. Biz, istiqlalçılar davamızı əsrin ən qüvvətli şüarına istinad edirik. Rusiya imperializminin qəsb və istila nəticəsində təəssüs (yaradılan) edən sərhədlərini müdafiə bizim üçün bir qayə ola bilməzdi. Bizi bu qayəyə sədaqətsizliklə ittiham edəcək Rusiya imperatorluğu tarixə keçdiyi halda hondkaryanların bu füzuli davada israrları kölə ruhlu olduqlarını isbat üçün nə parlaq bir dəlildir!

Papadan ziyadə katolik buna deyərlər bax!

Bizim öz hüdudları daxilində qalan rus millətinə qarşı ədavətimiz yoxdur. Əksinə, ona bu xüsusda hər türlü yaxşı təmənnalardayıq. Fəqət, bununla bərabər, bizi istədiyimiz şəkildə həyatımızı qorumaqdan və mədəni həyatımıza istədiyimiz istiqaməti verməkdən mane ilə, öz gərdünəsinə (boyunbağısına) taxaraq, istismar və istila əməlində bulunan hər hankı rus imperializminə bütün varlığımızla düşmənik. Bunu biz, bu imperializmin keçmişinə və indiki halına olduğu kimi, gələcəyinə də təşmil (aid) etməkdən zərrə qədər çəkinmirik. Və əminik ki, cahan ictimai fikrilə bərabər, tarix dəxi Avstriya imperatorluğuna qarşı «xəyanət»lə Rusiya cəbhəsinə iltica (keçən) edən çexoslovakları ittiham etmədiyi kimi, bizi də ittiham etməz!

Pantürkizm məsələsinə gəlincə, fürsətdən istifadə edən yanıltmaçıların iğfal (aldatmaq) etmək istədikləri zümrəyə birdəfəlik anladaq ki, slavyan millətlərində olduğu kimi, türk irqinə mənsub millətlərdə dəxi, bir birlik məfkurəsi doğmuş və bu doğuş müəyyən bir zaman romantik bir dövr yaşayaraq, o vaxta qədər dini-islami düşünüş itiyadında (alışqanlığında) olan siyasi türk-tatar fikri üzərində daha əsri va tərəqqisevərcəsinə bir təsir yapmışdır.

Fəqət, panslavizmdən daha az real şərait və imkana malik olan panturanizm, panslavyanizmin erdiyi nəticəyə nisbətən daha az bir zamanda gəlmiş və bu gün ən koyu (qatı) panturanistlər belə, sadə bir kültür birliyini mümkün mərtəbə mühafizəyə qeyrət etməklə iqtifa (yetinmişlər) etmişlər.

Ayaz İshaki bəyin türk birliyinə və bu birliyə qarşı Türkiyə Cümhuriyyətinin vəzifələrindən bəhs edən məqaləsini qərəzkaranə surətdə istifadə edən erməni rusçuları o məqalə münasibətilə yenə Ankarada intişar edən «İnqilab» qəzetində yazılan hiddətli yazıları da görməlidirlər. Və zənn etmirik ki, görməmişlər. Ötədən bəri türkçü olaraq yazı yazan mühərrirlərin iştirakı ilə çıxdığı

halda, bu qəzetdə Əli Heydər Əmirə bəyə rəğmən, Ayaz bəyin Türkiyə Cümhuriyyətindən digər türk məmləkətlərinin mənafeyini müdafiə haqqındakı təmənnasına qarşı şiddətli mülahizələr vardı.

Ton etibarı ilə bu qədər şiddətli olmamaqla bərabər, türk milliyətçiyini irq nəzəriyyəsi sistemindən millət nəzəriyyəsi sisteminə keçirən Türkiyə məfkurəçilərinin müvəffəqiyyəti sadə, nəzəriyyəçilik sahəsində qalmamışdır[3]. Türkiyə Cümhuriyyətinin yeni həyat əsasları qurulurkən təqib olunan (yeridilən) siyasət müasir demokrasilərilə mövcud milliyyət məfhumuna tamamilə uyğundur. Dünənki panturanizm düşünüşü ilə bugünkü türkizm arasında çex məfkurəçilərindən Palatskinin anladığı panslavizm ilə Qavliçekin anladığı panslavizm arasında olduğu qədər böyük bir fərq vardır. Palatski böyük qardaş Rusiyanın idarəsi altında böyük bir slavyan imperatorluğu təsəvvür edir və çexlərin xilasını ancaq Rusiyadan gözləyirdi. Halbuki Qavliçekin bu yüksəkdən uçan xəyala müqabil təlim etdiyi məfkurə slavyanlığa sadiq qalmaqla bərabər, bir reallıq olmaq üzrə çexlərin şəxsən öz qüvvələrilə xilas olacaqları ümdəsini ortaya qoydu ki, bugünkü Çexoslovak Cümhuriyyəti, bax bu realist məfkurənin təhəqqüqü (gerçəkləşməsi) deməkdir.

Slavyan birliyi fikri Çexoslovak dövlətinin təşəkkülünə mane olmadığı kimi, türk birliyi fikri də Azərbaycanın Qafqaz Konfederasiyasına girməsinə mane ola bilməz! Palatski əyarında bir idealist bəlkə də, günün birində Çexoslovakiya da daxil olduğu halda bütün slavyan dövlətlərinin bir siyasi birlik vücuda gətirəcəklərini düşünməkdədir. Fəqət, belə bir düşüncənin mövcudiyyəti şübhəsiz Çexoslovak Cümhuriyyətinin bir həqiqət olduğunu inkar edə bilməz!

Türk birliyi üçün də belədir. Eyni irqi qərabət (yaxınlıq) nəticəsində biri-birinə yaxın hars məhsullarına malik olan türk ellərindəki müştərək qiymətləri mühafizə etməklə bərabər, ayrı-ayrı türk millətlərinin bir dövlət və cümhuriyyət halında istiqlal qazanmaq yolundakı hərəkatlarını şübhə altına alanlar ancaq rus imperializminin könüllüləri və yaxud kölələri ola bilirlər.

Azərbaycan istiqlalçılığının türk birliyi fikrindən əzəmi surətdə mülhəm olduğunu inkar etməməklə bərabər, siyasətdə realizm mütəkkidi (tərəfdarı) olan Azərbaycan milliyyətçiləri üçün bu fikrin sadə, hars (mədəniyyət) sahəsində mümkün olacağı aşikardır. Buna görə də biz müstəqil Qafqaz Konfedarasiyası fikrini zamanın ən aktual bir tezisi olaraq müdafiə edirik.

Qafqaz Konfedarasiyasını əldə etmək üçün çalışan təşkilatların ancaq Rusiya imperializminə müariz (qarşı) qüvvələrdən ibarət olaraq vücuda gəlməsi haqqındakı mütaliəmizi Türkiyə ilə iltihaq (birləşmək) niyyəti daşıdığımıza atf etmək üçün, ancaq Hondkaryan qədər Rusiya düşkünü və Türkiyə düşməni olmaq lazım!

[3] Mətbuat və kitabiyyat qisminə müraciət olunacaq.

«Rusofilliyini», yəni rus imperializminin dostu olduğunu etiraf edən Hondkaryan bu «presticin» istiqlalçılığa mühü (toxunmadığını) olmadığım dava edir və gülünc olmaq əndişəsini göstərmədən «rus işğalı Polşaya istiqlal verdi» - deyir. Söyləmək lazımmıdır ki, Polşa istiqlalçılığının rus düşmənliyi üzərində qurulduğunu bilməyən beynəlmiləl hərəkatlar tarixinə az-çox aşina tək bir münəvvər buluna bilməz!...

Hə, Hondkaryan əfəndi! Panturanizmin dünənki romantik təmsilçilərinə Qafqaz Konfederasiyasının türk fikri üçün maneə təşkil etmədiyini söylədiyiniz kimi, sizə də ruspərəstliyin Qafqaz istiqlalçılığı ilə təlifi qəbul (uzlaşdırılması) olmadığını söyləməliyik. Və sizin bir «günah» kimi göstərdiyiniz türk dostluğu isə buna qətiyyən bənzəməz! Rus imperializmilə mücadilə halında ikən siz də qəbul edin ki, qafqazlılar üçün «rusofillik» çox da müsbət bir dəstək olmasa gərək! Halbuki Rusiyanın öz milli hüdudu daxilində qalmasına candan tərəfdar olmaları lazım gələn qonşu dövlətlərə, Türkiyə ilə İrana qarşı qafqazlılar tərəfindən göstəriləcək təvəccühün (yaxınlıq duyğusunun) mənası tamamilə başqa və müsbətdir. Hondkaryanların istədiyi kimi, Türkiyə düşmənliyi üzərinə qurulan Qafqaz birliyinin bugünkü Sovetlər İttifaqına daxil Cənubi Qafqaz Federasiyasından başqa bir mənası ola bilməz! Bu məna Hondkaryan düşünüşündəki bəzi erməni siyasilərini təmin və onun rus əfəndilərini məmnun edərsə də, zənn etmərik ki, qafqazlı digər millətlərə mənsub siyasi təşkilatları, hətta erməni millətinin həqiqi və həyati mənfəətlərini dərk edən ağlı başında mütəfəkkirləri belə məmnun etsin?!

Qeyd etdiyimiz kimi, indi artıq sırf hars sahəsinə çəkilərək, mövqeyini tamamilə türk millətləri reallığına tərk edən siyasi panturanizm xəyalı üzərində rusçuluq taktikası namına spekulyasiya yapan «həqiqi rus» ermənilər nədənsə, «Daşnaksütyun» mətbuatının meydana atdığı yeni çıxan «panaryanizm»dən heç də bəhs etmirlər. «Daşnaksütyun» firqəsinin fikirlərinin rəsmi nəşri olan «Droşak»ın «aryan ocağı» və «aryan mərkəzi» təşkili haqqındakı məşhur təklifini A.Hondkaryan hər halda görmüş olsa gərəkdir. Bu «ocaq» və «mərkəz» ətrafında «Droşak»ın rəyincə: «nəcib farslar, cəngavər kürdlər, cəsur bəluclar, cəngəlli giləklər və açıqgöz ermənilər, hətta əfqan və hindlilər - aryan cinsindən bütün millətlər toplanmalı və birləşməlidirlər!»... Bu birliyin qayəsi nədir? «Aryan qövmlərinin qan içici düşmənləri [!?] turanlılara qarşı aryan millətlərindən mütəşəkkil bir birlik təsisi!». Elə bir birlik ki, Yegikyanın, əlbəttə İram sevdiyi üçün deyil, məhz, hiyləli bir manevr qullanmaq üçün bəyan etdiyi təsəvvüründə: «İranın bu birlikdəki rolu Prussiyanın Almaniya birliyində oynadığı roldur».

[Bu xüsusdakı nöqteyi-nəzərimiz mühərrirlərimizdən M. B. Məmmədzadə bəy tərəfindən yazılan «Ermənilər və İran» adlı risalədə tamamilə izah və təsbit edilmişdir. İstambul, 1927].

«Daşnaksütyun» taktikləri aryan birliyindən bəhs edərkən bu böyük planın Rusiyaya şamil olacağından heç də bəhs etməmişlər. Əcəba, bu sükut -

Hondkaryanın bizə tətbiq etdiyi metod üzrə - Ermənistanın Rusiyadan ayrıldıqdan sonra İranla qovuşmasını sübut etməzmi?

Etməz! Çünki «Droşak»çıların da, hondkaryanların da, məlul (tutulduqları) olduqları müştərək bir xəstəlik vardır ki, təqib etdikləri yanlış yol nəticəsində üzərində inad göstərdikləri türk düşmənliyi və qonşu bədbəxtliyindən ibarətdir.

Aryan birliyindən bəhsləri dəxi, bu xəstəliyin uzun sürən əlamətindən başqa bir şey deyildir. İranlıları öz qonşuları, bir sözlə qafqazlı azərbaycanlılar əleyhinə təhrik məqsədilə uydurulan bu nəzəriyyəyə, zənn etmirik ki, özləri də müsbət bir qiymət verirlər!... Qonşu bədbəxtliyinin burada da yeganə təsirli amil olduğu bizcə uzun izaha möhtac deyildir.

Fəqət, bu yolun erməni millətinə çox bahalıya mal olduğu artıq bütün cahana məlumdur. Yanlış yolun, harasından dönülürsə kardır!...

Millətlərindən ziyadə öz zövq və mənfəətləri şaikilə (üçün) hərəkət edən erməni siyasətçilərindən bir qismi millətdaşlarını bərabər yaşamaq məcburiyyətində olduğu qonşuları əleyhində macəraçıyana çıxmazlara sövq etməkdən sakınılırsa, bizcə, öz irqdaşları hesabına çox ağıllı və çox əhəmiyyətli bir hərəkətdə bulunmuş olurlar!...

"Odlu yurd" , il 1, sayı 10, dekabr 1929, İstanbul.

QISILMAYAN BİR SƏS

Mütaliənizə təqdim olunan bu qəzet müqəddəs bir cidalın (davanın) müdafiəsi üçün yüksələn bir səsi mədəni dünyaya göstərmək üzrə nəşr olunur.

Milli Azərbaycan istiqlal davasının səsi! - Budur bizə həyəcan verən bir nida!...

Bu gün Berlindən eşitdiyiniz bu səs, on ilə yaxın bir müddətdən bəri İstambuldan gəlirdi və nə qədər təbii idi. Gənc bir türk vətəninin, istilaya uğramış bir türk millətinin qəsb edilmiş haqqını və haqq etmiş (qazandığı) istiqlalını müdafiə etmək üzrə, türkcə olaraq intişar edən bir nəşrə, iltica (sığınmaq) üçün qardaş Türkiyədən də münasib bir yer təsəvvür oluna bilirmidi?!...

Yabançı rus istilasının qızıl terroru altında boğucu bir təəssüflə oxunacaq bu məqalənin azərbaycanlı mücahidlərdə doğuracağı təsir, bu sətirləri yazarkən bizi çox düşündürür. Heyrət dolu gözləri görürük soruşur: Məgərsə nə olmuş?!...

Türkiyə Cümhuriyyət hökumətinin qərarı ilə İstanbulda nəşr edilən «Odlu yurd», «Azəri-Türk», «Yeni Türküstan» məcmuələrilə «Bildiriş» qəzeti qapanmışdır...

- Xeyir, ola bilməz! Mümkün deyil.

Psixoloji, məntiqi bir inkar! - Fəqət, yazıq. Vaqeə meydanda. Həqiqət bütün çılpaqlığı ilə mövcud...acı mövcudiyyət!...

Bizi heyrətlər içərisində buraxan bu həqiqətə indi düşmən sevinir. On ildən bəri İstambuldan yüksələn Azərbaycan səsini qısdırmaq üçün əllərindən gələn hər şeyi müzayaqa (əsirgəməyən) etməyən, qəzetləri, mitinqləri, demarşları, iftiraları, hiylə və intriqarı ilə heç durmadan çalışan bolşeviklər - ruslar nə qədər məmnun!...

Nədən məmnun olmasınlar! Boğduqları gənc türk milliyətçilik, cümhuriyyətçilik və xalqçılığın etiraz edən səsi artıq eşidilməz olmuşdur. O, səs ki, sovet rejimilə yürütdüyü məlun siyasətin iç üzünü faş edir və bolşevik falşlarını üzlərinə çırpırdı. Bəli, onlar məmnun ola bilir: milli, müasir, xalqçı Türk Cümhuriyyətində milli, müasir, xalqçı Azərbaycan istiqlalçılıq məfkurəsinin səsi qısılmışdır!... Budur yaşadığımız dövrün acı təcəllisi (görüntüsü). Tarixin istehzası. Bu makus (başayaq) təcəlli qarşısında insan hərb sonu siyasi əxlaqda görünən siyasi eqoizmə açıyır!

Yazıq dövrə: beynəlmiləl münasibətə yazıq!...

Türkiyə tarixinin şanlı səhifələrindən birisini «qaçqınlar məsələsi» təşkil edir. Digər sütunlarımızdan birində «Kiçik Yan» deyə bir xatirə dərc olunur. Vaxtilə xristian və qismən də qonşuları tərəfindən parçalanmış olan irqdaşı katolik Polşada müsəlman Türkiyənin göstərmiş olduğu tarixi cestin nə dərin bir intiba (iz) buraxdığını, fotoqrafik bir şəkildə nəql edilən bu xatirə nə böyük qüvvə ilə təsvir edir!...

«Promete» məcmuəsinin sualı yerindədir: əcəba, milliyyətçi və cümhuriyyətçi Azərbaycan türkləri polyak və macar vətənpərvərlərinin Osmanlı imperatorluğu haqqında bəslədikləri xatrə qəbilindən bir təhəssüsü (duyğunu) Türkiyə Cümhuriyyəti haqqında bəsləmək imkanı tapa bilməyəcəklərmi?!...

Daha gəncik, ümid edirik. Ümid edirik ki, bulacaqlar. Düşünürük ki, özündən acı bir təəssürlə bəhs etdiyimiz bu hadisə Türkiyə Cümhuriyyəti ricalının (başçılarının) təqib etdikləri proqramdan deyil, tətbiq etdikləri taktikadan irəli gəlir. Gərçi bu qənaətdəyik ki, çox irəlilədilən bu taktikadan şəxsən proqram və ideal dəxi zərər görür.

Türkiyə də daxil olmaqla bütün cahan tarixi istiqlal mücadiləsinin nə çətin yollardan keçmək zərurətində olduğunu göstərməkdədir. Bu çox qanlı, tikanlı və enişli-yoxuşlu bir yoldur. Azərbaycan istiqlalçılarının yolu isə bilxassə sarpdır (daş-kəsəklidir). Düşmənlər onları türkiyəçilik və panturanizmlə ittiham edərlərkən, onlar Türkiyədə nələrə məruz qalırlar, səsləri qısılır. Tarixi düşmən rus imperializmini Qafqaz dağlarının ötəsində tutmaq üçün bütün Qafqaz millətlərilə birlikdə şanlı cidala can atır, fəqət, bu proqram təhəqqüqündə (hökmü ilə) ən çox əlaqədar olan cənubdakı qonşu və qardaşlarından sədrəsəfa (rahatladacaq) verəcək bir müamilə (davranış) deyil, bir təbəssüm belə görə bilməyirlər!...

Fəqət, bütün bunlara rəğmən, onlar əzmlərindən dönmür, mücadilələrindən vaz keçmirlər. Davaları haqlıdır, buna inanırlar və bu imana güvənərək nə qədər acı da olsa tarixin keçici epizodlarına köks gərirlər. Bu vaxta qədər yedikləri bir çox zərbələr kimi, bu zərbəni də əlbəttə atladacaqlar. Buna şübhəmiz yoxdur.

Azərbaycan istiqlal mücadiləsi olduğu kimi davam edir. Çeka düşərgələri mücahidlərlə dolur, əsirlər qafiləsi Solovki yollarını tutur, köylülərdən mütəşşəkkil partizanlar mücadilələrində davam edir, yeni nəsil istila rejiminin bütün şiddətlərinə baxmayaraq milli ideal arxasınca qaçır!...

Azərbaycanlılar qonşuları qafqazlılar və eyni yolda yürüyən bütün qeyri-rus millətlər Ukrayna və türküstanlılarla birlikdə qızıl rusluğun da bəyaz (ağ) rusluq kimi çökəcəyinə qanedirlər.

Hə, əsası zülm, cəbr və istismar üzərinə qurulan bu əsarət binası qəbul deyil, çökəcək. Cəbrlə gələn cəbrlə də gedəcəkdir. Bizim buna şübhəmiz yoxdur. Eyni zamanda buna da şübhəmiz yoxdur ki, bu gün Türkiyədə tətbiq olunan bu ifrat taktika uzun boylu yürüməz, dəyişəcəkdir, haqq yerini bulacaqdır.

Bununla bərabər, Azərbaycan mücadiləsini bir an durmadan bütün cahana əks etdirmək ehtiyacındayıq. Türkiyə taktikasının dəyişəcəyinə intizarən, Azərbaycan hərəkatı çox təbii olaraq səsi qısıq qala bilməz!

Bu gündən etibarən burada nəşrinə başladığımız bu qəzet, bax bu qısılmayan səsin ifadəsidir!

Berlində çıxan bu qəzet, İstanbulda qapanan qəzetlərin gördükləri vəzifəni davam etdirməklə mükəlləfdir (borcludur). Onun nə kimi bir məqsəd və proqram təqib edəcəyini ifadə üçün bir cümlə kafidir.

- Qısılmayan bir səs!...

"İstiqlal", sayı 1, 10 yanvar 1932, Berlin.

MİLLİ MÜCADİLƏDƏ SOSİAL ŞÜARLAR

«Müsavat» Firqəsincə qəbul olunan «Yeni proqram əsasları» ətrafında gedən mübahisələr bizə bu mövzunu ilham etdi.

Milli istiqlal mücadiləsində olan bir hərəkatın sosial məsələlərlə də məşğul olması caizdirmi?

İstila altında olan bir məmləkətin xilası üçün uğraşanlar bütün bir milləti birləşdirəcək ancaq siyasi və milli şüarlarla iktifa (yetinməli) etməlimidirlər?

Yaşasın istiqlal, rədd olsun istila! - sadə, bu cümlə milli bir Azərbaycan firqəsinin bircə şüarı ola bilməzmi?

Millilik toplayıcı, sosiallıq isə ayırıcı əsaslar ikən ziddləri bir yerə toplamaq mümkünmüdür?

Beləcə, mövzunu düşünürkən ilk baxımda xəyala gələn müşküllərdən ən mühümlərini təşkil edən yaman bir neçə sual!...

Mövzunu yaxşı işləmək və qavradığı bütün məsələlərə ətraflı cavablar verə bilmək üçün, şübhəsiz bir məcmuə məqaləsinin çərçivəsi dar gəlir. Bəlkə də toplamaqda olduğumuz məxəz və materialları tədqiq və tənzm nəticəsində onu da

təcrübə edərik. İndilik isə qısa da olsa, bu məqalə ilə mövzuya girən yuxarıdakı məsələlərə cavab vermək istəyirik.

Milli dava və sosial məsələ. Bu iki anlamı bir-birindən ayırmaq qəbul olsa idi, yuxarıdakı ilk suala mənfi cavab verir, «milli hərkat adamlarına sosial məsələlərlə məşğul olmaq caiz deyildir!» - deyərdik. Halbuki həqiqət belə deyildir: bir kərə «milləti»in özü ictimai, yəni sosial bir anlamdır. Milli dava da, əhatəli və ötkün bir baxışla sosial bir davadır.

Bir millət nə zaman müstəqil olur və bu istiqlalı nə üçün istəyir? Bu suallara cavab aradığımız zaman milli istiqlal davası ilə sosial məsələlər arasında ayrılıq deyil, dərin bir bağlılıq olduğunu görürük.

Bir millətin dışarıya qarşı həqiqi istiqlalı içəridəki milli hakimiyyətinin həqiqiliyilə mütənasibdir. Dövlətlər arasında «milli istiqlal» anlamının bir dövlət içindəki qarşılığı «milli hakimiyyət» sözündəki mənadır.

Azlığın çoxluq üzərindəki zülmünə, qolçomaqların əməkçiləri zorlamalarına, qüvvəlilərin zəifləri qullanmalarına, çalışdıranların çalışanları əzdiklərinə təhəmmül (dözən) edən cəmiyyətlərdə milli hakimiyyətin kökləşdiyinə qane olmaq qeyri mümkündür. İctimai bünyəsi (özülü) o və ya bu şəkildə həll edilməmiş sosial məsələlər üzündən, bir-birinə zidd mənfəətlər daşıyan düşmən zümrə və siniflərin amansız çəkişmələrilə didilən bir cəmiyyətin nə içəridə milli hakimiyyəti, nə də dışarıda milli istiqlalı qətiyyən təmin edilə bilməz.

Dışarıdan gələn bir təhlükəni bütün millətin eyni həvəs, həyəcan və fədakarlıqla qarşılaya bilməsi üçün o milləti təşkil edən siniflərin o təhlükəni eyni dərəcədə hiss etmələri lazımdır. Və yaxud başdan atılması istənilən bir istilaya qarşı bütün bir millətin ayağa qalxması üçün ayaqlandırılacaq bu millət kütləsini təşkil edən sosial təbəqələrin ümumi zəfərdən edinəcəkləri maddi-mənəvi bütün mənfəətlər əvvəlcədən bilinməlidir.

Hürriyyət, milliyyət və istiqlal kimi mücərrəd siyasi şüarlar münəvvər kütləyə xitab edən və onları inqilabiləşdirən anlamlardır. Geniş xalq təbəqələrini ayaqlandırmaq üçün sadə, şüarlar kafi deyildir. Onlar hərəkətə keçmək üçün daha maddi və sarih (aydın) şüarlar istər. Sosial şüarların xalq kütlələrini ayaqlandırmaqda siyasi şüarlardan daha mühüm bir rol oynadığı hərb sonu hadisələrində bilxassə görülmüşdür.

Kütlənin sadə, sosial şüarlar və ancaq maddi mənfəətlər saiki (səbəb) ilə hərəkətə gətirilərək inqilabiləşdirə biləcəyini çox hesaba alan inqilabçı marksizm taktikasına əsas olaraq, sinif mücadiləsini və internasional sosializmi almışdır. Eyni məktəbin məhsulu və məmləkətimizin bugünkü müstəvlisi işğalçısı olan bolşevizm dəxi - məlum olduğu üzrə - eyni məktəbin şagirdi və eyni taktikanın sahibidir. Onunca əsas, siniflər və onlar arasındakı mücadilədir. Bu isə milli deyil, beynəlmiləl bir işdir. «Millətlər isə - onun gözündə - tarixin keçici və epizodik bir hadisə və müəssisələridir. Bəşəriyyətin atlatdığı gerilik mərhələlərindən milliyyət bəlkə də həzmi çox uzun sürəcək birisidir». Bunun üçün də bu məsələ, yəni

milliyyət məsələsi, bolşeviklər üçün ikinci dərəcədə, sosial məsələyə - sinif mücadiləsi mənfəətlərinə tabe bir məsələdir [Stalinin formulu].

Həyat və təcrübə bu baxışın getdikcə daha ziyadə ruslaşan bolşevizmin yalnız işinə gəldiyini, yəni Rusiya çarlığı daxilindəki məhkum millətləri təkrar Moskva hakimiyyəti altına almaqdakı qızıl imperializmin hiyləsinə yaradığını göstərdisə də, bunun xaricində ümümi cahan ölçüsündə tamamilə əks bir qaziyəni isbat etdi: sosial məsələlərin milli mənfəət namına və milli dövlət çərçivəsində həlli padaq misallarla görülmüş oldu!

Budur İtaliya, budur Almaniya!...

Mussolininin internasional sosializm və sinif qovğası nəzəriyyəsinə verilmiş inqilabçı italyan sosialistləri içindən gəldiyi məlumdur. Bunun kimi Hitlerin təsis və idarə etdiyi partiyanın rəsmi adı «Milli Sosialist Alman Fəhlə Partiyası»dır.

Burjua rejiminin məhsulu tələqqi etdiyi milli hüdud və dövlətlər daxilində ediləcək sosial islahat təcrübələrindən radikal fayda ummayan marksizm, cahan hərbi sonunda Rusiyada partlayan kommunizm ixtilalı (inqilabı) növündən beynəlmiləl inqilablar nəticəsində «internasional sosializmin» bütün dünyaya yoluxacağını gözləmişdi. Halbuki nəticə əksinə çıxdı: sosial inqilablar bir millət və dövlət hüdudu içində vaqe oldular. Hətta Rusiya inqilabçıları belə - Stalinin şəxsində - «bir dövlət içində sosializm nəzəriyyəsini tərvic (dəstəkləmək)» zərurətində qaldılar.

Milliyyət məsələsinin tali (ikinci) deyil, ali, tabe deyil, mətbu bir məsələ olduğu - İtaliya və Almaniya kimi klassik iki misal ilə qafaya danq edər bir surətdə isbat edildi.

İtaliyada Mussolininin, Almaniyada Hitlerin bolşevizm və marksizm demaqogiyasına qapılmış fəhlə və kasıb siniflərinə xitab edən sosial proqramları və işə gəldikdən sonra bu proqramların həmən müəyyən bir plan və sistem daxilində tətbiqi xüsusunda göstərdikləri əzm və iradələri olmasa idi, nə ötəkisinin yeni Roma yaradacaq qədər iqtidarı, nə də bərikisinin Almaniyaya milli heysiyyət (duyğu) və istiqlalını qaytaracaq qədər müvəffəqiyyəti olurdu.

Münəvvərlərin milli heysiyyət, milli qürur və vətənçilik xislətinə xitab ilə bərabər, geniş xalq kütlələrinin eyni hissiyyatla bərabər həyati mənfəət və ehtiyaclarına da cavab verə bilmələridir ki, bu iki hərəkat qeyd etdiyimiz bu parlaq nəticəni əldə etmişlər.

Məsələ sadə, zamanımızın Avropa səhnəsində cərəyan edən bu iki mühüm hadisə ilə dəlilləndirilə bilməz. Əski - yeni milli bütün hərəkatlar diqqətlicə tədqiq olunursa, milli davaların sosial məsələlərlə sıx surətdə əlaqədar olduqları meydana çıxar. Amerika istiqlalı oradakı köylülərin İngiltərəyə qarşı öz məhsullarını sərbəstcə sata bilmək haqqını qazanmaq üçün başlanan mücadilənin məhsuludur. Vaşinqton bir istiqlal qəhrəmanı olduğu qədər, bir köylü üsyanının da şefidir. Monreonun «Amerika amerikalılar üçündür!...» deyə meydana atdığı şüar dəxi milliyyət davası ilə sosial şüarların bir-birinə bağlı şeylər olduğunu ifadə edir.

Yaponiyanın siyasi oyanışı onu ticarət və istismar məqsədilə zorlayan əcnəbilərə qarşı sosial bir reaksiya ilə başlamışdır.

Milli Çin istiqlalının şefi Sun Yatsenin məşhur proqramı çox əsaslı sosial məsələləri ehtiva etməkdədir.

Hindistandakı Svarac [İstiqlal] hərəkatının liderləri ingilis hakimiyyətinə qarşı siyasi mücadilə etdikləri halda, öz içərilərini gəmirən kast ayrılıqları kimi, sosial məsələlərlə də məşğuldurlar.

Hindistan kimi, Misirdəki istiqlal hərəkatı dəxi, bu ehtiyacdan vaz keçmiş deyildir. Nil vadisindəki milli hakimiyyət və həqiqi istiqlalın təmini məsələsinin fəllahlara rifah gətirəcək sosial islahlara bağlı olduğu bəhs mövzusudur.

Uzaqlara nə gedək: yanı başımızdakı Türkiyə ilə İran milli hərəkatları əcnəbi imperializminin təzyiqi altında kəskinləşən sosial məsələlərin təsirilə meydana gəlmişdir və bu gün müzəffəriyyətdən müzəffəriyyətə gedən bu iki qardaş məmləkət əldə etdikləri parlaq nəticəni davamlı qılmaq üçün bir sıra sosial məsələlərin həlli ilə məşğuldurlar. Atatürkün məşhur təbirilə «əfəndisi köylü olan» yeni Türkiyənin tətbiq etdiyi iqtisadi dövlətçilik bax bu zərurətdən doğan sosial tədbirdir. Məruz qaldığı qanlı müxalifətlərə baxmayaraq eyni Türkiyənin orta zaman feodalizminin geri müəssisələrini qaldıraraq, əsri demokratiya müəssisələrini yerləşdirməkdəki israrı da bunun üçündür.

Bəhs (söz) yaxınlarımıza gəlmişkən, zaman etibarı iiə bir az əski olsa da, mahiyyəti və müvəffəqiyyəti etibarı ilə şöhrəti hələ dillərdə dastan olan Qafqaz qəhrəmanı böyük Şamilin ortaqlı düşmən çarlıq Rusiyasına qarşı etmiş olduğu şanlı mücadilədə islamiyyətdə mövcud dini demokratiyadan faydalanaraq sərkeş (baş qaldıran) aristokratiyanı milli mücadilə iradəsinə tabe qılmaq məqsədilə sosial tədbirlərə əl ataraq, böyük feodal torpaqlarını mücahid müridlər arasında böldüyünü də xatırladırıq.

Milli istiqlal - bu bir zərfdir, məzruf (içindəki) isə - milli hakimiyyətdir. Onu təşkil edən təbəqələr arasında nisbi olsun, ictimai müvazinət və yenə nisbi olsun, iqtisadi rifah təmin edilməyən bir cəmiyyətdə isə milli hakimiyyət təsisi qeyri-mümkündür.

Sadə, siyasi deyil, həyatın bütün sahələrini ehtiva edərək həyatın sosial məsələləri də məşğuliyyət və icraatı daxilində görən əsri milliyyətçiliyin hərəkət fəlsəfəsi də budur.

Hərb sonunda istiqlalına qovuşan millətlər arasında Avropanın vaxtilə böyük dövlətlərindən birini təşkil etmiş ikən, sosial məsələlərin həllində o biri avropalılardan gec qalan və bu üzdən də daxili müvazinətini bir türlü bulla bilmədiyi üçün istiqlalını qeyb edərək bölünən Polşa istiqlal hərəkatı mövzumuz baxımından üstündə durulacaq tipik bir hərəkatdır. Bu hərəkatın digər Avropa hərəkatlarına, o cümlədən Çexoslovakiya hərəkatına nisbətlə tipikliyi biri tərəfdən siyasi aktivliyə, digər tərəfdən də beynəlmiləl sosializm cərəyanlarına qiymət verməsindədir.

Polyaklar istiqlallarını geri almaq uğrunda çox qan tökmüşlər. Bunlar hər hankı bir fürsəti qullanaraq dəfələrlə üsyanlar çıxarmışlar. Fəqət, bütün bu üsyanlar uğursuzluqla nəticələnmiş və sonuncu Pilsudski hərəkatına qədər polşalı münəkkidlərin (araşdırıcıların) təqdirlərinə görə geniş xalq kütləsini arxalarınca çəkərək, hərəkata şümullu (geniş) surətdə milli bir müvəfəqiyyət təmin edə bilməmişlər. Bunun səbəbi isə bu münəkkidlərcə, sırf siyasi şüarla edilən bu üsyanlarda xalq kütləsini bilxassə əlaqələndirəcək sosial şüarlar ihmal (unudulmuş) edilmiş və yaxud müxtəlif mərhələlərdə istiqlallarından parça - parça ayrılmağa məcbur tutulan Polşa hökuməti zəruri islahları tətbiqdə gecikmişdir.

Bu qaziyənin fərqinə varan çar hökuməti, diqqətəşayandır ki, Polşada münəvvər kütləni hər türlü milli xatirədən, hətta polyakca oxuyub-yazmaqdan belə məhrum etdiyi halda, polyak köylülərə qarşı nisbətən yumşaq bir siyasət qullanmış, daxili Rusiyadakı əsil rus köylüləri «krepostnoye pravo» deyilən əsarət altında inlərkən, Polşadan alınan vilayətlərdə kəndlinin yerli mülkədarlara və əsilzadələrə qarşı istiqlalı elan olunmuşdur ki, məqsəd kütləni milli istiqlal fikrinə və xatirəsinə bağlı polyak torpaq bəylərindən ayırmaq və onları yeni rus idarəsindən məmnun buraxmaqla, siyasi polyak millətçiliyini köksüz buraxmaq idi.

Müvəffəqiyyətsizliyə uğrayan bir çox üsyanlardan sonra qismən rus idarəsilə anlaşmağa meyil edən, qismən də siyasi inqilab fəaliyyətini buraxaraq «iqtisadçılıq» deyilən təkamül yoluna sapan münəvvər zümrə ilə burjuaziyanın passivliyinə qarşı Polşanın inqilab və aktiv istiqlal mücadiləsi tradisyasını (gələnəyini) ihmal (dağıtmaq) etmək məqsədilə işə girişən və nəticədə müvəffəq olaraq yeni Polşanın qurucusu adını qazanan mərhum marşal Pilsudski sosial davanın əsrimizdəki Kütlə hərəkatları üzərindəki təsirini təqdir edərək, fəhləyə nüfuz edə bilmək üzrə sosialistliyə intişab (keçmiş) etmiş və «Polşa Sosialist Partiyası»nın proqramına Polşa istiqlalının geri alınmasını maddə olaraq qoydurmuşdur. Polşa köylüsü ilə polşa fəhləsinin həyati ehtiyaclarına cavab verdiyi kimi, bu partiya təbii olaraq polyak kütləsini qazanmaqda onunla rəqabət edən internasional Rusiya sosialist partiyalarına qələbə çalmışdır.

İçindən sosialist və internasionalist olmayıb, daim koyu (qatı) milliyyətçi və polyak patriotu olduğu tərcümeyi-halından bütün təfərrüatı ilə sabit olan Pilsudskinin sosial məsələlərə, sosialist partiyasına şef olacaq qədər əhəmiyyət verilişindəki hikmət, şübhəsiz milliyyət davası ilə sosial məsələlərin əsrimizdəki sıx bağlılığı ilə izah edilir.

İndi də özümüzə, öz təcrübələrimizə və keçirdiyimiz siyasi həyat vaqeələrinə baxaq:

«Yeni proqram əsasları»nı radikal bulan bəzi mühacir demaqoqlar «Müsavat» Firqəsinin Rusiya Məclisi-Müəssisan seçkilərində və 1917-ci ildə Bakıda yerli sovet seçkiləri əsnasındakı kəskin müvəffəqiyyətinin sirrini qaliba (görünür) unudurlar. Unudurlar ki, o zamankı «Müsavat» proqramı da, indiki əsaslar kimi, milli davanı ön səfdə tutmaqla bərabər, sosial davanı dəxi ihmal

etməmiş, fəhlə və köylü məsələlərinə son dərəcə əhəmiyyət vermiş və onları sosialist internasionalistlərin ayaqlarını havada mayallaq tutacaq qədər radikal bir şəkildə həll etmişdir.

Bu sosial məsələləri ihmal etməyən milliyyətçi proqramı ilə idi ki, «Müsavat» Bakı kimi ixtilal (inqilab) yuvası «internasional bir fəhlə şəhərində» türk fəhləsinin tək bir səsini türk sosialistlərinə belə qapdırmamış və Qızıl ordunun siyasi hiylə və üstün qüvvətlə edilən istilasına qədər bolşevik olan müsəlman fəhlə və qeyri fəhləsi sayının bütün Azərbaycanda 300-ü keçməməsinə səbəb olmuşdu.

«Əsasları»ı sosial məsələlərdə radikal bulanların yanında bir də mövsümsüz bulanlar vardır. Məmləkət istila altındadır - deyirlər: hamımız vətən ayrısı və mühacirətdəyik. Bizi burada ancaq bir qayə, bir ideal birləşdirir - təkrar vətənə dönmək və istiqlalımızı geri almaq. Toplayıcı bu milli və siyasi şüar, yanına hankı sosial maddəni əlavə edərsiniz, istiqlalçılar cəbhəsinə ikilik gətirirsiniz ki, bu da milli qurtuluş hərəkatını işğal edər. Bu şəkildə düşünənlərin - düşüncələrində səmimi isələr - başlıca bir xətaları vardır: bir görüş xətası. Milli qurtuluş hərəkatını sadəcə vətən ayrısı mühacirlərə təhsis (aid) etmək və milli istiqlal mücadiləsinin taktika və strategiyalarını ancaq bu mühitdəki münasibət və əlaqələrlə ölçmək - böyük davanın şümul dairəsini çox kiçiltmək deməkdir.

Mühacirət, orada başlanan bir davanın buradakı təmsilçiləridir. Bu dava orada başlamış, orada davam edir və orada dəxi həll olunacaqdır. Təmsilçilik rolunu həqiqi surətdə edə bilmək üçün siyasi mühacirət [istilaha diqqət edilsin: siyasi mühacirət deyirik və bunu sıradan mühacirətdən ayırırıq] orada cərəyan edən hadisələri, dəyişən reallıqları və doğan yeni münasibət və şərtləri daim təqib və tədqiq etməli və buna görə nəbzini əlində bulundurmaq vəzifəsində olduğu potensial milli hərəkatın həqiqi ehtiyaclarına görə, mücadilə taktika və proqramlarını tənzim etməlidir.

Bu mühacirət, bilxassə bu mühacirətin ön sırasında gedən milli Azərbaycan davasının tarixi rəhbərliyini içəridən aldığı bir missiya ilə üzərində daşıyan «Müsavat mühacirəti» bütün dünyadakı hərb sonu ruhu ilə indiki ruh arasındakı fərqi və o zamankı real şəraitlə bu zamandakı şərtlər arasındakı başqalığı öz vəzifəsinə sadiq və missiyasına layiq qaldıqca ihmal edə bilməz!

O zaman dünya çətin bir hərb yaşamış, millətlər öz aralarındakı qanlı döyüşlərdən bizar olaraq çıxmışlar; bir ləhzə (az) nəfəs almaq üçün özlərini Vilsonun ağzı ilə xülasə edilən 14 maddəyə, sonra da Rusiyada partlayan kommunist inqilabının aldadıcı şüarlarına qapdırmışdılar.

O zamankı «Müsavat» proqramı əsasda milliyyətçi, istiqlalçı bir proqram olmaqla bərabər sosial məsələlərdə bəzən hətta firqənin əsil qayəsini təşkil edən milli ümdələrlə (prinsiplərlə) təzad təşkil edən ifratlara belə qapılmışdır. Zamanın ruhuna bac verilmişdir. Milləti siniflərdən ibarət olaraq almaq, əskərliyi deyil, əsas olaraq milis təşkilatını idealizə etmək, zəruri ehtiyacların ucuzlanması üçün gömrüklərin əskəri (ən aşağı) dərəcəyə endirilməsini istəmək, milli sənayenin

təşkilində məhzuri müsəlləm (əngəllər törədəcək) olan mütərəqqi gəlir vergisini qəbul etmək kimi maddələrin o zamankı proqramda yer alması, bax bu ruhiyyət haləti yə o dövrün havasını dolduran ideyaların məhsuludur.

O zaman daha sahiblərinin əlində və mülkündə olan torpaqların dövlət tərəfindən müsadirə olunaraq, havayı köylülər arasında bölüşdürülməsi tələb olunurdu. Hadisələrin hüsula gətirdiyi torpaq inqilabından sonra təbiidir ki, bu tələbin şəkli dəyişəcək, artıq xüsusi malikanələrin deyil, bolşevik kolxozlarının nə ediləcəyinə cavab veriləcəkdi.

Torpaqların altındakı dəfinə və mədənlərin dövlətə aid olduğunu vaxtilə qəbul və mütərəqqi gəlir vergisilə böyük sərmayə məhsulu sənaye müəssisələrinin dövlət əlinə keçməsini ideal olaraq arzu edən bir firqənin, indi sənayenin dövlətləşdirilmiş bir vaqeəsi qarşısında və milli dövlət mənafeyi namına milli totalitar rejimlərdə misalı varkən, hadisələrə göz yumub, bu məsələnin üstündən keçməsi necə qəbul olur?...

O zaman bir tərəfdən liberalizm, digər tərəfdən də internasional sosializm cərəyanlarının zamana hakim təsirlərinə rəğmən, milliyyətçi qalmağı bacaran «Müsavat» üçün indiki ümumi ruhdan mülhəm olaraq daha milli bir siyasət və daha təsanüdçü sosial bir sistem təsbit etmək qeyri-mümkün idi...

Bütün bu söylədiklərimizə bir xülasə verərək, müqəddimədə qoyulan suallara aşağıdakı kimi cavab verə bilirik:

Milli istiqlal mücadiləsinin müvəffəqiyyəti və onun bir kütlə hərəkatı olaraq şümulluğu üçün milliyyətçilərə sosial məsələlərlə məşğul olmaq zərurət və bu məsələləri milli davanın faydası namına həll etmək isə borcdur!

Sadə, istiqlal şüarı məmləkətin geniş xalq kütlələrini toplayaraq mücadiləyə çəkmək üçün kafi deyildir. Uğrunda mücadilə edilən «istiqlal»ın daşıdığı sosial mənanı da açmalıdır ki, milli hərəkat düşmənlərinə kütləni çaşdırmaq üçün demaqogiyaya imkan qalmasın!...

Məmləkətimizi istilası altında tutan bolşevizm, «Müsavatizm»ə qarşı etdiyi demaqogik propaqandasında «milli istiqlal demənin əski bəy, xan və ağalar dövrünün iadəsi (qaytarılması) demək olduğunu» deyib durmaqdadır. Bu demaqogiya qarşısında milli hərəkat proqramında geniş xalq kütlələrilə əməkçi təbəqələrin haqları təsrih (açıq deyilməz) edilməz və bilxassə köylü və fəhlə məsələlərində bütün qavislər (düyünlər) açılmazsa, düşmənin işini qolaylaşdırır, hər türlü iğfal (yalan) və demaqogiyaya meydan verilmiş olur. Buna meydan verməmək və sadə, bu deyil, öz tərəfdarlarına təsəvvür etdiyi milli dövlət rejiminin sosial bazalarını indidən bildirmək və onları içinə hər türlü sosial məna soxulan mücərrəd bir məfhum deyil, tarixin bu çətin ideologiyalar mücadiləsi dövrü deyiləcək zamanında hər türlü yabancı və düşmən təsirlərə dayana biləcək mətin bir ideya sistemi verə bilmək üçün, milli mücadilə partiyası müdafiə etdiyi milli istiqlal davasının sosial proqramını da mütləq verməlidir!...

Doğrudur - milliyyət şüarı toplar. Fəqət, sosial şüarların da toplayıcıları yox deyildir. Ayırıcı sosial şüarlar sinif mücadiləsini tərvic (dəstəkləyən) edən kosmopolit, internasional marksist sistemindən doğan şüarlardır. Yoxsa sinifləri vuruşdurmağa deyil, barışdırmağa çağıran təsanüdçü [solidarist] sosial sistemdən gələn şüarlar ayırmaz, toplar və bu surətlə də milli istiqlal anlamı ilə təzad deyil, tam bir ahəng təşkil edərlər!...

Düşmənimiz bolşevizm üçün milliyyət, keçisi bir taktika məsələsi isə, bizim üçün sosial islahat heç də belə deyildir. Bu özü-özünə təsanüdlü və məsud bir varlıq təsəvvür etdiyimiz ahəngdar milli cəmiyyətin həm davamı, həm də istiqlalının təmini üçün zəruri və daimi bir qayədir!...

Milli Azərbaycan Müsavat Xalq Partiyasının bülleteni, noyabr 1937, Berlin.

AÇIQ DİPLOMATİYA

Hərbi, imperatorluqlar və imperialistlər cəlb etmişdi. Gizli diplomatiya onların silahı idi.

Sülhü isə millətlər və demokratiyalar təşkil edəcəklər - açıq diplomatiya onların silahıdır.

Hərbdən sonra çox şey dəyişməli idi. Bəzi şeylər dəyişmişdir də. O cümlədən sonrakı diplomatiya metodlarında dəxi çox yaxşı təbəddüllər (dəyişikliklər) vardır. Benəlmiləl münasibət üzərində indilik avtoriteti daha bir az zəif olmaqla bərabər, Cenevrədəki Millətlər Cəmiyyətinin az-çox təsiri vardır. Bu müəssisənin varlığı bilxassə acıq diplomatiya metodlarını təşviq edər.

Hərbdən sonrakı adəmi təcavüz (hücum etməmək) müahidələri Briand-Kelloq misakı (anlaşması) və boyuna toplanan beynəlmiləl konqreslər hamısı bu metoda hörmətdən icra olunmaqdadır.

Fəqət, hərb sonu beynəlmiləl həyatda zühur edən müfrit (aşırı, radikal) cərəyanlar arasında dünya nizamı aləmi kökündən pozaraq, alt-üst etmək niyyətində olan bir qüvvə vardır ki, demokratiyanın ideya olaraq yüksəltdiyi bütün şüarları cezuitcə bir manevr ilə öz istibdadına alət etmişdir - bolşevizm!...

Hə... Açıq diplomatiya şüarından ən ziyadə bəhs edənlər bolşeviklərdir. Fəqət, digər şüarı da özlərinə məxsus bir mənada anlayırlar. Hürriyyət dedikləri zaman necə ki, onlar bütün kütlənin əsarəti üzərinə hakim sinif - fəhlə namına kommunist firqəsi ilə o firqəyə hakim qodamanların I (başçıların) hürriyyətini, ən son və vazeh (açıq-aydın) təbirilə Stalinin hakimiyyətini anlayırlarsa, açıq diplomatiya dediklərində də gizli məqsədlər güdən bir ifadə vardır.

Rus imperatorları hafi (gizli) diplomatiya ilə açıq məqsədlər güdərdilər. Sovet diktatorları isə açıq diplomatiya ilə hafi məqsədlər güdürlər.

Misal üçün uzağa getməyək. Budur, bir aydan bəri özündən hərarətlə bəhs olunan hücum etməmək anlaşması!

Başda Fransa olmaq üzrə, bolşevik hökuməti qərbindəki bütün dövlətlərlə hücum etməmək anlaşması bağlamağa səy edir. Nə qədər sülhsevər bir siyasət... Fəqət, həqiqətdə də beləmi?...Əsla!

Qızıl imperializm, əsil qayəsini təşkil edən cahanı inqilaba vermək məqsədindən vaz keçmiş deyildir. Tasarladığı (hazırladığı) beşillik planını ikmal (tamamlamaq) etmək üçün o, hər türlü müvəqqəti sakitliyə dözür ki, sırf təcavüz qayəsinə matuf (yönəlmiş) bu sənaye planını müvəffəqiyyətlə başarsın. Bu məqsədlə də o bu sırada sülhsevər bir çöhrə taxır, müvəffəq dəxi olur.

Ümumi cahan böhranı, beynəlmiləl münasibətlərdəki qarışıqlıqlar bolşevik partnyorlarına sülhçü görünmək siyasəti oynamaqda bir sıra süni faydalar təmin edir. Fəqət, ancaq süni!

Uzaq şərqdə inkişaf, imkan və ehtiyacı ilə mütənasib olmayan qabına sığmayan Yaponiya Mancuriyada fəaliyyətə keçmişdir. Yaponiyanın hədəfi sadə, Mancuriya deyildir. Sovetlər İttifaqının Uzaq Şərqi də təhlükə altındadır. Qızıl diktatorluq, bəyaz (ağ) imperatorluğun etdiyi fəci təcrübədən mümkün olduğu qədər qaçmaq istəyir. Romanov sülaləsi mühüm zərbəni Mancuriyada yemişdi. Stalin bunu yaxşı bilir. Hərbdən qaçır, bütün dünyaya sülhçü görünmək istəyir.

Fəqət, bu sırf görünüşdən ibarət manevrası ilə o, əsil məqsədini həm Sovetlər daxilindəki xalq kütlələrindən, həm də beynəlmiləl ictimai fikirdən gizlətmiş olur.

Fransa mətbuatının ifşaatına görə, Sovetlərlə digər dövlətlər arasında akt olunacaq (bağlanacaq) hücum etməmək müqaviləsinin 4-cü maddəsi mucibincə (görə), hər iki tərəf öz daxillərində digər tərəfin ərazisi və ya bu ərazidən bir qismi üzərində hakimiyyət haqqı davasında olan təşkilatlara varlıq imkanı verməyəcək. Bu maddə doğrudan-doğruya Fransada mövcud bəzi rus və qafqazlı təşkilatları qəsd etməkdədir. Fəqət, buna müqabil Rusiya nə kimi bir təəhhüd (öhdəlik) altına girir? Heç!

Üçüncü İnternasional məlum oduğu üzrə, rəsmən heç bir dövlətin ərazisi üzərində küllən (tam) və ya qismən hakimiyyət haqqı güdməməklə bərabər, hər kəsə məlumdur ki, öz inqilab təşəbbüs və propaqandasından bir an üçün qafil və fariq (əl çəkmiş) deyildir...

Biz əmin oluğumuz kimi, Sovet rejimilə bolşevizmin nə olduğunu yaxından bilən hər kəscə dəxi aşkardır ki, hücum etməmək anlaşması aktından sonra dəxi Üçüncü İnternasional namına Moskva hökumətinin təhrikləri və yardımı ilə beynəlmiləl bolşevik təhrikləri eynilə baki qalacaq və bəlkə də misakın ovuducu təsirləri altında daha ziyadə müvəffəqiyyət və qolaylıqla icra olunacaqdır.

Hə, bolşeviklər bu «açıq diplomatiya» ilə təqib etdikləri əsil gizli siyasətlərini qapamaq istəyir, bugünkü zəifliklərini sülhsevərlik kimi yüksək növdən parlaq bir örtü ilə pərdələyirlər.

Şübhəsiz həddi zatında (özlüyündə) zəifliklərindən irəli gələn bu manevri onlar istibdadları və işğalları altında tutduqları xalq kütlələləri qarşısında böyük bir

qüvvə əsəri kimi nümayiş etdirəcək, vicdanları mənəvi təzyiqlərlə əzmək istəyəcəklər!...

Fəqət, bihudə!... Gərək Sovetlər daxilindəki təzadlarla xalqın qəlbində birikən kin və gərək beynəlmiləl həyat və münasibətdəki tənaqüzlər (əksliklər) o qədər barizdir ki, bu kimi nümayişlərlə həyati zərurətlərin həll edilə biləcəyini düşünmək qətiyyən mümkün deyildir!

Daha müahidə imza edilmədən Stalin özü alman tarixçisi Lüdviqə verdiyi mülaqatında (müsahibəsində) biz yalnız hücum etməməyi təmin edirik, yoxsa Polşa hüdudlarını deyil... demişdir...

Bu təqdirdə hadisələrin gələcək inkişafı üçün təsəvvür olunan anlaşmaların imzalanmasından ziyadə, Uzaq şərqdəki hadisələrin inkişafını daha diqqətlə seyr edək!...

"İstiqlal", sayı 2, yanvar 1932, Berlin.

MÜCADİLƏNİN TAKTİKASİ

Başda Azərbaycan olmaq üzrə, Qafqazın hər tərəfindən gələn xəbərlər olduqca həyəcanlı və əndişəlidir.

Qanlı istila rejimi xalqı cana gətirmiş - hər tərəfdə müqavimətlər və üsyanlar - davam edir. Köylülər bir tərəfdən hökumətə ərzaq vermir, digər tərəfdən də fürsət düşdükcə orada-burada hökumət və partiya məmurlarına saldırırlar.

Müxtəlif mənbələrdən alınan məlumatın təsdiq etdikləri tək bir şey vardır ki, o da, bu baharda təkrar qanlı hadisələr olacağı ehtimalıdır. Bu nüsxəmizdə, hüdudu keçərək İran ilə Türkiyəyə iltica (qaçan, sığman) edən bəzi mücahidlərin hekayələri də bu təxmini təmin etməkdədir.

Qəzetimizdə qeyd olunan vəhşiliklər, terror və edamlara baxmayaraq, cana gələn əhalidə baharda böyük mövsüm vuruşmalarına meyil və hazırlıq varmış.

İstila rejiminə həm də qızıl imperializmin təsis etdiyi haqbilməz, hüquqtanmaz, hürriyyət, milliyyət və istiqlal düşməni bir rejimə qarşı qoymanın ən münasib yolu şübhəsiz müsəlləh (silahlı) müqavimət, ya ölüm və ya dirim şüarına bağlanmaqdır. Qafqaz, bax bu silahlı mücadilə taktikasını edilmişdir (seçmişdir). Bu xalqın təbii bir sövq ilə edilmiş olduğu taktikadır!...

Silahlı mücadilə taktikasının da təbii olmasının zəruri bəzi əsaslı şərtləri vardır. Bunlardan birincisi bütün qafqazlı millətlərin müştərək hərəkətidir. Bu demək olar ki, indi vaqedir. Partizanlar məzhəb və millət fərqi olmadan ümumi düşmənə qarşı birləşmişlər və aralarında indiki şərait daxilində təsəvvür oluna biləcək qədər bir təmas və rabitə vardır. Fəqət, müvəffəqiyyətin ikinci bir şərti də vardır. Bu da silahlı müqavimət və mücadilə həmlələrinin strateji zamanlara uyğunlaşdırılması zərurətidir. Bolşevik hökumətinin başı xarici və daxili bir hərb

və ya inqilab ilə məşğul olmadıqca partizanlarımızın edəcəkləri o və ya bu çıxışın zaiyatla (uğursuzluqla) nəticələnəcəyini görməmək mümkün deyildir.

Keçən məqaləmizdə Sovet hökumətinin imzalamaqda olduğu hücum etməmək müqavilələrindən ziyadə, Uzaq Şərqdə gedən hadisələrin inkişafına diqqət etmək lazımdır - demişdik. Qafqazın ümumən, Azərbaycanın isə xüsusən düşmənə zərbə endirə biləcək canlı qüvvələri bu cəhətə əhəmiyyət verməli, vaxtından əvvəl vaqe olacaq çıxışlarla düşmənin istədiyi provakasiyaya getməməlidirlər.

Düşmənin hərb hazırlığındakı planlarının ümumi sistemini təşkil beş illik planın yanında bir də mümkün olduğu qədər bir qarışıqlıq əsnasında ona əngəl olacaq, ordunu arxadan vura biləcək hər türlü canlı qüvvələri indidən imha (məhv) etmək planı mövcuddur.

Bu plan mucibincədir ki, o, Qafqaz partizanlarını adəta təhrik edərək, toqquşmaya sövq edir və dolayısı ilə meydan boşluğundan istifadə edərək, mümkün olduğu qədər orılan əzmək və məhv etmək istəyir.

Təbiidir ki, bu planında o tamamilə müvəffəq ola bilməz. Çünki onun cəbrlə əzəcəyi qüvvələrin yerinə öz zalım idarəsinin təsirilə doğan ictimai şəarit yeni qüvvələri həmən yetişdirəcəkdir - «bir damla qandan min bir mücahid doğulacaqdır!». Fəqət, nə olsa da, təhlil etdiyimiz hadisələr özünəməxsus bir hərb hadisəsidir. Hər hərbdə olduğu kimi, bu hərbdə də vaxt gəlmədən qüvvə israf etməyə gəlməz.

Bunun üçündür ki, cahan ictimai fikrini məmləkətimizdə axan qanlara və tütən (qalxan) dumanlara cəlb edərkən, mücahid qüvvələri üzərində təsirli axınların da diqqətlərini bu mühüm nöqtəyə cəlb edrik!...

"İstiqlal", 1 fevral 1932, Berlin.

BİR REJİMİN İLDÖNÜMÜ

Bundan on beş sənə (il) müqəddəm (qabaq) hökuməti tutduqları zaman bolşeviklər özləi belə uzun müddət bu mövqedə qalacaqlarına qane deyildilər.

Rusiya inqilabının əmsalı (bənzəri) Avropada görülmüş burjua deyil, sosialist inqilabı olduğunu dava ilə təsis etdiyi hökumətin proletar diktatorluğuncan ibarət olduğunu elan edərkən, Lenin bu rejimin yeganə güvəndiyi qüvvə Avropada çıxacağına inandığı beynəlmiləl cahan sosialist inqilabı olduğunu kimsədən gizlətməmiş; əks təqdirdə, Rusiyadakı hakimiyyətlərinin uzun sürməyəcəyini alelən (yüksək görəvli dilindən) söyləmişdi.

Daxili hərbin qanlı səhi ələrini yaşadıqdan və əksinqilabçı ünsürlərin təşkil etdikləri müsəlləh (silahlı) müqavimətlərini tamamilə qırdıqdan sonra, əskəri kommunizm Kronştadtda başlayan qanlı üsyanla qarşılaşmışdı. Bu, əski dövrü təmsil edən sinillərin deyil, bolşevik inqilabının istinad etdiyi zümrə içindən gələn

bir həmlə idi. Bolşevikləri iqtidar mövqeyinə gətirən qızıl qala bu dəfə əleyhlərinə dönmüş, onları yerə düşürmək istəmişdi.

Bu hadisədən sonra idi ki Lenin gözlənən cahan inqilabının gecikdiyini bəyan ilə vaxt qazanmaq taktikasını iltizam (seçdi) etdi; və əleyhlərinə dönən köylü ünsürlərinin könlünü almaq üçün məşhur «Nep» siyasətinə keçdi.

O andan bu günə qədər keçən uzun müddətdə kommunistlərin əllərindəki iqtidar ınövqeyindən istifadə edib, tək Rusiyada olsa da sosializm qırmaq haqqındakı əzmləri qoca imperatorluğun böyük bir külləsini təşkil edən köylü ünsürü tərəfindən bəzən qanlı və bəzən də qansız olaraq müxtəlif şəkillər və səhifələr ərz edən bitməz-tükənməz mücadilələrlə qarşılanmışdır.

Fanatik bolşevik oliqarxiyasının devrilən çar rejimi yerində qurduğu idarə ondan daha müdhiş bir zabitə (polis) təşkilatına istinad edər. Çarizm oliqarxiyasının dayandığı zadəgan sinfi köylü Rusiyanı əsarət altında tutar və onu müdhiş surətdə istismar edərdi.

Sözdə bu əsarət və istismarı qaldırmış olan bolşevizm isə qızıl diktatorluğun taktikasını guya fəhlə və kəndli siniflərinin ittifaqı üzərinə qurmuşdur.

Bir tərəfdən hərb, digər tərəfdən də inqilab illərində tar-mar olan Rusiya sənayesini yenidən təsis etmək və eyni zamanda bu sənayeni «sosialist vətəni» kapitalist dünyaya möhtac olmadan öz başına yaşatmaq üçün bolşevizm milyardlar tutan bir sərmayəyə möhlacdı. Məğlub Almaniya, hərb əsnasında pozulan sənayesini yenidən təmir üçün xaricdən 21 milyard para cəlb etmiş ikən, Rusiya ancaq 3 milyard çəkə bilmişdir. Halbuki dünya qitəsinin altıda birini və 140 milyonluq insan yığınını ehtiva edən bir məmələkəti «Amerika sənayesini arxada buraxacaq» dərəcədə sənayeləşdirmək məqsədi ilə tərtib olunan beş sənəlik planın fikirdən işə keçə bilməsi üçün nə qədər milyardlar lazım.

Bu milyardları edinmək üçün bolşevizmin müraciət edəcəyi yeganə vasitə vardı. Sovet İttifaqındakı köylülər diktatorluğun soya biləcəyi «müstəmləkə» burada idi. «Nep» siyasətinin köy müstəhsillərinə (əməkçilərinə) verdiyi nisbi hürriyyət və mülkiyyət haqqı baki qaldıqca köylüləri əzəmi surətdə istismar etmək qeyri-mümkün idi. Bunun üçün kollektivləşmə siyasətinə keçmək, köy ziraatını dəxi tamamilə hökumət əmrində bulundurmaq gərəkdi.

«Nep»dən əvvəlki «əskəri kommunizmi» andıran bu kollektivləşmə dövrünün yaratdığı məhşərin nədən ibarət olduğunu oxucularımız bilir.

Əskəri kommunizm sabiq zadəganlara qarşı sövq edilmiş torpaqsız və hüquqsuz köylünün «qasibləri qəzəbə uğratması» ilə başlamışdı. Kollektivləşmə isə əksinə kommunizm təcrübəsi nəticəsində mülk sahibi olmuş köylüləri bir sinif olaraq imha (ləğv) etməklə başladı.

Əskəri kommunizm köylünün passiv müqaviməti və Kronştadtın aktiv hərəkəti ilə qarşılaşaraq Lenini ricata (gen çəkilməyə) sövq etdiyi kimi, kollektivləşmə hərəkatı da bilxassə Qafqazda qüvvətlə zühur edən partizan çıxışları

ilə yenə ümumiyyətlə passiv müqavimətlə qarşılanaraq Stalinin müxtəlif manevrlərini mucib oldu.

Sovet iqtisadi siyasətinin tarixi fəhlə diktatorluğu ilə köylülər arasında bəzən çox qanlı səhifələrə tökülmək surətilə çox müxtəlif şəkillər ərz edərək, mütəmadi davam edən bir mücadilənin tarixidir.

Köylünü qazanmazsa, fəhlə hakimiyyəti Rusiyada paydar (uzunömürlü) ola bilməz. Bolşevik rejiminə normal bir yaşayış verə bilmək üçün köylü sinfinin etimadını qazanmaq və onun dostluğunu təmin etmək lazım Leninin öz tərəfdarlarına mütəmadi təlqin etdiyi fikir bu idi. İndi bolşevik diktatorluğunun 15-ci ildönümündə Kremlin milyonlarca insana müsəllət (bəla) yeni sahibləri əcəba, bu «etimad və dostluğu» qazana bilmişlərmi?...Haşa!

«Berliner Tağeblatt» qəzetinin Moskva müxbiri tərəfindən öz qəzetinə bu yubiley münasibətilə göndərdiyi məqalənin bəzi qismlərini bu nüsxədə nəşr edirik. Həddi zatında (özlüyündə) Sovetlərlə itilaf (anlaşma) tərəfdarı olan bu müxbir «dostlarının» beynəlmiləl diplomatik müvəffəqiyyətlərini qeyd etməklə bərabər, bu mühüm nöqtədə bolşevik təcrübəsinin uğursuzluğa uğradığını yazmaq zərurətindədir. Köylünün «fəhlə»yə qarşı etdiyi aktiv müqavimət hər nə qədər Stalinin təmsil etdiyi zabitə və cəbr qüvvələri tərəfindən qısılmışsa da, «rus xisləti» olan passiv müqavimət eynilə qalmışdır.

Bu bir həqiqətdir. Həqiqətdir ki, bolşevik təcrübəsi nəticəsində şəhərlərdə əski Misir ehramlarını andıran bir takım əzəmətli binalar və sənaye müəssisələri vücuda gəlmişdir. Fəqət, fironun zabitəsinin yıxıcı qırmacları altında o ehramlara daş daşıyan qullar kimi, Rusiya köylüsünün dəxi sovet ehramlarından faydalanmadığı bir həqiqətdir. O qədər həqiqət ki, zavallı köylü ağzındakı bir dilim siyah (qara) çörəyi əlilə verdiyi halda ən zəruri fabrik əmtəəsinin üzünü görməkdən məhrumdur.

Sovetlər İttifaqındakı müstəhsil (açı çəkən) xalq keçirdiyi müdhiş səfalət və çəkdiyi bu qədər əzab və məşəqqət nəticəsində yaxşı bir gün və rifahlı bir həyat görə bilmək ümidini tamamilə itirmişlər. Dünyanın hər tərəfində ictimai nizamı idarə edən başlıca amil ümid ilə qorxudur. Sovetlərdə birinci amil ortadan qalxmış, onun da yerini ikincisi tutmuşdur. Bunun üçündür ki, orada həyatı yürüdən və rejimi tutan yeganə qüvvə ancaq terrordur.

Rejimin 15-ci ildönümündə belə bir qorxu amili Sovetlərin ilk təsis edildiyi günlərdə olduğu qədər təsirlidir. Milyonlarca insan sadə siyasi deyil, insanların dini və iqtisadi həyatlarına mütləq surətdə hökm edən qəddar bir istibdadın qurbanı və onun istinaf qəbul etməyən (hüquq tanımayan) keyfi əmrlərinə itaət etməklə mükəlləfdir.

Bu məcburiyyət sadə fərdlərə deyil, millətlərə də aiddir. Proletar diktatorluğu demək, bilxassə köyün şəhərə tabeliyi deməkdir. Mərkəzi Rusiyada köylü rus ilə şəhərli rus münasibəti şəklində olan bu tabeçilik mərkəzi Rusiya ilə Sovetlər İttifaqındakı qeyri-rus məmləkətlər arasında təbiətilə - sənayecə daha az

inkişaf etmiş olan qeyri-rus məmləkətlərin Rusiyaya tabeçiliyi şəklini almışdır. Sözdə öz iradələri ilə Sovetlər İttifaqına daxil olan milli cümhuriyyətlər, gerçəkdə misli dünyanın heç bir müstəmləkəsində görünməyən müdhiş bir istismara məruzdurlar.

Əgər benefsih (çökmüş) Rusiyasını təşkil edən Velikorusiya daxilində rus köylüsü başına keçən bu müdhiş rejimə qarşı sadə, passiv bir metodla qarşı gəlirsə, Qafqaz, Türküstan və Ukrayna kimi rusdan olmayan məmləkətlərdə bu passiv müqavimət, çox zaman qanlı qiyamlar şəklində aktiv bir şəkil almaqdadır.

Türkiyəli rəfiqələrimizdən bəziləri yubiley dövrünü təşkil edən müddətin əhəmiyyətinə baxaraq, böyük qonşular ilə «tarixi dostlarının» müvəffəqiyyətindən bəhs və onu bu münasibətlə təbrik etdilər. Bu qəzetlərə görə, Rusiya inqilabı əvvəlki cahanhşümul davasından sərf-nəzər etmiş, indi bütün himmətini Rusiya hüdudları daxilindəki icraata atf (yönəlmişdir) eyləmişdir.

Bir dəfə Sovet diktatorluğuna atf olunan bu məhdud məqsəd özünü ovutmaq qəbilindən yanlış bir anlayışdır. Bolşevizm beynəlmiləl bir dava ilə doğulmuş və bu davasından qətiyyən sərf nəzər etməmişdir. Lenin cahan inqilabının yardıma gələcəyini düşünmüşdü. Fəqət, Stalin cahan inqilabına yardım etməyi düşünür. Bu gün yer üzündə cahangirlik dininin bir məbədi varsa, o da Moskvadadır. Beş sənəlik plan hərbi bir təcavüz məqsədilə cızılmışdır. Bundan başqa bugünkü halı ilə belə «rus inqilabı» öz hüdudu daxilində qalmamışdır. 140 milyon nüfuzdan (əhalidən) yarısı rus deyildir. Azərbaycan da daxil olduğu halda, Qafqaz və sonra Türküstan, daha sonra Ukrayna, Edil-Ural, Krım kimi məmləkətlər Rusiya hüdud və məmləkəti deyə tələqqi edilə bilməzlər!

Hə, çar diktatorluğu süni surətdə milyonlarca insanı və onlarca millətləri necə öz cəbr və istilası altında tuturdusa, bolşevizm diktatorluğu da eyni surətdə hərəkət edir.

Çarizmdən canı yanan köylülərlə millətləri, birincilərə torpaq, ikincilərə də istiqlal vəd etmək surətilə iş başına qolaylıqla gələ bilən macəraçılar on beş sənəlik təcrübələrilə nə müdhiş bir yalançı olduqlarını alelən (on yüksək səviyyədən) göstərmiş, təsis etdikləri iqtisadi və siyasi rejimlə köylünün də, millətlərin də hürriyyət və istiqlalını göz görə çalmışlar.

On beş sənə əvvəl yüksək ideya qüvvəsini istismar etmək surətilə qurulan bu rejim, indi ancaq cəbr və istibdad qüvvəsilə dayanan bir zülm idarəsi halına gəlmişdir ki, bu növdən bütün idarələr kimi. o da gec-tez çökməyə məhkumdur. Sadə, on beş sənə deyil, daha uzun müddəllərcə yaşamış idarələr belə, bu müqəddər aqibətdən (alın yazısı) qurtula bilməmişlər.

"İstiqlal", 6 dekabr 1932, Berlin.

ƏSKİ NƏQARAT

(Bütün və parçalanmaz Rusiya)

Milyukovçular hay-haray qopardılar. «Poslednіye Novosti» qəzeti «Bütün və parçalanmaz Rusiya» əleyhinə yeni bir sıra «sui-qəsdlər»dən bəhslə «iftira və iftiraçılar» haqqında yeni bir qələm səfəri açdı. Bu qəzet, indi, son zamanlarda daha ziyadə qüvvətlənən kazak və Ukrayna istiqlalçılarından tutaraq «Promete» cəbhəsindəki bütün milli hərəkatlara aid həyəcanlı məqalələr yazır

Mürtəce çar imperializminin bu liberal varisi bu dəfəki yazısına adəta əskəri bir şəkil vermiş və işə məşhur «Bütün və parçalanmaz Rusiya» şüarının məşhur qəhrəmanı general Denikinin sonu saldatca təhdidlə bitən bir məqaləsilə başlamışdır.

Sadə rusdan olmayan millətləri deyil, özündən ad etdiyi cəmiyyətlərin də Rusiyadan ayrılmaq üzrə olduğunu görən generalın özünü anlarız - dərdi böyükdür. Rus birliyini gözətməklə mükəlləf siyasi zümrələrdə dəxi, o, - rusluq namına - faciəli bir zaf (hücum) görür. Sağ cinahdakı rus nasionalistləri «hər hankı vasitə ilə olursa olsun bolşevizmdən xilas» - deyə, Rusiyanı parçalamağa mütəvəccih (çalışan) əcnəbi intriqalarını xoş görür; «Ukrayna oyunu» ilə oynayırlarmış.

General Denikin bu məqaləsinə özü biçimindəki rus ricalı (başçıları) üçün xarakterik bir ünvan vermişdir.

«Civar vilayət məsələsi».

Hə, «parçalanmaz Rusiya» şüarının bu silahlı müdafiəçisincə Rusiyada milliyətlər yox, sadə civar vilayətlər məsələsi vardır.

Rus inqilabının ilk sənələrində çar ordusu enkazından (qalıqlarından) bir qismini bəyaz (ağ) ordu adı ilə yenidən təşkil edərək, qızıl Moskva üzərinə sövq edən Denikin eyni zamanda «Cənub hökuməti»nin də rəisi idi.

Bu hökumət dəxi, eynilə rəisi kimi, milliyyət məsələsini anlamamış, o zamankı federasiya şüarını ta kökündən rədd etmişdi.

Bəyaz rusların o zaman özlərinə məxsus kor bir inadla rədd etdikləri bu şüarı düşmənlər qızıllar çox məharətlə qullandılar. Millətlərdən bir çoxunu o zaman federasiya rabitəsi təmin edirdi. Bolşeviklər daha irəli getdilər: «federasiyamı? - istərsiniz ayrılın belə!» - dedilər və qazandılar. Hadisələri görə bilməyər kor vəhdətçilik istər-istəməz - qeyb etdi. Mövqeyini daha kurnaz (gözüaçıq) tabiyəçilərə (strateqlərə) qapdırdı.

O zamandan indi on beş ildir keçir. Sabiq Rusiya imperatorluğuna daxil olan millətlərdən bir qismi tamamilə ayrılmış, istiqlallarını edinmiş. «Millətlər Cəmiyyəti»nə girmiş, beynəlmiləl bir həyatla fəxr və müräffih (xoşbəxt) olaraq yaşayırlar. Bolşevik Rusiya əsarətində qalanları dəxi. mənən və feilən (gerçək) deyilsə də, ismən və rəsmən bir hökumət halına gəlmiş, iç etibarı ilə boş olsalar da, milli bir zərfə (quruluşa, hakimiyyətə) malikdirlər. Eyni zamanda da bu cümhuriyyətlərə mənsub milli qüvvələr gizli surətdə daxildə, açıq surətdə xaricdə,

öz istiqlallarını tamamilə ələdə etmək üzrə çox böyük bir ümid və həyəcanla çalışır, çarpışır və sovet rejiminə qarşı «imperatorluğun əsil kütləsini təşkil edən velikoruslardan daha ziyadə bir cəladət (igidlik) və rəşadətlə yürüyüb gedir, istiqlal uğrunda qan axıdaraq böyük bir hərəkatı təmsil edirlər.

Nəticədə hər zaman ancaq süncü və zor qüvvəsilə duran rus imperatorluğunun bolşevik rejiminin süqutu üzərinə bır daha qurula bilməyəcəyi fikri zeyinlərə yerləşir; rusların etnoqrafiya etibarı ilə özlərindən saydıqları Ukrayna ünsürü içində dünən ruslarla bərabər gedən ömürlərdə belə, ayrılmaq və Ukrayna istiqlalına xidmət etmək əzmi gündən-günə kökləşir. Siyasi orientasiya və ictimai məfkurə hesabı ilə müxtəlif cərəyanlarla təmsil olunsa da, Rusiyadan ayrı müsətqil bir Ukrayna dövləti təsis etmək qayəsi beynəlmiləl bir qiymət və əhəmiyyət kəsb edir.

Sadə, ukraynalılar deyil. Romanov imperatorluğunun dəstəyini təşkil edən kazaklar arasında belə iftirak (ayrılma) və istiqlal cərəyanları vardır. Bu cərəyanlar genişlənir.

Denikini mövzusundan bəhs edilən məqaləni yazdırmağa sövq edən amil zatən bu Ukrayna məsələsi ilə bu kazak məsələsidir.

İş o yerə gəlmişdir ki, sabiq çar səfiri və nazirinin katibi olan iki rus diplomatı, mənşə etibarı ilə ukraynalı olduqlarını duyaraq. Londonda ingiliscə aylıq bir məcmuə çıxarır və yüksək London mühafilinə (vəzifəlilərinə) yol bularaq Ukrayna hərəkatı lehində qayət müsaid (əlverişli) bir cərəyan doğururmuş.

Sabiq rus diplomatı Krestovets [artıq ukraynalılığını dərk etmiş olan bu çar diplomatı] - general Denikinin anlatdığına görə bütün bu təşəbbüslərində Don, Kuban və Terek vilayətlərinə mənsub məşhur kazak atamanları ilə birlikmiş; eyni zamanda siyasi bəzi rus zümrələrinin də hüsnü təvəccöhünü görürmüş.

General rus milliyətçilərinə mənsub «Vozrocdeniye» qəzetindən aldığı sətirlərlə bu zümrənin general Miller rəyasətindəki əskəri rus təşkilatı olduğunu telmih (üstüörtülü) edir.

İngilislər vaqeələr qorxuncdur deyərlər. Denikini qorxudan vaqeələr həqiqətən də qorxuncdur. Cahan məsələlərini Rusiya hesabına həll etmək fikri heç bir zaman beynəlmiləl planlardan əskik olmamış, müxtəlif dövrlərdə müxtəlif şəkillər ərz edən bu plan, milyukovçulara görə, bu günlərdə, bolşeviklərin süqutu yaxınlaşdıqca daha məxsus olur; Avropa paytaxtlarında Rusiyanı parçalamaqla uğraşılırmış.

Denikin bu dəfə gec qalmaq istəmir, ehtimal olunan hadisələr qarşısında milliyyət məsələsindəki bugünkü duyuşunu ortaya tökür. Rica edirik gülməyin: o, artıq federalistdir. O qədər federalist ki, Rusiyadan ayrılmış olan millətləri belə zorla təkrar bu kayıt (hakimiyyət) altına almaq niyyətində.

Hətta Finlandiya ilə Polşa istiqlalını müstəsna olaraq lütfən tanıdığı halda, elə düşünür ki, Polşa üçün belə ən çıxar yol təkrar, gələcək yeni Rusiya ilə konfederasiya yapmaqdır.

Denikinin tezisini müdafiə üçün söylədiyi sözlərdə təbii olaraq diqqətəşayan bir yenilik aramırıq. Bu sözləri illərdən bəri rus imperialistlərinin hər türlüsündən min bir dəfə eşitmişik. Tarix, iqtisadiyyat, siyasət və bilxassə sevqiyat (strategiya) bunu əmr edirmiş. Təzədən bu millətlərə Rusiya əlində olmaq müqəddər imiş (alınlarına yazılıbmış). Nə acı bir tale!...

İndi düşünsünlər, milli rəhbərlər, milli hərəkatları sövq edən təşkilatlar, vaxt keçirmədən özləri həll etsinlər: «Gələcəkdə hürr Rusiyanın mürəkkəb (birləşmiş) bir hissəsi olaraq qalmağını istərlər, yoxsa «Sovetlər İttifaqı» deyilən bolşevik qazanında qaynamaqmı?».

General, üçüncü yol yoxdur - deyir. Nə fəci bir dilemma!

Fəqət, yaxşı ki, bu faciələr milyukovçuların öz yazıları, əndişələri və vaqiəni təhlillərilə bərtərsfdir (dağıdılır).

Bu yazılardan fürsət bulduqca irəlidə bəhs edərik. İndilik generala da, vəziri Milyukova da, deyirik ki:

Yenə yanılır, yenə hadisələr arxasında gedirsiniz. Yeni peşmanlığa məhəl vermədən, məsələ indidən həll edilməli, millətlərin haqqı tanınmalı, müasir istiqlal şüarına qeyd-şərtsiz hörmət edilməlidir!

Bilirik: siz bunu edə bilməzsiniz, təbiəti dəyişmək zordur. Qozbeli qəbir düzəldər.

Fəqət, əminik: bolşevizm düşüncə - siz bunu istəsəniz də, istəməsəniz də hamısı birdir Rusiya parçalanacaq və dünyanın bu geniş qitəsindəki əsir millətlər bu dəfə artıq əbədiyyən qurtulacaq, öz müqəddəratlarına sahib, hürr və müstəqil olacaqdır.

"İstiqlal", 20 dekabr 1932, Berlin.

DEMOKRATİYA VƏ SOVETLƏR

Uzaq Şərqdəki gerçək hərb silahdan boşalma konqresinin bir sənədən bəri müsbət heç bir nəticəyə gəlmədən yerində sayıb durması, cahan iqtisadiyyatındakı böhran və bu üzdən beynəlmiləl münasibətlərdə çıxan ixtilafların getdikcə artması, «Millətlər Cəmiyyəti»nin bu ixtilaflar önünə keçə bilməkdəki acizliyi, bir tərəfdən Versal nizamını tutan dövlətlər, digər tərəfdən də bu nizamı dəyişmək isətəyən «revizionist» millətlər arasında hərbi-ümumi önündə olduğu kimi, edilən zümrələşmələr nəticəsində beynəlmiləl cahan vəziyyəti olduqca müşəvvəs (qarışıq) bir hala girmiş ikən Almaniyada iş başına gələn Hitlerizm ortalığı tamamilə vəlvələyə verdi.

Bu hadisə qarşısında Fransa diplomatiyası tələşlı hərəkətə keçdi. Çünki hitlerçilərin Versal nizamına qarşı elan etdikləri doktrin əvvəl əmrdə Fransaya qarşı çevrilmişdir, çünki Almaniya milliyyətçilərinin sayları ilə mütənasib ərazi

bulmaq davası ilə hüdudlarının genişləməsini istəyən tələbləri Fransanın müttəfiqlərini əlaqədar edir.

Hitlerçilərin zəfəri münasibətilə beynəlmiləl siyasət aləmində görünən əsəbilikləri burada əhatəli surətdə xülasə edəcək deyilik. Sadə, qeyri-təbii bulduğumuz bir-iki kombinasiya üzərində durmaq istəyirik; nəyə şahid oluruq?

Hərb təhlükəsinin önünə keçmək üçün Fransa Cümhuriyyəti Sovet hökumətilə görüşür, mədəniyyət və sülh naminə bu məfhumun ikisinə də candan ədavət bəsləyən bir qüvvətilə anlaşılmaq istənilir. Qəribə deyilmi?!...

Daxildə və xaricdəki düşmənlərinin qənaətincə, hitlerizm, demokratiya rejiminin müxalifi olaraq iş başına gəlmiş, təsisinə başladığı idarə İtaliyada olduğu kimi, faşist diktatorluğu imiş, müxaliflərinin tələqqisinə (baxışına) görə, təhlükə sadə, hürriyyət və demokratiya prinsiplərinə deyil, eyni zamanda beynəlmiləl sülh dəxi qorxu altındadır.

Avropa sosialist partiyaları ittifaqından ibarət olan İkinci İnternasional icraiyyəsi nəşr etdiyi bir bəyannamədə bütün cahan fəhləsini bu təhlükəyə qarşı çıxmağa dəvət edir, bu xüsusda Üçüncü İnternasional ilə birləşmək təklifində bulunur Hürriyyət və demokratiya prinsiplərini Hitlerə qarşı müdafiədə Stalindən yardım istəyir, qəribə bir müraciət deyilmi?!...

Fəqət, günün qəribəlikləri bu qədərlə qalmır. Kommunistlərin özləri belə, indi hürriyyət və demokratiya müdafiəçiləridirlər. Təbii, Sovetlərdə deyil, Almaniyada, Sovetlərdə isə qanlı diktatorluq bütün şiddətilə davam edir, daha dünən 35 adamı mühakiməsiz qürğüşüna düzdülər. Sadə, rus təbəələri deyil, əcnəbilərin belə canları güvəndə deyildir, bu üzdən İngiltərə ilə inkita (ilişkilərin kəsilməsi) hazırlanır.

Sovet hökuməti cahan sülhünü təmin işində nə dərəcədə əmniyyətsiz bir müttəfiq isə, bolşevizm də hürriyyət və demokratiya rejimini himayədə o dərəcədə mənfi bir qüvvədir. Hər nəyə qarşı olsa da, hürriyyətlə istibdadın, demokratiya ilə diktatorluğun bir araya gələrək ülfət edəcəklərinə inanılmaz.

Üçüncü İnternasional bütün propaqandası və hər türlü imkanları ilə hər tərəfdə daim sadə milli qüvvələri deyil, eyni zamanda hürriyyət və demokratiya fikirlərini dəxi, hırpalamış diktatorluq fikrinin başlıca mürəvvisi (yayıcısı) olmuşdur. Almaniya cümhuriyyətçiliyinin məlum təbirilə, Veymar rejiminin ən böyük düşməni kommunistlərdi. Üçüncü İnternasionalın bütün himməti bu rejimin dirəyini təşkil edən Almaniya sosial-demokratlarını qırmağa mütəvəccih (yönəlmişdi) idi: hərb sonu böhranının doğurduğu ümumi səbəblərdən başqa Versal nizamının məğlub Almaniyaya etdiyi təzyiqlərlə ümumi səfalətə məruz qalan bu məmləkətdə diktatroluq ideyasını xalq kütlərləri arasında kommunistlər qədər yayan ikinci bir zümrə yoxdur. Hitlerizm, hər şeydən əvvəl kommunizm demaqogiyasına qarşı kaymaq üzrə doğulmuş bir ideyadır. O, faşizm kimi, öz müxaliflərindən diktatorluq fikrini almış, fəqət, ondakı internasionalizmi nasionalizmi dəyişdirmişdir.

Bizcə, ehtimal olunan hər hankı bir beynəlmiləl toqquşmada milli mənfəətlərin zəruri müdafiəsi üçün diplomatik bir kombinasiya olmaq üzrə, Sovetlərlə anlaşmaq taktikası ağlabatan görünməməklə bərabər, anlaşılırsa da, sırf hürriyyət prinsiplərinin himayəsi üçün Moskva diktatorlarına güvənmək qətiyyən anlaşılmaz!

Sosializmin əski nəzəriyyəçilərindən Kautski haqlıdır. Demokratiya ilə diktatorluğun bir arada itilafı mümkün deyildir. Bu diktatorluğun mövzusu nə olsa da, qəza eynidir.

Ümumi cahan sülhünün olduğu kimi, ümumi cahan demokratiyasının da ən böyük düşməni yenə Moskvadadır.

İkinci İnternasionalın baş katibi Adler ilə etdiyi münaqişədə Kautski Üçüncü İnternasional ilə birləşmək təklifini kökündən rədd edərək deyir ki:

«Fəhlələrin vəhdətini işğal edən düşmən Moskvada oturur. Moskva ilə sosialist fəhlələr arasındakı təzad, təsadüfi deyildir, o, diktatorluq sistemilə sosialist fəhləsinin əsasən qəbul etmiş olduğu demokratiya sistemləri arasındakı təbiəti əşyadan doğan normal bir nəticədir. Bütün cahan fəhləsi cəbhəsinin yenidən birləşməsi ancaq Rusiyaya bəla olan diktatorluğun süqutu ilə mümkündür. Kommunist diktatorluğunun Rusiyada devrilməsi deyil, bütün cahan fəhlə hürriyyət hərəkatına zərər verən şey, əksinə bu diktatorluğım orada davam edib durmasıdır».

Bəli, bu bir həqiqətdir. Həqiqətdir ki, Rusiyadakı diktatorluğun maddi və mənəvi təsirilə hər tərəfdə sinif diktatorluğu təşəbbüsündə olan kommunizm cərəyanları məlum səbəblərlə böhranlar içərisində olan milləllərdə - istər-istəməz - diktatorluq ideologiyasını daşıyan müqabil qüvvələrin doğulmasına səbəb olur və bu surətlə, bilxassə hərbdən məğlub çıxan millətlərdə özlərini qorumaq əndişəsilə milli diktatorluq cərəyanları qüvvətlənir. Bu «nəticə diktatorluğa» qarşı mücadilə etmək üzrə, o «səbəb diktatorluğu» qüvvətləndirmək qədər çaşqın bir hərəkət təsəvvür oluna bilməz.

Əgər milli davalarını fəlakətlərinin səbəbi olaraq gördükləri demokratiya sistemli dövlətlərə qarşı müdafiə etmək zərurətilə demokratiyanı inkar vadisinə sapmaqda olan alman kimi millətlər üçün psixoloji bir izan (anlayış) varsa, qızıl rusluğa və diktatorluq sisteminə qarşı mücadilə edən bizim kimi millətlərə demokratiya ideologiyasına sarılmaq qədər təbii bir şey ola bilməz.

Milli istiqlal qayəsini və milli mənlik fikrini şiddətli mənimsəyən faşizmlə istiqlal və milli mənlik naminə vuruşan millətlər üçün sözün beynəlmiləl mənası ilə zəmin və zamana görə bir anlaşma imkanı qeyri varid deyildir, fəqət milli istiqlal davası ilə hürriyyət və demokratiya sistemi arasında sıx bağlılıq duyan Rusiya əleyhdarı milli istiqlal hərəkatları üçün sosialist ideologiyasını daşısalar belə, Moskva diktatorluğu ilə birləşənlərə qarşı hüsnü rəğbətlə baxmaq imkanı heç bir vəchlə varid ola bilməz!

Hə, Rusiya imperializminin hər hankı rəngdə olursa olsun bulunduğu cəbhə heç bir zaman Rusiya əsarətindəki millətlərin olduğu birləşmiş bir cəbhə ola bilməz!

Cahanın xətərli və əndişəli günlər içərisində olduğunu biz də təqdir edirik. Dünyanın çıxacaq yeni hərb təhlükəsi qarşısında duyduğu iztirabı şübhəsiz biz də duyuruq; fəqət, rus istilası ilə kommunizm diktatorluğunun nə olduğunu şəxsən üzərimizdə edilən qanlı və vəhşətli təcrübələr nəticəsində çox böyük acılarla duyduğumuzdan, nə sülhün, nə də hürriyyətin Rusiya qüvvəti və kommunizmlə itilaf (uzlaşma) surətilə müdafiə edilməyəcəyini dəxi iki dəfə iki dörd edər kimi, mühəqqəq (qəti) bilirik.

Onun üçündür ki, yolumuz aydın və taktikamız aşkardır.

Demokratiya - ideologiyamız, Sovetlərsə - düşmənimizdir.

"İstiqlal", 20 mart 1933, Berlin.

ORTAQLI BİR GÜN

«Azərbaycan istiqlalçılığının kökü Azərbaycan türkünün rus çarizminə qarşı davam etdirdiyi milli kültür uğrundakı mücadiləsidir». Bu mücadiləni o, yalnız başına deyil, onunla eyni bəlaya mübtəla olan digər türk ellərilə bərabər olaraq davam etdirirdi. 1905-ci ildə Nicnidə intiqal (keçirilən) edən «Müsəlman İttifaqı» konqresində Azərbaycan təmsilçiləri fəal surətdə iştirak eləmiş; 1917-ci ildə Moskva konqresində dəxi azərbaycanlıların çox mühüm rolları olmuşdu. Çarizmə qarşı mücadilələrində Azərbaycan türkləri Krım, Kazan və Türküstan türklərilə ortaq çalışmışlar. Milli mədəniyyət xüsusatının rus təcavüzündən mühafizəsinə yönəlmiş mücadilədə Rusiya müsəlmanları birlikdə hərəkət eləmiş, kar və ziyana daima şərik olmuşlar».

«28 may 1918-ci ildə elan olunan Azərbaycan istiqlalı, 1917-ci ilin mayında Moskvada münakid «Ümumrusiya müsəlmanları qurultayı»nda elan olunan milli-məhəlli muxtariyyət prinsipinin təkamülündən başqa bir şey deyildi».

«Azərbaycan istiqlalçılığı Rusiya əsarətindəki türk elləri istiqlalçılığının pişdarı (öncülü) idi. Bu etibarla 28 may yalnız Azərbaycan istiqlalçıları nəzərində deyil, Rusiya əsarətinə qarşı qiyam edən bütün türk elləri nəzərində də möhtərəm bir cidal (dava) günüdür».

28 may 1926-cı ildə çıxan «Yeni Qafqaz» məcmuəsinin baş məqaləsindən aldığımız bu sətirlərlə bizə məxsus dərc olunan «Qardaş səsləri» nə qədər əhəgdardır.

Türküstan milli hərəkatının möhtərəm təmsilçisincə: «28 may Rusiya əsarətindəki bütün türklər üçün ümumi bayram olmalıdır».

«Edil-Ural İstiqlal Komitəsi»nin rəisi isə, 28 mayı «yalnız azərbaycanlılar üçün deyil, Rusiya əsarətindəki bütün türk elləri üçün» yeni bir dövrün başlanğıcı olaraq alır və onu Rusiya əsarətindəki bütün türk ellərincə sayğılı «böyük bayram» olaraq tələqqi (anlayır) edir.

«Yeni Qafqaz» Azərbaycan istiqlalçılığının kökünü milli kültür uğrundakı mücadilədə bulurdu. Ayaz İshaki bəy də milli kültür əsəri «Tərcüman» bayramı ilə milli siyasət əsəri «28 may» arasında sıx bir əlaqə görür. «Tərcüman»ın kültür sahəsində etdiyi işi «28 may» siyasət sahəsində etmişdir. «Tərcüman» Rusiya əsarətindəki türkləri «millət» halına qoymaq istəmiş, «28 may» isə bu məqsədin ancaq dövlət olmaqla hasil olacağını elan etmişdir.

Bu tərif doğrudur. «Tərcüman»la «28 may» arasında rabitə dərindir. Rusiya türkləri arasındakı siyasi fikir cərəyanları tədqiq olunursa görülür ki. azərbaycanlıları 28 mayda öz istiqlalını elana sövq edən siyasi cərəyan sadə. Azərbaycanı deyil, bütün türk ellərinin dəxi bu nəticəyə gəlmlərini düşünürdü. 1917-ci ilin mayında toplanan «Ümumrusiya müsəlmanları quru tayı»nda yeni Rusiyanın milli-məhəlli muxtariyyət əsası üzərinə müstənid (dayanan) qoşma xalq

cümhuriyyəti şəklində qurulmasını tələb edən Azərbaycan deleqatları sadə, Azərbaycan üçün deyil, digər türk elləri üçün də milli-məhəlli muxtariyyət istəmişdilər. O zamankı şəraitə görə, «muxtariyyət» şəklində vaqe olan bu tələbdə şübhəsiz istiqlal davası saxlı olaraq vardı.

O zaman böyük münaqişələri cəlb edən bu proqramın sonrakı hadisələrin sövq və zərurətilə tətbiqinə başlanmış, fəqət, Ayaz bəyin də qeyd etdiyi kimi, bəzi mühüm amillərin, o cümlədən türk ellərində və aralarındakı hazırlıq, təşkilat və rabitə nöqsanlığı üzündən bu tətbiqat yarımçıq qalmış, bu dəfə bolşevizm şəklində zühur edən rusluq təkrar bu qardaş elləri istila etmişdir.

Bu istilaya qarşı sənələrdən bəridir ölüm-dirim mücadiləsində olan türk elləri artıq billurlanmış bir proqrama malikdirlər. Əllərində milli istiqlal bayrağı vardır. Bu bayraq altında çarpışır, onun zəfəri üçün iztirab çəkirlər.

Rusiya imperializminə qarşı istiqlalları uğrunda çarpışan türk ellərı təbii olaraq, bu mücadilədə özlərinə müttəfiq arayır və bunlarla sıx-sıx bağlanmaq istəyirlər.

Bu məqsədlədir ki, onlar «Promete» cəbhəsinə girir, sadə türk ellərilə deyil, Rusiya imperializminə qarşı vuruşan bütün millətlərlə də əl-ələ verirlər. Və bu məqsədlədir ki, bu ellər siyasi taktikanın həqiqi ehtiyaclarını dərk edərək, Azərbaycan Cümhuriyyətinin Qafqaz Konfedarasiyası zümrəsində mühüm rol oynamasını candan özləyir və onu hər vəsilə ilə alqışlayırlar. Krım milli hərəkatının qiymətli təmsilçisi Cəfər Seyid Əhməd bəy dostumuzun «İstiqlal»ın keçən nüsxəsində dərc olunan məqaləsi bilxassə bu məsələ üzərində durmuşdur.

Bütün bunlarla bərabər bu ellərin əsrlərdən bəri davam edən kültür əlaqələrilə bağlı olan türklük camiasından da ümumi düşmənə qarşı mücadilədə əzəmi (böyük) surətdə istifadə etməyi düşünmələri də çox yerində və təbiidir.

Bu təbii ehtiyacı təmin üçün «Yaş Türküstan» məcmuəsilə «Yeni milli yol» məcmuəsi istiqlalçı türk ellərinin öz səflərini daha ziyadə sıxlaşdıraraq ortaq mücadilə məsələlərini ortaqlıca görüşmək üçün vəsilə arayırlar; hələ «Yaş Türküstan» buna orqanik bir şəkil verərək ildə bir dəfə, 28 mayda Rusiya əsarətindəki türk elləri təmsilçilərinin öz aralarında toplanmaları lüzumundan bəhs edir.

Azərbaycanın istiqlal gününü Rusiya əsarətindəki bütün türk elləri üçün «ortaqlı bir cidal (dava) günü» şəklində tələqqi edəcək dərəcədə birlik və səmimiyyət göstərən qardaş ellərin ona qarşı göstərdikləri bu qiymətli etimadla azərbaycanlı mücahidlər şübhəsiz iftixar edərlər.

Ötədən bəri olduğu kimi, indidən sonra dəxi, bütün türk ellərinin rus əsarətindən qurtulmalarını qolaylaşdırmaq üçün ediləcək hər hankı real təklifi azərbaycanlıların səmimiyyətlə qarşılayacaqları təbiidir.

Günün məsələsi bizcə, bu təklifləri sırası gəldikcə təyin etmək və müştərək ediləcək işləri bir-bir bəlləyərək, onları mühakimə və münaqişədən keçirdikdən sonra ortaqlı mücadilənin ortaq tezisləri halına qoymaqdır.

“İstiqlal”, 15 iyun 1933, Berlin.

QPU-YA DİQQƏT!

QPU - bolşeviklərin bu ən qanlı idarəsi sadə orada, qızıl cəlladların şərtsiz və kayıtsız (hədsiz) bir surətdə vətəndaşlara müsəllət (bəla) olduqları «Sovetlər İttifaqı»nda deyil, burada müsafirpərvərliklərinə iltica (sığındığımız) etdiyimiz bu məmləkətlərdə də çalışır.

Qızıl imperializmin qanlı istilası altında qalan vətənlərimizdə milli hiss və müqavimət qüvvələrini qan və atəş içərisində boğmaq qəsdindən bir an qafil olmayan bu müəssisə milli istiqlal fikrinin Sovetlər hüdudu xaricindəki davaçılarını vurmaq niyyətindən də fariq (əl çəkmiş, uzaq) deyildir.

Bundan bir sənə əvvəl, yenə bir münasibətlə «Fitnədən qorunaq» ünvanı altında yazdığımız bir məqalədə bolşeviklərin mühacirətdəki antibolşevik qüvvələri və bilxassə milli istiqlal davası üzərində duran təşkilatları içəridən partlatmaq və aralarına nifaq salmaq üçün nə surətlə çalışdıqlarını göstərmiş və vətəndaşlarımıza özlərini düşmənin çox kərə haradan gəldiyi sezilməz fitnələrinə qapdırmamağı tövsiyə etmişdik.

Son zamanlarda Parisdə qafqazlı mühacirlərli yaxından əlaqədar edən iki hadisənin zühıuru bizi təkrar bu mövzunu yeniləməyə vadar edir.

Bu hadisələrdən biri gürcü qonşularımız, digəri də erməni inqilabçıları arasında QPU agentlərinin nə surətlə çalışdıqlarını göstərir.

Parisdə çıxan bəzi rus qəzetlərinə əks edən məlumata görə QPU-nun gürcü siyasi təşkilatları ilə erməni inqilabçıları arasında çalışmaq üçün xüsusi agentlər göndərdiyi təhəqqüq (dəqiqləşdirilmişdir) etmişdir. Bu agentlərin gözə aldıqları hədəf, mühacirət arasında nüfuz və səlahiyyət sahibi Şəxsiyyətləri hər türlü yollarla mənən düşürmək, ətraflarındakı adamları siyasətən ləkələmək, müxtəlif qrup və zümrələr arasında nifaq salmaqdan ibarətdir.

Gürcü cəbhəsində sadə, ortalığı qarışdırmaq, müxtəlif şəxsləri bir-birindən şübhələndirərək, havanı olduqca zəhərləndirməyə müvəffəq olan bu agentlərin erməni cəbhəsindəki qazancları daha böyükmüş: qoca Daşnaksütyun firqəsi arasında prinsip qovğası çıxmış; bu qovğa mərkəzi heyəti ikiyə böləcək qədər irəliləmiş, mərkəzdən ayrılanlar bir təşkiat halına gəlmiş; özlərinə məxsuz qəzet təsis etmişlər; bu qəzet 6-7 aydan bəridir nəşrə başlamış və nəhayət, sırf bir təsadüf əsəri olaraq bu hadisənin QPU agentlərinin işi olduğu meydana çıxmış, duyulmuş ki, yeni çıxan bu qəzetin təhsisatı «məchul bir mənbədən» gəlirmiş!..

QPU-nun milli istiqlal davasının xaricdəki təmsilçiləri olan siyasi mühacirət arasında əl altından çalışdığı əlbətdə yeni bir şey deyildir. Bunu hamımız bilirik. Mahud Ağabəyovun vaxtilə nəşr etdiyi xatirələr dəxi bu xüsusdakı fəaliyyətin bir takım vaqiələri zikr edilmişdir. Düşmənin bu sahədə qullandığı metodlar

müxtəlifdir. Bunlar yerinə görə, mühitinə görə və mövzusuna görə mühacirət suyunu bulandırmaq, nüfuz sahibi siyasiləri mənən ləkələməkdən başlayaraq, cismən meydandan qaldırmağa qədər türlü şəkillər olaraq dəyişir.

Yaşadığımız mühacirət həyatının çəkilməz şərtləri içərisində çox kərə obyektiv vəziyyəti ihmal (unudaraq) edərək subyektiv amillərin təsirilə hərəkət edən vətəndaş, çox kərə zahirdə haqq görünən sözlər arxasında gizli qəsdlər saxlandığının fərqində olmur, öz arzuları xaricində, bir də baxırsan ki, QPU-nun kim bilir neçənci əldən atdığı bir tuzağa düşmüş olur.

Yaşadığımız dövrün, keçirdiyimiz mühacirlik həyatının müşkülatı sadə, maddi məhrumiyyətlərlə dolu əngəllərdən ibarət deyildir. Ən böyük müşkülat bütün dünyanın da tutulduğu mənəvi böhran və bilxassə siyasi ideyalar sahəsindəki anarxiyadadır.

Cahan heç bir zaman bəlkə bu gün olduğu qədər bir ideya böhranı içində olmamışdır. Müstəqil məmləkətlərində, öz evlərində yaşayan firqə və zümrələri belə, əsasından sarsaraq, saç-baş buraxan bu böhranın bizim kimi vətənsizlər üzərində yapacağı təsir bəllidir.

Düşmən, özünə məxsus sinsi (gizli) bir hərəkətlə səflərimiz arasına girərək, şübhə yoxdur ki, ən böyük strategiyasını özəlliklə bu fikir anarxiyası üzərinə qurur. Buna diqqət edək, «hər gələn xoş avazın quran olduğunu» düşünəcək qədər sadədil olmayaq!...

Gürcülər, ermənilər və digər milli mühacirlər arasındakı pozğunçu fəaliyyətinin bir nümunəsinə şahid olduğumuz düşmənin bizim aramızda çalışmadığını düşünürsək əlbəttə ki, yanılarıq.

Belə bir yanlışlığa meydan verməmək üçün daim diqqətli davranaq və hər zaman düşmən intirqası ilə QPU fitnəsinə hədəf olduğumuzu gözdən iraq tutmayaq. Düşmənin bizi daima demoralizə və dezorqanizə etmək üzrə olduğunu bir an üçün olsun unutmayaq.

Hə, QPU işləyir, buna diqqət edək: onun işini qısır buraxdırmaq bizə borcdur.

Bu borcumuzu müvəffəqiyyətlə icra etmək üçün: şübhəli sözlər, şübhəli işlər və şübhəli adamlardan saxlanmaq, istiqlal idealının ötədən bəri tanınmış kadrosu ətrafında birləşərək bu cidalın sınanmış taktikasından qətiyyən ayrılmamaq lazım.

İman və dissiplin - budur, QPU işini qısır buraxacaq şüar...

"İstiqlal", 1 iyul 1933, Berlin.

İYUL HADİSƏSİ MÜNASİBƏTİLƏ

«Pravda» qəzetinin İzmir mühakiməsi münasibətilə yazdığı yazıların Türkiyə mətbuatında doğurduğu inikaslar bir hadisə şəklini aldı.

Sovet hökumətinin bolşevik firqəsi diktatorluğuna verilmiş hüquqi bir isimdən ibarət olduğunu bilməyən yoxdur; «Pravda» isə bolşevik firqəsi mərkəz heyətinin fikirlərini nəşr edən rəsmi bir qəzetdir. Belə rəsmi bir qəzetin Türkiyənin daxili işlərinə bu qədər açıqdan müdaxiləsi və Türkiyə kommunistlərini bu qədər əlaqə və hərarətlə müdafiəsi, başda «Milliyyət» qəzeti olmaq üzrə, Türkiyə mətbuatının çox haqlı olaraq müqabiləsini cəlb etdi.

Gündəlik mətbuat moskvalı qəzetin «hədyanlarmdan» bəhs edərkən, «düşmən ağzından çox dinlədikləri sözlərin eynini dost bildikləri ağızlardan da eşitdiklərini qəribə» bulur.

Onlarca qəribə görülən bu «hədyan» bizə görə heç də qəribə deyildir. Cümhuriyyət Türkiyəsilə Sovet Rusiyası siyasətcə dost ola bilirlər, mənfəətləri bir qaldıqca bu dostluq da varlığını mühafizə edə bilir. Fəqət, unudulmamalıdır ki, Türkiyə Cümhuriyyətilə Sovetlərin siyasi mənfəətləri bir zaman üçün bir olsa da, bu iki təşəkkülü (quruluşu) canlandıran əsil əsaslar arasında dərin bir müxalifət vardır. Milliyyətçiliklə kommunizmin yekdigərinə dost bir qüvvə olduğunu kim iddia edə bilir?...

Bolşevizm məlum olduğu kimi, burjua sisteminin düşmənidir. Milliyyətçilik isə onun görüşündə burjua sinfinin məfkurəsidir. Onun bütün dünyaya yaymaq istədiyi inqilabın yıxacağı qüvvə bir milliyyət qüvvəsidir. Doğrudur, kapitalizmə, burjua aləminə bir küll olaraq hərb elan etmiş olan bu qızıl qüvvə daha yeni toparlanmaqda olan şərq milliyyətçiliyilə ora milliyyətçiliyi arasında fərq qoyur, birincinin ikinciyə qarşı almış olduğu vəziyyətə görə, onu özünə müəyyən bir zaman üçün yol yoldaşı görür. Fəqət, ancaq müəyyən bir zaman üçün.

Bu zaman hankıdır, nə zamana qədər milliyyətçi Şərq, kommunist Rusiyanın dostudur?...

Buxarinin bu xüsusdakı klassik tərifi H. Sübhi bəyin bu nüsxəmizdə nəqlən dərc olunan məqaləsində qeyd olunmuşdur.*

Uzaq şərqdən tutaraq, Yaxın şərqə qədər bütün təcrübələrilə sabit olduğu kimi, Sovet hökumətinin müəyyən bir şərq məmləkəti və milliyyət hərəkatı ilə münasibəti o, məmləkətdəki kommunist hərəkatının vəziyyəti və o məmləkət hökumətinin beynəlmiləl Moskva siyasətinə qarşı «sədaqəti»nə bağlıdır.

Onunla dostluqda bulunan bir Şərq məmləkəti Avropa dövlətlərilə əlaqəsində çox istiqlal göstərdimi Moskva o istiqlalı mütləq şübhə gözü ilə görəcək və buna qarşı dərhal tədbirlər alacaqdır. Bu tədbirlər isə o məmləkət kommunistlərinin Üçüncü İnternasionalın bir işarəsilə qiyama hazır olmasıdır və bunun üçündür ki, «öz daxilində kommunistləri təqib edən milli bir şərq hökumətinin Avropa kapitalistlərindən heç də fərqi yoxdur».

* Daha çox məlumat üçün müraciət olunan «Milliyyət və bolşevizm». M.Ə. Rəsulzadə, İstanbul, 1928.

Çində, İranda, Hindistanda olduğu kimi, Türkiyədə də bolşeviklərin tətbiq etdikləri «şərq dostluğu» bu ikiüzlülüklə məluldur (xəstədir). Bu illət onu bu gün milliyyətçi Çin hökumətilə qanlıbıçaq etmişdir. Leninin varisləri Sun Yatsenin müakiblərinə (ardıcıllarına) qarşı silah çəkirlər, halbuki Çan Kay Şinin komandanlıq etdiyi bugünkü sovet hasmi (düşməni) Çin, dünən adəta bolşevik sayılan «Komindan» firqəsi tərəfindən idarə olunmaqdadır.

Türk-rus dostluğunun Rusiyaya təmin etdiyi çox böyük faydaları görməyib də, sadə Türkiyənin bu qarşılıqlı müamilərdən (hərəkətlərdən) gördüyü faydaları hesablayanlara xəbər verək ki, ən romantik zamanlarında belə bu dostluq kölgəli səhifələrdən boş qalmamışdır. Moskva, bir tərəfdən Anadolunun milli istiqlal mücadiləsinə yardım etmişsə də, o biri tərəfdən bu mücadilənin özündən müstəqni (doğmuş) müstəqil bir siyasətə malik olacağı əndişəsilə Anadoluda Moskva direktivilə çalışan təşkilatlar vücuda gətirmək fikir və təşəbbüsündən vaz keçməmişdir.

Milliyyətçi «Cümhuriyyət» beynəlmiləl diplomatiya ədəbinə çox riayətlə, Rusiyanın daxili işlərinə qarışmasın deyə, qızıl rus çekalarında Nerona rəhmət oxutduracaq işgəncələrə məruz qalan «irqdaşların» milliyyət, cümhuriyyət və demokratiya idealları qəhrəmanlarının müqəddəratlarına laqeyd qalmamaq imkanını bulur. Fəqət, onun təsəvvür etdiyi kimi, adi bir qəzet deyil, bolşevizmin rəsmi orqanı olan «Pravda» Türkiyə kommunistlərinin başından bir tük əskik olmasını istəməz. Bunun üçün o, öz təcrübələrinə kıyasla, mühakimə olunan kommunistlərin işgəncə edildiklərini təsəvvürlə hay-haray qoparır.

Fəqət, buna diqqət edin ki, «Pravda»nın hay-harayı tək bir kommunist arxadaşlıq hissindən ziyadə Sovet hökumətinin Türkiyə siyasəti haqqında son zamanlarda görünən bir müxalifətindən irəli gəlməkdədir. Türkiyə kommunistlərinin hərəkətə keçmələri, Türkiyə tacirlərinə qarşı edilən fahiş (əxlaqa sığmayan) haqsızlıq TAS agentliyinin qərəzkar nəşrləri ilə sovet mətbuatının Türkiyənin xarici siyasəti haqqında axır vaxtlarda nəşr etdikləri yazılarla ahəngdardır.

«Pravda» mahud (sözü keçən) məqaləsində Türkiyə ilə Fransa arasında akt olunan müqavilədən məmnun olmadığını gizlətmir. «220 milyon lirəlik dövlət büdcəsinin 32 milyon lirəsi devrilən səltənənt hökumətinin borclarını ödəmək üçün təhsis (ayrılmışdır) edilmişdir» - deyə itilafi (anlaşmanı) müahəzə (qınayır) edir.

Bundan daha əvvəl «Türkiyə, Avropa və Şərq» ünvanı altında bir məqalə nəşr edən «Zarya Vostoka» [bolşevik firqəsinin Qafqaz komitəsi qəzeti] 14 iyun tarixli nüsxəsində xarici işlər naziri Tofiq Rüşdü bəyin İtaliyaya səfərini, bu səfər əsnasındakı təzahürləri; Ser Çemberlenin «Milliyyət» qəzeti müxbirinə verdiyi «mənalı» mülaqatı (müsahibəni) bu mülaqatda ingilis xarici işlər nazirinin «Türkiyə İngiltərə münasibətinin sadə dostana deyil, hətta səmimi olduğundan əhəmiyyətlə bəhs edişini...» və bunun kimi digər bəzi vaqeələri bir araya sıralayaraq, Türkiyənin Avropa ilə anlaşmaq üzrə olduğu nəticəsinə gəlir və

nəticədən adəta canını qorxu alaraq, «Milliyyət» baş mühərriri, Siirt millət vəkili Mahmud bəyin bir cümləsi üzərində çox yaxşı durur; 9 may nüsxəli «Milliyyət»də Mahmud bəy yazmış ki: «Ağ dənizdə, Qara dənizdə, Balkanlarda və ümumiyyətlə bütün Avropada Türkiyənin beynəlmiləl bir sülhü salah (qoruma) amili olmaqdan başqa bir məqsədi yoxdur. Türkiyə bir vaxt təsəvvür olunduğu kimi, Qərb və Şərq dövlətləri arasında heç bir fərq qoymadan bütün dövlətlərlə yaxsı münasibət təsisinə çalışmaqdadır [yatıq yazı «Z.V.»nındır]. Türkiyə dostluğunun ən əsil sifəti bu dostluğun üçüncü bir dövlət əleyhində olmasıdır.

«Z.Vostoka» mühərriri bu «Şərq ilə Qərb arasında» fərq gözətməmək «nəzəriyyəsini» çaşqınca bir hərəkət tələqqi (sayaraq) edərək, bu çaşqınlığı o, Cenevrədəki tərkisilah konqresində iştirak edən Türkiyə delegələrinin hərəkətlərində də görür, belə ki, türk delegələri «Şərq ilə Qərbə eyni surətdə baxaraq gah Sovet, gah Avropa nümayəndələrilə bərabər rəy verir, əksəriyyətlə də ən mühüm və qəti hərəkət ediləcək zamanlarda səs vermirlərmiş.

Bütün bu vaqeələri zikr edən qəzet Türkiyənin görülən bu Avropa təmayüllərindən nə əldə etmək istədiyini diplomatlarına «Sürix-Şaytunq» adlı, alman dilində çıxan qəzetin 29 aprel tarixli nüsxəsindən aldığı bir cümlə ilə ifadə edir. Alman qəzeti deyirmiş ki:

«Türkiyə ibtidada əskəri, sonradan Lozanda siyasi bir müvəffəqiyyət qazandı, fəqət, iqtisadən o, oyunu adəta qeyb etmiş kimidir. Türkiyə xaricdən borc almalıdır, başqa imkanı yoxdur.

İndiki halda olduğu kimi, Sovetlərlə ancaq uzaqdan bir münasibətdə olmaq və eyni zamanda da Balkanlarla Ağ dənizin şərq qismindəki mətin sistemə daxil olması nisbətində Türkiyə bu borcu əldə edə bilir».

Şübhəsiz bolşevik qəzeti Mahmud bəyin Şərq ilə Qərb arasındakı «bitərəflik» və «Ağdəniz, Qaradəniz, Balanlar və ümumiyyətlə bütün Avropa dövlətləri arasında bir sülhü salah amili olmaq nəzəriyyəsilə, bu alman qəzetinin təhlili arasında orqanik bir münasibət görür və öz ağlınca Türkiyə ricalına nəsihətə qalxışaraq «avropalılarca sülhü salah demək Sovetlərə qarşı hərb deməkdən ibarət imiş» kimi qəribə bir nəticəyə gəlir.

Rus kommunizmilə anarxizm arasında rus ruhuna məxsus nihilizm kimi, gizlidən gizliyə səmimi bir yaxınlıq vardır. «Mənimlə getməyən düşmənimdir» şüarı bu ruhun ən sevdiyi bir düsturdur. Bu düstura görə bütün Şərq millətləri kimi Türkiyənin də Şərqlə [anla: Rusiya ilə] birlikdə getməkdən başqa çarəsi yoxdur. Əks təqdirdə onun Buxarinin məşhur tərifinə görə Avropa kapitalistlərindən heç də fərqi yoxdur.

O halda ediləcək şey - Türkiyə fəhləsini təşkil ilə, komandasını Üçüncü İnternasionala bağlayan Türkiyə Kommunist Firqəsinə verməkdədir. «Paravda»ya baxılırsa, bu iş yoluna girmiş gedir. «Türk fəhlə hərəkatı kommunizm bayrağı altında gedirmiş və o bayraq altında öz burjuaziyasını yenincəyə qədər mücadilə edəcəkmiş!...».

Hə, Türkiyənin həqiqi mənfəətləri deyil, Moskvanın xüsusi direktivləri ilə siyasət çevirəcək bir Türkiyə ancaq bu surətlə təmin edilə bilir. Fəqət, H. Sübhi bəyin də dediyi kimi, daha dünən yüz minlərcə evladını istiqlalı uğruna qurban verən bir millətin belə zillətə qatlanacağını kimsə təsəvvür edə bilməz!

Yetər ki, «dostluq pərdəsi altında oynanan oyun» görünsün və bu oyuna qarşı «hakimiyyəti milliyyə»nin dediyi kimi, sadə polis və məhkəmə ilə deyil, düşmənin qullandığı silahların heç biri ihmal edilməsin! Və hər şeydən əvvəl hökumətlər arasındakı siyasi ittilafın (anlaşmanın) ideyalar arasındakı Fikri ixtilafı qaldırmayacağı həqiqəti daim göz önündə bulundurularaq, bu rejimlərdən birinin təmsilçisi rus, digərininki də türk olduğu dəxi unudulmasın!

"Odlu yurd", il 1, sayı 6, avqust 1929, İstanbul.

MÜNƏVVƏR MÜHACİRİN BORCU

Vətənin düşmən əlindəki əsarəti uzandıqca vətəndən ayrısı mühacirlərin sayı gündən-günə çoxalır. Xüsusi müxbirlərimizdən alınaraq bu nüsxədə nəşr olunan məlumatlar arasında Azərbaycanın illərdən bəri mübtəla olaraq hər dəm təkərrür (artan) edən zülmlər arasında yenə vətəni tərk ilə hüdud xaricinə qaçanlardan bəhs olunur.

İran ilə Türkiyə ərazisinə iltica edən bu vətəndaşların böyük bir qismini köylülər və orta siniflərə mənsub iş-güc adamları təşkil etməkdədir. Mühüm bir yekun təşkil edən bu zavallıların mühacirətdə nə kimi məhrumiyyət və məşəqqətlərə məruz qaldıqları milli nəşrlərin səhifələrində dəfələrlə təsvir olunmuş, onların acınacaqlı halları yaxın və uzaq qardaş və dost millətlərdə məmul (istənilən) bir əlaqə oyandırmaq niyyətilə uzun-uzadı izah edilmişdir.

Bu dəfə isə məqsədimiz bu ölüm-dirim qovğasının daha yeni və başqa şəraiti içərisində çırpman və min bir məşəqqət və cidal içində həyatını yenidən doğma yurdunun xilas olmuş hürr və azad torpaqları üzərində yaşamaq qayəsilə davam etdirən mühacirət kütləsinin ümumi işlərindən bəhs etmək deyildir.

Münəvvər mühacirlərdən və həm də onların milli vəzifəsindən bəhs etmək istəyirik. Məlum olduğu üzrə, müxtəlif dövrlərdə və müxtəlif səbəblər və amillər nəticəsində vətəni tərk edib mühacirliyi ixtiyar (seçmiş) etmiş bir çox münəvvərlərimiz və bilxassə münəvvər gənclərimiz vardır. Bunlar Şərqin və Qərbin müxtəlif mərkəzlərinə yayılmış, qismən o və ya bu ali məktəbdə oxuyaraq təhsillərini bitirmiş, qismən də həyatlarını qazanmaq yolunu təmin edərək bir ixtisas əldə etmək üzrə təhsilə qoyulmuşlar. Mühacirətdəki münəvvərlərimizin bir sahədə ixtisas qəsb edərək sözün əsri mənası ilə elm və texnika adamı olmalarını görmək əziz arzularımızdan biridir. Fəqət, vətəni istila altında inləyən bir mühacir münəvvərin sadə, mütəxəssis bir texnika adaını olmaqdan başqa, bir də sırf

mühacir münəvvərə məxsus bir borcu vardır ki, burada onu xatırlatmq istəyirik: Vətən borcu!

Azərbaycan istiqlal qayəsini mənimsəmiş, vətənin müstəqbəl (gələcək) istiqlalına iman etmiş və öz xüsusi həyat və səadətini millət və məmləkətin həyat və səadəti şərtilə təsəvvür edilə bilmək idealizminə ermiş bir gənc azərbaycanlı sadə mühəndis, sadə hüquqçu, sadə memar, sadə iqtisadçı, tarixçi və sairə olmaqla iqtifa (qala) edə bilməz. O eyni zamanda vətənçi bir mühəndis, milliyyətçi bir hüquqçu, istiqlalçı bir iqtisadçı, tarixçi və sairə olmaq vəzifəsilə mükəlləfdir (borcludur).

Məmləkətdə bolşevizm senzoru, qeydi və nəzarəti altında olan gənclik üçün bu məqsədi əldə etmək imkanı son dərəcədə məhdud, müşkül və şərait olduqca ağır və təhlükəli isə, xaricdə olan münəvvər gənclik bu imkana ən əzəmi surətdə malikdir. Dünən əsir ikən bu gün müstəqil olan millətlərin yaşadıqları dünənki mücadilə və bugünkü inşaat həyatı göz önündədir. Bir məmləkəti öyrənmək, həm də vətənsevərcə bir görüş və məqsədlə öyrənmək metodlarını edinmək üçün vətənsevərcə bir şövq və həyəcanla işə sarılmaq mühacir münəvvərlərimizin ən müqəddəs borcudur.

Daha sarih (açıq, aydın) söyləyim: mühacirətdə olan münəvvər gənclərimiz hər şeydən əvvəl vətənpərvərlik dərsini öyrənməli, vətəni və milləti əlaqə hissini özündə tərbiyə etməli, ta ki, tarixi dəqiqəsi gəldiyi zaman istiqlal mücadiləsinin şüurlu, məfkurəli və eyni zamanda da bilgili bir mücadiləçi və yaradıcı ünsürü ola bilsin.

Sadə texnik hər zaman bulunur. Bu ehtiyacını bir millət müvəqqəti bir zaman üçün əcnəbilərə müraciət surətilə də təmin edə bilir, fəqət, heç bir zaman xaricə müraciət surətilə də ödəyə bilir, fəqət heç bir zaman xaricə müraciət olunaraq bir vətənpərvər, bir milliyyətçi və bir istiqlalçı alına bilməz!

Yürütdüyümüz bu mütaliələrlə, sakin mühacirətdəki münəvvər gənclərimizin vətəni əlaqə hisslərindən şübhə edirik mənası çıxarılmasın. Bu fikirdə deyilik. Fəqət, hər hansı əlaqə və hissi kimi vətəni əlaqə hissinin də ancaq işlədilmək və mümarisə (qəlbə yeritməklə) kökləşib qüvvətləndiyinə qaneyik. İstəyirik ki, qəlblərdə saxlı olan bu əlaqə və hiss zahirə çıxsın, əsərlər göstərsin. Arzu edirik ki, münəvvər gənclərimiz vətən borclarını haqqı ilə dərk etdiklərini əsərlərlə meydana qoysunlar.

Burada öz-özünə bir sual gəlir - necə?

İstiqlal yolunu bizdən daha əvvəl keçmiş millətlərə mənsub münəvvər mühacirlər kimi - budur müxtəsər, fəqət, əhatəli bir cavab!

"İstiqlal", 1 sentyabr 1932, Berlin.

QORXUDAN «İSLAHAT»

Moskvadan «islahat» xəbəri gəldi. Sovetlər İttifaqı konqresində mühüm bir qərar alınmışdır: bundan sonra sovet seçkiləri müsavi, doğru və gizli olaraq keçiriləcəkmiş.

Demək ki, indilik nəzəri olaraq [çünki yeni seçkilər bir neçə il sonra keçiriləcək] bir tərəfdən köylü ilə şəhər fəhləsi arasındakı siyasi müsavatsızlıq qalxacaq, digər tərəfdən də hər köylü ilə fəhlə beş-altı vasitəyə ehtiyac qalmadan dövlətin ən böyük konqresinə öz delegələrini doğrudan-doğruya göndərəcəkdir və eyni zamanda rəyini hər kəsdən saxlı və gizli olaraq verə biləcəkdir.

Bu siyasi islahatla bərəbər Sovet hökuməti, öz təbəələrini bir də iqtisadi bir «islahat»la sevindirir: kolxozlarda çalışan köylü kolxoz torpaqları xaricindəki hökumət yerlərindən uzun müddət qullanmaq üzrə, əkməyə veriləcək və eyni zamanda hər kolxozçu bir baş inəklə bir neçə baş qoyun-keçi [və yaxud donuz] və istədiyi qədər toyuq sahibi ola biləcəkmiş.

Biri siyasi, o biri cə iqtisadi bir müsaidədən ibarət olan bu «islahat»ın yönəldiyi şey şübhəsiz köylüdür. Bu müsaidələrlə kəndliyə nə kimi qiymət verildiyinin təfsilatı digər məqalədə ətraflı anladılmışdır, burada onu təkrar edəcək deyilik.

Fəqət, bunu təkrar edək ki, Sovet hökuməti rəisi Molotovun söyləməsinə rəğmən, bu «islahat» ilə həqiqi demokratizm və həqiqi parlamentarizm arasında heç bir münasibət yoxdur.

Demokraizmin də, parlamentarizmin də, əsil hikməti hürriyyətdədir. Bu hürriyəti şiddətlə rədd etməkdə israrla hər gün yeni bir həmləyə, şəxsi və keyfi istibdada doğru gedən Stalinizmin bu yapma «demokratizminə» əlbətdə ki, əhəmiyyət verməyə gəlməz.

Fəqət, nə olsa da, sözdə olsa da, bu «islahat»ın köylüyə qarşı bir güzəşt olduğu meydandadır.

Səbəb nə? Nədən «işçi diktatorluğu» durub-dururkən dönüb «köylü hökuməti» olur?...

Bu sualın cavabını biz təbii, sovet hüquqçularının anlatmalarında deyil, Sovet hökumətinin beynəlmiləl vəziyyətində aramalıyıq. Bu xüsusda general Voroşilovun tərifi, siyasətçı Molotovun təfsirindən daha aydın və daha səmimidir. İnanmırıq ki, bu «islahat» «köy bünyəsindəki (kökündən) dəyişmənin əsəri» olsun. Doğrudur ki. «sülh çağında «işçi» olan qızıl ordu, yapon savaşının başlayacağı sıralarakı səfərbərliyin ertəsində həmin «köylü olacaq».

Əslində bütün tədbirlər, bütün siyasətlər və «islahatlar»ın həqiqi sanki (səbəbi) budur. Bu savaş qorxusudur.

Diqqət edəcək olursaq görürük ki: Şərqə doğru getdikcə bu «köylüləşmə» əməliyyatı çoxalır. Mancuriya hüdudlarına yaxın Sovet vilayətlərində kommunizmdən adəta əsər belə görünməzmiş...

Bolşeviklər sənayeləşdirmə işində ən böyük əhəmiyyəti orduya verirlər. Qızıl ordu var qüvvə və imkanlarla silahlandırılır, xüsusi istilah ilə - «motorlaşdırılır». Sovet hava qüvvələri bütün dünyanı özü ilə məşğul edir - çünki bu sahədə olsun mühtəməl (ehtimal olunan) düşmənlərə qarşı bolşevizm üstünlük qazanmaq istəyir.

Dış siyasətlərinə baxın: eyni görünüş. Şərqdən qorxulur. Qərb hüdudları düşünülür. Budur paktlar. Barışıqlar. Anlaşmalar. Bağlaşmalar. Diplomatiyadakı bütün ixtilaf prinsiplərinə əlvida... Rapollodan nişan yox, Moskva indi versalçıdır. Əskidən «quldur dəstəsi» idi, indi «Millətlər Cəmiyyəti»dir. Moskva bu cəmiyyətə üzv olmaqla fəxr edir. «Qalın qalalı»lar indi əlləri sıxılacaq centlimenlərdir. «Mürtəce fransız kapitalistləri»lə çar Rusiyasına nəsib olan ittifaqı yeniləyə bilmək Kremlin diplomatlarının ən müqəddəs düşüncələridir.

Hətta QPU adını dəyişdikləri kimi, indiki demokratiya oyunları da eyni taktikanın bir cüzidir (parçasıdır). Digər «cəmiyyətçi»lər kimi, «Sovetlər»də də «seçkilər» həm "müsavi", həm də "gizli"dir, yoxlayan gözlərə dəsmal asılacaqdır.

Sovetlər konqresindəki nitqlərə baxılsın – mövzular bütünlüklə müdafiə! "Kimsənin torpağında gözümüz yox, - fəqət, torpaqlarımıza göz dikənlərə qarşı qüvvəmiz var!..." – budur söylənənlərin xülasəsi!...

Diktator Stalin yüksəldikcə yüksəlir! O, indi sadə, "tək məmələkətdə sosializm"in müəllimi, Leninin ustadını keçmiş bir şagird deyildir. O, Qızıl ordunun ruhu və onun ən böyük yaradıcısıdır. İndi ona yeni bir ad dəxi taxdılar – "ən təbii baş komandan". Gərçi, indilik bu ünvan ədəbi mahiyyətdədir, məddahların ağzındadır. Fəqət, bu ağızlar özbaşına söyləməzlər: yarın rəsmiyyət alacağı ehtimal olunan bir motivin tütəyini indidən ötdürürlər!..

Bütün bunlar bir ildən bəri nəqarat halını alaraq son zamanlarda bilxassə təkrarlanan "vətən" mövzusundakı ideoloji propaqanda ilə qarşılaşdırılır və "İzvestiya" qəzetinin "əskərlik şərəfdə, vətənçilik modadır" dediyi üzərində bir az durulursa, o zaman bütün bu "islahat"ın qorxudan hərb qarşısımda görülən tədbirdən başqa bir şey olmadığı aşkar olur!..

Bu hərb təhlükəsi isə hələ bərtərəf edilməmiş durur. Bundan təkcə bolşevik mətbuatı və qızıllar deyil, bolşeviklərin dış siyasətini tutan bəyaz (ağ) ruslar dəxi, təkrar bəhs etməyə başladılar. General Denikin, Parisdə verdiyi bir konfransda təkrar bu məsələni yenilədi. Almaniya, Polşa və Yaponiya arasında Sovetlər İttifaqını bölüşmək üçün gizli bir plan varmış. Qafqaz ilə Ukrayna, Türküstan kimi ölkələrin Rusiyadan ayrılması da bu plana daxil imiş.

Əskəri müdafiə strategiyası ilə bilxassə məşğul olan sonku Sovetlər konqresində dəxi ehtimallara çox yanaşıldı.

Bax, köylülərə qarşı edilməkdə olan "icazələrin" əsil hikməti burada, bu hərb qorxusunda aramalıdır.

Bu yarımçıq “islahat” ilə köylülər və köylülərdən ibarət olan millətləri aldada biləcəyinə ümid edən qızıl imperializmin gələcək sınaqlara dayanacağı isə şübhəlidir.

Çox şübhəlidir ki, bolşevizm köylünün həqiqi təbiəti olan mülkiyyətçilik ruhunu bir donuz və 15 pota (bala) verməklə təmin etsin və bununla onda ölümə gedəcək bir sovet patriotizmi yaratsın.

Qızıl ordunun şöhrət hırsı (sonsuz arzu) daşıyan komandanlarından bir qismini hərəkətə gətirəcək sovet “vətənçiliyi”nin qızıl istibdad altında əzilən millətlərdə də nifrət, etimadsızlıq eyni hissi uyaracağına kim inanır?!...

On yeddi ildən bəri tətbiq etdiyi zülm və soyğunçuluq sistemilə Sovet hökuməti, köylü kütləsi üzərində və milli ölkələrdə o qədər dərin bir nifrət, etimadsızlıq və özünə qarşı ölçüsüz bir kin hissi oyatmışdır ki, bu kimi hiylələrlə onları aldadaraq, öz istibdadı uğrunda şüurlu olaraq qurban halına gətirmək imkanına inanmaq üçün, Sovetlər hesabına çox nikbin olmaq lazım?!...

“Qurtuluş”, sayı 4, fevral 1935, Berlin.

ELM VƏ SİYASƏT

Mədəniyyətin qayəsi siyasəti elmə tabe etdirməkdir. İdari sahədə qazanılmış qiymətləri elm ölçüsü ilə dartaraq, cəmiyyət nizamını ona görə qurmaq ictimai bir idealdır. Diplomatiyanı əski istibdad məktəbinin alışqan olduğu aldatmaq zehniyyətindən qurtarmaq demokratiyanın idealizə etdiyi üsuldur.

Fəqət, bu qayə, bu dartı və bu üsülün qəribə bir təcəllisi (görüntüsü) vardır. İnsanlığın bu ümumi ideallara doğru yürüməkdəki istəyinə rəğmən, hadisələr zaman-zaman bizi nə qəribə təcəllilər qarşısında qoyur!...

Bu qəribəliklərdən biri də, heç şübhəsiz, müsyö Herriotun Moskva siyasətidir. Müsyö Herriot sadə, çox məşhur bir siyasət adamı olmaqla qalmaz, o, dünən hökumət rəisi idi, yarın yenə bu məqama gələcəyinə şübhə yoxdur.

Fransanın ən böyük şəhərlərindən Lionun əminliyi adəta onun adı ilə bağlıdır.

Üçüncü cümhuriyyətin həyatında çox mühüm və məsuliyyətli rol oynayan radikal firqəsinin dəxi, Mr. Herriot tanınmış bir liderdir. Bütün bunlarla bərabər o, eyni zamanda əsrimizin ən məşhur bir münəvvəri kimi tanınır, təbiət və texniki elmlər sahəsində, ədəbiyyat və incəsənət tarixində məlumatı, iqtidarı və əsərlərilə bilinir beynəlmiləl şöhrətə sahibdir. Başqa təbirlə: o, həm siyasətçi, həm də alimdir.

Bir fransız ərinin, cümhuriyyət üçün təsəvvür etdiyi təhlükə qarşısında, əmniyyət və qorunma yolları aramaq üçün tələş göstərməsinə kim nə deyər? Demokrat Fransa milliyyətçi Almaniyanın intiqam siyasətindən qorxar. Bu qorxu

qarşısında demokratiyanın ən amansız düşməni olan kommunist Rusiya ilə belə dostluq arar. Bunlar siyasətdir, olur. Bu siyasətlə razı olmaya bilirsiniz. «Yağışdan» qorunmaq üçün «yağmura» düşmənin ağıllı bir çarə olmadığını isbat çox da güc deyildir.

Fəqət, bir kərə «yağışı» izam (böyüdüb) edib də bundan qorunmaq üçün bəhəmhal «yağmura» düşmək lüzumuna qane olunca, təbiidir ki, bu siyasi «yağmurun» «yağış» qədər islaq olmadığını isbatdakı tühaflığı (qəribəliyi) heç də qala almaz.

Fransa radikalizminin şefi mjsyö Herriot da belə edir. Versal nizamından yaxa sıyırmaq istəyən milliyyətçi Almaniyaya qarşı ta dünənə qədər bu nizamın ən böyük müxalifi olmaqla məşhur Sovetlərlə anlaşmaq istəyir. Bulunduğu müşkülat və zəifliyi dolayısı ilə Moskva siyasiləri də Parisin bu meylini əzəmi surətdə qullanmaq məharətini göstərir. Öz agentlərinin ağzı ilə bugünkü cahan nizamının pozulmasında proletariat inqilabının mənfəəti olmadığını söyləyir [Radekin məşhur məqaləsi]. Almaniya ilə Sovetlər İttifaqı arasındakı siyasi ixtilafı mütəzəmmin olan Rapallo müahidəsinin iflasına şahid oluruq. Əski Fransa-Rusiya ittifaqını təzələməkdən bəhs olunur.

Fəqət, Fransa sadə, radikalları dan və Fransa siyasətçiləri də sadə, herriotçulardan ibarət deyildir. Bugünkü Rusiyanın əmin müttəfi++q olmadığını bilənlər çoxdur. Bu ac, zəif, müstəbid məmləkətə, bu hər hankı mühüm bir zərbəyə dayana bilməyəcək qədər maddi və mənəvi qüvvədən məhrum bir sistemə təkyə (arxalanmanın) etmənin xətalı bir yol olduğunu isbat edənlər arasında Tardieu kimi qüvvəli simalar vardır.

Bu müxaliflərini susdurmaq və Fransa xalqını Sovetlərlə edilən yaxınlaşma siyasətinin faydalı və real bir iş olduğuna inandırmaq üçün, Herriot Moskva səfərinə çıxdı. Ötədən bəri sovet dostluğu ilə məşhur olan bu adamın səfərindəki qəsdi sezmək müşkül deyildir. O, gedəcək, şəxsən öz gözü ilə görəcək, Sovetlərin çalışılan və on ardan fayda gözlənilir bir qüvvə olduğunu «müşahidələri» nəticəsində söyləyəcəkdi. Yoxsa Herriot sisteminin mənası qalmayacaqdır.

Bu mülahizə ilə hər kəs az-çox təxmin edə bilirdi ki, Herriotun Moskvadan gətirəcəyi intiba (gözlənən xəbər) kommunistlərin lehində olacaq, elim Herriot, istər-istəməz siyasi Herriota tabe qalacaqdır.

Elmini siyasətinə fəda edən Herriotun gəlib də cahan tarixində misli yox bir mütləqiyyət rejiminin mərkəzində, çar mütləqiyyətını devirənlərə qarşı təqdirkar sözlər söyləməsi, bir dərəcəyə qədər təvil (başqa anlam) götürsə də, beş günlük rəsmi bir səyahət nəticəsində bolşevik məddahı kəsilərək, bütün cahan mətbuatına rəğmən «Ukraynada aclıq yoxdur!» deyə söyləyəcək qədər irəliləməsi qətiyyən anlaşıla bilməz.

Hər şeyi olduğu kimi, elmi də siyasətə tabe etdirən Stalin rejiminin bu böyük müsafiri elmini politikasına tabe etdirməkdə o qədər müsahələ (inad) göstərir ki, Kalininin ən bəsit mühakiməyə malik olan ələladə (adi) fransız

burjuaziyasını ikna (inandıra) edə bilməyən «izah»larından bir hikmət kimi bəhs edir. Şəhərlərdə neft üçün sıra gözləyən «quyruqları» görür. Və özünə «köylülər traktor qullanmağa başlayınca, neft məhsulu hərbdən əvvəlki miqdardan çox ikən məmləkətdə yanacaq qıtlığı çıxdı» deyə verilən izaha aldanır: süd üçün sıra gözləyənlər dəxi, bu külfətə südün qıtlığından deyil, öz iştahları üzündən düşübmüşlər. Sovet rəiscümhuru (SSRİ MİK-in sədri) Kalinin «bütün saflığı» ilə Fransanın bu, dünənki və yarınkı baş nazirinə anlatmış ki, Rusiya əhalisi indi hərbdən əvvəlkinə nisbətlə birə üç dəfə çox süd içirmiş!...

Budur, sizə elmini siyasətinə tabe edən bir adamın çatdığı şahəsər nəticə!...

Bu gün bolşevik rejimində mədəniyyət üçün bir qiymət arayan və Stalin istibdadının qurduğu əsarət sistemində Amerikaya rəqib bir tərəqqi əsəri görən Herriot, vaxtilə yenə elmi siyasətə tabe tutaraq hərbi ümumi əsnasında Sorbonda fransız zübbələrindən (tərəfdarlarından) mürəkkəb (qurulmuş) böyük bir məhşər qarşısında cıxış edərkən münkariz (məğlub) çar Rusiyası haqqında dəxi təqdirkar cümlələr sərf etmişdi.

Onun bu təzadını sabiq Rusiya millət vəkillərindən biri, «Liberte»də nəşr etdiyi bir məktubla bu günü ona xatırlatdı. Bu rus millət vəkili, Herriota bu gün kommunistlərin əlini sıxan əliniz, dünən çar təmsilçisi olan bizlərin də əlini sıxmışdı. Bu əlbətdə sizin biləcəyiniz bir işdir. Siyasətdir. Ona qarışa bilmərəm. Fəqət, Rusiyada aclıq yoxdur deyirsiniz ki, buna təhəmmül (dözülə) edilə bilməz!... - dedikdən və həbsdəki ixtiyar anasından aldığı məktubun bu davanı yalanladığını qeyd elədikdən sonra çox haqlı olaraq əlavə edir ki: «Fransa hüdudu xaricində cümhuriyyət vətəndaşlarına bir-iki kilo ərzaq göndərməklə məşğul bürolar olsaydı, siz nə deyərdiniz? Fransada aclıq varmı, yoxmu?[*].

«Alim» Herriotun bu «siyasi mübaliğəsi» gərək Fransa və gərək bütün cahan mətbuatında məmnuniyyətlə qeyd etmək lazım ki, yaxşı bir qəbul üzü görmədi. Bir qism sol qəzetlər müstəsna, bütün qəzetlər Herriotun bu xəfif (yüngül) ədalı tədqiqlərini amansızca hırpaladılar. Dörd milyondan çox nüfuzu bolşevik sisteminin qəddar idarəsi üzündən məhv olan bir məmləkət [Ukrayna] haqqında «Orada aclıq görmədim» - demənin Moskava əsarətindəki millətlərə bir təcavüz olduğu ona söyləndi. «Matin» qəzeti bəzi səyyahlar «Rusiyada gurbuz (sağlam) cocuqlar gördüm» - deyirlər deyə, quru kadit və skeletdən ibarət olan fotoqraflarını seriyalarla nəşr edərək, oxucularına: «budur, sizə Sovetlərdəki gurbuz cocuqlar - deyə yazdı! Bu qəzet, eyni zamanda, məsələni təhqiq üçün Rusiyaya beynəlmiləl bir komissiya göndərilməsi lüzumunu da irəli sürdü. Hə, hər zaman olduğu kimi, bu dəfə də mübaliğənin yaxşı bir metod olmadığı meydana

[*] Məlum olduğu üzrə Rusiyadakı qohumlarına ərzaq göndərməyə təvəssüd (vasitəçilik) edən bu kimi bürolar mövcuddur və bunlar Sovet hökumətinin müsaidəsilə (icazəsi) eyni zamanda, göndərilən ərzaq və digər əşya, hətta köhnə paltar üzərinə belə dəhşətli surətdə vergilər yükləyərək, bu fürsətdən istifadə ilə para qazanılması ilə icrayi fəaliyyət edərlər.

çıxdı. Herriotun öz sisteminə bayılaraq və bolşeviklərin göz boyadıqlarına həddindən çox qapılaraq göstərdiyi bu qüsura olsun təşəkkür etməliyik. Müəyyən siyasi bir qərəzlə etdiyi «tədqiqat» nəticəsini dəxi, mötədilanə (orta) ifadə etmiş olsaydı, heç şübhəsiz ki, Herriot Rusiya imperalizminin bu yeni şəklini təşkil edən «Sovetlər İttifaqı»na qarşı ölüm-dirim mücadiləsində olan bizlər üçün daha təhlükəli olurdu.

İndi bərəkət versin ki, göz görə şeyləri inkar və isbat etməsilə o, öz qərəzini birdən birə meydana qoydu.

Herriot kimi mühüm şəxsiyyətdə görünən bu qərəz [tendensiya] da isbat etdi ki, mədəniyyət öz qayəsindən, xalq idealından, demokratiya da öz üsulundan hələ uzaqda, böyük və mücərrəd qiymətlər (dəyərlər) məhdud və müəyyən məqsədlərə qurban getməkdə, elm siyasətə tabe qalmaqdadır!...

"İstiqlal", 1 oktyabr 1933, Berlin.

KOMMUNİZMƏ QARŞI MİLLƏTLƏRARASI MÜCADİLƏ

Bundan bir neçə ay əvvəl Nürnberqdə cahan ictimai fikrinə xitab edən şüar gün keçdikcə təsirini göstərir. Mədəniyyət düşməninin Moskvada oturduğunu mədəni məmləkətlər bir-biri arxasınca anlamağa başlayırlar.

Dünənə qədər «Xalq cəbhəsi birliyi» və «İspaniya işlərinə qarışmamaq» kimi göz boyayıcı taktiki oyunları ilə milli bünyələri (özülləri, kökləri) dağıtmaqdakı işini pərdələməyə müvəffəq olan Moskvanın bu gün artıq foyası meydana çıxmışdır. İspaniya məsələsində tutduğu müdaxilə siyasəti qızıl sözə aldananların qəflətə dalmış gözlərini dəxi açmışdır.

Bir zamandan bəri Sovet içərisində davam edən qanlı terrorlara və bu terrorun qurbanı olan trotskiçilərə baxaraq, stalinçiliyin evolyusiyasına inananlar Sovet hökumətinin daimi cahan inqilabı taktikasına vəda etdiyini gözləmişdilər. Hadisələr bunun əksini isbat etdi. Müxalifləri əzərək, müxalifliyin istədiyini etmək sənətində mahir olan stalinçilik bu dəfə də öz metoduna sadiq qaldı. Sovet təyyarələri, tankları, instruktor və generallarının Madrid qızılları tərəfində aktiv surətdə çalışmaları və Sovetlər diyarının hər tərəfində qızıl İspaniya lehində yeridilən maddi-mənəvi propaqanda səfəri bu xüsusda heç bir şübhə buraxmamışdır.

Sadə, kommunizm ilə antikommunizm ideyaları arasındakı mücadilənin qanlı vəhşətlərinə səhnə olan İspaniyada deyil, Moskva Kominterninin Fransadakı daxili qarışıqlıqlarda dəxi, aktiv bir fəsad və inhilal (dağıtma, parçalama) oyunu oynadığı hər kəsin gözü önündədir.

Vaxtilə Versal nizamı əleyhində, revizyonçu millətlər səfində və Rapallo Almaniyası ilə birlikdə ikən; Millətlər Cəmiyyətinə quldurlar şirkəti deyən Çiçerin Moskvası ilə bu dəfə bu cəmiyyət kürsüsündən millətlər arasındakı mövcud nizamı pozmaq təşəbbüsündə olan qüvvə və dövlətlərə qarışı atəşlər püskürən Litvinov Moskvasının qullandığı metodla güdülən qayənin hədəfi eynidir: iki cəbhə halında olan «kapitalist» Avropanı bir-birinə saldırtmaq üçün gah bu, gah da o tərəfi tutmaq.

Bir zamandan bəridir Moskva köşəsinə çəkilib də səsi eşidilməz olan Litvinov «Millətlər Cəmiyyəti»ndəki sonuncu çıxışında bu iki cəbhədən bəhs etməmişdimi?!

Moskvanın istədiyi dağıdıcı kommunizm internasionalına qarşı milli mövcudiyyətlərini qoruyan aktiv millətlər - onun təbirincə faşist dövlətlər - əleyhində «vahid bir xalq cəbhəsi» yaratmaqdı. O, buna nail olmadı. Ola bilməzdi. çünki sevmədikləri faşizmə qarşı sistemlərini müdafiə etmək üçün bolşevizmdən yardım gözləyən bəzi sadədil demokratlar İspaniyadakı vəhşətlərlə şəxsən Rusiyada yenidən baş verən qanlı error sisteminin tüğyanını görərək diksindilər. Bu diksintinin əlamətləri şəxsən Fransada belə görülməkdədir. Sovetlərlə ittifaq siyasətinin ən hərarətli tərəfdarı olan radikallar arasında indi bu ittifaqı pozaq deyənlər çox yaxşı qüvvə almışlar. Keçənlərdə toplanan firqə konqresi az qala sovet paktının fəshini (ləğvini) tələb edirdi.

Bugünkü iç çəkişmələrilə didilən Fransa hər nə qədər daha Moskva ilə ittifaq əlaqəsini kəsməmişsə də, buradan əvvəlcə gözlədiyi faydaları idealizə edənə də bənzəmir. «İzvestiya» qəzeti fransız dostlarını tənqidlə Parisin Moskvadan çox Berlinin könlünü almaqla məşğul olduğundan şikayətə başlamışdır.

Fəqət, bəhs mövzusu diksintinin Fransanı bilxassə mütəəssir edən hadisəsi, şübhəsiz Belçika hökumətinin Fransa ittifaqından ayrılaraq bitərəflik siyasətinə getdiyidir. Nə demokratiyanın ən böyük düşməni Sovetlərin himayəsinə qalan «Millətlər Cəmiyyəti»ndən, nə də siyasi müqəddəratını macəra qüvvəsilə bağlayan bir müttəfiqdən Belçika köylüsünə xeyir gəlməyəcəyinə inanmış, mümkün olduğu qədər hər cür qəzadan uzaq qalmağı milli mənfəətlərinə daha uyğun bulmuşdur.

Yalançı Komintern «xalqçılığı»nın foyası bu surətlə meydana çıxınca, antikomintern qüvvələrinin sürət və qətiyyətlə irəliləyərək Moskvadan yayılan fəsad hərəkətlərinə qarşı vahid bir cəbhə yaratmaq işi böyük addımlarla irəlilədi.

İtaliya xarici işlər naziri Kont Çiyanonun Berlinə səfəri nəticəsində ideologiyaları yaxın bu iki dövlət arasında bağlanan centlimencə anlaşmanın ən mühüm fəslində hər iki dövlətin Avropadan kommunizm cərəyanına qarşı mücadilədə iş ortaqlığı yapacaqlarını qərarlaşdırıldı. Bu anlaşmanın orqanik bir nəticəsi olaraq, bir az keçmədi ki, Berlinlə Roma eyni gün, eyni saatda, eyni motivlərlə İspaniyada «Xalq cəbhəsi» namı altında kommunizm doktrinlərini qoruyan qızıllara qarşı vuruşan milliyyətçi Franko hökumətini tanıdılar.

Bundan sonra eyni Berlini ziyarət edən Avstriya xarici işlər naziri ilə bağlanan anlaşma sonunda bu dövlətin dəxi kommunizmlə mücadilə cəbhəsinə keçmiş olduğu elan edildi. Bir tərəfdən İtaliya, dəgər tərəfdən isə gərək Almaniya və gərəksə Avstriya ilə sıx bağlarla bağlı olan Macarıstan dəxi bu antikommunist cəbhəyə mənsub dövlətlərdən sayıla bilir.

Daha İtaliya ilə Almaniya arasındakı anlaşmadan bəhs olunduğu günlərdə Yaponiyanın da bu anlaşmaya daxil olduğu şayiə olmuşdu. Bu qədər də deyil, 1933-cü ildən bəri zaman-zaman şayi olub da təkzib edilən Almaniya ilə Yaponiya arsında əskəri bir ittifaqın yaradıldığı və yaradılmaq üzrə olduğu və buna İtaliyanın da qovuşacağı xəbəri siyasi məxfəlləri əlaqələndirəcək bir çox təfsir və açıqlamalara səbəb olurdu.

Nəhayət bütün bu «dumanların arxasındakı atəş» meydana çıxdı. Noyabrın 25-nə Stalin yeni Sovet konstitusiyasını təsdiq etdirib də «bu əsərin işçiləri yenmək istəyən bütün faşistləri məhkum edəcəyini» iddia etdiyi eyni bir gündə Almaniya ilə Yaponiya arasında kommunizmlə mücadiləyə aid olaraq imzalanmış müahidənin mətni rəsmən elan edildi. Bu müahidəyə görə, bağlaşan iki böyük tərəf «Komintern adını daşıyan Kommunist İnternasionalının hər türlü vasitələrlə mövcud dövlətləri partlatmaq və əsaslarını kökündən yıxmaq məqsədində olduğunu və bu təşkilata təhəmmülün (dözmənin), sadə, dövlət və millətələrin iç işlərinə qarışan bir fəsad qüvvəsinə üz vermək deyil, eyni zamanda beynəlmiləl barış işini dəxi təhlükəyə qoymaq olduğunu gözə alaraq, Almaniya ilə Yaponiya dövlətləri - Kommunist İnternasionalı tərəfindən güdülən hər türlü fəaliyyət haqqında bir-birlərinə məlumat verməyə və daxili vəziyyətləri kommunizm təhlükəsinə məruz digər dövlətləri dəxi, bu mücadiləyə çağırmağa» qərar vermişlər.

Bu müahidə mətnilə bərabər elan olunan protokola görə iki dövlət mürəhhəslərindən (nümayəndələrindən) ibarət daimi bir komissiya dəxi, təsis olunur ki, məqsədi antikomintern mücadiləsini tənzim ilə iki dövlət arasındakı bu xüsusa aid iş ortaqlığını idarə etməkdir.

Biri şərqli, digəri qərbli bu iki müəzzəm (böyük) dövlətin günün ən böyük məsələsinə aid bu böyük qərarları şübhə yoxdur ki, qızıl Moskva ilə bərabər internasional Moskva tərəfdarlarınca ümumi barış işini təhlükəyə soxan və arxada aqressiv fikirlər və bəlkə də qəsdlər saxlayan bir tədbir kimi göstəriləcəkdir. Fəqət, nə desələr də, bihudədir (boş yerədir), aqressiv fikir, fəsadlı məqsəd və təcavüz planlarının harada olduğunu bilməyən artıq çox az qaldı.

Bir neçə zamandan bəridir ki, bitərəflik siyasəti güddüyündə şübhə olmayan və şübhəsizliyi Polşa xarici işlər nazirinin son günlərdə Londona vaqe olan səfəri dolayısı ilə bilxassə qabardılan Polşada dəxi ictimai fikir təcavüzkar sovet propaqandası və Kominternin fəaliyyətindən təsirlənmişdir. Hökumət idarəsinə mənsub «Qazeta Polska»nın sabiq Moskva müxbiri Otmarın qələmilə son zamanlarda Sovetlərin vəziyyətinə və Komintern propaqandasına aid nəşr olunan

məqalələr diqqətəşayandır. Bu qəbildən məqalələr əskəri mühafilə mənsub «Polska Sbrocna» qəzetində dəxi görülməkdədir.

Bu məqalələrə görə, bir tərəfdən şiddətlə hərbə hazırlaşan Sovetlər, o biri tərəfdən də Avropa millətlərini mənən pozmaqla məşğuldurlar. Almaniyaya göndərdikləri hava dalğaları ilə [radio propaqandası]. Hitlerin koridoru polyaklara fəda etdiyindən bəhs edən Moskva kommunistləri, Polşa daxilində yaydıqları intibahnamələrdə Qdanskın hitlerçilərə tərk etdiyindən bəhs edirmişlər. Məqsəd bəllidir: istənən iş, ortanın qarışmasıdır. Eyni mühərririn ayın 24-də - Almaniya-Yaponiya anlaşmasının imzalanmasına müsadif (rast gələn) günlərdə Polşa radiosu ilə söylədiyi bir nitqi dinlənilmişdir. Bu nitqdə Otmar məmləkətlərini sevən bütün patriotların Komintern ilə mücadilə edən cəbhədə olmaları lüzumundan bəhs etmişdir. Bu lüzum yalnız Polşada deyil, bir çox məmləkətlərdə dəxi hiss edilməkdədir. Sovetlərlə dost keçinən və bununla öyünən məmləkətlər belə öz içlərindəki kommunist axınları və Komintern agentlərilə mücadilədən farig (sıxıntısız, rahat) deyillər. Bu sadə, Avropadakı deyil. Şərqdəki sovet dostlarına da aiddir... Məlum olduğu üzrə, Komintern deyilən isim Sovetlər İttifaqı deyilən hökumətin müstəir (gizli) adıdır. Əcnəbi dövlətlərlə etdiyi hər diplomatiya münasibətlərindən əcəmi surətdə faydalanan bolşeviklər, məlum olduğu üzrə, bu qondarma adlarından faydalanaraq istədikləri fəsad işini rəsmən yaxşı münasibətdə olduqları dövlətlər içində yeritməkdən bir an üçün geri durmamışlar. İndi ona eyni metodla qarşı çıxılır. Sovet hökumətilə münasibət pozulmadan Kominternə qarşı antikomintern yaradılır. Bizim Moskvaya qarşı davamız məlum olduğu üzrə, sadə, ideoloji bir dava deyildir. Hər şeydən əvvəl biz, Rusiya istilası ilə, rus imperializminin bu yeni şəkli ilə vuruşuruq. Kommunizmlə mücadilə bizim üçün əlimizdən çalınmış istiqlalınızı geri almaq yolunda edilən bir mücadilədir. Öncə qeyd etdiyimiz alman-yapon anlaşmasında da bu motiv mövcuddur. Anlaşma milli mövcudiyyətlər və mövcud dövlətlər üçün Komintern fəaliyyətini təhlükəli görür və bununla mücadiləyə təhlükəyə məruz bütün dövlətləri çağırır.

Bu çağırışın müvəffəqiyyəti demək, Kominternin əsil üzü demək olan Sovet hökumətinin siyasətcə təklənməsi deməkdir. Bu təklənmə nə qədər müvəffəqiyyətli və nə qədər təsirli olursa, bizim üçün o qədər xeyirli və ümidli olur.

19-cu ildönümünü içəridə, əski bolşevikləri boğazlamaqla məşğul bir halda qarşılayan moskvalı kommunistlər üçün, dışarıda vücuda gələn bu antikomintern ittifaqını duymaq qədər düşündürücü bir sürpriz ola bilməz!...

Cahan gec də olsa oyanır. Təhlükənin Moskvada olduğunu görür. Bu görüşün daha şamil və daha real olmasını təmanna edəyin. Təmənna edəyin ki, Komintern deyilən şeyin eyni zamanda Kremlin yeni təcavüzçü rus imperializmi olduğu və bu imperializmin onlarca milləti əsarəti altında tutduğu dəxi görülmüş olsun!

Kommunizmə qarşı millətlərarası mücadilə. Bu gözəl. Hələ bu mücadilənin Almaniya və Yaponiya kimi dövlətlər arasında bağlanan müahidə şəklində rəsmi bir şəkil alması bilxassə!...

Ümid edilə bilir ki, bu gün sadə, müzürr (xəstə) bir fikir cərəyanı və aksiyasına qarşı müdafiə mahiyyətində olan bu anlaşma, təcrübə ilə gözlənməsi təbii nəticəsinə varır. Kommunizmi millətlərarası bir təhlükə zəhəri olaraq canlandıran təşəkkül (quruluş) Sovetlər İttifaqı deyilən qüvvədir. Yüzdə əlli ikisi rus olmayan, böyük əksəriyəti süngü gücü ilə tutan bu qüvvədir ki, dünyanı fəsada vermək istəyən ocağı tütdürür. Ukraynanın kömürü ilə buğdası, Qafqazın nefti və digər sərvətləri, Türküstanın da bilxassə pambığı və digər millətlərə aid bir çox bu kimi zənginliklər qızıl Moskva imperializminin əlində və idarəsində qaldıqca, sadə, beynəlmiləl müdafiə təşəbbüsü ilə mədəniyyət dünyasını kommunizm təhlükəsindən qorumaq mümkün deyildir.

Kommunizm təhlükəsi deyilən şey, dünya üçün hər zaman təhlükə təşkil etmiş olan qaba və təcavüzçü rus imperializminin yeni həmləsindən başqa bir şey deyildir. Bu təhlükə yalnız bolşevik istibdadı və qızıl rus süngüsünə dayanan Sovet hakimiyyətinin çökdüyü və oradakı millətlərin uğrunda vuruşduqları istiqlallarına erişdikləri gün ortadan qalxar!

"Qutlu od", sayı 1, dekabr 1936.

AZƏRBAYCANDA RUS MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ

I

Bu siyasətin nə kimi bir istila işi olduğu ümumi xətlərilə məlumumuz olduğu halda, çarlığın XIX əsrin ilk yarısında yendiyi və likvidə (ləğv) etdiyi Azərbaycan xanlarının yerində tətbiq etdiyi rejim və qullandığı idarə üsulları haqqında vəsiqə (sənəd) və məxəzlərə dayanan təfsilli məlumatımız nöqsanlıdır.

Çarlığın qərb vilayətlərindən indiki Baltik sahilindəki cümhuriyyətlərə, Türküstan istilasına və hətta qonşumuz Gürcüstana aid çoxluca tədqiqi nəşrlər və tarixi sənədlər nəşr edilmiş ikən, Azərbaycan xanlıqları bu günə qədər bu nöqtədən ihmal (unudulmuşdur) edilmişdir.

Sovet Elmlər Akademiyasının çarlıq dövrü və idarəsinə aid olaraq nəşr etdiyi arxiv materialları arasında, axirən, tariximizin bu dövrünü işıqlandıran çox mühüm bəzi vəsiqələr dəxi nəşr edilmişdir.

Əsasında üç cilddən ibarət olub, indilik «Rus imperializminin Azərbaycanda 1820-dən 1860-a qədər sürən koloni (müstəmləkəçilik) siyasəti»nə aid olan arxiv material və vəsiqələrinin ilk cildi SSRİ Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən «Sovetlər İttifaqı millətlərinin tarixi» seriyasına daxil olaraq 1936-cı ildə nəşr edilmişdir.

«Feodal münasibətləri və müstəmləkəçilik rejimi»ni işıqlandıran bu cilddən sonra gəlcək cildlərdə kitabın müqəddiməsindən görüldüyü kimi, «Azərbaycanda milli müstəmləkəçilik hərəkatları» ilə «Azərbaycanda ticarət və sənaye tarixinə aid materiallar» dərc olunacaqdır. Fəqət, bu cildlərdən indiyə qədər hələ bir xəbər yoxdur.

Rus müstəmləkəçilik rejimini işıqlandıran sənədlərdən ələnmiş bir qismini içinə alan əlimizdəki beş yüzə yaxın böyük səhifədən ibarət olan bu cild diqqətəşayan və maraqlı bir çox məlumat və sənədlərə malikdir.

Bu sənədlərlə aşina olmaq, yaxın tariximizin işıqlanmağa möhtac mühüm bəzi fəsillərini sənədlərdə görmək olduğundan, oxucularımıza bu xüsusda bir az məlumat vermək istədik.

Çarlıq Qafqazdakı Azərbaycan xanlıqlarını yendikdən sonra, onlardakı idarəni həmən «ruslaşdırmağa» qalxmamışdır. Əksinə, başlanğıcda bir tərəfdən İran, digər tərəfdən Türkiyə, üçüncü tərəfdən də Dağıstan qəzavatı kimi hal ilə uğraşmaq məcburiyyətində olduğu pürüzlü (çətin, dolaşıq) məsələlərlə məşğul olduğundan, o, Şərqi Qafqazda vaqe olan bu xanlıqlarda sırf ordu arxasını, iaşəsini və təchizatını təmin edən bir işğal idarəsi qurmaqla iqtifa (keçinmişdir) etmişdir.

Bu məqsədlə də o, ona qarşı gəlmədən baş əyən xanları işlərinin başında, öz hallarına buraxdığı kimi, qarşılıq göstərənlərin yerlərinə qoyduğu xanlara dəxi iç işlərdə geniş səlahiyyətlər buraxmışdır.

Fəqət, yuxarıda qeyd etdiyimiz qailələrindən (sıxıntılarından, çətinliklərindən) qurtulduqdan və 1928-ci ildə Türkmənçay müahidəsi mucibincə (görə), Qafqazda tamamilə yerləşdikdən sonra, xanlıqlardan və əski istiqlalı andıran müəssisələrdən nişan buraxmamaq əzminə gəlmişdir.

Bununla bərabər, 1841-ci ilə qədər xanlar atılmış olsalar da, Azərbaycanda xanlıqların tamamilə likvidə edildiyini təsəvvür etmək doğru olmaz. Quba xanlığı, məsələn, Şeyxəli xanın əzlindən (hakimiyyətdən salınmasından) sonra da (1808-1810), rəsmən Quba xanlığı adını daşımış və bir növ naiblik müəssisəsi demək olan dörd «möhtərəm» bəylərdən ibarət «Divan» tərəfindən idarə edilmişdir ki, rəisi də Hacıbəy «naib» ünvanını taxınmışdır. 1826-1841-ci illərdə Talış da buna bənzər vəziyyətdə o araq, «Talış xanlığının müvəqqəti idarəsi [Divan]» tərəfindən idarə edilmişdir ki, buradakı «Divan» bir rus generalının rəyasətində (başçılığında) iki yerli bəydən təşəkkül etmişdir. Digər xanlıqlar isə əksəriyyətlə bir «vilayət» halına qoyularaq, valiliklərinə rus «vilayət komendantları» təyin edilmişdir. Bu komendantlar, ya polkovnik, ya da general rütbəsində olmuşlar. Cənubi Qafqaz baş komendantlığından aldıqları təlimata görə, bu «komendantlar», idarələrinə verilmiş «vilayətləri» əskisi kimi yəni «xanlıq adətlərilə» mütabiq (uyğun) olan nizamı pozmadan - idarə edəcəkdilər.

Bu komendantlıq sistemi bütün Azərbaycanda 1841-ci ilə qədər davam etmişdir.

Xanlıq sisteminə varis olan bu komendantlığın ərz etdiyi hüquqi və idari bünyə (quruluş) haqqında bir az təfsilat vermək üçün «cildin» müqəddiməsini təşkil edən təhlilin bir xülasəsini buraya göçürüriık. Sənədlərə dayanan bu xülasəyə görə:

«Komendantlar, edam cəzası müstəsna olmaq üzrə, vaxtilə xanın haiz olduğu (əlində olan) bütün haqq və səlahiyyətlərə sahib olmuşlar».

Komendantlar vilayət məhkəmələri olan divanxanada rəyasət (yerləşir) edirlər, mahal qazısını və vilayət [xanlıq] daxilindəki bütün mahal naiblərilə başqa idarə adamlarını təyin edirlər. Komendantlar, sabiq xanlar tərəfindən verilən fərmanları və müxtəlif bəylərə müəyyən ərazi və üzərindəki köylü rəncbərlərə aid mülkiyyət və idarə səlahiyyəti verən təliqələri təsdiq etdikləri kimi, özləri şəxsən dəxi, haqq və səlahiyyətlə kəndlilər tərəfindən məskun torpaqları müxtəlif bəylərin mülkiyyətinə və ya idarəsinə [tiyuluna] verir və köylüləri «rəncbər» ünvan ilə bəylərin şəxsinə bağlayırdılar. Bu növdən tiyul və təvdiyatı (mal-mülk, banka pul-para qoymağı) təsdiqləyən təliqələr şəkil və üslub etibarı ilə xanlar tərəfindən verilən fərmanların eynini andırırdı. Xanlar tərəfindən özlərinə bəyik verilmiş adamların vəsiqə və fərmanlarını tədqiqlə onları bu sifətlərində təsdiq etmək komendantların idarəsindən asılı idi. Eyni zamanda qəbahət və sədaqətsizlikləri görülənlərin ünvanlarını selb (zorla almaq) ilə və mülklərinin müsadirəsi dəxi komendantlardan asılı idi. Komendantların ələladə (sıradan, adi) bir əmirilə xəzinəyə aid torpaqlar xüsusi şəxslərin mülkiyyətinə verilə bildiyi kimi, rəiyyətlər rəncbərlər, rəncbərlər də rəiyyət halına qoyula bilirdi.

Nökər deyilən zabitə (polis) məmurlarının çaparxana adındakı süvari mislin idarə və komandası komendanta aid olduğu kimi, dövlət vergilərinin köylü cəmiyyətləri arasında bölüşdürülməsi ilə toplanması, xəzinəyə aid otlaqların, duzlaqların, balıq və s. kimi, ovlaqların icarə və ihaləsi (geri alınması), mizan deyilən çəki vergisi, rahdari təbir (deyilən) olunan gömrük işləri dəxi komendantların əlində idi. Komendantlar rəiyyətlərin mülkədarlara qarşı olan təkliflərini təyin etmək üzrə qərarlar elan edərlərdi. Bu qərarlar əksəriyyətlə xanlıq dövründən qalan fərmanların hökmlərini yeniləməkdən və təsdiq etməkdən ibarət olurdu».

Hər vilayətdə - demək ki, hər xanlıqda divanxana deyilən, bəzən də şəhər məhkəməsi anılan «vilayət məhkəməsi» vardı. Bu məhkəmə bəy, xan, ağa kimi feodal sinif arasından çeçilən iki divanbəyindən, tacir, əsnaf, kimi şəhərli təbəqədən seçilən iki nümayəndədən və bir də bir növ hüquq müşaviri, şəriət qanunlarını bilən fəqihən - molladan ibarət olaraq təşəkkül edərdi. Bütün bunlar öz təbəqələri tərəfindən seçilir və komendantlar tərəfindən təsdiq olunurdular. Məhkəmədə işlər şəriət və xanlardan qalan nizam və təlimat mucibincə (əsasında, gərəyincə) həll olunurdu. Məsələn, Şəki xanlığında XVIII əsrin sonlarında yaradılınış Məhəmmədhəsən xan dövründən qalan «Dəstür ül-əməl»in əhkamı (hökmü) cari idi.

Vergi sistemi ilə vergilər tamamilə xanlıq dövründən qalma idi.

Vilayətlərin idari hüdudu xanlıqların siyasi hüdudundan ibarətdi; idari təqsimat (bölgü) rusca «uçastok»a müqabil, əski mahalların eyni idi. Xanlıq zamanında olduğu kimi, mahal naibliyi ünvanı komendantlar tərəfindən yerli bəylərdən birinə təvil (verilirdi) olunurdu.

Rəsmi təhrirat (yazışma) farsca idi. Komendantlar tərəfindən verilmiş farsca fərman və təliqələr arxivlərdə mühafizdir (qorunur).

Şəki, Şirvan, Qarabağ və Talış xanlıqları idarətən Şuşada oturan «müsəlman vilayətlərini idarə edən əskəri valiyə» tabe idi. Bakı, Quba və Dərbənd xanlıqları isə Dağıstan hərbi valisinə tabe idilər.

Komendantlıq sisteminə ruslar «əskəri xalq idarəsi - voyennonarodnoye upravleniye» deyirdilər. Bu sistem həddi zatında (özlüyündə) XVIII əsrdə Azərbaycan xanlıqlarında cari olan üsul və nizam üzərinə qurulmuşdu. Yalnız ruslar tərəfindən Gürcüstana ilhaq olunan Gəncə vilayəti bu sistem xaricində qalmışdır.

Sistem xanlıq dövrünün sistemi olmaqla bərabər idarənin əhali üçün eyni olmadığı, bu cildin ehtiva etdiyi rəsmi materiallarla təsdiq olunmaqdadır. Komendatlıq rejiminin xan idarəsindən əhali üçün daha ağır, daha soyğunçu, daha zalım olduğunu isbat edən bu əsərdə nə qədər vəsiqələr vardır.

1829-cu ildə Cənubi Qafqazı təftiş edən senator Meçnikov ilə Kutaysovun qeyd etdikləri kimi, «yüz minlərcə insanın haqq, namus və mülkü komendantların kefinə tabedir və komendant onların nəzərində əvvəlcə tabe olduqları xandan fərqsizdir». Yalnız bir fərq vardır: xanlar nə olsa da, bir takım mülahizələrlə daha yumşaq idarə etdikləri halda, komendantlar özlərini ölçü güdməyə məcbur edər hər türlü mülahizələrdən sərbəst görmüşlər. Xanlar zamanında əksəriyyətlə toplandıqda və ya başqa mükəlləfiyyətlərin icrası tələbində mahaldakı örf (gələnək, adət) və ictimai vəziyyət mülahizələrinə riayət edildiyi halda «komendantlar» bu kimi xüsuslara qarşı kar və kor idilər.

Eyni müfəttişlərin 1830-cu ildə Tiflisdən ədliyyə naziri D. B. Daşkova göndərdikləri raportda əzcümlə (bir sözlə) bunları oxuyuruq:

«Bu zamana qədər topladığımız məlumat şəxsən Gürcüstan dairəsindəki sui-istifadələrlə rəzalətin hər türlü həddi və hüdudu keçdiyini isbat etməkdədir. Müsəlman vilayətlərindəki idarəyə gəlincə, burada idarə edənlərin zülmü ilə idarə olunanların məzlumluğu təsəvvürü qəbul olmayan fəci bir mənzərə ərz etməkdədir. Burada hər türlü insanlıq çeynənmiş, ədalət tamamilə unudulmuş, qanun cinayətin silahı, qərəzlə kef də məmurların yeganə hərəkət amili olmuşdur».

1831-ci ildə poruçik Dobrotvorski eyni senatorlara yazdığı bir raportda deyir ki, o, «hətta İranda belə, rus hakimiyyəti altında olan Talış xanlığında bulduğu zülm və səfalətə şahid olmamışdır. Burada əhalidən əskidə verməkdə olduqları verginin iki mislini tələb edir və verməyənləri sad, erkək deyil, qadınlar da daxil olduqları halda adəta ölüncəyə qədər döyürlər».

Nefedyevin Naxçıvandakı rus idarəsinə aid olub, 1837-ci il tarixini daşıyan bir yazısında «rus ədaləti» haqqında bunları buluruq: «Eyni istibdad təsirində olan vilayətdəki rus məhkəməsi öz halı ilə hər türlü ədalət hissini təhqir etməkdədir. Bu məqam sanki dövlətin yenicə idarəsinə keçmiş olan yerli əhali ilə İranlılar nəzərində rus idarəsini rəzil etmək üçün yapılmışdır».

Yuxarıda qeyd olunan senatorlar, əski xanlıqlardan bəhs edərkən, buradakı idarələri kefə dayanan, sistemsiz və anarxik bir rejim deyə təvsif (xarakterizə) etmişlər. Rus idari müəssisələrinin tarixçisi İvanenko senatorların bu mütaliələrilə razı deyildir. Ona görə əksinə, xanların idarəsində özlərinə görə, bir sistem vardı və bu mütərəqqi müsəlman fiqhinə dayanırdı. Xanlar dövründə - onunca - çox yaxşı tərkibli olmasa da, az-çox müəssəs (qurulmuş) bir vergi sistemi dəxi mövcuddur.

İvanenkonun bu sözlərini qeyd etdikdən sonra, bəhs mövzusu cildinin redaktoru Petruşevski əlavə edir ki: «Həqiqətdə də əhalinin komendantlıq idarəsinə qarşı duyduğu kin və nifrəti senatorların izahlarına rəğmən xanlıq idarə üsulunun baki (dəyişməz) qalmasından irəli gəlmirdi. Komendantlar bu idarə üsulunu sadə, mühafizə etməklə qalmamış, onu əskisindən daha qəddar və daha müstəbid və keyfi bir şəklə soxmuşdular».

Daha Böyük Pyotr zamanından etibarən rus çarlığının şərq xristianlarının hamisi və bilxassə ermənilərin xilaskarı sifətini taxdığı məlumdur. Rusiya imperializminin Qafqazı tutması ilə müsəlman şərqinə qarşı açdığı səfərlərin ermənilər tərəfindən sevinclə və fədakarlıqlarla qarşılandığı dəxi hər kəsə məlum bir həqiqətdir.

Belə ikən vəsiqələr rus müstəmləkəçilik idarəsindən ermənilərin belə «əl aman çağırdığını» göstərməkdədir.

Qarabağdakı erməni tacirləri 1820 raddələrində (M.Ə.Rəsulzadə elmi redaktorun yazdığını gözə alıb. Sənəddə 1837-ci il, noyabr-dekabr yazılıb) «erməni camaatı» namına (adından) göndərdikləri istidada (ərizədə, diləkçədə) komandanlıqdan şikayat edərək yazırlar ki: «Qarabağ, Mehdiqulu xanın idarəsində ikən, biz hər türlü istida və şikayətlərimizlə şəxsən ona gedərdik: o da xalq içindəki etibar və hörmətimizə nisbətən bizimlə rəftar edər, məruzələrimizi şəxsən dinlər və ədalətlə hökm edərdi. Rus məmurları isə, bizimlə qara cahil köylülər arasında heç bir fərq qoymur və onlar kimi biz dəxi sadə komendantlardan deyil, onların məmurlarından belə, min cür hərəkətlər görür, heç bir səbəb olmadan mühakiməsiz, sorğusuz və sualsız yaşa-başa baxmadan, xidmət və sədaqətimizi gözə almadan bədən cəzasına çarpılırıq».

Baron Qan tərəfindən çar I Nikolaya verilən raportda Rusiyaya hicrət (köçmüş) etmiş olan ermənilərin onlara ayrılmış yer və yurdlarını tərk ilə, təkrar öz istəklərilə tərk etmiş olduqları İran və Türkiyə torpaqlarına qaçdıqları qeyd olunmaqdadır. Bu «ricət» (qaçış) o qədər ciddi və geniş imiş ki, «onları alı qoymaq üçün hüdudda surəti məxsusada əskər qitələrindən (bölüklərindən) mürəkkəb (ibarət) kordon (postlar) qoymaq lazım gəlirmiş».

Bu hadisənin ifadə etdiyi bəlağəti haqqı ilə təqdir edə bilmək üçün qeyd etmək lazımdır ki, bu ermənilər vaxtı ilə İran (Qacarlar) kimi, Türkiyədən dəxi Rusiyaya köçməkdən alı qoymaq üçün iknaya çalışmışlar ikən, bu təşəbbüslərində müvəfəqiyyətsizliyə uğramışlar. Məsələn, Türkmənçay müahidəsindən sonra - erməni mühərriri Çalxuşyanın yazdığına görə 40.000 erməni İranı tər edib Rusiyaya köçmək istəyir. Uzaqgörən vəliəhd Abbas Mirzə ermənilərı bu qərarlarından vaz keçirmək üçün onlara oturduqları yer və yurdlarını buraxmanın yazıq olacağını söyləyərək, onlardan Rusiyada təhkimçilik və angarya [biyar] mükəlləfiyyəti «bir xristian məmləkətində saman yeməyi İranda çörək yeməyə tərcih (üstün tutarıq) edərik» cavabını almışdır. Bunun kimi qraf Paskeviçin 1829-cu ildə çara yazdığı bir raportda qeyd olunduğu kimi, Türkiyədən köçən ermənilərin hekayəsi da mühümdür. Ədirnə müahidəsindən sonra 90.000 erməni Anadoludan Rusiyaya köçmək qərarını vermişdir. Babıali (Osmanlı hökuməti) bunları bu hərəkətdən mən (çəkindirmək) etmək üçün patrik Varfolomeyi Ərzuruma göndərmişdir. Burada keşişin nəsihət və tövsiyyələrini dinləyən ermənilər ona «əgər göydən şəxsən həzəri İsa ensə və bizə getməməyi tövsiyyə etsə, onu da dinləmərik» - demişlər.

Buna rəğmən, «xristian dövlətin qanadı altında yaşamaq» idealının bu romantizminə rəğmən, rəsmi vəsiqələr bu adamların əskəri postları yararaq «idealizə etdikləri» bu məmləkətdən qaçdıqlarını bizə vəsiqələr açıq bildirməkdədir. «Xristian dövlətin» idarəsi altında yaşamaq o qədər ağır və o qədər təhəmmül (dözülməz) edilməz imiş!...

Yuxarıda özündən bəhs etdiyimiz İvanenko xanlarla və onların yerlərini tutan komendantların idarələri arasındakı fərqi xülasə edərkən çox nüqtəli olaraq yazır ki: «Xanların dövründə qadınlara bədən cəzası yoxdur, rus komendantları erkəklərlə bərabər qadınları da qırmacladırdılar!...».

“Vətən diləyi”, sayı 1-2, oktyabr-noyabr 1937, Berlin.

AZƏRBAYCANDA RUS MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ

II

«Komendantlıq» idarəsi müvəqqəti əskəri bir işğal rejimindən ibarət idi. 1840-cı ilə qədər davam edən bu rejim nə əhalini, nə də imperatorluğu təmin edirdi.

Komendantlar, hər nə qədər idarələrində bir xan sifət və səlahiyyətlərində olub, o zamandan qalan «şəriət» və «nizam» üzərinə hökm sürürdülərsə də, bu hökm əhali üçün əvvəlkindən daha ağır, külfətli (sıxıcı) və zalımca idi.

Komendantlıq idarəsinin nə qədər fəna və müstəbidcə olduğunu göstərən vəsiqələri keçən məqaləmizdə qeyd etdik.

Əhalini təmin etməyən bu idarə imperatorluğu, idarə edən yüksək mühafili (görəvliləri) də təmin etmirdi. Çünki komendatların ciblərini doldurmasına rəğmən, Cənubi Qafqaz Sankt Peterburq sarayına bahalı gəlirdi.

Təbiətin hər türlü nemətlərinə malik olan bu zəngin məmləkətin sərvət mənbələrini rasional bir şəkildə qullana bilmək üçün böyük rus bürokratları bura idarəsini mükəmməlləşdirmək və onu əskərlərin əlindən çıxararaq, mülkiləşdirmək çarələrini aramağa başlamışdılar.

Cənubi Qafqaz, bilxassə Azərbaycan xanlıqları beləcə öz hallarına və öz çıxarına buraxıla bilməz və buradakı ilzamlara (yerli şərtlərə) uzun boyu müsaidə edilə bilməzdi. Yeni ilhaq olunan bu müstəmləkənin siyasətən «ana Rusiyaya» daha sıx bağlarla bağlanması iqtisadən də müvafiq yollarla «səmərələşdirilməsi» lazımdı. Daim süngüyə, əskəri qarnizonlara dayanıla bilməz, məmləkətin qəti surətdə təsbit olunmasının təmini üçün çarlığın buralarda dayana biləcəyi ictimai bir zümrəni edinmək lazımdı.

Krepostnoy rejimini təmsil edən o zamankı zadəgan [dvoryanstvo] Rusiyası Baltik sahillərinə və hətta Gürcüstana gəlirkən, öz rejiminə bənzəyən üsullar və köylülər üzərində mülkiyyət haqqını haiz (Man) zadəgan sinifləri bulmuş və bunlara istinad etməkdə çox da tərəddüd göstərməmişdi.

Azərbaycanda isə vəziyyət başqa idi. Burada rus rejimi kimə istinad edəcəyini təsbit edə bilmək üçün müşkülat çəkmiş və etimad edə biləcəyi «bəylər təbəqəsini» təsbit edincəyə qədər çox sallanmışdır.

Bu «sallantı»nın səbəblərilə onun vardığı nəticəni, biz çarlığın Cənubi Qafqazın idarəsi haqqında almış olduğu tədbirlərin keçirdikləri təkamül mərhələlərində görürük.

Əskəri komendantlıq rejiminin «daha mükəmməl bir rus idarəsi»lə dəyişdirilməsi lüzumunu əsaslı olaraq ilk dəfə düşünən və bu xüsusda imperatora müraciətdə bulunan zat İrəvanski və Varşavski adları ilə tanınmış qraf və knyaz Paskeviçdir.

1830-cu ildə Paskeviç mərkəzi hökumət nəzdində təşəbbüs edərək, Cənubi Qafqaz idarə sisteminin dəyişməsini istəmişdir. Paskeviçin planı «əskəri komendantlıq» sisteminin qaldırılması ilə bərabər, hüquqi, ədliyyə və idari bütün sahələrdə hər türlü yerli xüsusiyyətlərin dəxi, aradan qaldırılmasını tələb edirdi. O buralarda dəxi içəri Rusiya vilayətlərində [quberniya] olduğu kimi, sıx surətdə mərkəzləşən və yalnız rus məmurları tərəfindən idarə olunan bir rejimin təsisini istəyirdi. Cənubi Qafqazın müxtəlif mahallarındakı siyasi, ictimai xüsusiyyətlərlə, müxtəlif millətlərdəki kültür və ənənə fərqləri dəxi Paskeviç prosesincə (layihəsincə) nəzərə alınmırdı. Azərbaycana gəlincə düşünülürdü ki, «ümumi qanunların hökm və təsirinə tabe olaraq, müsəlmanlar tədriclə Rusiyaya yaxınlaşırlar».

Keçən məqalədə özlərindən bəhs etdiyimiz Meçnikov və Kutaysov adlı senatorlar dəxi Cənubi Qafqazda keçirdikləri təftiş nəticəsində Paskeviçin bu düşüncəsinə vararaq, onunla birlikdə Dövlət Şurasına verilmək üzrə», «Cənubi Qafqaz idarəsi haqqında alınacaq tədbirlər» adını daşıyan bir layihə hazırlamışdılar. Bu layibə haiz (mümkün) olduğu ən qatı mərkəzləşdirmə və ruslaşdırma fikirlərini daşıyırdı. Sonradan Dövlət Şurasının qəbulu üzərinə, bu layihədəki əsaslar rəsmi dövlət baxışı halını almışdır. Buradakı görüşlər sonradan bəzi tədilata (dəyişikliyə) uğramaqla bərabər - çarlıq və rusluğun ana siyasət xətlərini bildirən tarixi bir vəsiqə şəklində təsbit olunmuşdur. Bu vəsiqə ilə təfsillicə aşina olmaq. Azərbaycandakı rus müstəmləkəçilik siyasətinin əsil ruhunu yaxşıca qavraya bilmək üçün çox faydalıdır.

1833-cü ildə Dövlət Şurası tərəfindən təsdiq və tətbiq olunan bu layihəyə görə:

Cənubi Qafqaz [rəsmi rus təbirincə: Maverayi Qafqaz] iki vilayət [quberniya] və bir mahala [oblasta] bölünürdü. Birinci vilayət on qəzanı mühtəvi olub (içinə alıb) gürcü torpaqlarını əhatə edirdi. İkinci vilayət isə, mərkəz Bakı olmaq üzrə - Bakı, Gəncə, Şəki, Şirvan, Qarabağ, Lənkəran, Quba və Dərbənd şəhər və qəzalarından ibarətdi.

Mahala gəlincə, bu da ermənilərin əksəriyyətlə (toplu olaraq anlamalı) bulunduqları İrəvan, Naxçıvan, Gümrü və Şoragöl qəzalarından ibarətdi (Rəsmi sənədlər əhalinin 2/3-dən çoxunun türklər və müsəlmanlar, qalanının isə haylarla başqa xristianlar olduğunu deyir. Kitabın 138-ci səhifəsində sənədlərə dayanaraq «toplu olaraq» yazılıb).

Qəzalar, layihəyə görə, şəhərlərin isimlərilə anılacaq, «vilayət»lərin təsmiyəsi (adları) isə çarın iradəsilə təyin olunacaqdır.

Layihə qeyd etdiyi kimi, birinci gürcü vilayətinin əhalisinin sayı 433.592, ikinci «müsəlman» vilayətininki 576.036, erməni mahalınınki da - 139.632 adamdan ibarət imiş.

Yuxarıdan təyin olunan bir vali tərəfindən idarə olunacaq bu iki vilayət və bir mahal Tiflisdə, Cənubi Qafqaz ümumi valisinin rəyasəti altında təşəkkül edib,

mülki səlahiyyətləri haiz (əlində tutan) «Cənubi Qafqaz hökuməti» tərəfindən idarə olunacaqdı.

Dövlət Şurası ona verilmiş olan bütün materialları tədqiq etdikdən sonra, imperator I Nikolaya təqdim edilmək üzrə hazırladığı mülahizələri, imperatorun arzusu üzərinə, o zaman artıq Qafqazda deyil, Varşavada olan Paskeviçə göndərmişdir; belə ki, əlimizdəki cild, bizə layihənin ümumi mülahizələrilə bərabər, knyaz Varşavskinin diqqətəşayan qeydlərini göstərməkdədir.

Hər şeydən əvvəl, Cənubi Qafqazdakı idarənin islahını vacib etdirən səbəblərlə aşina olaq. İslahatçıların bəhs etdiyimiz vəsiqədə təsbit etdiklərinə görə:

«Cənubi Qafqaz əhalisi çox yaxın bir zamana qədər müxtəlif dövlətlər halında yaşayır və təhdid edilməyən səlahiyyət və hakimiyyətə malik hökmdarlar tərəfindən idarə olunurdular. İndiki halda bu hökmdarlar yoxsalar da, onlardan qalan məmləkətlər bulunduqları halları ilə əski səltəntin bir parçası imiş kimi idarə olunur, Rusiya ilə mülki və daimi heç bir bağla bağlanmamış müvəqqəti bir şəkil ərz edirlər. Rusiya müəssisələrindən ayrı müstəqil bir müəssisələrə malik olmaları ilə bu vilayətlər, Rusiyanın buralarını imperatorluğa tamamilə ilhaq etmək əzmində olmadığı haqqında əhalidə bir fikir oyadır.

Xanların varisləri, mirzələr və bəylər xanlarla xanlıqları düşünürlər; mollalar, ədliyyə, mülki və idari hakimiyyəti qapamaq fikrindədirlər; gürcü knyazları, vaxtında hər istədiklərini edə bildikləri krallığı diriltmək fikrindədirlər; erməni keşişlər də erməni padşahlığını yenidən qurmaq fikrindədirlər, ta indiki papa öz ruhani taxtında olduğu kimi, katalikos da hakimiyyətə malik olsun. Nankor qəlblərdə bu mənəvi pərişanlıq səbəbilə, dövlət tədbirlərinə qarşı müxalifət və ziddiyyət təşəbbüsləri doğur ki, bu çox dəfə ümumi qaleyan (çaxnaşma) şəklini alır» (§ 6)[*].

Bu «nankor məmləkət» eyni zamanda maddətən zərərli imiş: «Bütün bu əhval - yəni məmləkətin qəti surətdə ruslaşdırılmaması - Cənubi Qafqazın imperatorluq üçün zərərli olduğunu mucib (deyir) olur. Buranın məsrəfi gəlirindən çoxdur: bura əskər vermir, xaricə qarşı müdafiədə kəsərli və dəyərli bir yardımı da yoxdur, əksinə Rusiya bura üçün həm para, həm adam sərf etməlidir. Yeganə fayda isə ancaq stratejikdir (§ 7).

«Rusiya idarəsinin buralardakı müvəqqətiliyi haqqındakı hər türlü təsəvvürləri kökündən kəsmək, bu məmələkəti sadə, özünü maddətən idarə etmək deyil, eyni zamanda Rusiyaya da faydalı qılmaq, bu məmləkətdən kafi dərəcədə əskər tutmaq və nəhayət bir rus kimi danışdırmaq, düşündürmək və duyğulandırmaq üçün bura əhalisini siyasi və mülki bağlarla sıx surətdə Rusiyaya bağlamaq əlzəmdir (vazkeçilməzdir)» (§8).

Yüksək çar bürokratları arzu etdikləri bu bağlılığı təmin üçün nə düşünürlərmiş?

[*] "Materiallar", s. 279.

Budur bizi əsil mövzuya gətirən sual!...

Bu sualın cavabını bir-bir gözdən keçirdiyimiz vəsiqənin «Cənubi Qafqazda əsil rus zadəganlarını [dvoryanlarını] kökləşdirmək haqqında»kı başlıq altında toplanan maddələri verməkdədir. Bunların birincisini təşkil edən § 9-cu maddə də eynilə belə başlayır:

«Öz hökmdarlarının taxtlarına sədaqətlə, həyatlarını, başda əskəri, sonra da mülki xidmətlərə vəqf edib təqaüd zamanlarını dəxi köylərdə yaşayan əsil rus zadəganlığı dövlətin istinad etdiyi ən əmin bir zümrədir. Təqaüdçü zadəgan köylərdə ən əmin (güvənilən) bir inzibat amilidir. Məmələkətin əmnü asayiş və inzibatı, rəsmi polisdən çox bu dvoryanstvo sinifə bağlıdır».

Bugünkü qızıl çarlığın kommunist kadrosunu andıran bu sinif, o zamankı Qafqazda yoxdu. 10-cu maddədə oxuyuruq:

«Cənubi Qafqazda rus zadəganları yoxdur. Gürcüstanla İmeretiyada zadəganlar gərçi varsalar da, bunlar bu günə qədər asiyalı bir haldadırlar. Bunların rus hökumətlərinə sədaqətləri isə bu hökumətdən gördükləri mənfəət və təvəccöh (xoşluq) nisbətində, daima nisbidir. Belə bir sədaqətə ümid edilə bilməz. O satlıqdır. Demək ki, rus hökuməti burada öz istinadgahını təşkil edəcək mətin və əmin bir dəstəyə malik deyildir. Bunun üçün də, burada əsil rus zadəganlarını yerləşdirmək və kökləşdirmək lazımdır. Yalnız bu sinfin vücudu ilədir ki, namuslu dövlət məmurları kadrosu təşkil olunur. Yalnız bu sinfin yerləşməsilədir ki, rus hakimiyyəti burada Cənubi Qafqaz ilə Rusiyanı siyasi və mülki bağlarla bağlayan əmin bir vasitə bulur. Bu sınaq canlı bir misal olaraq yerli əhalini əsil bir rus kimi duymaq və düşünməyə öyrədir».

Bunun üçün də, «müsadirə olunan məskun və qeyri-məskun bütün mülkləri və torpaqları dövlətin ayrıca təqdirinə məzhər (ortaya çıxan) olan əskəri və mülki rus məmurlarına tevzi (verməli) etməli və bu növdən mülk və torpaqlar yetmədiyi təqdirdə, dövlətə xas torpaqlardan bir qismi bu məqsədə sərf olunmalıdır» (§ 11).

Maddənin «müsadirə olunan torpaqları»n qeydinə nəzərən, bu «əsil rus zadəganlarının» bilxassə Azərbaycanda yerləşdirilmək istəndiyi anlaşılır, çünki 1809, 1826, 1837 və digər illərdə çıxan üsyanlar üzərinə burada külliyyatlı (çoxlu) surətdə müsadirə edilmiş mülklər və torpaq vardır[*].

Azərbaycandakı müsadirə edilmiş mülk və ərazidən hissə almış mülkədarlara «Rusiyadan adam satın alıb, buraya köçürmək haqqı verilir». Və bu yolda onlara bir qolaylıq olsun deyə «bu müamilənin (alverin) təhkimçilik vergisindən muaf (azad) tutulması» təmin olunur və «Rusiyada satın alınan adamların Cənubi Qafqazda başqasına satılması işində hökumətin qolaylıq göstərəcəyi vəd elənir» (§18).

Rusiyadan Cənubi Qafqaza gətirilən təhkimlilər üzərindəki mülkiyyət haqqı Rusiyada oduğu kimi burada da eynilə qorunur (§19).

[*] "Materiallar". Müqəddimə, s. 21.

Qəribə deyilmidir ki, adamı mal kimi satmaqda, rəncbər köylünü qul kimi tələqqi (saymaqda) etməkdə mahzur (ayıb) görməyən bu «əsilzadələr» cəsarət edib də «cahil və vəhşi» dedikləri[4] məmləkətimizə mədəniyyət gətirirmiş kimi füzuli (boşboğaz, ədəbsiz) bir tövr də alırlar?!...

Bu yalançı tövrün fərqini hər kəsin gözünə batacaq bir dərəcəyə gətirmək kurnazlığını göstərən qraf Paskeviç-Varşavskinin §19-da əlavə etdiyi qeyd həqiqətən də maraqlıdır. Qraf qeyd edir ki:

«Krepostnoyların Rusiyadan Qafqaza gətirildikləri təqdirdə, düşünürəm ki, onların mülkədar mülkiyyətində qalmaq haqqındakı məcburiyyətlərini bərtərəf (ləğv) etmək lazımdır. Çünki müsəlmanların yaşadıqları bütün Qafqaz vilayətlərində krepostnoyluq yoxdur. Müsəlmanlar arasında sadə, xristianların krepostnoyluğu [yəni mülkədar malı olması, digər təbirlə qulluğu] əcaib olurdu. Daha mənasız və münasibətsiz olurdu ki, təsəvvür olunan müsəlman zadəganlarının da rus krepostnoyları olsun[5]. Hökumət bunu nəzərə almış olacaqdır ki, Bessarabiyaya köçürülən köylülərin krepostnoyluqdan azadlıqlarım qərarlaşdırmışdır».

«Əsil rus zadəganlığının kökləşməsini» bu surətdə təsəvvür etdikdən sonra, vəsiqə «məhəmmədi [müsəlman] və erməni zadəganlığının təsisini» düşünür və:

«Dvoryanstvo [zadəganlıq] mütləqiyyət idarəsinin ayrılmaz bir lazımıdır. Cənubi Qafqazın böyük bir qismi müsəlmanlarla məskundur ki, heç bir zamanda əsil zadəgan sinfinə malik olmamışdır. Orada ancaq iki hal vardır: xan və təbəə. Xan ailəsi qohumluq, zənginlik, daha ziyadə cabbarlıq (zorakılıq) yolları ilə özlərini başqalarından üstün tutmağa çalışır və qanunən tanınmış heç bir hüquq və mülkiyyət bilməzdilər. İndi, xanlar düşdükdən və cəbrə nəhayət verildikdən sonra, bu nəcibzadə prinslər dəxi qara camaatla qarışmış oldular» (§21).

«Təbiidir ki - vəsiqə davam edir - taleyin bu makus (başayaq oyunu) cilvəsi onları təzlil (aşağılamaqla) ilə iddialı qəlblərini incidir. İzzəti nəfs və qürurları rus hökumətinə təmiz qəlblə və sədaqətlə verilməkdən onları mən (çəkindirir) edir» (§22).

Vəsiqə «bu vilayətlərlə bu xalqları həm öz aralarında, həm də Rusiya ilə yaxınlaşdırmaq üçün, bu yaxınlıq və səmimiliyə mane olan bütün əngəlləri ortadan qaldırmaq məqsədilə müsəlman, erməni vilayətlərində əsil rus zadəganlarından başqa yerli zadəganlar sinfi dəxi yaratmaq istəyir.

«Bu yeni dvoryanlar, bu ünvanın verdiyi hüquq və imtiyazları hiss edərək və rus hökuməti tərəfindən heçlik zillətindən çrxardıldıqları səbəbilə şübhəsiz bu hökuməti sevrələr» (§23).

---

[4] Təhlil etdiyimiz vəsiqənin daha ilk maddəsində Cənubi Qafqazın müxtəlif dillər danışan və dinlərlə adətlər daşıyan türlü tayfalardan ibarət olduğu və "müştərək olaraq cəhalətdə" olduqları qeyd olunmaqdadır.

[5] Vəsiqədə əsil rus zadəganlarının Azərbaycanda kökləşdirilməsindən başqa aşağıda görünəcəyi kimi, yerli zadəgan sülhü yaratmaq təsəvvürü mövcuddur.

Bu tədbir sayəsində «bəylərin» Rusiyaya sədaqəti təmin olunur, çünki «müsəlman bir hökumətin tərəfinə keçərlərsə əldə etdikləri bu imtiyazı qeyb etmiş olurlar - çünki müsəlman dövlətlərində zadəganlıq imtiyazı yoxdur» (§ 24). Bundan başqa vəsiqə bəy cocuqlarının haiz (aid) olduqları dvoryanlıq ünvanının mucibincə bilxassə əskəri xidmətlərə alınacaqlarından, dövlətin əlində bir növ rehinə (girov) halını alacaqlarını və bu surətlə atalarının sədaqətlərini təmin etmiş olacaqlarını dəxi hesablayır. Və bu sahədəki mənəvi təsiri daha ziyadə qüvvətləndirmək üçün Tiflisdə, dvoryan cocuqlarına məxsus olmaq üzrə bir təlimxana təsisilə, 12 yaşını burada bulduqdan sonra, bu «əsilzadələrin» Moskva və ya Peterburqa göndərilərək, əskəri korpus, akademiya və s. kimi məktəblərdə oxutdurulmasını tövsiyə edir. Təhsilərini tamam etdikdən sonra, bu gənclər beş il Rusiyada xidmət edəcəklər və yalnız ondan sonra Qafqazda bir məmurluğa təyin olunacaqlar. «Ayrılıq, tərbiyə və ruslar arasındakı xidmət onları ruslaşdırır və indiki halda ruslarla yaxınlaşmalarına mane olan məhəmmədiliklərini çox zəifləşdirir» (eyni § 28).

Gürcü zadəganlarının hüquq və səlahiyyətləri 1783-cü il müahidəsi, 1801-ci il manifesti və 1824 və 1827-ci illərdəki çar qərarları ilə təyin edilmişdi. Müsəlman və erməni zadəganlarının təsis və tərifi haqqında isə vəsiqə belə bir təsəvvürdədir:

«Müsəlman vilayətlərində dvoryanlıq təsis edərkən, hüquqi dörd əsasa etibar edilməlidir: 1) Keçmişdəki hökmdar xanların nəsillərinə mənsub olanlar, gürcü knyazları ilə eyni səviyyədə tutularaq, knyaz [xan] adını daşımalıdırlar, bilxassə ki, gürcülər bu sonuncuların daima əlaltıları olmuşlar. 2) Dvoryanlıq rütbəsini verən xidmətlərdə olmuş adamlara dvoryan [bəy] ünvanı verilməlidir. 3) Əski xanlardan və ya İran şahlarından bəy, ağa və sultan ləqəblərini daşımaq üçün təliqələri olan adamlar da «dvoryan» adını daşıyırlar. Təliqələri mövcud olmayıb da eyni haqqa malik olduqlarını isbat edə bilənlərə də dvoryanlıq adı verilir (§ 28).

Paskeviçin xüsusi qeydincə, «bütün bir millətin sadə, alçaq təbəqədən ibarət olması» kimi «münasibətsizliyi» bu surətlə «bərtərəf» etməklə bərabər, «köküdən dönüklüyə müsaid olan» bu «yeni zadəganları» təsərrüd (əl altında) tutmağı dəxi, o zamankı rus bürokratları unutmamış, eynilə indiki qızıl rejim kimi, casusluq üsulunu ailə əfradı (üzvləri) içinə qədər soxmaq «fəzilətini» göstərmişlər.

Xəyanətləri görünən zadəgan ailəsi təbii olaraq bütün haqq və hüquqlardan selb (məhrum) olunur. Yalnız ailə əfradından biri mütəsəvvər (düşünülmüş) xəyanəti vaqe olmasından əvvəl xəbər verirsə, xəyənatkara aid əmlak və ərazinin yarısına sahib olur (§ 37).

Bir tərəfdən rus dvoryanlarının Azərbaycanda kökləşməsi, digər tərəfdən də hüquqi bir keçmişləri yoxsa da, təamül (adət-ənənə) gücü və təsirilə əhali arasında o və ya bu surətlə nüfuz sahibi olan[6] ailələrdən özünə uyğun yerli dvoryan zümrəsi yaratmaq surətilə hakimiyyətinə ictimai əsas hazırlamaq istəyən çarlıq, bu

[6] Knyaz Varşavskinin tərifindən.

vəsiqədən görüldüyü kimi, məmləkətimizdə ayrıca «rus müstəmləkələri» vücuda gətirmək niyyətində dəxi olmuşdur.

Məzkur (sözü gedən) vəsiqənin 40-cı maddəsində əsrlər və millətlərin tarixində müstəmləkəçiliyin çox mühüm siyasi və mədəni bir rol oynadığını və «Attika və Beotiyanın misirli müstəmləkəçilər tərəfindən vücuda gətirildiyini, İoniyanın da yunan müstəmləkəçilərdən təşəkkül etdiyini» nəzəri olaraq qeyd etdikdən sonra, Cənubi Qafqaza keçərək, vəsiqə buranın «əski Amerikaya bənzədiyini» və hər türlü sənaye və hətta əkinçilikdən belə məhrum [?!...] olduğunu bəyanla (§ 42) Rusiyadan buralara mühacirlər köçürərək, onlara ən yaxşı məntəqələrdə əlverişli torpaqlar ayrılması lüzumunu ortaya qoyur (§ 49). Eyni zamanda Cənubi Qafqazda olan əskərlərdən ibarət əskəri qəsəbələr vücuda gətirilərək, bunlara kafi dərəcədə ərazi və əkin - şeyləri verilməsi və eyni zamanda mümkün olduğu qədər şəhər və qəsəbələrin ətrafında rus köyləri salmağı dəxi tövsiyyə edir (§ 58-62).

Məmləkəti ruslaşdırmaq və rus hakimiyyətilə qarışdırmaq niyyətilə qələmə alınan bu rəsmi vəsiqə «müsəlman dia üləmasını» [maqomedanskoye duxovenstvo] dəxi gözdən iraq buraxmamışdır. O zamankı Azərbaycanda məmləkətin axund, molla, seyid, üləma və sairə növündən müxtəlif ünvanlar daşıyaraq «xalqa mənən və maddi təsirli olduqlarını və onları vəz və təlqinləri altında tutaraq, qazanclarının 10 %-nə [zəkat demək istəyir] sahib olduqlarını qeyd etdikdən sonra «vəsiqə» bu zümrənin eyni zamanda «qərəzkarlıq və ədalətsizliyilə məşhur şəriət məhkəməsini də əlində bulundurmaq surətilə» rus hakimiyyəti üçün olduqca müzürr (zərərli) bir nüfuza malik olduğunu ciddi bir ifadə ilə qabardır. «Öz faydalarını din adı altında təmin edən bu zümrə müsəlmanların ruhani amirləridir (başçılarıdır). Məhəmmədilik onları Rusiyanın mükəmməl bir düşməni edir. Bütün qaleyanlar (çaxnaşmalar), narazılıqlar və rus hakimiyyəti əleyhindəki üsyanların gizli mühərrikləri daim bu müsəlman üləmasının təsir və nüfuzu ilə vücud bulmuşdur. Çox kərə bunlar şəxsən üsyançı dəstələrinə başçılıq etmişlər» (§ 81).

Bu düşmənlərdən xilas olmaq üçün vəsiqənin mühərriri üləma kişvəsi (paltarı) və ünvanı altında yaşayan adamların bəy, xan, ağa, sultan ünvanlarının ayırd seçilməsinə aid tədbirlərə bənzər bir takım sudan (önəmsiz) təkliflərlə hökumətə sadiq mollaların təsbitini və xalqın öz zəkatlarını ancaq hökumətcə təsdiq olunmuş mollalara vermələri üçün əl altından təşviq edilmələrini və eyni zamanda şəriət məhkəmələri yerinə, hər türlü təhrirata (yazışmalara) lüzum göstərmədən, sırf ağızdan müzakirə üzərinə qurulu mühakimə edən və qərarlar verən köy məhkəmələrinin təsirini bir tədbir olaraq göstərir; fəqət, yarımtədbir olaraq görünən bu tövsiyələrlə bərabər o, əsil tədbir olaraq yerli əhalinin xristianlığa çevrilməsi üçün ediləcək ciddi təşəbbüslərin daha səmərəli olacağını irəli sürür və düşündüklərindən daha çevik bir zamanda selbin (xaçın) yaradıcı bir işıqla islamiyyət xarabası üzərində parlayacağına qaneəm» - deyir (§85).

Məmələkəti daha dərindən öyrənmiş olduğu görünən layihənin bəzi maddələrinə əlavə etdiyi qeydlərilə anlaşılan knayz Varşavskinin bu fəslə əlavə etdiyi qeyd də diqqətəşayandır. Varşavski [yəni Paskeviç] mollaların rus hakimiyyəti üçün zərərli bir ünsür olduqların qəbul etməklə bərabər, şəriət məhkəməsinin söyləndiyi kimi «fasid (ədalətsiz) bir müəssisə» olmadığını da qeyd edir; çünki bir administrator təcrübəsilə o, Qafqazdakı «adil» rus məhkəmələrinin bu «fasid» müəssisələrlə rəqabətdən aciz olduğunu öz müşahidə və təcrübəsilə bilir. Fəqət, belə olmaqla bərabər rus qanunları ilə rəqabət edən bu «Məhəmməd şəriətinin» müəssisələrini rus nüfuz və hakimiyyəti üçün o daha zərərli görür. Üləmanın təscili (rəsmiləşdirilməsi) məsələsinə gəlincə, bu işi qeyri-mümkün görən Paskeviç, bütün ümidini vaxtilə, Tiflisdə ikən, bu məsələni tədqiq üçün təsis etdiyi komissiyanın işlərini bir nəticəyə erdirməsinə bağlayır. Buradakı təsəvvürlərə görə, müsəlmanlara aid dini işlərin icrasını xristian konsistoryanlarına (inzibati və məhkəmə hüquqlu din idarəsi) bənzər müəyyən müəssisələrdə mərkəzləşdirmək lazımdır və bu müəssisələr dəxi «baş pokuror» rütbə və səlahiyyətlərində bir rus məmurunun nəzarət və kontrolu altında olmalı imiş.

Yuxarıda qeyd etdiyimiz kimi, Paskeviçin təşəbbüsü ilə başlayıb, yenə onun mülahizə və haşiyələrilə təkmil olunan bu layihənin tətbiqi «Dövlət Şurası»nın təsdiqindən keçərək, imperator I Nikolayın iradəsinə ərz edilmiş ikən təxir edilmişdir. Bu təxir o zamankı Qafqazın ümumi valisi baron Rozenin şiddətli müxalifəti üzərinə vaqe olmuşdur ki, bu da ayrıca bir fəsildir.

AZƏRBAYCANDA RUS MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ

III

Paskeviç - Kutaysov - Meçnikov layihəsinin o zamankı Cənubi Qafqaz müdiri ümumisi [qlavnoupravlyayuşiy] (baş vali)* baron Rozenin şiddətli etirazı üzərinə təxirə uğradığını II məqaləmizin sonunda qeyd etdik.

Əslən Baltik sahili almanlarından olan baron «yerli adət və şəraiti nəzərə almadan», «Cənubi Qafqazı» bir həmlədə içəri Rusiyadakı şəkildə idarədən ibarət olan bu təsəvvürü protest etmişdir. Əsasda «islahata» zidd olmayan Rozen, buna birdən deyil, tədriclə getməyi tövsiyə edir və «hələlik» idarənin «əskəri komendantlar»dan alınaraq, mülki bürokratlara keçməsində bir fayda görmürdü. Ona görə sürətlə hökm verən bəsit bir idarəyə alışqan olan yerlilərin «bürokratiya uzatmalarından məmnun qalmayacaqları şübhəsizdi».

Baron Rozen, Baltik sahillərində olduğu kimi, burada da yerli əsilzadələrə istinad edən bir idarə sistemini məmləkətin təskini və Rusiyaya mərutluğu (bağlılığı) baxımından daha faydalı bulurdu. Layihənin finans və maliyyə xüsusundakı birləşdirilmə təsəvvürü də baronun tənqidini mücib (tuş) olurdu. Çünki eyni şərait taxtında Cənubi Qafqazda vergiləri tək bir sistemə bağlamaq imkansız idi. Baron təsəvvüründə musırr (dönməz), tənqidlərində qəti idi.

Tətbiqinin təxirə uğraması ilə bərabər, Cənubi Qafqaz idarəsini islah etmək fikri «Dövlət Şurası» tərəfindən ihmal edilməmişdir (unudulmamışdır). 1837-ci ildə bu məqsədlə eyni «Şura» tərəfindən senator Qanın rəyasətində xüsusi bir komissiya təşkil olunaraq, «Cənubi Qafqaz idarəsinin islahı işi» bu komissiyaya həvalə edilmişdir.

O sıralarda imperator I Nikolay Qafqazı səyahət etmiş, bu səyahət nəticəsində baron Rozen mövqeyindən düşmüşdü. Digər tərəfdən senator Qan, imperator etimadını qazanmış, nüfuz sahibi bir adam idi. Bu iki amilin təsirilə senator Qan, az bir zamanda məmləkəti belə bir quş baxışı ilə seyr etdikdən sonra, əsasda, 1833-1836 illər layihəsinə dayanaraq, yeni islahat layihəsi hazırlamış və 1839-cu ilin fevralında bu layihəni qəbul etdirmişdir.

Qanın Paskeviç-Meçnikov layihəsindən çox da fərqli olmayan «Cənubi Qafqaz idarəsinin yeni müəssisələri» adını daşıyan bu əsərinin təfərrüatına keçmədən, onun məmləkətimiz haqqındakı düşüncələrilə, «islahatdan» güddüyü qayələri üzərində durmaq istəyirik. Bu, çar müstəmləkəçiliyinin ideoloji əsaslarını bizə bir az da anlatmış olur.

* "Valiyi-ümumi" və ya "namestnik" (visruva) ünvanını daşıyan Qafqaz valiyi-ümumilərinə əvvəllərdə "müdiri-ümumi" ünvanı verilmişdir.

1837-ci ilin sentyabrında «Cənubi Qafqazın idarəsi haqqında layihə hazırlayan komissiya»nın rəisi sifətilə I Nikolaya göndərdiyi məruzəsində senator Qan aşağıdakı fikir və mülahizələri bəyan etməkdədir:

«Qara dənizlə Xəzər dənizi arasında 3 böyük nəhrlə (çayla) qolları tərəfindən suvarılan və müxtəlif abu-havaya malik məntəqələrdən ibarət olub da, cənubun ən sıcaq yerlərilə şimalın soyuq qitələrində göyərən [yeşərən] hər türlü bitkilər yetirən və məhsullar verən Cənubi Qafqaz ölkəsi uzun müddət Rusiyanı dışarıdan gətirmək zərurətində olduğu məhsul və malların bir çox qismindən təmin edər. Bu məmləkət, Avropa ilə Asiya arasında ən qısa, ən əmin və ən əlverişli ticarət yolunu təşkil etməkdədir. Asiyanın içinə çıxan bu məmləkət şimali Asiya millətləri üzərində qüvvətli təsirə malik olması şərtilə, lüzumu gəlincə «dəniz qüvvətini suiistimal ilə, milli haqlara riayət etməyən Hindistana qarşı» Rusiyanın əlinə ən əmin müdafiə [əslində intiqam - «mest» deyilmişdir] vasitə və imkanlarını verməkdədir»[*].

Qanın bir az muğlaq (dolaşıq) ifadəsi dəxi Qafqazı «fəthə» çıxan Rusiyanın başında Hindistan havası əsən Dəli petro vəsiyyətlərinə sadiq, doymaq bilməyən çılğın bir imperialist qüvvəti olduğuna işarədir.

Qan, Rusiya üçün iqtisadi və siyasi bu qədər böyük dəyərə malik olan Cənubi Qafqazın o zamanda ərz edən «boşluq, səfəalət və intizamsızlığına» acıyır və onu «indiki karsız vəziyyətindən» çıxarıb da, faydalı və qazanclı bir müstəmləkə halına gətirmək üçün, idarəcə islah edilməyə möhtac olduğunda israr edir və «indiki halında, Rusiyaya heç bir qazanc gətirməyən bu gözəl malikanələr [vladeniya] dolayısı ilə əcnəbi dövlətlərin həsədini qaynadıb da yüksələn Rusiya əleyhinə kürsülər hər türlü böhtanlarla dolu hayharaylara verilir və xeyrimizi istəməyən dövlətlərin əl altından etdikləri fəsad və intriqalarla dağlardakı düşməncə müqavimət ruhu təşviq olunursa, bu torpaqların imperatorun feyzli əmrlərilə imar (quruluş) və intizama malik olacaqları təqdirdə dövlətin bu yerlərdən edəcəyi istifadə və alacağı sərvət dolayısı ilə rəqiblərin duyacağı qibtənin dərəcəsini indidən təsəvvür etmək qəbuldur» (s. 303).

Qan, Cənubi Qafqaz islahatını düşünürkən, buranın Rusiyaya xam mal verən bir müstəmləkə halında qalması fikrini əsas olaraq alır. «Hökumət - deyir - yalnız ziraatı (əkinçiliyi) təşviq etməklə iqtifa (yetinməli) etməlidir. Fabrik və manufaktura sənayesinin tərvici (dəstəklənməsi) isə burada əkinçiliyə lazım olan qüvvələrin azalmasını mucib (səbəb) olub, bura üçün bir fayda gətirməz, Rusiya sənayesi ilə ticarətinə də zərər gətirir, çünki dövlətin himayəsi sayəsində vətən fabrik və manufakturası mükəmməl surətdə çalışaraq, ucuz əmtəə çıxarır və Cənubi Qafqazdan çıxacaq ipək, kətan, pambıq, boya və s. kimi məhsullar ilə hər türlü təbii zənginlikləri tamamilə qullana bilirlər».

[*] "Materiallar", s. 303.

Xammal müstəmləkəsi Cənubi Qafqaz ilə sənaye metropolu Rusiya, qarşılıqlı mənfəətlər əsasına dayanaraq, Qanın anlayışına görə, qaynayıb qarışar, maddi olan bu qaynama mənəvi tədbirlərlə dəxi, təkmil olununca bu «mülklər» ayrı-ayrı əcnəbi təsir və intriqanın təsirindən saxlı, əmin bir hala gəlirlər (s. 314).

«İndiki halında», yəni Qanın «islahat»la məşğul olduğu illərdə isə, vəziyyət çox da əmin deyilmiş. Məmləkətin imperatorluq mərkəzindən uzaqlığı, bilxassə müsavilə (dediş-gəliş) yollarının müşküllüyü, nəhayət «Rusiya düşmənlərinin təhrikə mühəyya (hazır) olduqları təəssüb və milliyyət hissləri» və hətta «gələcək valilərin ehtimal olunan zəfər və hökmranlıq sevdaları» hər zaman düşməncə intriqa ruhunun dövlətə müşkülat çıxarmaq üçün qullana biləcəyi vasitələrdir» (s. 303).

Yeni idarə sisteminin tesisində hakim fikir senatorca - makul (ağıllı, əlverişli) qanunlar, ədalət və hüsü idarəyə dayanan modern bir nizam ilə yerli əhalini Rusiyaya mənən bağlamaq əzmidir.

Bu, sözdə çox müdəbbiranə (uzaqgörən) görünən niyyətinin təhəqqüqü (gerçəkləşməsi) üçün ortaya qoyacağı müəyyən mülahizə və təkliflərə keçmədən əwəl, Qan Cənubi Qafqazı təşkil edən başlıca üç ünsürün onunca səciyyələrini anladır:

«Gürcülər, öz dinlərindən olub, onlara xilas, əmniyyət və hüzur gətirən Rusiyaya bağlıdırlar. Kef, səfahət (əyləncə) və israfa dalıb da, at belində, qılınc oynatmağı sevən gürcülər, ticarət və sənaye işlərini ermənilərə buraxaraq, özləri maldarlıq və əkin işlərilə məşğuldurlar. Bunda da çox ibtidai bir haldadırlar. Gürcü dvoryanları, çox az qismi müstəsna, iflas etmişlər.

Ermənilər, toplu olaraq, əksəriyyətlə Eçmiədzin və Qarabağ səmtlərində yaşayırlar; gərçi Cənubi Qafqazın hər tərəfinə səpələnmişlər. Zəngindirlər. Təşəbbüskardırlar. Ticarət ilə kiçik sənayeni əllərinə almaq istedadındadırlar. Hiyləgərliklə mənfəətpərəstlikləri dillər əzbəridir. İran və Türkiyə təqibat və istibdadlarından xilaslarına vasitə olduğu üçün, «Asiyanın bütün qitələrində hökumətimizin hər cür məqsədlərinə mükəmməl vasitə və amil olurlar».

Müsəlmanlara gəlincə - bunlar, əksəriyyətlə «tatar cinsindəndirlər (sənəddə - tatarskoqo proisxocdeniya, yəni tatar (türk) soyundan yazılıb)»[*]. «Əli və Ömər məzhəblərinə» bağlıdırlar (Yüksək rus məmurları Azərbaycan müsəlmanları üçün sünni və şiə din idarələri, bölücülük tumu səpən əsasnamələr yaratsalar da, Azərbaycan türklərinin bütün aydınları, eləcə də başqa müsəlman azərbaycanlılar islam dininin heç bir təriqətinə üstünlük vermir, özlərini müsəlman sayırlar. Bu, ən azı Azərbaycanın böyük bilgini Nizami Gəncəvi çağından belədir. Alp Arslan deyən kimi: «Biz türklər əsil müsəlmanıq, bidət bilmərik!»). Gürcüstan və erməni vilayətlərində olduğu kimi, bunlar böyük bir kütlə halında Qafqazın şimali-şərq ətəklərində və Kür nəhri (çayı) ovalığında yaşayırlar. «Çalışqan və mərd

[*] Türklərə o zaman Rusiyada tatar deyildiyi məlumdur.

insanlardır; ınütəəssübdürlər, təbəddül (dəyişmə) və yeniliklərə mayil deyildirlər. Bunlar, əxlaq, səciyyə və görənək etibarı ilə Rusiyada yaşayan digər bütün müsəlmanlara bənzəyirlər. Onlardakı eyni dəyər və əyərlər bunlarda da vardır. Fəqət, bunların təslimiyyət sədaqətlərinə çox da güvənilməz» (s. 307).

Senator Qan, Cənubi Qafqazın bu üç qismində görülən milli özəllikləri izah edərkən gürcülərlə ermənilərdəki məmnuniyyətsizliyin sırf idari suiistimallar və əskəri komendantların keyfi hərəkətlərindən irəli gəldiyini qeyd edir. Müsəlmanlardakı məmnuniyyətsizliklərdə isə dini və ictimai amillərin rol oynadığını qabardır. «Onlar, yəni əski xanların bütün səlahiyyət və iqtidarlarına malik olan komendantlar - Qan yazır - heç bir zaman idarə etdikləri xalqı təmin edə bilməzlər; çünki xristian olduqlarından ehkamını tətbiq etdikləri Quran ilə şəriətə şəxsən inanmadıqları əhaliyə məlumdur. «Bu dini tələqqidən (inamdan) gələn mənəvi və səbəb yanında əhalinin rus idarəsindən bizarlığını mucib ictimai səbəb də vardır. Bu da bəylərin komendantlıq idarəsi və rus hakimiyyətindən istifadə edib Gürcüstanda olduğu kimi, köylüləri özlərinə tabe krepostnoy halına gətirmək xüsusundakı təşəbbüsləridir. Halbuki islam dini belə bir vəziyyəti tanımaz - «krepostnoyluq məhəmmədiliyə ziddir!» (s.307).

Çar bürokratı dini hissin sadə, müsəlmanlarda deyil, Cənubi Qafqazın o biri millətlərində də təsirli olduğunu ihbal etmir. Şərq - deyir - məlum olduğu üzrə, dinlərin beşiyidir. Mədəniyyət nuru Qərbə buradan getmişdir. «Təşəkkür borclu Qərb», Şərqdən aldığı mədəniyyət borcunu sənaye və texniki tərəqqiləri şəklində ödəmişsə də, mədəniyyət və kültür baxımından Şərqə çox şey verməmişdir. Çünki - deyir - din təəssübünün buralardakı rolunu ihmal etmişdir. Qanın düşüncəsinə görə, sultan, şəxsən din üləmasından başlasa, əvvəla onları əsri bir şəkildə tərbiyə etmiş olsaydı, şübhəsiz millətini yeniliyə alışdırmaq və məmləkətə təzminat (yenilik) vermək işində daha məsud bir nəticə alırdı.

«Tarixdən aldığı bu dərsi göz önündə tutaraq», rus imperializminin liberallıq satan bu «mədəniyyətçisi» Qafqazın «rus mərifətilə [obrazovannost], rus hakimiyyətinin ancaq xristianlıq bir tərbiyə» ilə mümkün olacağını və yalnız bu surətlə «sabiq hökmdarlardan qalan islamiyyət və istibdad təsirlərinin» yox olacağını qabardır (s.310).

Gürcüstan eqzarxının bu xüsusdakı «məşkur» (bəyənlimiş) çalışmalarını qeyd eldikdən sonra erməni kilsəsilə iki müsəlman məzhəbinin dini işlərini tənzim və kontrol altına alınması xüsusunda dəxi, senator Qann, diqqətli olmağı əlavə edir. Bu, bilxassə əhəmiyyətlidir; çünki «bir kərə bunlar Cənubi Qafqaz əhalisinin üçdə iki mislini təşkil edir, cəngavər bir ruha malikdirlər, Asiyanın digər yerlərində yaşayan cinsdaşları (soydaşları) ilə ihtilat (qovuşma) halında və daimi bir münasibətdədirlər. İstanbul ermənilərı (Sənəddə, dış ölkə agentlərinin yardımı ilə qızışdırılan və dəstəklənən) də özlərinə məxsus incə intriqanlıqla, buraya əks edən şayiələrə görə, əski «Böyük Ermənistan»ın xəyalı ilə yaşayırlar. Yerli

müsəlmanlara gəlincə, hökumət, digər tərəflərdə olduğu qədər bunları ruhən daha ram və təskin edə bilməmişdir» (s. 311).

Dini təsir və kontroldan başqa, senator Qan, Cənubi Qafqazda rus «mərifəti»nin yayılmasına və rus dilinin öyrədilməsinə dəxi ayrıca əhəmiyyət verməkdədir.

Əhalinin bütün sinif və təbəqələrini rusca oxutmaq və rus ruhu ilə alışdırmaq üçün sərf olunacaq əmək və sərmayənin boşa getməyəcəyinə senator əmindir.

Mərkəzi Rusiyada təhsil görmüş yerli gənclər, məmləkətlərinə dönüncə «milli rus mərifətilə gələcək və onları tərbiyə edən məmləkətə qarşı dərin bir eşq və bağlılıq göstərəcəklər».

Rus dilinin əsaslı surətdə yerlilərə öyrədilməsindən başqa «bu məmləkətdə ümum tərəfindən qullamları tatar [türk] dilini bilən rus məmurlarının yetişdirilməsilə məşğul idarələrə tərcihən bəylələrinin alınması» dəxi, Qan tərəfindən ciddiyyətlə irəli sürülür. «Bu surətlə - deyir - yerli tərcüməçilərdən də xilas oluruq» (s. 313).

Azərbaycan türkcəsinin [tatar] yerli müsəlmanların dili olaraq öyrədilməsini bəhs mövzusu etməyən Qan, gürcü və erməni dillərilə dəxi ələlədə (adi) oxuyub yazmaq dərəcəsindən çox məşğul olmağı zərərli bulur. «Öz ədəbiyyatları, tarixləri və milli ürfanları ilə məşğul olcaq istedadlı gənclər müsbət bir şey əldə etməyib, boşuna vaxt öldürdüklərindən» başqa, bu istiqal (özgələşmə) «onlarda iğfal (aldanma) və hüzursuzluq baisi xətalı bir milliyyət idealının doğmasına səbəb olacaqdır» ki, bu eyni zamanda «özlərinə ümid bağladığımız bu gözəl gəncliyi məmləkətin faydası namına yeganə intişab (bağlanmaları) etmələri lazım gələn rus milliyyətindən özlərini ayrı tutmağa da səbəb təşkil edəcəkdir».

Paskeviç-Meçnikov hayihəsini canlandıran eyni ruslaşdırma qaynağından su içdiyi yuxarıda aldığımız fikirlərilə parlayan senator Qanın tənzim etdiyi islahat layihəsi dəxi, xülasə etdiyimiz «idelogiyanın» məhsuludur. Rus müstəmləkəçilik sisteminə sadiqdir.

«Cənubi Qafqaz idarəsinin «islah müəssisələri» ünvanını daşıyan bu layihə 10 aprel 1840-cı ildə təsdiq, 1841-ci ildə tətbiq olunmuşdur.

Müxtəsərcə, «10 aprel müəssisəsi» [uçrecdeniye] adını alan və tətbiqi, əhalinin ümumi müxalifəti, boykotu və qanlı qiyamları ilə qarşılaşan bu «müəssisələr»in uğradıqları aqibət üzərində durulacaq interes (istək, maraq) və hüdudiyyətləri (göz qabağındadır) haizdir!

“Millət andı”, sayı 1, fevral 1938, Berlin.

AZƏRBAYCANDA RUS MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ

IV

Senator Qanın əsəri sayılan «10 aprel 1840-cı il müəssisəsi» Cənubi Qafqazı mərkəzləşdirilmiş bir rus müstəmləkəsi halına gətirmək niyyətilə hazırlanmışdı.

Haiz olduğu (dayandığı) əsaslara görə, «Yeni Cənubi Qafqaz müəssisələri»i aşağıdakı xüsusiyyətləri haizdi (vardı):

Cənubi Qafqaz - 11 qəzadan [uyezd] ibarət Gürcüstan-İmeretiya vilayətilə, 7 qəzadan mürəkkəb (qurulmuş) Kaspi həvalisi (vilayəti) adı altında 2 «quberniya» təşkil edirdi. Bu iki valilik, eyni zamanda idari yüksək səlahiyyətləri əlində bulunduran «Cənubi Qafqaz müdiri ümumisi»nə tabe bulunurdu. Müdiri ümüminin (baş valinin) əskəri komandanlıq, cinayət məhkəmələri və məmurları əzl (işdən çıxarmaq) sahələrindəki müstəsna səlahiyyətlər xaricində malik olduğu səlahiyyət, içəri Rusiyadakı general-qubernatorların səlahiyyəti idi. Eyni zamanda müdiri ümuminin yanında və rəyasətində yüksək idarə işlərinə baxmaq üzrə, «Sovet qlavnoqo upravleniya» (Baş idarə şürası) adını daşıyan bir növ «Dövlət Şurası» təsis olunurdu.

Bütün əzmi məmləkəti ruslaşdırmaq və idarəni mərkəzləşdirməyə verilən Qanın bu əsərində təbiidir ki, yerli heç bir xüsusiyyətə hörmət yoxdu. Nə «müsəlman», nə də gürcü qanunlarına bundan sonra etina edilməyəcəkdi.

Yerli nizam, örf, adət və qanunları tanımayan «Yeni müəssisə» yerli məmurları dəxi tanımamış, o zamana qədər «mövqedə» olan yerli bütün vilayət bəylərilə mahal naiblərini rus «uyezdni naçalniklər» və «uçastok zasedatel»lərlə dəyişmişdir.

Xanlıq dövrü ənənəsilə idarə başında olan bəylərlə ağalar, o zamankı bürokratiya anlayışı ilə əllərindəki torpaqların maliki (yiyəsi) deyil, sadəcə müdirləri idilər. Bunun üçün, özləri yeni qanun mucibincə (görə) idarə başından atılınca əllərindəki torpaq və mülklərin alınması məntiq icabı (hökmü) idi. Bu məntiqlə yürüyərək, çar hökuməti 25 aprel 1841-ci il qərarı mucibində Qazax, Şəmşəddil və Borçalı qəzalarındakı ağaların mülkləri əllərindən alınmış, onlara «təqaüd» maaşı bağlanmışdır. Bu surətlə mülkədarlıqdan təqaüdə sövq olunan ağaların sayı 59-u bulur və 102 türk köyü ilə 1245 ev təşkil edən köylü «təqaüd» bahası müqabilində ağaların idarəsindən çıxırdılar.

Xristian olmaları hesabı ilə, eyni vəziyyətdə olan erməni köyləri isə «təqaüd» parasını verməkdən muaf (azad) tutulurdular. Qazax, «ağa»larına tətbiq olunan bu tərtibin bütün Azərbaycan «bəy»lərinə dəxi təşmili gözlənməkdə ikən, hadisələr bu təsəvvürün fikirdən işə keçməsinə mane olmuşdur. Yerli bəyləri idarədən uzaqlaşdırmaqla bərabər, torpaq mülkiyyətindən də ayırmaq qəsdini güdən bu dövrdəki çar müstəmləkəçiliyi, idarəyə gətirdiyi rus məmurlarını eyni

zamanda torpaq maliki (yiyəsi) etmək surətilə - daha Paskeviç zamanında ikən düşünülən - «əsil rus zadəganlığı»nın buralarda yerləşməsini yeni bir çeşni ilə tətbiq etmək istəmişdir. «Uçastok zasedatel»ləri - yeni müəssisəyə görə - 25 desyatin miqdarında torpağa malik olacaqlar və bu torpaqlar yerli köylülər tərəfindən əkilib-becəriləcəkdi. Belə ki, «zasedatel»lərin idarəsindəki mülklər, yerli əhaliyə örnək olacaq bir növ «nümunə tarlaları» şəklini alacaqdı.

«1840-cı il müəssisəsi»nin hökmündən sadə, müridizm hərəkatına tutulmuş və daha təslim olmamış Dağıstana mücavir (yaxın) Quba və Dərbənd qəzaları dışarıda buraxılmışdılar. Cənubi Qafqazın digər bütün qismlərində isə, 1841-ci ilin sonuna doğru 10 aprel nizamı kamilən tətbiq edilmişdir. Rusiyadakı nizamların bu məmləkətlərdə eynib tətbiqinə son dərəcə etina göstərilmiş, o qədər ki, əvvəlcə də bu münasibətlə qeyd olunduğu kimi «qadınların erkəklərlə bərabər qırmaclanması» belə unudulmamışdır.

O zamankı Cənubi Qafqaz müdiri ümumisi Qolovinlə şəxsən Qanın «Yeni müəssisə»nin əhali tərəfindən minnət və şükranla qarşılandığı, imperator I Nikolaya göndərilən rəsmi raportların təntənəli məzmunlarını təşkil eləmiş, ayrıca, öz "təşəkkür və qulluqlarını paytaxtı humayuna (uca paytaxta) şəxsən ərz etmək üzrə", Qan tərəfindən tərtib olunaraq, ikisi gürcü dvoryanlarından, ikisi Azərbaycan bəylərindən, dördü isə şəhərli siniflərdən mürəkkəb (yaradılmış) mürəhhəslər (nümayəndələr) heyəti xüsusi olaraq Sankt Peterburqa göndərilmişdi. Vəsiqələrin, göndərilən bu heyətdəki mürəhhəslərin əhali və zadəganlar tərəfindən deyil, şəxsən senator Qan tərəfindən bəlləndiyi qeydlərini dəxi unutmayaq.

Bu kimi «təzahürlərdən» başqa «10 aprel müəssisəsi»nin tətbiqi «Kaspi vilayəti»nin mərkəzi olan Şamaxıda toplanan rəsmi bir ihtifal (törən) ilə dəxi «təsid»(bayram) olunmuşdur. 1840-cı ilin dekabrında, Kaspi vilayətinin «bütün qəzalarından gələn nümayəndələrdən» ibarət qələbəlik bir toplantıda senator Qan, «10 aprel nizamı»nın əhəmiyyətinə aid böyük bir nitqlə vilayət dairəsini [palata] açmış və əhalini imperator namına (adından) təbrik etmişdir. Bir gün sonra toplanan nümayəndələr adından Qanın nitqinə cavab olaraq imperatora ərz edilmək üzrə türkcə bir məruzə verilmişdir. İmperatora göndərdikləri raportda bu məruzədən bəhs edən senator Qanla müdiri ümumi Qolovin onu, əhalinin feilən (gerçək) göstərdiyi «sevinc və minnətdarlığa» nisbətlə «çox zəif» bulurlar[*].

Bundan başqa Abbasqulu Ağa ilə Mirzə Fətəlinin isimlərilə əlaqədar və qələmlərindən çıxan bəzi yazılar «Cild»in mühtəvi olduğu materialların bir qismini təşkil etməkdədir. Abbasqulu Ağanın xanlıqlar dövründəki idari islahat ilə o zamankı müəssisələrə aid olaraq buraxdığı xülasə məlumat ilə Tiflisdə toplanan

[*] "Materiallar"dan görüldüyünə görə Qanın rusca nitqini Abbasqulu Ağa Bakıxanov türkcəyə tərcümə etdiyi kimi, müəxxəslərin türkcə olaraq yazdıqları məruzəni də Mirzə Fətəli Axundov ruscaya tərcümə etmişdir.

Qafqaz komitəsi qarşısında Azərbaycan əsilzadələrinin haqlarını müdafiə yolundakı müdafiə və münaqişələri diqqətəşayandır.

Halbuki rəsmi bu nikbinliyə rəğmən, «islahat»ın heç də müvəfəqiyyətlə keçməyib, əhali tərəfindən şükranla qarşılanmadığını hadisələr gecikmədən göstərmişdir.

Bir kərə, 10 aprel islahatı nəticəsində məmurların sayı 704-dən 1311-ə çıxmış, məhkəmələrdə birikən işlərin miqdarı 2400-dən 4846-ya varmışdır. Məmurların maaşı isə məmləkətdən alınan maliyyədən 1 567 000 gümüş rubla qədər çox olmuşdur. Yazışmalarla iş uzandırması isə Cənubi Qafqaz üçün yeni bir mənzərə təşkil etmişdir. Xanlıq dövründəki şəriət məhkəmələri ilə komendantlıq dövründəki divanlar heç olmasa sürətlə iş görürdülər. Bunlar, Petruşevskinin yazdığı kimi, həqiqətdə də «seriya məhkəmələr» idi. Əhalinin yeni məhkəmələri boykot etdiyini rus tarixçiləri təsbit etmişlər. Bir çox qəzalarda məmnuniyyətsizlik qanlı üsyanlar şəklində partlaq vermişdir. Azərbaycanın Car-Balakən [Zaqatala], Gürcüstanın Quriya kimi bir çox qəzalarında çıxan bu üsyanlar «ruslardan belə bəklənmədik vəhşiyanə bir tərzdə», şiddətlə basdırılmışdır.

Bu hadisələr qarşısında rəsmi Qan-Qolovin nikbinliyi Peterburq müxalifinin şübhəsini cəlb edərək, Cənubi Qafqaz işlərinin təkar təftişinə qərar verilmiş: bu iş bu dəfə Çernişov ilə Pozenin rəyasətində təşkil olunan bir komissiyaya buraxılmışdır. 1842-ci ilin başlarında Qafqaza gələn bu komissiya, «Yeni nizam»ın nədən dolayı əhalini təmin etmədiyini və nə kimi nöqsanlara və üsulsuzluqlara malik olduğunu tədqiq və təhqiq etmişdir.

«Qarabağ mahalında - Pozen Qolovinə yazırdı - qəza [uyezd] idarəsinin fəaliyyətsizliyi, işlərdəki pərişanlıq və anarxiya, qəza idarəsinin əhali ilə müamilədəki (münasibətdəki) bacarıqsızlığı, xalqın malisəf, çox haqlı şikayət və narazılıqlarına mucib olmuşdur».

Şamaxıda olduğu zaman Pozen «on saat əsnasında bir çox ərizələr və şikayətlər almışdır. Bu müraciətlərin ümumi ifadəsi - onun təbirincə - zabitə (polis) yoxdur, məhkəmə yoxdur, əmniyyət yoxdur, haqq və həqiqət yoxdur - sözlərində xülasə olunur».

1843-cü ildə jandarmlar şefi A.H. Benkendorfa yazdığı məktubda Çernışov «10 aprel nizamı»nın Kaspi vilayətində [yəni Azərbaycanda] nəticələrilə şəxsən senator Qanın fəaliyyətini qaranlıq tablolarla təsvir etmişdir: «Bu vilayətdəki yüksək təbəqə mənsubiarı [yəni xanlar-bəylər] onlara məxsus haqq və hüququn mühafiz qalacağına artıq inanmırlar», «tacirlər tüğyan halındadırlar», «yollarda qarətçilik qüvvətlənir», «məmurları ancaq cinayət və rüşvət işləri məşğul etməkdədir»; «mənsəb və məmurluq alma işi əskisinə nisbətlə şübhəsiz daha satlıq bir şəkil almışdır!...».

Pozen kimi, Çernışov da, əvvəlcə Paskeviç-Meçnikov, sonra da Qolovin-Qan layihələrini hazırlamaqda şəxsən iştirakçı adamlardı. İndi isə bütün qəbahəti

Qana yükləyərək, müvəffəqiyyətsizliyin «əsər»dən deyil, müəssirdən (pis tətbiqindən) irəli gəldiyini qabardırdılar.

Qan layihəsinin iflasında tətbiqindəki bacarıqsızlıqların təsiri inkar edilməməklə bərabər, bu iflası cəlb edən amillər daha şümullu (çox) idi. Çarizm o zamankı sisteminə uyğun gələn sosial bir zümrəni bulub da ona dayanmaqda daha sarih (aydın) bir qərara gəlmiş deyildi. Öz bünyəsi (əsası) etibarı ilə mümtaz (yüksək) təbəqəyə torpaq feodallarına və köylülərin bu təbəqəyə bağlı «krepostnoyluq» sisteminə dayanması zəruri ikən, o, bilxassə Azərbaycandakı xanlıq təbəəsinə, müsəlman olduqları və cəbrlə (zorla) istila etdikləri üçün etimad etmirdi. Onun üçün də burada, Gürcüstanda olduğu kimi, sarih olmayan köylü-feodal münasibətini, özünə görə təfsir edərək, bəylərin mülkədar deyil, malik olduqları torpaq və köylər üzərində sadə, idarə haqqına malik bir məmur olduqları üzərində durmağı faydalı görürdü. Yenə bunun üçün Paskeviç-Meçnikov kimi, Qan da öz «islahat» təsəvvürlərində yerli bəyləri idarə, həm də torpaq mülkiyyətindən təcrid etmək və burada süni rus zadəganı və müdirlər zümrəsi yaratmaq istəyirdi. «10 aprel nizamı»na qarşı edilən müxalifətin əsil hərəkətvericiləri də elə bu, yeni rus idarəsi tərəfindən ihmal (unudulan) və iğmaz (göz yumulan) olunan «nüfuzlu qism» - yəni bəylərdən ibarətdi.

O zamankı rus idari istilahı ilə «yüksək müsəlman təbəqəsi» deyilən Azərbaycan bəylərinin, çarlığın təsis etdiyi müstəmləkəçilik sistemi lehində çalışmasının yeganə şərti, torpaq üzərindəki mülkiyyət haqqının qəbulu ilə mümtazlığının (seçkinliyinin) tanınması idi. Xülasə etdiyimiz əsərin əhatə etdiyi müxtəlif vəsiqələrdən sezilən bu hikmət Şimali qafqazlı Musa Paşa Kundakın xatirələrilə dəxi sabitdir. Knyaz Baqratinskinin II Aleksandr namına yazdığı raportu xatirələrinə əlavə edən Musa Paşa, bu raport dolayısı ilə öz mülahizəsini dəxi qeyd eləmişdir. Bu qeydində Musa Paşa rus marşalının rus hökumətini çox da yaxşı tanımadığına acı bir kinayə ilə işarə edərək, «Qafqazda xristianlığı nəşr (yaymaq) cəmiyyəti»nin fəaliyyətinə yenidən müsaidə edildiyi halda, çarlığın «dvoryanlığı əbədiyyən məhv etmək surətilə Rusiyanı mahcub (utanmaq) buraxdığını» - yazmışdır[7].

Xülasə etdiyimiz cildin redaktoru Petruşevski 1840-cı illərinə doğru hökumətin Azərbaycan feodalları ilə anlaşmaq ehtiyacını özəlliklə hiss etmiş olduğunu qeyd edir. Bu ehtiyacı doğuran səbəb isə Türkiyə ilə ehtimal olunan hərb ərəfəsində yerli bəylər arasında sezilən Türkiyə təmayülü əndişəsi olmuş imiş. Türkiyə nüfuzunun bu sıralarda qüvvətlənməsindən yuxarıda qeyd etdiyimiz Çernışovun Benkendorfa yazdığı məktubda dəxi, bəhs edilmişdir.

Əsasında köylü hərəkatı kimi gördüyü, 1830-1840-cı illərdəki üsanları[8] dəxi, Petruşevski çarlığın bəylərlə anlaşması üçün saik (səbəb) olaraq göstərir.

[7] «Qafqaz", 1937, № 10-46.

[8] Bu illərdə «müridizm" ilə əlaqədar olaraq Quba və Şirvan tərəflərdə köylü üsyanları olmuşdur.

Eyni zamanda Dağıstanla Şimali Azərbaycanda qüvvətlənən nəqşibəndi təriqətinin ictimai və siyasi bir hərəkat şəklindəki «müridizmə» qarşı rəsmi din üləması-mollaların xatirini almaq dəxi, rus hökumətini məşğul etmişdir.

Çernışov ilə Pozenin təftişləri nəticəsində Qazax, Şəmşəddil və Borçalı ağalarına tətbiq olunan tədbirin tez önünə keçilmiş, geridə qalan bəylərin torpaqlarına artıq toxunulmamağa qərar verilmiş; 1843-cü ilə aid Cənubi Qafqaz idarəsini xülasə edən raportunun təbirincə «müəyyən bir zamana qədər mülkiyyət haqlarına təmas edilməyəcək, xəzinənin xüsusi mülkiyyətlər üzərindəki davasından sərf nəzər (geri çəkinilmişdir) olunmuşdur».

Çernışov-Rozen təftişi nəticəsində Qan tərəfindən vücuda gətirilən «müəssisələr»də tədilat (dəyişikliklər) dəxi edilmişdir. Çox radikal olmamaqla bərabər, düşünülən bu dəyişiklik başlıca yerli bəylərin mülkiyyət və zabitə işlərindəki əlaqələrinə aid olmuşdur. 1843-1845-ci sənələrdə müdiri ümumi Neydqart zamanında edilən bu tədilata görə, «rus məmurları ilə bərabər bəylərdən» və digər «yüksək təbəqə» təmsilçilərindən ibarət «yerli ünsürlər»in də dövlət maşınına çəkilməsi qərara alınmışdır. Daha 1843-cü ilin başında məmləkət müdiri ümumisi yanındakı «Şura» bəylərlə, mahal naibləri və minbaşıların zabitə [polis] işlərindən uzaqlaşdırılmalarının yanlış bir tədbir olduğunu əsəflə (üzüntü) təsbit etmiş; «uçastok zasedatellərilə» köy «starşinalarının» «miknətsiz (yarpaq kimi) və əhəmiyyətsiz şəxslər olduqlarını» qeyd eləmişdir.

«Şura» bu müşavirəsində həmin mahal naibliklərinə yenidən mülk sahibi «nüfuzlu yerlilərin» təyin olunmalarını, köylərdə də zabitə və əmniyyət işlərinin «bəylərə və əmsalı adamlara» verilməsini [9] tövsiyyə etmişdir. Fəqət, Qafqaz Komitəsi bu qədər irəli getməyərək, «dəyişikliklər olmaq üzrə» yalnız dissiplinin qüvvətləndirilməsilə kəndxudaların səlahiyyətlərini artırmağa və bu xidmətə dəxi bəylərlə ağaların cəlbinə qərar vermişdir [10 sentyabr 1843-cü il qərarnaməsi].

Digər xüsusiyyətlərə gəlincə, «dəyişikliklər» yalnız şəriət məhkəmələrinin səlahiyyət dairəsini genişlətməyə aid olmuş «10 aprel 1840 nizamı» mucibincə (görə) sadə, nigah və talaq (boşanma) işlərinə baxmaq haqqında ikən, şəriət məhkəmələri indi (1842-1844), mülki, vərəsəlik, borclanma və sairə kimi davaların həlli dəxi bu məhkəmələrə keçirdi. Belə ki, 1844-cü ildə Petruşevskinin yazdığına görə, Azərbaycanın 4-5 qəzasında rus «sudları» iş bulmayaraq qapanmışdır. Təbiidir, bu «tədil» qazılarla mollaların məmləkətdəki nüfuz və əhəmiyyətlərini artırmağa səbəb olmuşdur. «Tədilat» eyni zamanda yerli əhalinin ədalət hissini bilxassə təhqir edən «rus ədalətinin» qadınları döymək cəzasını dəxi ilqa (ləğv) etmişdir[10].

«Tədilat»da güdülən əsaslı məqsəd, Qafqazdakı rus müstəmləkəçilik sisteminin dayandığı ictimai kökü imkan daxilində genişlətdirməkdən ibarətdi ki,

[9] V.N.İvanenko.
[10] Rus məcəlləsinin 16-cı cildi, 15. 124.

bunun icrası 1845-ci ildə Qafqaz namestnikliyinə [visruvalığına] təyin olunalı M.S.Vorontsova həvalə edilmişdi.

Namestnikin səlahiyyət və mövqeyi «müdiri ümumi»lərin səlahiyyət və mövqelərindən başqaca idi. Müxtəlif nəzarətlər bilavasitə ona əmniyyət (etibar) edilən vilayətin idarəsinə qarışmazdılar. Nametinik doğruca imperatora müraciət etmək və ondan əmrlər tələqqi (xahiş) etmək imkanında idi. Bu, çarın bir naibi idi. «Namestnik» təbirini, o zamankı istilahla, Azərbaycan türkləri və iranlılar (Güney Azərbaycan türkləri) «təxtülləfz» (taxt sözü) tərcümə edərək «canişin» şəklində qullanırdılar.

Fransız general-qubernatorunun Əlcəzairdəki səlahiyyətini o zamankı «canişin»in Cənubi Qafqazdakı səlahiyyətilə müşqayisə edən müasir rus araşdırıcıları -ikincinin bir cəhətcə birinciyə faiz (üstün) olduğu nəticəsinə gəlmişlər (Məhəmməd Əmin Rəsulzadə bu üstünlüyün nə olduğunu yazmayıb. I Nikolaya göndərilmiş «Sravnitelğnıy obzor upravleniy frantsuzskoqo v Alcire i russkoqo za Kavkazom» sənədində deyilir: «Əlcəzair general-qubernatorunun yarımçıq hakimiyyətilə müqayisədə Qafqaz canişininin idarəetmənin bütün sahələrində xüsusi və fövqəladə hakimiyyəti vardır»).

Rus müstəmləkəçilik siyasətini İrana (Qacarlara) nüfuz etdirmək vəzifəsilə mükəlləf (borclu) olan Vorontsovun bu siyasəti tətbiqdəki taktikası və fəaliyyət tərzi əhlincə (bilənlərə) bəllidir. Onun Qafqazda güddüyü başlıca siyasət, «yüksək müsəlman təbəqəsi» ilə anlaşmaq [gürcü zadəganlarla da] idi. Bu xüsusu təmin üçün o, «müsəlman» bəylərinin torpaq üzərindəki mülkiyyət haqlarını qanunən tanımaq və Azərbaycan köyündə feodalitə (izm) münasibətilə «krepostnoyluq» əsaslarını möhkəmləşdirməyə yarayan tədbirlər almışdır.

Tiflisdə bəylər və ağalara aid işlərlə məşğul bir komitətə təsis olunmuşdur. Bu istiqal (istək) nəticəsində «komendantlıq» idarəsi yenidən təsis edilməmişsə də, bəylərin torpaq üzərindəki haqları tamamilə tanınmış və «mülkədarlıqları» qanunla təsdiq olunmuşdur. Qan zamanında olduğu kimi, yenidən xanların, bəylərin və ağaların haiz olduqları (əlində olan) haqq və hüquq yeni başdan tədqiq edilərək, bu dəfə tamamilə əks bir nəticəyə varılmışdır.

Vorontsov tərəfindən ona havalə olunan bu işi təkmil sonunda şefinə raport yazan Ladinski deyir ki - «mən qara müsəlman camaatının qaba itiyadlarının (özəlliklərinin) yalnız özlərindən olan zəngin və nüfuzlu təbəqəyə mənsub adamlar tərəfindən zəbt (alına) və rəbt (kəsilə) biləcəyinə» qaneyəm. «Öz faydasını güdmək üzrə» hökumətə təklif olunurdu ki: «Azərbaycan əhalisi arasında ötədən bəri vücuda gəlmiş olan yüksək təbəqəni mənən düşürməyib, əksinə tutsun və yüksəltsin[11]. Ladinski bəylərin hər hankı şəkildə olursa olsun, feilən (gerçəkdə) əlbrində olan yerlərin hüquqən onlara alınmaz mülk kimi verilməsini tövsiyə edir və bununla qalmayaraq, bundan sonra dəxi, onlara yeni torpaqlar və mülklər

[11] Ladinski raportu, 16. 2. 1846.

verilməsini lüzumlu bulurdu. Bu torpaqlardakı köylülər «əskidə olduğu kimi [?] bəylərə tabe rəiyyət halında qalmalıdırlar». Ladinski «xalisə, rəncbər, rəiyyət, nökər» kimi qisimlərə bölünərək müxtəlif şəkil və münasibətlər ərz edən xüsusiyyətlərin tamamilə ortadan qaldırılaraq, tək «mülkədar təbəəsi» sifətinin bütün köylülərə təşmilini (verilməsini) istəyirdi. Eyni zamanda Ladinski köylülərin bir mülkədardan o biri mülkədara keçmək və ya məkan dəyişdirmək haqqında olmadıqlarını da müdafiə edirdi ki, bu da «krepostnoyluğun» bariz əlamətlərindən biridir.

Ladinskinin bu raportunu müvafiq görən Vorontsov məsələni mərkəzi hökumətə ərz ilə qəbul etdirmiş və 1846-cı ilin dekabrın 6-da çıxan qanun, Azərbaycan mülkədarları üçün adəta feodallığın (izmin) həqiqi bəraətini təşkil etmişdir.

«Bu bəraət»ə görə - «Yüksək müsəlman təbəqəsi»nin mənsubları əskidən feilən malik olduqları məskun və qeyri məskun yerbrin nəsilbənəsil sahib və malikləri (yiyələri) olur; 1840-cı ildən sonra [Qan islahatı nəticəsində] onlardan alman torpaqlar və mülklər təkrar özlərinə verilir; köylülər dəxi, bəylərə mərbut (bağlı) yarımqul vəziyyətində «mülkədar təbəəsi» olurdu[12]. Bəylər köylüləri sadə, iqtisadən istismar haqqını deyil, eyni zamanda onlar üzərində zabitə və ədalət icracısı haqqını da qazanırdılıar. Ağa vəzifəsini yerinə yetirməyən və qəbahət işləyən təbəə köylünü şəxsən cəzalandırmaq haqqını almışdı.

Bu surətlə, 30-40 illik sallantı və tərəddüddən sonra, çarlıq, Azərbaycan «dvoryanstvo»sunu tanıyır və mənsublarına mülkədarlıq haqqını təmin etməklə, özü üçün təsəvvürü qəbul olunan «doğru bir yola» girirdi; gərçi «yüksək müsəlman təbəqəsi»nin fərdən «dvoryanlığı»nı qəbul edən çarizm xristian olmayan bu «dvoryanlara» Rusiyada və Gürcüstanda olduğu kimi, «dvoryanstvo təsisatı və təskilatı» haqqını tanımamaqda sonuna qədər israr etmişdir.

Azərbaycanda rus müstəmləkəçilik siyasətinin müəyyən dövrünü tənvir (aydınladan) edən bu məlumat, sübhəsiz, məsələn, müəyyən nəticəyə bağlayan bir xülasəyə möhtacdır!...

"Qurtuluş", sayı 41, mart 1938, Berlin.

[12] Köylülərin bu vəziyyəti təfsilən 28. 12. 1847 və 5. 8. 1852-ci illər qərarnamələrində mövcuddur.

AZƏRBAYCANDA RUS MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ

V

Bu dəfə yazdıqlarımıza nəticə bağlayan bir xülasə vəd etmişdik. Fəqət, bu sırada əlimizə yeni materiallar keçdi[13]. Bunların verdiyi təlqin ilə çarlığın, canişin Vorontsov vasitəsilə Azərbaycan feodalları haqqında tətbiq etdiyi siyasət üzərində bir az da durmaq istədik.

30-40 illik sallantıdan sonra çarlığın Azərbaycanda özü üçün təbii olan «ən doğru yola» gəldiyini və bu yolun da «yüksək müsəlman təbəqəsinin» mülkədarlıq haqqını tanımaq və mənsublarına «dvoryan» kimi baxmaqdan ibarət olduğunu yazdıq.

Bu revişin (gedişin, yolun) Rusiya siyasəti üçün nə qədər mühüm və təbiiliyini tamamilə aydınlatmağa yarar. «Materiallar»ın yenicə çap edilmiş ikinci cildində diqqətəşayan materiallar vardır. Bunlar bizə Vorontsov dövründəki «feodallara doğru» istiqamətinin siyasi zərurətilə bərabər idari hikmətini həm də dvoryan və krepostnoy Rusiya üçün təssəvvürü qəbul olan siyasətin ideoloji əsaslarını göstərirlər.

1846-cı il idarəsinin həqiqi müəllifi və bu xüsusdakı icraatında Vorontsovun «sağ əli» general-mayor Ladinski tədbirin lüzumunu izah edən raportunda «yüksək təbəqə»nin imperatorluq üçün əhəmiyyəti məsələsinə təmas ilə zamanına qədər edilən bu sahədəki icraat və xətaları tənqid edərək deyir ki:

«50 ilə yaxındır ki, Cənubi Qafqaz Rusiya idarəsindədir. Bu qədər müddətdə qara camaat [ruscası: çern] bir qədəm olsun dövləti mənimsəmək baxımından əlaqə və şüurlu bir anlayış əsəri göstərməmişdir. Bunların ağlı gözlərindədir. Yüksək təbəqəyə bağlıdırlar. Kiçik bir səbəblə hər hansı namüsaid bir şərait daxilində rusların o və ya bu müşkülata uğrayacaqları sırada bu xalq bir anda bəylərlə ağaların arxasına düşüb gedəcəkdir. Cənubi Qafqazın çox qismi müsəlmandır; etiqad etdikləri din etibarı ilə bizləri çəkə bilmirlər. Dövlətimiz tərəfindən göstəriləcək ədalətsizlik vüquunda (olanda) bu mühitin sədaqətindən necə əmin ola bilirik? Yüksək təbəqəsi əsrlik haqlarından və imtiyazlarından məhrum edilən bir məmləkətdə isə əmniyyət və asayişin kökləşməsini ummaq necə qəbul olur?... Yüksək təbəqəni qeyri-məmnun buraxmaqla biz, heç bir zaman qara camaatın sevgi və sədaqətini cəlb edə bilmərik, əksinə bu məqsədə yalnız yüksək müsəlman təbəqəsinin bizə bağlılığı ilə nail ola bilirik»[14].

---

[13] a) "Kolonialnaya politika rossiykoqo tsarizma v Azerbaydjane" [Azərbaycanda rus çarlığının müstəmləkəçilik siyasəti] adındakı "Materiallar" seriyasının ikinci cildi. Moskva – Leninqrad, 1937. SSRİ Elmlər Akademiyası.

b) Gürcüstanın Rusiyaya ilhaqından keçən 100 il münasibətilə 1901-ci ildə Tiflisdə Qafqaz hərbi dairəsi heyəti tərəfindən çıxarılmış "Utverjdeniye russkoqo vladıçestva na Kaffaze".

[14] "Müstəmləkəçilik siyasəti", cild II, s. 123.

Müdafiə etdiyi bu görüşün şübhəsiz və isbatdan müstəqni (uzaq) bir həqiqət olduğunu təsdiq üçün Ladinski 1812-ci ildə Gürcüstan tabeliyində olan Qazax, Şəmşəddil və Borçalı ağalarının keçmişdə valiləri olan şahzadə Aleksandrın dəvətinə rəğmən, dövlətə sadiq qaldıqlarını qeyd edir və bunu buradakı ağaların rus idarəsi və himayəsi altında öz mülk, nüfuz və etibarlarından əmin bir vəziyyətdə olduqları ilə izah edir.

Ladinski raportunu yazdığı əsnada cərəyan edən hadisələrdən də öz görüşünü isbat edən vaqeələr zikr edir. O zamanlarda Zaqatala tərəflərində hökm sürən Danial bəy [İlisu sultanı] Şamil tərəfinə keçərək üsyan etmişdi. Bu sıralarda knyaz Arqutinski-Dolqorukov general Şvartsa göndərdiyi rapotunda Samur boyundakı qitələri (hərbi dəstələri) oradan götürmənin qəbul olmayacağım - çünki belə edilərsə - Danial hərəkatının Qumuqluğa olduğu kimi, Şəki ətrafına dəxi sirayət edəcəyini anladırdı. Ladinski bu vaqeəni «indi də qara camaatın yüksək təbəqə arxasından getdiyinə canlı bir dəlil» olaraq alır.

Ladinskiyə görə Arqutinski də «müsəlman əhalinin Danial misalında da göründüyü kimi, haqsızlığa uğramış, mağdur (narazı) və qırğın hər hankı bir bəyin arxasında üsyana hazır olduğu» qənaətində imiş.

«Hər halda bunu gözdən qaçırmamaq lazımdır ki Ladinski deyir - məhəmmədilərin bizdən din ayrılığı hesabı ilə nifrətdə olduqlarını hesaba alaraq, dost olacaqları mümkün ikən və ortada səbəb yox ikən, yüksək təbəqə təmsilçilərini mağdur etməkdə fayda görmürəm».[15]

Eyni mühakiməni biz, Vorontsovun şəxsən imperator I Nikolaya yazdığı müraciətdə də görürük.

8 mart 1846-cı il tarixini daşıyan bir məruzəsində 1841-ci ilə aid Qan təşəbbüsünü - amansızca hırpalayandan sonra çarlığın bu sınanmış adamı yazır ki:

«Bir kərə təsəvvür olunsun - 1812-ci ildə ümumən buralardakı nüfuzumuz nöqtəsindən xüsusən - çox müşkül bir vəziyyətdə idik. Əskərimiz az idi; alaylarımızın kadroları tam deyildi; ordu, zabitan və əfradı (üzvləri) maaşlarını vaxtında ala bilmirdilər. Rusiyadan yardım gözləmək qeyri-mümkündü; əski paytaxtımız [yəni Moskva] fransızların əlində idi [Napoleon istilasını qəsd edir]. Gürcüstan belə, həyəcan və qarışıqlıq içində idi, şahzadə Aleksandr 12 000 ləzgi (İmperator - nökər münasibətində olan bir neçə yüksək çar məmurunun işlərini keçirmək üçün yazdığı, əhalinin gerçək sayına uyğun olmayan bu rəqəm qarşı tərəflərin ideoloji savaşından qaynaqlanmışdır. Az sonra İmam Şamilin 2000-dən 10.000-dək silahlı dağlı yığa bildiyi yazılıb) ilə Tiflisi təhdid edirdi; iranlılar bu vəziyyətdən istifadə edərək onlardan aldığımız xanlıqları geri almaq təşəbbüsündə idilər - Abbas Mirzə çoxlu əskər və ingilis topçuları ilə birlikdə Araz boyunda idi. İran (Qacar) sevdalıları əlimizdəki vilayətləri dolaşaraq müsəlmanları kafirlərə qarşı təhrik edirdilər, zəiflədiyini düşündükləri Rusiyaya qarşı hərəkətə

[15] Eyni əsər, s. 124.

keçməzlərsə, sonradan peşiman olurlar deyə, bu emissarlar - müsəlmanları şah ilə oğlunun müstəqbəl (gələcək) qəzəblətinə uğramamaq üçün ikaz (xəbərdar) edirdilər. Bütün bunlara rəğmən, öz mülk, mənfəət, nüfuz və xüsusiyyətlərini, mövqe və etibarlarını rus idarəsi sayəsində əmniyyət və etibarda görən xanlar, bəylər və ağalar qismən sakit qaldılar, qismən hətta bizə yardım belə etdilər».[16]

Vorontsov, bir də bəylərin torpaqları əllərindən alındığı və idarə başından atıldıqları Qan zamanını təsəvvür edir və 1812-ci ildəki şərait 1841-ci ildə olsa idi halımız nə olurdu - deyə soruşur və «1841-ci il qanunu ilə guya faydaları düşünülən «qara camaat», mənfəətləri zərərə uğrayan nüfuz sahiblərinin arxasından gedərək bizi yekparə bir üsyan qarşısında buraxırdı» - deyə özü də cavab verir.

Vorontsovun zamanında - «həm rusun ordusu çox, həm də Dağıstan üsyanından başqa, dövləti məşğul edən bir cəhət yox ikən belə» və 1812-ci ildəki şərait 1841-ci ildə olsa idi [müsəlman əhali imkansızlıq üzündən üsyan etməmişsə də] bəylərin zabitə işlərindən uzaqlaşdırılması məmləkətin əmniyyət və asayişi üzərində çox mənfi bir təsir qoymuşdur.

Məruzənin sonunda Vorontsov təkrar xanlar, bəylər və ağaların «haqq və hüquqlarının» möhkəmləşdirilməsi lüzumunda israr edir və «bu surətlə deyir - biz yüksək müsəlman təbəqəsini tətmin (razı) etmək surətilə, məmləkətin əmniyyət və asayişini irəlisi üçün qətiyyən təmin etmiş oluruq». Və əlavə edir: «Bu tədbir dağlarda şəxsən Şamil üzərində qazanacağımız ən böyük əskəri zəfərdən daha kəsərli olur»[17].

Ladinskinin də, Vorontsovun da düşünüş və arqumentlərində Dağıstan qəzavatının təsirli olduğunu görürük. Hələ mücadilə halında olan İmam Şamilin bu təsiri dövrün siyasi bir çox vəsiqə və təsəvvürlərində görülməkdədir.

Eyni Vorontsov onun təsəvvürlərini tənqid edən bəzi dövlət ricalına (məmurlarına) qarşı «torpaq bəyliyinin islam məmləkətlərində bir sözlə Cənubi Qafqazda dəxi, Avropadakı şəklinə yaxın bir tərzdə varlığını isbat» edən sözlərini belə bitirir:

«Haiz olduğu siyasi vəziyyəti etibarı ilə bu məmləkətdə, yüksək təbəqənin imtiyazlarına toxunmaq deyil, əksinə o imtiyazları var qüvvətilə qorumaq lazımdır, çünki Dağıstanda kök salmış demokratiya cərəyanına qarşı ancaq aristokratiya sisteminin təsirilə qarşı gəlinə bilər». Və əlavə edir ki, «Yazıq ki, bu günə qədər bəhs mövzusu bu demokratiya aktına qarşı buralarda silah qüvvətindən başqa bir tədbir alınmamışdır».[18]

Yuxarıda Danialın Şamil tərəfinə keçdiyini bir münasibətlə qeyd etdik. 1845-ci ildə Qarabağ haqqında müfəssəlcə raport yazan jandarma müxbiri, kapitan

[16] Eyni əsər, s. 67-69.
[17] Eyni əsər, s. 69.
[18] Eyni əsər, s. 105.

Prucanovski xanlıq daxilindəki «siyasi intriqalardan» bəhs edərkən, Rusiyadan dönən miralay [polkovnik] Cafərqulu ağanın rusların tatar (türk) mirzələrinə etdiklərini Azərbaycan bəylərinə də edəcəklərindən bəhslə beyinləri təşvişə gətirdiyi kimi, məlumat arasında Şəkidən gələrək, həccə getmək bəhanəsilə, yol üzərində imiş kimi görünən Əbdüllətif əfəndinin Qarabağ mollaları və bəyləri arasında Şamil hərəkatı lehində propaqanda yapdığı, bu propaqandanın hətta bir dərəcəyə qədər irəlilədiyi dəxi, təsbit edilməkdədir. Bu təbliğatın müvəffəqiyyəti namına bir-birindan küsülü olan Cəfərqulu xanla (ağa) Mehdiqulu xan Qarabağ qazısı Əbdülqasımın dəlalətilə barışdırılaraq, rus komandanlığına müraciətlə xanlığın siyasi haqq və hüququnu geri istəmək kimi bir takım düşüncələrlə toplantılar keçirmək qədər irəliləmiş ikən, ruslar onlara sadiq Mirzə Adıgözəl vasitəsilə təkrar iki xanı vuruşdurmağa müvəffəq olmuş və bu surətlə onlara veriləcək naxoş tələbin önünə keçmişlər[19]. (Məhəmməd Əmin Rəsulzadə yüksək rus məmurlarının «Rusiyaya sadiq»liyi və «etibarlı»lığından yararlanaraq, Mirzə Camal və erməni məliklərilə çoxlu mal-mülk ələ keçirməkdə suçladıqları Mirza Adıgözəl bəyin bir neçə yerdə qeyd etdikləri bu xəyanətini, Qarabağ qəzasının rəisi podpolkovnik Kulebyakinin əli ilə etdiyini yazmayıb. Sənəddə «Qarabağın yüksək müsəlman təbəqəsi və bəylərinin yuxarıda yazılan toplantılarda olanları izləyərək, onlarda Zaqafqaziya idarəsi, öz hüquqları, müqavilə və b. haqqında yersiz və zərərli şeylər görən, həm də yüksək ünvanlara çatmasını istəməyərək o, böyük ustalıq və bacarıqla həm Mehdi və həm də Cəfərlə yaxşı münasibətdə qalmaqla, kapitan Adıgözəlin vasitəsilə gizli yolla çatdı, bununla da yığıncaqlar qurtardı, müqavilə, ermənilər və b. unuduldu» - yazılıb. «Rusun barmağı» yerində imiş, bu gün də yerindədir. Amma indi Azərbaycan Respublikasında başqalarının da barmağı vardır. Biz bu barmaqları kəsməyi öyrənməliyik! Sənəddəki «erməni məsələsi»ni də açıqlayaq. Sənədlərdə Rusiya imperiyasının kötək kimi yararlandığı, orta və kiçik görəvli hay adı və soyadı vardır. Bunların çoxu Rusiya, Abxaziya, Tiflis və başqa yerlərdən gətirilən qulluqçulardır. Sənədlərdə «Aşağı təbəqə»dən çıxan, Qarabağda rus qoşunlarının başçısı qoyulmuş general Mədətovun, eləcə də başqa erməni məmurlarının türklərə etdiyi zülmlər haqqında çoxlu faktlar vardır. Qarabağda polis vəzifələrinin haylara verilməsi onların türklərə zülm etmələrinə, bu isə ciddi etirazlara gətirib çıxarırdı. Qasım bəy Zakirin «Xandəmirov çaldı-çapdı mahalı!» - sözləri yada düşür. Mehdiqulu xanla Cəfərqulu ağanın izlənən söhbətlərində bu məsələlər danışılırdr. Rusiya ilə 1805-ci il mayın 14-də bağlanmış Kürəkçay müqaviləsilə Rusiya imperiyasına birləşdirilmiş Qarabağ xanlığının imperiya xəzinəsinə ildə 8 min (çervon) keçirməsi və Şuşada yerləşdirilmiş bir rus batalyonunu saxlamasının dözülməzliyi və «rəhbər vəzifələrə yerləşdirilmiş ermənilər müsəlmanların yaşamasına mane olurlar, ən əsası isə qarabağlıların soyları və bəylər üçün ayıb

[19] Eyni əsər, s. 16-28.

olaraq yerli polis hakimiyyəti ermənilərin əlinə verilmişdir, baxmayaraq ermənilər son vaxtlara kimi onların qulu idilər. Onlar Qarabağın bütün müsəlman zadəganları adından imperatora ermənilərin vəzifədən uzaqlaşdırılması tələbilə müraciət yazmaq istəyirmişlər». Kolonialnaya politika rosiyyskoqo tsarizma v Azerbaydcane v 20-60 qq. XIX v. II c. s.29).

Jandarm komandanı Viktorovun 1843-cü ildə Tiflisdə 3-cü şöbə rəisi və jandarmalar şefi Benkendorfa göndərdiyi raportunda eyni mövzunu ələ alaraq, Şamil haqqında aşağıdakı sözləri yazır:

«Nəzərdə tutulmalıdır ki, Şamil, dağlıları üsyana sövq etməsini bilən, bu ağıllı, enerji və cəsur adam bulunduğu dağlıq mövqeyin əhəmiyyət və üstünlüyündən bacarıqla istifadə edərək, istədiyi gün və zamanda, 2.000-dən tutaraq 10.000-ə qədər silahlı dağlıları istədiyi yerə yeridərək, bizi zəif olduğumuz və gözləmədiyimiz zaman və məkanda hırpalamağa hazırdır. Hərəkətli dağlı qövmlərini çelikdən (polad) bir iradə altında birləşdirərək yeni xilafət təsisinə çalışan bu təəssübkeş adamın nə kimi vasitələrlə çalışdığını göstərmək üçün, əlimə keçən ərəbcə yazılı və İbrahim Paşa tərəfindən Şamilə göndərilən bir məktubu sizə, tərcümə etdirmədən göndərirəm. Yerli müsəlmanlar duymasınlar deyə, buradakı tərcüməçilərimizə göstərməyi belə müvafiq görmədim»[20].

Ladinskinin Vorontsova təqdim etdiyi müfəssəl məruzədə dəxi «Şamil motivi» qabarıq bir şəkildədir. Ladinski isbat edir ki, «yüksək təbəqə mənsubları tatmin və təmin olunur və dövlətə sədaqətləri şəxsi mənfəətlərinin dövlət mənfəətlərilə birləşdirilməsi surətilə zəmanət altına alınırsa, o zaman Dağıstandakı üsyan hərəkətləri heç bir surətlə buralara təsir etməz və rus idarəsindəki rifahı görən nüfuz sahibləri əllərindəki neməti Asiya dövlətlərində qətiyyən bula bilməyəcəklərindən yerlərində sakit oturur, sədaqət yolundan ayrılmazlar...»[21].

Meçnikov-Kutaysov, Paskeviç, sonra da senator Qan torpaqların Azərbaycan bəyləri əlindən alınması haqqındakı layihələrini «Asiya məmləkətlərində və islam hüququnda torpaq mülkiyyəti yoxdur» əsasına vəz edirdilər (deyirdilər). Torpaq dövlətindir. Xanların süqutu ilə bu haqq onları fəth edən imperatorluğa keçmişdir. Bəylərlə ağalar «mülkün» sahibləri deyil, xanın «vəkilləri» və ya «icarədarlarıdırlar...».

Ladinski ilə Vorontsov bu təsəvvürün yanlış və xətalı olduğunu dava etmiş, XIII və XIV əsrlərdə Avropada olduğu kimi, Şərqdə də torpaq bəyliyi və mülkiyyətinin təəssüs etdiyini dava etmişlər. Dəlil olaraq torpaq əlaqələrinin «xalisə, mülk və tiyul» adları ilə növlərə ayrıldığının və köylülərin də «rəncbər, nökər və rəiyyət» ünvanları ilə müxtəlif şəkil daşıdıqlarını irəli sürmüşlər.

«Rus hakimiyyətinin Qafqazda kökləşməsi» adlı əsərin 12-ci cildi bu münaqişədə Vorontsovla Ladinskinin əsasən haqlı olduqlarını təslim etməklə

[20] Eyni əsər, s. 8.
[21] Eyni əsər, s. 51.

bərabər, çox mühüm bir xətaya düşdüklərini dəxi qeyd edir. Bu xəta ki, bizcə bilərək işlənmişdir bundan ibarətdir: Şərqdəki torpaq mülkiyyətini rus bürokratları Rusiyadakı mülkiyyət növündən tələqqi (sayaraq) edərək, mülkədarlıq haqqını sadə torpağa deyil, torpaq üstündə çalışanlara dəxi təşmil (aid) etmişlər. Halbuki islamiyyətdə: bir müsəlmanın, rəncbər də olsa, Rusiyada olduğu kimi «mülk» olub, yerə və şəxsə bağlanması qətiyyən caiz (düzgün) olmazdı [Lə riqqiyyətə fili islam] (islamda quldarlıq yoxdur).

Vorontsovla Ladinski dövlət mülkləri naziri Kiselyov, maliyyə naziri Panin və sairə kimi yüksək məqam sahibi aldamların şiddətli müxalifət və etirazlarına məruz qalmışdılar. Edilən tənqidlər qarşısında «müsəlmanlıqda krepostnoyluq yoxdur» formulunu şəklən və rəsmən qəbul etmişlərsə də, «mülkədar təbəəsi» dedikləri əkinçilərlə «mülkədar»ların münasibətini təyin üçün tənzim etdikləri qanuna qoyduqları maddələrlə köylünü feilən krepostnoy - yəni qul halına qoymuşlar.

Bir nizama görə, köylü mülk sahibi bəyin «təbəə» adını daşıyan bir quludur. Ona qarşı maddi-mənəvi bir çox vəzifələrlə mükəlləfdir. Məhsulun bir qismini «malborcu» adı altında bəyə verməkmə məcburiyyətində olan köylü, onun ev və çöl işlərini görməyə dəxi borcludur. Köylülər öz aralarından seçərək bəyə qız «qulluqçular» və erkək «nökərlər» veirlər. Müəyyən günlərdə bəyə məxsus əkini biçmək və başqa tarla və bağça işlərini görməklə də mükəlləfdir. «Evrez» (iməcilik) deyilən şəkildə bütün köy erkəklərinin toplanıb da bəyə aid biçini becərmək dəxi, üsuldur (ata-baba qaydasıdır).

Eyni zamanda bəy köyün və mülkün qorunmasına məmurdur (cavabdehdir). Köylülər üzərində cəza haqqına malikdir; onları işlədikləri qəbahətə görə həbsə atar və döydürür. Məhkəmə kimi, müəyyən hüdudlar daxilində bəyin köylülər arasında ədalət icrasına da səlahiyyəti vardır; onları mühakimə edər.

Köylü sözdə sərbəstsə də, işdə torpağa və bəyə bağlıdır. Yalnız iki halda - ona əkmək üçün torpaq verilmədiyi və ya bəyin onu incitdiyi sabit olduğu təqdirdə - köylü mənsub olduğu mülkü tərk edə bilir. Bu təqdirdə belə, beləcə ağasını tərk edən bir köylü xəzinəyə məxsus əraziyə qona bilməz.

Bu şərait daxilində türk yasası və islam qanunu ilə daima hürr olan Azərbaycan köylüsü rus çarlığının «mədəniyyətçiliyi» sayəsində hər türlü haqdan məhrum bir bəndə[22] halına gətirilmişdi.

Vorontsovun siyasətindən bəhs edən rəsmi rus tarixçisi Potto[23] belə «Panin, Bludov, Kiselyov kimi nazirlərin tənqidləri, hələ Kiselyovun şiddətli etirazlarına rəğmən öz xətasında israr edən» Vorontsovun «tatar [Azərbaycan] bəylərindən bizim [yəni rus] pomeşşiklərə [mülkədarlara] bənzər bir dvoryanstvo [zadəgan] yaratmaq və rəncbərlərlə, daima hürr olan rəiyyətləri də yarımqul [polukrepostnoy]

[22] Farsca "bəndə" rusca "krepostnoy" sözünün münasib tərcüməsidir. M.E.
[23] "Utverjdeniya russkioqo vladiçestva na Kafkaze" əsərinin 12-ci cildeinin mühərriri.

halına salmaqda inad göstərdiyini» qeyd edir[24]. Hər cür tənqid və müxalifəti yenərək məsələni imperator I Nikolay adresinə ərz edən Vorontsov öz məruzəsini bu cümlələrlə bitirirdi:

«... əgər mən, bəy və ağaların hüquqlarının toxunulmazlığı və öz torpaqlarının qaytarılması barədə uca imperatorun iradəsini elan edə bilsəydim, bu fövqəladə xeyirli olardı» (8 mart 1846). Yatıq yazı ilə yazılan cümlə Ankara çapında yoxdur. Onu «Kolonialnaya politika rossiyskoqo tsarizma v Azerbaydcane v 20-60-x qq. XIX v.» (II c, M-L., 1937, s. 69) kitabından çevirib yazmışıq.

"Qurtuluş", sayı 42, aprel 1938. Berlin.

[24] Eyni əsər, s. 354.

AZƏRBAYCANDA RUS MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ

VI

Rusiya çarlığının Azərbaycan bəylərini özünə bağlamaq üçün vardığı nəticələri yazdığımız seriyanın bilxassə sonuncu aprel nüsxəmizdə çıxan V qismində təsbit etdirdik. İndi də çarlığın Azərbaycan din alimlərini - məlum təbirlə - mollalarını edinmək üçün əl atmış olduğu tədbirlər üzərində bir az durmaq istəyirik. Fəqət, bu «molla fəslinə» keçməzdən əvvəl «bəy fəsli» ilə ilişkili bəzi təfərrüatı da qeyd edək:

Mülkiyyət haqları tanındıqdan sonra, çar hökuməti bəylərin kimlərdən ibarət olduğunu təyin və təscib (rəsmiləşdirməyə) qərar vermişdi. Bu, zənn edilə bilinəcəyi qədər qolay və bəsit bir iş deyildi. Vorontsovun zamanında «bəy», sadə xanlıqlar dövründə bu ünvanı daşımış olanlara və övladlarına deyilmirdi. Xanların yerinə gələn rus komendantlarının iradəsilə «bəy» olanlar da az deyildi. Xanlıq dövründən bəylərin rəsmiləşdirilməsinə aid müntəzəm rəsmi əvraq (sənəd) qalmamışdı. Bəzi ailələrin əllərində buna aid təliqələr vardısa da, bir çoxunda yoxdu: hadisələr əsnasında tələf olmuş, yanmış və ya qeyb olmuşdu. Əsasən heç bir sənədi olmayıb, ənənəvi surətdə bəy deyə anılanların nəsilləri də vardı. Sonradan özlərini bəy nəslinə mənsub tutan müxtəlif növdə macəraçılar da az deyildi. Əskidən xan qapısında ələladə (sıradan) nökərlik qulluğunda olanlardan bir çoxlarının əliçevik oğulları dəxi, «bəyik» deyə meydana çıxmışdılar. Bəylərin torpağa sahib olduqları inkar və şəxsləri istisqal (soyuq davranıldığı) edildiyi sıralarda çox da aranmayan bu «şərafət», çarlığın siyasəti dəyişib, bəylərin «mülkədarlıqları» rəsmən tanınınca, hər kəs «bəylik iddiası»na qalxmışdı. Bilxassə ki, bəylərin sadə, əllərindəki mülkləri və bu mülklərdəki köylülər üzərindəki ağalıqları təmin edilməklə qalınmayıb, üstəlik bir də onlara yeni mülk və təbəə dəxi verilirdi. Hər kəs bu qazanclı və şərəfli sinfə əlbəttə ki, mənsub olmaq istəyirdi.

«Materiallar»da bəyləri təsnif və təscil üçün alınan qərarla aşina oluruq. Bu qərarlarda əski xan və komendant təliqələrinin tədqiqilə bərabər, mahal mötəbərlərinin şahidliyi daha bir adamın bəyliyini isbatda höccətdir (yetərlidir). Bu «höccətin» hər «gözüaçıq» və «əliçevik»in bəylər sırasına keçmək dalaverisində (aferistliyində) oynadığı rolu mərhum Seyid Əzim Şirvani «Yalandan şəhadət edən çlenlər» haqqında yazdığı məşhur həcvində «Qara saqqallı Həsən bəy» tipinin təsvirilə əbədiləşdirmşdir. «Firəngdən də zirəng» olan bu tip, «bir qarın çörək üçün» həsəbdən və nəsəbdən məhrum «üryanları» «bəy etməkdə» misilsiz imiş!...[25].

[25] Seyidin bu həcvi "Azərbaycan Yurd Bilgisi" məcmuəsinin dekabr 1933 tarixli 24 nömrəli sayında M.Əli Bəy tərəfindən nəşr edilmişdir. Bakıda nəşr edilən külliyyatında da mövcuddur – M.F.

Ötgün görüşlü şair bu məşhur həcvilə çarlığın özünə dəstək yaratdığı yapma «aristokratiya»nın hankı xəmirdən və necə yoğrulduğunu bizə göstərdiyi kimi, bu xəlitənin ictimai fikirdəki dəyərini dəxi anlatmışdır!...

Çarlığın mollalarla nisbət yürütdüyü siyasət dəxi aşağı-yuxarı bəylərə tətbiq etdiyi siyasətə bənzəyir. Cənubi Qafqaza əsil rus dvoryanları köçürmək və yerləşdirmək istədiyi kimi, çarlığın ideoloqları başda «müsəlman Qafqazı ortodoksluq nuru ilə işıqlandırmaq» fikrinə düşmüş və bu məqsədlə «Xristianlığı yayamaq cəmiyyəti»ni məxsus təşviq etmişlər. Fəqət, bu «xəyalın» həyatda qısırlığını görüncə müstəmləkə məmurları mollaları qazanmaq çarəsini aramışlar. Daha Paskeviçin Qafqazda olduğu zamanlarda müsəlman din üləmasını hökumətcə təsis etdiyi bir «ruhani idarəsi»nə tabe və kontrol altında tutmaq təsəvvürü ilə məsələnin tədqiqinə başlanmışdır. Bu zamana aid materiallardan Qafqaz idarəsinin islahına aid bir layihədə Azərbaycandakı molla, axund, seyid və s. kimi «ruhani»lərin saysız olduqları qeyd olunduqdan sonra deyilir ki:

«Hər mahalda iki molladan artığına hökumət müsaidə (icazə) verməməlidir. Bunlar da ancaq hökumətimizin müsaidəsilə fəaliyyətdə buluna bilməlidirlər. Mülki və əskəri dairələrdən biri onların təyinlərini təsdiq etməlidir. Təbiidir ki, bu adamlar hökumətimizə tamamilə tabe və sadiq şəxslərdən ibarət olmalıdırlar, belə ki, bunlar hökumətin bütün əmr və qərarlarını səmimiyyətlə yerinə yetirməlidirlər».

Layihə sahibi belə sədaqətlilərin bulunmadığı təqdirdə heç bir mollanın təyininə tərəfdar deyildir, çünki «xain və qarışdırıcı adamları təyinindən isə heç bir mollanın kökündən olmamasını» tərcih (üstün sayır) edir.

Eyni zamanda layihənin müəllifi fürsəti qaçırmayaraq, «məmləkəti ortodoks xristian dininin nuru ilə işıqlandırmaq vəzifəsini unutmamağı» ciddi tövsiyə edir və bu xüsusda müvəffəqiyyət hasil olacağına dəxi ümid edir. Onun fikrincə, «Cənubi Qafqaz müsəlmanlarında İstanbul türklərinin özəlliyini təşkil edən vəhşicə (böyük) təəssüb çox da yoxmuş,[26] və mollaların saylarını azaltmaq və düşündüyü tərzdəki mollaları himayə etmək nəticəsində «gözləndiyindən daha az zamanda islamiyyətin xarabaları üzərində xaç canlandırığıcı işığı ilə parlar imiş»[27].

Bu layihəni təhlil edən Paskeviç yazdığı haşiyədə məsələnin əhəmiyyətini qeyd və hər mahalda iki mollanın xalqın dini ehtiyaclarını təmin baxımından az olduğu kimi, idari bir takım mülahizələr arasında bir sözlə deyir ki: «Mollaların xaiq üzərindəki nüfuzu müsəlləmdir və daşıdıqları təəssüblə bu nüfuz şübhəsiz dövlətin əleyhinədir, şəriət məhkəməsi hər nə qədər layihədə qeyd olunduğu kimi, qeyri-adil deyilsə də, əhalini hökumətdən uzaqlaşdırmaq və mollaların nüfuzunda buraxmaq baxımından həqiqətdə də zərərlidir. Fəqət, bu müəssisələr şəriət və

[26] Bu davasının isbatı üçün, layihə sahibi Axalsıxda 800 müsəlmanın xristianlığa keçdiyi hadisəni şahid gətirir (Xristianlıqdan yenicə müsəlmanlığa keçmiş gürcülərin bir qismi rus işğalından sonra əski dinlərinə qayıtmışlar – M.Ə.).

[27] "Materiallar", cild I, s. 293.

quran üzərinə hökm icra etdiklərindən onları tədil (dəyişmək) və təhsis (düzəltmək) işində çox diqqətli olmaq lazımdır!...»[28].

Paskeviçin tövsiyə etdiyi bu «diqqəti» çarlığın müstəmləkə məmurları müxtəlif şəkillərdə tətbiq etmişlər. Şəxsən Paskeviç nüfuz sahibi müsəlman üləmasını şəxsən cəlb edərək, Rusiya hakimiyyəti üçün qullanmaqla məşhurdur. Paskeviçin idarətən iltifat (qayğı) göstərdiyi mollalardan tanınmış Mir Fəttah ağanın hekayəsi tədqiqəşayan bir hadisədir. Təbrizin məşhur üləma ailəsindən Tabatabailərə mənsub olan bu adam, şəhərin rus ordusuna təslimi xüsusunda mühüm xidməti keçdiyindən, Paskeviç onu özəlliklə razı etmiş, Türkmənçay müahidəsindən sonra ruslara iltica (sığınan) edən bu «müctəihdi» Cənubi Qafqaz müsəlmanlarına «ruhani-rəisi» (şeyxülislam) təyin edərək, imperatorun iradəsilə ona Şamaxı qəzasında olan 15 köyün mülkiyyəti atf (bağışlanmışdır) edilmişdir.

Sadə bu qədərlə qalmayıb, «ağa»nın dinməyən (azalmayan) hər növ nazlarına sadə Tiflis naibliyi deyil, şəxsən Peterburq belə sənələrlə təhəmmül (dözmüşdür) etmişdir.

Xainlərini bu surətlə razı edən çarlıq, mollaların camaat yanıda nüfuz sahibi olan salehlərini də bir başqa türlü edinmək istəmişdir. Qarabağlı Əbdürrəhim ağanın, məsələn əhali arasında sevildiyini nəzərə alan kapitan Prucanovski[29], bu adamın əhalicə təqdis (sayılan) olunan saleh bir din hüquqçusu olduğunu qeyd etdikdən sonra, onun şeyxülislam sifətilə bütün qafqazlı müsəlmanlara «ruhani-rəisi» təyin edilmək surətilə Qarabağdan Tiflisə «təbidini» (dəyişdirilməsini) tövsiyə edir, «çünki - deyir - belə saleh bir mollanın şəhərdən başqa türlü təbidi (uzaqlaşdırılması) əhalinin incikliyinə səbəb olur». «Şəhərdə buraxılması isə, nə olsa da malik olduğu mənəvi nüfuz baxımından bəlkə də məsləhət deyildir»[30].

Məsələni tədqiq, sadə, hankı mollanın, hankı müctəhidin nə surətlə qullanıla bibcəyini təyin etməklə qalmayıb, bir də məmləkətdəki məzhəblərin hökumətə sədaqətləri baxımından tədqiqilə uğraşılmışdır. Eyni ərkani hərb kapitanı Prucanovskinin tədqiqinə görə, sünnilər məzhəblərindəki əqidə etibarı ilə dövlətə daha ziyadə təslimiyyət göstərə bildikləri halda, şiələrə daha az etimad edilə bilinirmiş, çünki birincilər «allaha, rəsuluna və amirlərinizə itaət ediniz» («ətəüllahi və ətərəsuli və ülüləmri») formuluna qane ikən, ikincilər bu formulun üçüncü rüknünü ancaq «ülübəmri minkum» şəklində qəbul edirlərmiş ki, «sizdən olan amirlərə itaət ediniz» mənasındadır. Bu mənaya görə, şiələrin özlərindən, olmayan rus məmurlarına sədaqətlə itaət edəcəklərinə kapitan Prucanovski inanmır!...[31].

[28] Eyni cild, eyni səhifə.
[29] Ümumi vali Neydqardın əmri mucibincə bu adam Qarabağ xanlığındakı siyasi, ictimai, milli və dini vəziyyəti 1845-ci ildə tədqiq etmişdir.
[30] "Materiallar", cild II, s. 34.
[31] Eyni əsər, eyni səhifə.

Senator Qanın qeyd etmiş olduğumuz layihəsinə mucibincə (görə), məmləkət idarəsi mərkəzi Rusiya şəklində bürokratlaşdırıldığı əsnada bəylərin mülkiyyət haqları ilə idarədəki nüfuz və səlahiyyətlərinə nəhayət (son) verildiyi kimi, mollaların dəxi nüfuz və etibarlarına ağır bir zərbə endirilmişdi. Şəriət məhkəmələrinin ləğvilə mollalar ədalət icraçısı səlahiyyətindən ayrılmışdılar. Və bu qədərlə deyil, çar hökuməti bəy mülkləri kimi üləmanın idarə və təvilində olan vəqf, mülk və torpaqlarını dəxi zəbt etmişdi. Müsəlman din camiasına endirilən bu hüquqi və iqtisadi zərbənin keçən fəsillərdə qeyd etdiyimiz Qan islahatına qarşı göstərilən ümumxalq müxalifətində şübhəsiz, çox mühüm təsiri olmuşdu. Bu təsir bilxassə yeni rus məhkəmələrinin əhali tərəfindən boykotunda görünmüşdü. Hökumətə qarşı edilən silahlı müqavimətlərin bir çoxunda mollaların ən mühüm amil və müsəvviq (yönəldici) olduqlarını vəsiqələrdən istihrac (çıxarmışdıq) etmişdik[32].

Yerli şərait və xüsusiyyətləri nəzərə almadan edilən idari islahat təcrübəsinin bu şəkildəki iflası üzərinə «Azərbaycan bəylərilə anlaşmağa» üz tutan çarlıq, eyni zamanda «din bəyi»

deyəcəyimiz mollaları da mənimsəməyə qərar vermişdir. Bu məqsədlə də onun zəbt etdiyi mövkufatı (vəqf mallarını) mütəvəllilərinə təkrar geri verdiyini, nikah, talaq (boşanma) və vərəsəlik işlərinə məxsus olmaq üzrə, şəriət məhkəmələrinin yenidən təsisinə müsaidə etdiyini görürük[33].

Fəqət, idarəsini bir tərəfdən yerlilərdən, mövcudluq və etibarlarını ona borclu olan «torpaq aristokratiyası»na dayandıran çarlıq, digər tərəfdən də özünün yaratdığı «din aristokratiyası»na istinad etmək istəmişdir. Bu məqsədlə də o, məlum olduğu kimi, biri şiələrə, digəri də sünnilərə məxsus olmaq üzrə, iki «ruhani idarəsi» təşkil etmişdi. Bunlardan birinin başında şeyxülislam ünvanını daşıyan bir şiə axundu, digərinin başında da müfti ünvanı ilə bir sünni əfəndisi dururdu. Doğrudan doğruya çar naibliyinə tabe və onun kontrolu altında olan bu «idarə»lərin mərkəzi çar naibliyinin oturduğu Tiflis idi. «Ruhani idarələr» idarətən vilayət, qəza və məhəllə təşkilatlarına bölünərək, bunların başında qazı [kadı], axund [əfəndi] və molla ünvanlarını daşıyan «ruhanilər» dururdu. Mollalarla axundlar başında vilayət qazısı olmaq üzrə, digər iki üzv - axunddan və bir rusca bilən katibdən ibarət «Qubernski məclis»lər tərəfindən təyin, şiə və ya sünni ruhani idarələri tərəfindən də təsdiq olunurdular. Quberniya məclisi rəisi qazılarla, məclis üzvü axundları isə şəxsən baş ruhani idarəsi təyin və Qafqaz canişinliyi təsdiq edirdi. Şeyxülislam ilə müftinin təyini isə vilayət məclislərilə baş ruhani idarəsi üzvləri arasından canişinlik tərəfindən təyin və şəxsən çar tərəfindən təsdiq olunurdu.

[32] "Qurtuluş", yanvar 1938, № 39, "Azərbaycanda rus müstəmləkə siyasəti".
[33] «Materiallar", II c, s. 340.

Bu surətlə, məmləkətlə müsəlmanların din işlərilə məşğul mollaların sayı qanunla təyin edilmiş və əllərinə məmurluqlarını təsdiq edən bir şəhadətnamə verilmişdi. Müsəlmanların olanlarını, ölənlərini, evlənən və ayrılanlarını təsbit etmək üzrə, «ruhani idarələri» tərəfindən şəkli hökumətcə təyin edilmiş rəsmi dəftərlər verilmişdi. Buna görə də, əhali bu məmur-mollalara «dəftər mollası» ləqəbini taxmışdı.

Talaq və vərəsəlik məsələlərinə baxmaq səlahiyyətilə «quberniya məclislərilə» qazılara qəza haqqı dəxi, verilmişdi. Eyni zamanda «məclislər» vilayət daxilində olan camilərin təmirinə və vəqflərin hüsnü (yaxşı) idarəsinə nəzarət haqqında idilər.

Kiçik rütbədə olan mollalar müstəsna olmaq üzrə, böyük rütbəli qazı, «məclis» və «ruhani idarəsi» üzvlərilə şeyxülislam və müftilərə dövlət xəzinəsindən müəyyən bir iyerarxiyaya tabe olmaq üzrə maaş verilirdi. Bilavasitə məhəllə imamı mövqeyində olan mollalar isə doğum-ölüm, evlənmə və ayrılma vaqeələri münasibətilə müraciət ərbabı (edənlər) tərəfindən verilən «qələm haqqı» və məhəllə camaatının təbərrüatı (bağışları) ilə keçinirdilər.

Ruhani idarəsinin üzvü bütün mollalar dövlət vergilərindən muaf (azad) olub, bəylər kimi bədən cəzasına uğramazlar, erkək övladları da «liçni dvoryanlar» sırasında ordu xidmətinə girdiklərində zabit olmaq haqqını daşıyırdılar.

Din xidmətlərini belə bürokratik bir məratiblə təşkilinə çar idarəsi ideoloqlarını sövq edən hikməti anlamaq üçün tanınmış çar məmur və ricalının (başçılarının) bu xüsusdakı düşüncələrinə ümümi surətdə olsun aşina olmaq faydasız deyildir.

Keçən əsrin (XIX) ortalarına doğru, bəylərin könülləri ələ alınmağa başlandığı sıralarda, Qafqazdakı müsəlman din işlərinin tənzimi dəxi bürokratların zehinlərini yorurdu. Tiflis və Peterburqda təşkil olunan müxtəlif komissiyalarda bu məsələyə təəllüq (aid) edən müzakirələr davam edirdi. Xülasədən «Materiallar» dediyimiz «Rusiya çarlığının Azərbaycandakı müstəmləkəçilik siyasəti» adındakı əsərin II cildinin 336-cı səhifəsində Peterburqdakı yüksək bir komissiyada keçən müzakirələrin bir xülasəsini buluruq. Bu xülasədə, əvvəlcə də fikir və təsəvvürlərilə əlaqələndiyimiz baron Qanın diqqətəşayan mütaliələri (fikirləri) dərc edilmişdir. Qan düşünür:

«İslamiyyət siyasətən məğlub olduğu məmləkətlərdə belə öz həyatilik və təsirini göstərməkdədir. Cənubi Qafqaz işğalımıza keçdiyi halda bir tərəfdən Türkiyə, digər tərəfdən də İran öz mədrəsələrində tərbiyə etdikləri təəssübkeş əfəndi və axundların vasitəsilə müsəlman təbəələrimiz arasında rus hakimiyyət və dövlətçiliyi əleyhinə zəhərli fikirlər yayırlar. Hər nə qədər şiələrlə sünnilər arasındakı təzad və ədavət gevşəməmişsə də, bu iki, həddi zatında (özlüyündə) düşmən olan cərəyan, bizə qarşı ədavətdə müştərəkdirlər. Bir tərəfdən Ərzurum, digər tərəfdən də İsfahan bu ədavəti Qafqazda yayan ideoloq və propaqandaçıların bir mərkəzidir».

Bu qeyri «təbliğə» xitam vermək üçün Qan və digər çar bürokratlarınca müsəlman din üləması təscil (rəsmiləşdirilib), təhdid, təşkil edilməli və hökumət kontroluna tabe bir hala qoyulmalıdır. Hüdud dışında təhsil alan bir molla - Qana görə Qafqazda ayin icra etməməlidir. Hökumət, müsəlman ruhaniləri yetişdirmək üzrə, şəxsən məktəblər açmalı, «rus hakimiyyətinə sadiq mollalar yetişdirməli və camaatı islamiyyə işlərinə baxmaq üçün ancaq belələrinə müsaidə verməlidir...».

Bu qayəyə yetişmək üçün Peterburq bürokratları 1849-cu ildə «ruhani idarə layihəsi»ni hazırlamışdılar. Aşağı-yuxarı, hərbdən əvvəl məmləkətimizdə mövcud olub da, bir şəmasını (planını) yuxarıya qeyd etdiyimiz «idarə» əsaslarını qabardan layihənin ən diqqətəşayan yeri 26-cı maddəsidir. Bu maddəyə görə:

«Dindaşları arasında biliklərilə mümtaz (seçilən) olan «Cənubi Qafqaz ruhani idarəsi» üzvləri, dinlərinin təsdiqi üçün çalışan hökumətin iradə və əmrlərinin eynilə icrası üçün canla-başla çalışmalı və öz hərəkətlərilə yaxşı misal göstərməlidirlər. Öz vəz və təlqinlərilə də bunlar öz dindaşlarını imperator həzrətlərinin yüksək iradələrinə tabe olaraq, onlara təyin buyurduğu hakimlərin əmrlərini icraya təşviq etməlidirlər!...».

Nəticədə bunu da qeyd edək ki, təşkil etdiyi «ruhani idarələr»ə rəğmən, çarlıq özü ilə bərabər çökən bu idarələrin inhilalına (dağılmasına) qədər istədiyinə çox da nail olmamışdır. Bir kərə xalq «dəftər mollalar»ın uzun zaman boykot etmiş, feilən (gerçək) etimad etdiyi «dəftərsizlərin» təsirində qalmışdır. Sonra «dəftər mollaları» belə, əsil təhsillərini yenə də İran ilə Türkiyədə alıb, son qanunun yerinə gəlməsi üçün «qubernski məclislərdə» şəkli bir imtahana tutulmuşlar.

Ruhani idarəsi təşkilatı əhalini tətmin (razı) etmədiyi kimi, şəxsən üləmanı dəxi tətmindən uzaq qalmışıdr. Çünki gürcü və erməni ruhanilərinə ortodoks kilsəsinin ruhaniləri qədər rütbə və əhəmiyyət verən çarlıq, müsəlman ruhanilərini - xristian olmadıqları üçün - eyni gözlə görməmişdir.

Belə ki, dvoryanlıqları tanınan Azərbaycan bəylərinin çarlığın son dəminə qədər dvoryanstvo haqq və səlahiyyəti üçün nəticəsiz təşəbbüslərdə olduqları kimi, «dəftər molları» da «məqamları ilə mütənasib bir rütbə və maaşları» üçün bihudə (boş yerə) çalışıb durmuşlar. Eyni zamanda haqqını aramağa başlayan əhali, «ruhani idarələri»nin təyinlə deyil, seçki ilə təşkilini ilk mərhələdə ifadə etdiyi siyasi tələbləri cüzində (bölməsində) bulundurmuşdur.

“Qurtuluş”, sayı 51, dekabr 1938, Berlin.

İçindəkilər

EY GƏNCLİK! 3
AZƏRBAYCANIN SƏSİ 4
ÖN SÖZ 13
MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ 14
MİLLİ TƏSANÜD 17
MİLLƏT OLMAQ ƏZMİ 20
MİLLƏTÇİLİK - PATRİOTİZM 21
MİLLİ BİRLİK 22
YANLIŞ TERMİN QULLANMAYAQ 23
QÖVM VƏ MİLLƏT 24
MİLLİ ƏXLAQ 25
ƏSKİ VƏ YENİ NƏSİL 26
İDEALİSTLƏR, OPORTUNİSTLƏR, POZĞUNÇULAR 27
ŞƏKİLCƏ DƏ, MÖHTƏVACA DA RUSLAŞDIRILMA 28
RUSİYA KÖLƏLİYİNDƏ 30
QISILMAYAN BİR SƏS 35
MİLLİ MÜCADİLƏDƏ SOSİAL ŞÜARLAR 37
AÇIQ DİPLOMATİYA 44
MÜCADİLƏNİN TAKTİKASİ 46
BİR REJİMİN İLDÖNÜMÜ 47
ƏSKİ NƏQARAT ..... **Ошибка! Закладка не определена.**
DEMOKRATİYA VƏ SOVETLƏR 53
ORTAQLI BİR GÜN 57
QPU-YA DİQQƏT! 59
İYUL HADİSƏSİ MÜNASİBƏTİLƏ 60

MÜNƏVVƏR MÜHACİRİN BORCU 64
QORXUDAN «İSLAHAT» 66
ELM VƏ SİYASƏT 68
KOMMUNİZMƏ QARŞI MİLLƏTLƏRARASI MÜCADİLƏ ..... **Ошибка! Закладка не определена.**
AZƏRBAYCANDA RUS MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ I 75
AZƏRBAYCANDA RUS MÜSTƏMLBKƏÇİL*ÄK* SİYASƏTİ II 81
AZƏRBAYCANDA RUS MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ III 89
AZƏRBAYCANDA RUS MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ IV ..... **Ошибка! Закладка не определена.**
AZƏRBAYCANDA RUS MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ V 101
AZƏRBAYCANDA RUS MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ VI 108

Məhəmməd Əmin Rəsulzadə

Milli Birlik

Bakı, “Çıraq”, 2009.

Nəşriyyatın direktoru: Əliağa Cəfərli

Kompüter tərtibatı: Anar M

Yığılmağa verilmiş 20.05.2009. Çapa imzalanmış 30.05. 2009.

Kağız formatı 60x80 1/8. Həcmi 22 ç. v. Ofset kağızı.

Ofset çapı. Tiraj 300. Qiyməti müqavilə ilə.